AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNOLOGİYA UNİVERSİTETİ




# PANDEMİYA DÖVRÜNDƏ GƏNCLƏRİN TƏDQİQAT PROBLEMLƏRİ

Elmi-praktik respublika konfrans materialları

GƏNCƏ-2021

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Texnologiya Universiteti**

**Təşkilat Komitəsinin sədri**

**Akif Süleymanov**

**Sədr müavini**

**Yaşar Ömərov**

**Üzvlər:**

Müşfiq Cəfərov
Mətanət Əhmədova
Sadiq Əfəndiyev
Qalibə Məmmədova
Xəyalə Məmmədova
Ülviyyə Məmmədova
Mətləb Əliyev
Xudayar Məmmədov
Nazim Vəliyev
Nüşabə Hacıyeva
Mərdan Tağıyev
Azər Hüseyn
Əhəd Nəbiyev
Məntiq Cəfərov
Fizuli Məmmədov
Sakit Verdiyev
Məmməd Urkayev
Tofiq Mirzəyev
Musa Cəfərov
Rövşən Hacıyev
Fuad Yusibov
Hamlet Kəsəmənli
Yusif Hümbətov
Şakir Əliyev
Könül Vəliyeva
Elşad Məmmədov
Cahangir Hacıyev
Ələmdar Əlbəndov
Nofəl Hacıyev

**Redaksiya heyəti**

Nigar Əmiraslanova
Afət Qasımova
Nicat Məmmədov
Vüsalə Axundova
İlahə Qurbanova
Aysel Məmmədli
Tural Rüstəmov
Aqşin Hüseynov
Adilə Həsənova
Leyla Hüseynova
Sevda Qurbanova
Zeynəb Qocayeva
Gülşən Namazova
Aynur Sadıqova
Zeynəb Məmmədova

MÜNDƏRİCAT– СОДЕРЖАНИЕ - CONTENTS

**ÖN SÖZ** ........ **8**

**I BÖLMƏ** ........ **9**

**QİDA SƏNAYESİ MÜHƏNDİSLİYİ** ........ **9**

AZOTUN GANODERMA APPLANATUM GÖBƏLƏYİNİN PROTEAZA İFRAZINA TƏSİR XÜSUSİYYƏTLƏRİ G.İ.Hüseynova ........ 9

ВЛИЯНИЯ АЗОТА ГРИБОВ GANODERMA APPLANATUM НА СИНТЕЗ ПРОТЕАЗЫ Г.И.Гусейнова ........ 11

HAZIRLANMIŞ QÜVVƏLİ-QARIŞIQ YEMİN ƏSAS KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏYİN OLUNMA METODİKASI Q.M.Allahverdiyeva, V.T.Əskərov ........ 12

МЕТОДИКА ОПРЕДЕЛЕНИЯ ОСНОВНЫХ ПОКАЗАТЕЛЕЙ КАЧЕСТВА ГОТОВОЙ КОНЦЕНТРИРОВАННОЙ КОРМОСМЕСИ Г.М. Аллахвердиева, Мастер В.Т.Аскеров ........ 14

AZƏRBAYCANDA BALIQÇILIQ SƏNAYESİNİN ÜMUMİ XARAKTERİSTİKASI L.R.Eyyubova ........ 15

FERMENT PREPARATLARINDAN İSTİFADƏ ETMƏKLƏ YABANI GİLƏMEYVƏLƏRDƏN ŞİRƏNİN ALINMASI prof. Ə.Ə.Nəbiyev, A.A.Hacıyeva, magistrant Ə.M.Qasımov ........ 16

PANDEMİYA DÖVRÜNDƏ BƏZİ MEYVƏ VƏ GİLƏMEYVƏLƏRİN İNSAN SAĞLAMLIĞINA TƏSİRİ prof. Ə.Ə.Nəbiyev, b.f.d. S.O.Qurbanova, İ.Ə.Kazımova ........ 18

YABANI BİTKİLƏRİN QİDA SƏNAYESİNDƏ İSTİFADƏ İMKANLARININ ARAŞDIRILMASI M.M.Tağıyev ........ 20

PANDEMİYA DÖNƏMİNDƏ İNSAN SAĞLAMLIĞINA TƏSİR EDƏN AMİLLƏR dos.E.Ə.Bayramov 22

ИННОВАЦИОНЫЕ ТЕХНОЛОГИИ В ПИТАНИИ А.А. Касумова ........ 25

İTBURNU GİLƏMEYVƏSİNDƏN LƏTLİ ŞİRƏNİN HAZIRLANMASI A.A.Qasımova ........ 27

AZƏRBAYCANDAN İXRAC OLUNAN MEYVƏ-TƏRƏVƏZLƏRİN EKSPERTİZASI t.f.d., dos.əv. U.Ə.Babayeva, magistr V.F.Ağayeva ........ 29

XURMA MEYVƏSİNİN ANTİOKSİDANT VƏ ANTİMİKROB XÜSUSİYYƏTİNİN TƏDQİQİ S.O.Qurbanova ........ 31

PANDEMİYA DÖVRÜNDƏ NAR ŞİRƏSİ İLƏ QİDALANMANIN ÜSTÜNLÜKLƏRİ t.f.d. M.S.Aslanova ........ 33

**II BÖLMƏ** ........ **35**

**TURİZM XİDMƏTİ** ........ **35**

POSTPANDEMİYA DÖVRÜNDƏ TURİZM MÜƏSSISƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ doktorant V.V.Cəfərli ........ 35

TURİZM ÖLKƏ İQTİSADİYYATININ APARICI SAHƏLƏRİNDƏN BİRİ KİMİ X.Q.Xəlilova ........ 38

PANDEMİYA DÖVRÜNÜN TURİZM SEKTORUNA VƏ TƏDQİQATLARINA TƏSİRİ dos Y.Ə.Hümbətov, ass A.R.Qurbanova, magistr E.H.Əliyev, magistr İ.Yusibov ........ 40

PANDEMİYA DÖVRÜNDƏ TURİZMİN TƏDQİQAT PROBLEMLƏRİ ass A.Ş.Həsənova ........ 42

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA ATÇILIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ t.f.d., dos.əv. A.A.Qasımova, S.Y.Mustafayeva ........ 44

EKSKURSİYA BİZNESİNDƏ İNNOVASİYALAR İ.Y.Xusayinova ........ 46

ИНТЕРАКТИВНОСТЬ В ТУРИЗМЕ Е.М.Гахраманова ........ 48

PANDEMIYA DÖVRÜNDƏ UNIVERSITET TƏLƏBƏLƏRININ PSIXOLOJI DAVAMLILIĞI VƏ ÜMIDSIZLIKLƏRININ GƏLƏCƏK KARYERA PLANLAŞDIRILMASINA TƏSIRI T.H.Həsənova, Z.T.Məmmədli, Z.İ.Tağıyeva, H.Z.Həsənzadə ........ 50

ДИНАМИКА РАЗВИТИЯ СОВРЕМЕННОГО ТУРИЗМА Ю.Гусейнов, Д.Зейналов, М.Ахмедова.. 52

TURİZMİN REGİONLARDA YERLƏŞDİRİLMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ G.N.Məmmədova ........ 54

RESPUBLİKAMIZDA TURİZMİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR B.Q.Hüseynov, T.A.Salmanova ........ 58

RESPUBILKAMIZDA TURIZMIN INKIŞAFININ NƏZƏRI MƏSƏLƏLƏRI N.İ.Hüseynova ................ 60
PANDEMİYA DÖVRÜNDƏ TURİZM SAHƏSİNDƏ TƏHSİL ALAN GƏNCLƏRİNTƏTQİQAT PROBLEMLƏRİ ass. S.Ə.Məmmədova, ass. G.Q.Hüseynova ........................................ 62
**III BÖLMƏ** ........................................ **64**
**LOGİSTİKA MÜHƏNDİSLİYİ** ........................................ **64**
TƏCHIZAT ZƏNCIRININ IDARƏEDILMƏSINDƏ INVERTAR NƏZARƏT MODELLƏRI Q.R.Məmmədova, magistr E.S.Axundov ........................................ 64
**IV BÖLMƏ** ........................................ **66**
**YÜNGÜL SƏNAYE MÜHƏNDİSLİYİ** ........................................ **66**
QIZILAĞAC QABIĞININ SUDA EKSTRAKTI İLƏ TƏBİİ İPƏK LİFİN BOYADILMASI TEXNOLOGİYASININ TƏTQİQİ İ.Q.Qasımov, İ.T.Əliyeva, G.A.Tomuyeva, Ş.Q.Əliyeva ................ 66
AVROPADA MÜASIR GEYIM MODALARININ VƏ ÜSLUBLARININ ANALİZİ dos. T.H.Mirzəyev, magistr H.R.Əliyeva, R.T.Mirzəyev, ........................................ 68
PAMBIQTƏMIZLƏYICILƏRDƏ KOLOSNIKLƏRIN TƏSNIFATLAŞDIRILMASI H.Q.Kərimov ......... 70
KƏLAĞAYILARIN ORNAMENTAL KOMPOZISIYALARI TARIXIN VARISLƏRI KIMI H.Ə.Ramazanova, V.Ş.Bağırova ........................................ 72
XALÇA KOMPOZISIYALARININ RƏNG HƏLLI VƏ HAŞIYƏ QURŞAQLARI ARASINDAKI MÜTƏNASIBLIK R.X.Aslanova, T.D.Həsənova, K.Məmmədova ........................................ 74
GƏNC NƏSİLİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİNDƏ TƏSVİRİ SƏNƏT ƏSƏRLƏRİNİN ROLU Ə.P.Məhərrəmov ........................................ 76
**V BÖLMƏ** ........................................ **79**
**İNFORMASİYA TEXNOLOGİYALARI VƏ KOMPYUTER MÜHƏNDİSLİYİ** ........................................ **79**
QARĞIDALI QIÇASINDAN DƏN AYIRMASINDA TƏDQIQATIN NƏTICƏLƏRININ RIYAZI IŞLƏNMƏSI dos. U.T.Tağıyev, magistr A.İ.Məmmədova ........................................ 79
İNFORMASIYA-PROQRAM TƏMINATLI IDARƏ OLUNAN PROSESIN IDENTIFIKASIYASIprof. Q.B.Məmmədov, magistr E.E.Məmmədov ........................................ 82
"MOBİL ŞANVARİ RABİTƏ" - NİN YARANMASI VƏ İNKİŞAFI K.A.Carçıyev ........................................ 86
CİSCO SİSTEMİ, CİSCO PACKET TRACER PROQRAM SİMULYATORU k.f.d. C.M.Əliyeva, magistr R.H.Salehov, magistr S.R.Həsənova ........................................ 88
CDMA STANDARTININ TƏTBİQİ, XÜSUSİYYƏTLƏRİ VƏ ÜSTÜNLÜKLƏRİ K.A.Carçıyev ........... 90
SUPERKOMPÜTERLƏR VƏ ONLARIN YARADILMA TEXNOLOGIYALARI S.S.Abdullayeva ......... 92
**VI BÖLMƏ** ........................................ **93**
**METAL VƏ MATERİALLAR MÜHƏNDİSLİYİ** ........................................ **93**
REZİNOTEXNİKİ MƏMULATLARƏ.A.Əlbəndov, C.M.Əliyeva, magistr L.R.Mərdiyeva ........ 93
REZININ FIZIKI-MEXANIKI XASSƏLƏRI VƏ MAŞINQAYIRMADA TƏTBIQI Ə.A.Əlbəndov, C.M.Əliyeva, magistr X.Ə.Mustafayev, ........................................ 95
QIZIL ISTEHSALININ EMAL ÜSULLARININ TƏDQIQI N.İ.Əmiraslanova, R.Zeynalov ................ 97
QIZILIN TARİXİVƏ TƏTBİQ SAHƏLƏRİNİN TƏDQİQİ N.İ.Əmiraslanova, Ə.Əzizov .............. 100
ALÜMINIUM ƏRINTILƏRININ QURULUŞUNA VƏ XASSƏLƏRINƏ AŞQAR METALLARININ TƏSIRI N.İ.Əmiraslanova, magistr V.M.Verdiyev ........................................ 103
ALUNIT MINERALININ VƏ FILIZLƏRININ TERMIK ÜSULLA PARÇALANMASI dos A.Z.Əsgərov, magistr C.E.Əsgərzadə ........................................ 106
METALLURJI YANACAQ SOBALARINDA ISTILIYIN ISTIFADƏ ƏMSALININ İİƏ ARTIRILMASI ÜSULLARI M.H.Cəfərov, M.M.Alməmmədov ........................................ 108
POLİETİLENTEREFTALAT POLİMERİNİN İSTEHSALINDA ETİLEN OKSİDİN ROLU dos. Ə.N.Muradov, magistr İ.Nəsirli ........................................ 109
**VII BÖLMƏ** ........................................ **110**
**İQTİSADİYYAT VƏ BİZNESİN İDARƏEDİLMƏSİ** ........................................ **110**

İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARDA SƏNAYE İSTEHSALININ İNKİŞAFININ STİMULLAŞDIRILMASI MƏSƏLƏLƏRİ X.F.Məmmədova, F.Ə.Məmmədov ........ 110
DÖVLƏT İDARƏÇİLİYİNİN NƏZƏRİ ƏSASLARI magistr K.A.Yahyayev, magistr Ş.S.Əlizadə, magistr A.M.Allahverdiyeva ........ 112
AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ PLANLAŞDIRMANIN MÜASİR VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ i.f.d., dos M.Ş.Qarayev, magistr N.İ.Məmmədova ........ 114
BİZNES STRATEGİYASININ HAZIRLANMASI XÜSUSİYYƏTLƏRİ. i.f.d., dos. M.Ş.Qarayev, magistr V.İ.Cəfərov ........ 115
MÜƏSSİSƏLƏRDƏ MARKETİNQİN TƏTBİQİNİN VƏ ƏMTƏƏ SİYASƏTİNİN TƏHLİLİ ........ 116
b.m Ş.N.Qarayeva ........ 116
İQTİSADİ RİSKLƏRİN İDARƏEDİLMƏSİ METODLARI VƏ ONLARIN TƏKMİLLƏŞDİRİLMƏSİ dos. X.M.Ağayeva, magistr G.Ş.Məmmədova ........ 117
MALİYYƏ EHTİYATLARININ VƏ ONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ M.Q.Qurbanzadə ........ 118
COVID-19 PANDEMIYASININ KIÇIK VƏ ORTA SAHIBKARLIĞA TƏSIRI dos I.Y.Şahverdiyeva, G.M.Seyidova ........ 120
MOBİL MARKETİNQİN MÜASİR DÖVRDƏ ƏHƏMİYYƏTİ magistr O.V.Abdullayev ........ 121
AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİNƏ VERGI DAXİLOLMA MƏNBƏLƏRİNİN TƏHLİLİ S.E.Tağıyeva ........ 123
SƏNAYENİN İNVESTİSİYA TƏMİNATININ NƏZƏRİ MƏSƏLƏLƏRİ G.C.Atakişiyeva ........ 125
QİDA SƏNAYESİNİN RƏQABƏT POTENSİALININ FORMALAŞMASI İSTİQAMƏTLƏRİ C.C.Rəhimov ........ 127
PUL VƏSAİTLƏRİNİN MÜSBƏT VƏ MƏNFİ AXINI A.Ş.Məmmədov ........ 129
İNNOVATİV YANAŞMA ƏSASINDA SAHİBKARLIQ SUBYEKTLƏRİNIN MARKETİNQ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ dos R.Ş.Şükürov, Ü.C.İsmayılova ........ 131
SAHİBKARLIQ STRUKTURUNUN RƏQABƏTQABİLİYYƏTİ ANLAYIŞI magistr C.A.Allahverdi .. 133
ŞƏBƏKƏ İNFRASTRUKTURUNUN QURULMASI, CİSCO SİSTEMİ k.f.d. C.M.Əliyeva, magistr R.H.Salehov, magistr S.R.Həsənova ........ 135
ƏMTƏƏNİN İRƏLİLƏDİLMƏSİNDƏ İNTERNET RESURSLARINDAN İSTİFADƏNİN ROLU dos. V.M.Ramazanov, C.R.Camalzadə ........ 137
DÖVLƏT İDARƏÇİLİYİNİN XÜSUSİYYƏTLƏRİ T.T.Abbasov, K.A.Yahyayev ........ 139
AZƏRBAYCAN BƏLƏDİYYƏLƏRİNİN TARİXİ Ə.Əlizadə, F.O.Qənbərova ........ 140
AZƏRBAYCAN İQTİSADİYYATINDA VERGİLƏRİN MÜƏSSİSƏNİN İQTİSADİ VƏZİYƏTİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ F.İ.İsmayılov, magistr G.Ş.Aydınlı ........ 142
MÜƏSSİSƏDƏ MARKETİNQ PLANLAŞDIRILMASININ SƏMƏRƏLİLİYƏTƏSİRİ dos. V.M.Ramazanov, A.Q.Abbaslı ........ 143
SIĞORTA MÜNASİBƏTLƏRİNİN İNKİŞAFININ MALİYYƏ MEXANİZMİNƏ TƏSİRİ dos R.M.Cəfərova, magistr A.E.Həsənli ........ 145
MİLLİ İNNOVASİYA SİSTEMİNİN ƏSAS STRATEJİ İSTİQAMƏTLƏRİ M.T.Qubatov ........ 147
MAKROİQTİSADİ TƏNZİMLƏNMƏNİN ROLU VƏ ƏSAS ÜSTÜNLÜKLƏRİ dos. R.Ş.Şükürov, magistr E.N.Daşdəmirov ........ 149
SATIŞ SİYASƏTİ, STRATEGİYASI VƏ PRAKTİKASI HAQQINDA MARKETİNQ ARAŞDIRMALARI T.S.Yusifov ........ 151
BEYNƏLXALQ TƏCRÜBƏYƏ ƏSASLANAN ELEKTRON HÖKÜMƏTİN YARADILMASI, PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI E.C.Cəfərov, magistr E.C.Rəhimov ........ 153
ELEKTRON HÖKÜMƏTDƏ SƏNƏD DÖVRİYYƏSİNİN ƏHƏMİYYƏTİ E.S.Cəfərov, magistr S.İ.Kərimova ........ 155
MALİYYƏ TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN FORMALAŞMASI T.M.Zeynalov ........ 158

MÜƏSSİSƏLƏRDƏ MARKETİNQİN TƏTBIQININ VƏ ƏMTƏƏ SİYASƏTİNİNTƏHLİLİ b.m Ş.N.Qarayeva .......... 160
ELEKTRON MARKETINQIN ISTEHLAKÇILARIN SATINALMA DAVRANIŞLARINA TƏSIRI O.V.Abdullayev .......... 161
ТЕОРЕТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА У.Ш.Салифова .......... 163
EMAL MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ UÇOTUNUN TƏŞKİLİNİN PRİNSİPLƏRİ magistr Y.Q. Cəlilli .......... 165
MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARDA MALİYYƏ NƏZARƏTİNİN TƏŞKİLİNDƏ MALİYYƏ HESABATININ ROLU dos X.M.Mehdiyev, E.Q.Məmmədov .......... 167
ОЦЕНКА ФИНАНСОВОГО СОСТОЯНИЯ ОРГАНОВ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ ВАЗЕРБАЙДЖАНЕ доц. М.Ахмедова, Н.Ибрагимова .......... 169
MALİYYƏ BAZARLARININ TƏSNİFATI dos. H.Nüşabə, A.E.Hüseynova .......... 171
İNNOVASIYA BİZNESİNİN İQTİSADİ İNKİŞAFININ STİMULAŞDIRICI MEXANİZMLƏRI dos.ə Ə.Qurbanov, magistr B.Ş.Mirzəzadə .......... 173
ELEKTRON KOMMERSIYA ANLAYIŞI VƏ ONUN INKIŞAFININ IQTISADIYYATA TƏSIRI N.A.Hacıyeva, magistr V.B.Məmmədli .......... 175
COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ İSTEHLAKÇI DAVRANIŞI S.D.Məmmədov, dos. V.İsmayılov .......... 177
MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ İNTENSİVLƏŞMƏNİN NƏZƏRİ ASPEKTLƏRİ magistr A.F.Hacıyeva .......... 179
HAZIR MƏHSUL SATIŞININ UÇOTUNUN TƏŞKİLİ MƏSƏLƏLƏRİ dos. X.Mehdiyev, magistr V.Y.Əliyev .......... 181
DAXİLİ AUDİTİN MÖVCUD VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ E.B.Rəhimov .......... 183
TƏŞKİLATDA SƏMƏRƏLİ İDARƏETMƏNİN TƏMİN EDİLMƏSİNDƏ MOTİVASİYANIN ROLU N.E.Xəlilova .......... 185
AZƏRBAYCANDA SISTEMLİ YANAŞMA ƏSASINDA QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ TƏNZİMLƏNMƏSİ tex.e.d., prof. Z.Y.Aslanov, dos. A.Ə.Hüseynov .......... 187
UYĞUNLUĞUN QİYMƏTLƏNDİRLİMƏSİ VƏ TƏSDİQ EDİLMƏSİ magistr M.A.Abbasov, magistr İ.T.Ağalarov .......... 190
AZƏRBAYCANDA BALIQÇILIQ SƏNAYESININ ÜMUMI XARAKTERISTIKASI L.R.Eyyubova .......... 191
YERLİ İCRA HAKİMİYYƏTİ ORQANLARI G.Abdullayev, F.E. Əliyeva .......... 192
AZƏRBAYCANDA VERGİ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ X.V.Qurbanova, E.T.Abdullayev .......... 193
**VIII BÖLMƏ .......... 195**
**DAVAMLI İNKİŞAF VƏ TƏHSİL TEXNOLOGİYALARI .......... 195**
MƏZUNLARIN MƏŞĞULLUĞUNUN ARTIRILMASINDA "BACARIQLAR CÜZDANI" SISTEMININ TƏTBIQI Ü.Məmmədova .......... 195
ÖLKƏNIN ƏRZAQ TƏHLÜKƏSIZLIYI VƏ ONUN MÖHKƏMLƏNDIRILMƏSI YOLLARI Ə.F.Babazadə, magistr T.B.Muradova, magistr F.O.Qənbərova .......... 197
ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN NƏZƏRİ ƏSASLARI A.I.İbrahimova .......... 199
IMPACT ANALYSIS OF "EQAC" PROJECT AT AZERBAIJAN Assoc. prof. V.Ismayılov, I.Gurbanova .......... 201
RESPUBLIKAMIZDA SƏNAYENİN İNKİŞAFININ NƏZƏRİ MƏSƏLƏLƏRİ Ə.Ş.Ələsgərov .......... 203
TANIMA MƏSƏLƏLƏRINDƏ ADEKVATLIQ E.N.İsrafilova, R.A.Mustafayev .......... 205
İŞĞALDAN AZAD EDILMIŞ ƏRAZILƏRDƏ "AĞILLI ŞƏHƏR" VƏ "AĞILLI KƏND" KONSEPSIYASININ TƏTBIQI ISTIQAMƏTLƏRI S.Y.Məmmədov .......... 207
TƏHSİLDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTİNDƏ İKT ROLU G.A.Nəcəfova .......... 209

İES-lərin ƏTRAF MÜHİTƏ TƏSİRİ S.Mamedov ........................................................................................ 211
AZOT OKSİDLƏRİ VƏ ƏTRAF MÜHİTƏ TƏSİRİ S.Mamedov ............................................................. 213
DÖVLƏTIN KADR SIYASƏTI KONSEPSIYASI magistr F.E.Əliyeva, F.O.Qənbərova .......................... 214
İNNOVASİYA VƏ İNNOVASİYALARIN İDARƏ EDİLMƏSİ Samir A.Piriyev .................................... 216
EKOLOGIYA VƏ IQTISADIYYAT: QARŞILIQLI ƏLAQƏDƏ MÜASIR ÇAĞIRIŞLARIN VƏ PERSPEKTIVLƏRIN QIYMƏTLƏNDIRILMƏSI M.Əhmədova, F.Hacıyev ........................................... 218
МАТЕМАТИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ доц. Г.Д.Касаменли, Н.Д.Дашдамирова ....................... 220
ТЕОРЕТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА У.Ш.Салифова............................................................................... 222
ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ЭЛЕКТРОННЫХ ОТХОДОВ Э.А.Маммадов, А.Я.Маммедли ... 224

# ÖN SÖZ

2019-cu ilin dekabrında Çinin Uhan şəhərində yayılan pandemiya sürətlə bütün dünyanı cənginə aldı. Azərbaycanda 2020-ci ilin fevralında ilk yoluxma təsdiqləndi və mart ayından etibarən karantin vəziyyəti elan edildi. 3 martdan isə ölkənin bütün təhsil müəssisələrində tədris prosesləri və digər əlaqəli fəaliyyətlər dayandırıldı.

Pandemiya dövründə ən böyük çətinliklərlə üzləşən sahələrdən birinin təhsil sahəsi olduğunu desək yəqin ki, yanılmarıq. İlk vaxtlarda dünyanın 186 ölkəsində tədris dayandırıldı və 1,2 milyard tələbə və şagird təhsil prosesindən kənarda qaldı.

Pandemiya ilə əlaqədar ölkədə elan edilən karantin rejiminin tələblərinə uyğun fəaliyyətinə icazə verilən digər orqanlar kimi, ali təhsil müəssisələri və institutlar bu müddət ərzində, yəni bir ay öncəyə - 2021-ci ilin oktyabrına qədər əsasən onlayn rejimdə fəaliyyət göstərdi. Düzdür, xarici elmi tədqiqat qurumları və təşkilatlar ilə əlaqələr bir qədər məhdudlaşdı. Bu dövr ərazində gənclərin tədqiqat məsələləri söz yox ki, planlaşdırıldığı kimi getmədi. Ancaq digər tərəfdən pandemiyanın şərtləndirdiyi rəqəmsallaşma mühitinin yaratdığı münbit şərait amili vardı.

Ölkəmiz bu müddət ərazində iki cəbhədə – həm koronavirus pandemiyasına, həm də erməni təxribatçılarına qarşı mübarizə apardı və aparmaqdadır. 27 il işğal altında qalan torpaqlarımızın azadlığı uğrunda gedən “Dəmir Yumruq” əməliyyatı pandemiya dövrünə təsadüf etdi. Azərbaycanın 44 günlük Vətən müharibəsi müasir hərb tarixinə yazıldı.

Ali Baş Komandan, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyilə cəbhədə qazandığımız qələbədə yeni texnologiyaların istifadəsini xüsusilə vurğulamaq istərdim. Qələbəmizdə Türkiyə istehsalı olan milli pilotsuz vasitələrin nə dərəcədə rol oynadığı hamımıza məlumdur. Bu gün Türkiyə öz PUA-ları ilə dünyanın diqqət mərkəzindədir. Hər şey 21 il öncə ABŞ Konqresinin "Predator" və "Reaper" zərbə PUA-larının Türkiyəyə satışına icazə verməməsi ilə başladı. Həmin dövrdən sonra Ankara milli pilotsuz vasitələrin inkişaf prosesini sürətləndirdi. Nəticədə bu gün qardaş ölkə Türkiyə PUA istehsalı ilə dünyaya meydan oxuyur.

Qardaş Türkiyə Respublikasının bu təcrübəsi gənc tədqiqatçılarımız üçün bir mayak, ilham mənbəyi olmalıdır. Gənc tədqiqatçılarımız bilməlidirlər ki, siyasi arenada ölkəmizin nüfuzunu qoruyub saxlamaq, ölkəmizin regionda söz sahibi olmasını davamlı təmin etmək üçün texnologiya elminə töhfə verməlidirlər. Onlar öz üzərlərinə düşən məsuliyyəti yetərincə dərk etməli, çalışdıqları elm sahələrində Azərbaycanın nüfuzuna fayda gətirə bilən işlər həyata keçirməlidirlər. Tədqiqatlar təkcə texnoloji sahələrdə deyil, həm də sosial, iqtisadi, idarəetmə sahəsində yeni çağırışları əhatə etməlidir.

Bu gün bütün dünya koronavirus pandemiyasına qarşı paralel mübarizə aparır. Ən böyük təlatümlər zamanı bəşəriyyət elmə müraciət edir, elmin dəstəyindən istifadə edərək ən böyük böhran vəziyyətlərindən çıxır. Düşünürəm ki, hazırkı vəziyyətin özü gənc tədqiqatçılar üçün bir təcrübədir. Pandemiya şəraitindən minimal itkilərlə çıxmaq üçün alimlərimizin, xüsusən də gənc mütəxəssislərin çiyinlərinə böyük yük düşür. Gənc tədqiqatçılarımız aid olduqları elm sahələrində dünya elminə daha çox töhfə verməli, Azərbaycan elmini layiqincə təmsil etməlidirlər.

Düşünürəm ki, gənc tədqiqatçılarımız bu sadalananları nəzərə alaraq elmi məclislərdə daha fəal olacaq, Azərbaycan Texnologiya Universitetinin bu gün təşkil etdiyi “Pandemiya dövründə gənclərin tədqiqat problemləri”nə həs edilmiş elmi-praktik konfrans kimi istər respublika, istərsə də beynəlxalq elmi platformalardan lazımınca yararlanacaq, elmin inkişafına öz töhfələrini verəcək, bu yola bəşəriyyət üçün faydalı olacaq yeni toxumlar səpəcəklər...

***Prof. Akif Süleymanov***
***Azərbaycan Texnologiya Universitetinin rektoru***

# I BÖLMƏ

# QİDA SƏNAYESİ MÜHƏNDİSLİYİ

## AZOTUN GANODERMA APPLANATUM GÖBƏLƏYİNİN PROTEAZA İFRAZINA TƏSİR XÜSUSİYYƏTLƏRİ

**G.İ.Hüseynova**

**AMEA Mikrobiologiya İnstitutu**
**gulnar_muel@mail.ru**

Tədqiqat işində Ganoderma applanatum göbələyinin proteaza sintezinə azot mənbələrinin və miqdarının təsir xüsusiyyətləri araşdırılmışdır. Bu göbələk proteolitik fermentlərin əsas produsenti olaraq bir neçə növ göbələk ştammının içərisindən seçilmiş və proteolitik aktivliyi ilə diqqəti cəlb etmişdir. Əsas məqsəd proteaza sintezi ilə mühitdəki azot miqdarı arasındakı əlaqəni təyin etməkdir. Ganoderma applanatum göbələyi qeyri-üzvi birləşmələrə nisbətən üzvi birləşmələrdən azotu daha yaxşı mənimsəmişdir. Müəyyən olunmuşdur ki, fermentin sintez prosesi azot mənbəyinə qarşı həssasdır və idarə olunandır. Azotun proteaza ifrazına təsiri biokütlənin quru çəkisinə əsasən təyin edilmişdir. Təcrübədə əldə olunan nəticələr təhlil olunmuş və biokütlənin artım dinamikası izlənilmişdir. Maksimal biokütlə çəkisi – ferment ifrazının göstəricisidir.

Göbələklər heterotrof canlılar olduqlarından böyümə və inkişaf amillərinə tələbatlarına görə olduqca spesifikdirlər. Bütün canlılar kimi ksilotrof makromisetlərin böyümə və inkişafına müxtəlif xarici və daxili amillər, xüsusən qidalanma mühüm təsir edir. Çünki qidalanma nəticəsində orqanizmdə baş verən metobolitik proseslərin gedişatı, inkişaf və böyümə prosesləri üçün müxtəlif maddələrin toplusu qida şəklində qəbul olunur.Göbələyin ifraz etdiyi hidrolitik fermentlər-lipaza, liqninaza, sellülaza, proteaza substratdakı biopolimerləri parçalayıb mənimsəmək üçün yararlı hala gətirir [5]. Bu fermentlərdən olan proteaza – bitki hüceyrəsinin membranında və sitoplazmasında olan zülallı biopolimerləri-aminləri, peptidləri, proteidləri, proteinləri, ammoniumlu və nitratlı birləşmələri hidroliz edir. Əmələ gələn sadə birləşmələr –amin turşuları,aminlər göbələk mitselilərinin yaratdığı yüksək turqor təzyiqinin köməyi ilə sorulur və istifadə olunur [1].

Proteolitik aktivlik – proteaza sintez etmə qabiliyyəti produsent biokütləsinin çəkisinə əsasən təyin edilir. Çünki fermentin aktivliyinin artması biokimyəvi reaksiyaların gedişini sürətləndirir , qida maddələrinin tərkibini təşkil edən üzvi və qeyri-üzvi maddələrin parçalanması sürətlənir, parçalanmış qida məhsulları asanlıqla absobsiya olunur və göbələk mitseliləri də inkişaf edir [2]. Deməli, göbələk biokütləsinin də çəkisində artım müşahidə olunacaqdır. Ksilotrof makromisetlər proteolitik fermentlərin əsas produsentləridir. Bu fermentlər tibbdə, qida sənayesində (bioloji aktiv maddələr kimi), çörəkbişirmədə, pendir istehsalında, əczaçılıqda, gön-dəri istehsalatında geniş istifadə olunur.

Makromisetlər tərəfindən azotun həm üzvi (pepton, qlütamin turşusu, asparagin turşusu), həm də mineral mənbələri (ammonium duzları, nitratlar) istifadə edilir. Azotun proteaza sintezinə təsirini öyrənmək üçün Bin məhlulunda inkubasiya olunmuş mitseli kəsiyinin inkişafı izlənilir. Belə ki, inkubasiya olunmuş mitseli kəsiyi qidalı mühitdə yetişdirilir, bioloji süzgəcdən süzülür, qurudulur, quru çəki analitik tərəzidə çəkilir. Bin məhluluna üzvi azot mənbəyi kimi pepton və qeyri-üzvi azot mənbəyi kimi $NH_4NO_3$ əlavə edilərək biokütlə miqdarının dinamikası müşahidə edilmişdir.[3] Pepton-amin turşularının qarışığıdır, ağ rəngdən sarı rəngə kimi xırda yumru bərk maddədir, suda həll olur.

Peptonun miqdarını dəyişərək biokütlənin çəkisindəki dinamika izlənilir. Peptonun miqdarına görə ən optimal mühit 3q/l miqdarında müəyyən olunmuşdur. Belə ki, peptonun miqdarı 2,5 q/l olan zaman 0,0479 q/l biokütlə, 2,75 q/l olanda 0,0508 q/l biokütlə, 3 q/l olanda 0,0566 q/l biokütlə, 3,25 q/l olanda 0,0549 q/l biokütlə, 3,5 q/l olanda 0,0499 q/l biokütlə əmələ gəlir. Peptonun 3 q/l-dan 2,75 q/l-ə qədər azaldılması biokütlə çıxımını 11%-ə qədər azaldır, peptonun 2 q/l-ə qədər azaldılması isə biokütlənin inkişafını 16%-ə qədər azaldır. Peptonun 3 q/l-dən 3,25 q/l-ə qədər artırılması biokütlənin miqdarını 4%-ə qədər azaldır, 3 q/l-dən 3,5 q/l-ə qədər artırılması isə biokütlənin inkişafını 12%-ə qədər azaldır.Deməli,pepton miqdarının 3 q/l -dən 0,5 q/l miqdarda artıb azalması ferment sintezini 12-16%-ə qədər yavaşıdır. Deməli, peptonun miqdarının müəyyən miqdardan (3q/l dən) çox və ya az olması mitseli inkişafını ləngidir.

Növbəti araşdırmada qeyri-üzvi azot mənbəyi kimi $NH_4NO_3$ miqdarı ilə proteaza fermentinin ifrazı arasındakı asılılıq müəyyən edilmişdir.Bin məhluluna müəyyən miqdarda $NH_4NO_3$ əlavə edildi. 1 q/l $NH_4.NO_3$ əlavə edildikdə 0,0500 q biokütlə, 1,25 q/l $NH_4.NO_3$ əlavə edildikdə 0,0678q biokütlə, 1,5 q/l $NH_4.NO_3$ əlavə edildikdə 0,0689 q, 1,75 q/l $NH_4.NO_3$ olanda 0,0538q, 2 q/l $NH_4.NO_3$ olanda 0,0484q biokütlə əmələ gəlir.Alınan nəticələrə əsasən ən yüksək nəticə 1,5 q/l ammonium-nitrat əlavə edilən zaman müəyyən edilmişdir (0,0689 q/l). Kifayət qədər azotlu üzvi birləşmələr saxlayan belə mühitə - bin məhluluna azotlu mineral duz kimi artıq miqdarda $NH_4NO_3$ daxil etdikdə və ya azaldıqda proteinazaların çıxımı kontrol mühiti ilə müqayisədə 28-30 % qədər azalır. Belə ki, $NH_4NO_3$ duzunun 1,5 $NH_4NO_3$ q/l-dən 1,75 q/l-ə qədər artırılması biokütlə çıxımını 22%-ə qədər azaltmışdır,2 q/l-ə qədər artırılması isə biokütlə çıxımını 30%-ə qədər azaltmışdır. $NH_4NO_3$ duzunun 1,5 q/l-dən 1q/l-ə qədər azaldılması biokütlə çıxımını 28%-ə qədər azaltmışdır. Deməli, üzvi azotlu mühitdə - Bin məhlulunda ammonium nitrat duzunun müəyyən miqdarda əlavəsi ferment çıxımını surətləndirir,müəyyən miqdardan çox əlavə olunması isə əksinə təsir göstərir. Bu onunla əlaqədardır ki, göbələk hüceyrələrində nitratların və ammonyakın xeyli miqdarda toplanması göbələk hüceyrəsinin zəhərlənməsinə və böyümə prosesinin dayanmasına səbəb olur. Əgər göbələklər karbon mənbələrindən qidalanmada aktiv istifadə edirsə, onda üzvi turşuların əmələ gəlməsilə əlaqədar olaraq zəhərlənmə baş vermir. Ona görə ki, toplanmış ammonyak həmin üzvi turşularla birləşir və təsirini itirir. Bu da göbələklərdə karbon və azot mübadiləsi arasında əlaqənin olduğunun göstəricisidir. Üzvi turşuların iştirakı ilə ketoturşuların əmələ gəlməsi asanlaşdığı və ketoturşuların isə ammonyakı özünə birləşdirməklə yanaşı, onun maddələr mübadiləsinə qoşulmasını da sürətləndirdiyi üçün azotun göbələk hüceyrələri tərəfindən mənimsənilməsi, az miqdarda (0,1-0,2%) dördkarbonlu turşuların (məsələn, kəhrəba və fumar turşusu), o cümlədən sirkə, süd, çaxır və asparagin turşularının iştirakı ilə xeyli sürətlənir [4].

Çünki mühitdə qida maddələrinin konsentrasiyasının müəyyən miqdardan çox olması maddələr mübadiləsini pozur,hüceyrənin ferment sintezetmə qabiliyyətini azaldır və böyümə prosesini zəiflədir. Qida maddələrinin müəyyən miqdardan az olması da biokütlə inkişafını zəiflədir.Ona görə də optimal miqdar tapılmalıdır.

**Nəticə:** Aparılan təcrübələr sübut edir ki, ganoderma applanatum göbələyinin müəyyən miqdarda üzvi və qeyri-üzvi azot əlavə edilmiş qidalı mühitdə proteolitik aktivliyi yüksəlir.Belə ki,optimal qidalı mühitdə biokütə çəkisinin artması ilə fermentlərin ifrazının da güclənməsi müşahidə olunmuşdur.

**Ədəbiyyat sıyahısı:**

1. İbrahimov A.Ş., Abdulova Z.A., Mehdiyeva L.N. Mikologiya. Bakı-2008, səh.20-22
2. Ağayev C. Kənd təsərrüfatı bitkilərinin xəstəlikləri.Bakı, Müəllim, 2016

3. Ağayev C.T, Cabbarov S.F, Hüseynova A.A, Ağayeva N.K. Fitopatogen göbələklərin eksperimental öyrənilməsi üsulları. “Müəllim”, Bakı-2017
4. Cəbrayılzadə S.M. Mikologiya. Bakı, Mütərricim,2011.-218 s.
5. Qurbanov.N.H, Hacıyev.C.Ə., OmarovaE.M., Xəlilova Ü.İ., Qurbanova A.A., Məhərrəmova M.H. Mikrobiologiya, sanitariya və gigiyena. Bakı, 2010.- 72 s.

## ВЛИЯНИЯ АЗОТА ГРИБОВ GANODERMA APPLANATUM НА СИНТЕЗ ПРОТЕАЗЫ

**Г.И.Гусейнова**
**Институт микробиологии НАНА**
**gulnar_muel@mail.ru**

**Резюме:** В исследовательской работе проведено расследование особенностей источника азота в синтезе протеазы грибов Ganoderma applanatum и количество его влияния. Этот гриб, являясь основным продуцентом протеолитической ферментации, был выбран из нескольких видов штаммов грибов и привлек внимание протеолитической активностью. Основная цель исследования состоит в том, чтобы определить связь между синтезом протеазы и количеством азота в среде. Гриб Ganoderma applanatum по сравнению с неорганическими соединениями лучше усвоил азот с органическими соединениями. Установлено, что процесс синтеза фермента чувствителен к источнику азота и поддается управлению. Влияние азота на секрецию протеазы определялось исходя из сухого веса биомассы. На практике были проанализированы полученные результаты и прослежена динамика роста биомассы. Вес максимальной биомассы – показатель секреции фермента.

## EFFECT OF NITROGEN ON PROTEASE SYNTHESIS IN GANODERMA APPLANATUM

**Gulnar.I.Huseynova**
**Institute of Microbiology of ANAS**
**gulnar_muel@mail.ru**

**Summary:** In the research work, the peculiarities of the nitrogen source in the protease synthesis of the fungi Ganoderma applanatum and the amount of its influence were investigated. This fungus was selected as the main producer of proteolytic enzymes from several types of fungal strains and attracted attention with its proteolytic activity. The main goal is to determine the relationship between protease synthesis and the amount of nitrogen in the environment. The fungus Ganoderma applanatum assimilated nitrogen with organic compounds better than inorganic compounds. It was found that process of enzyme synthesis is sensitive to the nitrogen source and is controlled. The effect of nitrogen on protease secretion was determined based on the dry weight of the biomass. The results of the experiment were analyzed and dynamics of biomass grows was monitored. Maximum biomass weight is an indicator of enzyme secretion.

# HAZIRLANMIŞ QÜVVƏLİ-QARIŞIQ YEMİN ƏSAS KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏYİN OLUNMA METODİKASI

**Q.M.Allahverdiyeva, V.T.Əskərov**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

Qüvvəli-qarışıq yem hazırlayan qurğunun matrisasından çıxmış hazır yemin mexaniki möhkəmliyini bildirən göstəricidən biri onun nisbi elastik genişlənmə əmsalıdır ($\varepsilon$). Təzyiq altında sıxılaraq formaya salınmış yemlər matrisadan çıxandan sonra onda deformasiya nəticəsində toplanmış potensial enerji hesabına genişlənmə baş verir. Bunu təyin etmək üçün matrisadan çıxan silindrik formalı yemlərdən nümunə götürülür və tərəzidə çəkilirlər. Eyni çəkili yemlərin həcmi və nəmliyi müəyyən edilir. Bundan sonra yemlər 1 gün ərzində sərbəst buraxılırlar. Onlar həm soyuyur, həm də əvvəlki ölçüləri müəyyən qədər artmış olur. Nisbi elastik genişlənmə əmsalı aşağıdakı kimi təyin edilir:

$$\varepsilon = \frac{V_2 - V_1}{V_2} \cdot 100\,\%, \tag{1}$$

Tədqiqatlar presdə müxtəlif təzyiq yaratmaqla və məhsulun müxtəlif nəmliklərində aparılır.

Mikroelement qarışığının qüvvəli-qarışıq yem tərkibində yayılma dərəcəsini təyin edərkən təcrübədə onların 1 kq yemdə minimum (100q) və maksimum (200q) normalarından istifadə etmişik. Hazır yemdə ona məhlul halında qarışdırılmış kompleks mikroelementin ümumi yem payında yayılma dərəcəsini asan təyin etmək üçün tərkibində zülal miqdarı məlum olan (1 kq-da 182 q) mikroelement kompleksi (Premiks П 60-6M) məhlulundan istifadə edilmişdir. Hazır yemdən hər biri 50 q olmaqla 10 nümunə götürülmüş və Rusiya Federasiyasının «Metod» Elm-İstehsalat kooperativinin məhsullarda azot miqdarını təyin edən indikator kağızından istifadə edilmişdir. Bunun üçün hazır məhsul nümunəsini 25 q su ilə qarışdırıb süzdükdən sonra maye hissəsindən götürülmüş damcı indikator kağızındakı reaktivə əlavə edilmişdir. 2 dəqiqədən sonra kağızda alınan rəng çaları rəng şkalası ilə tutuşdurularaq azotun miqdarı təyin edilmişdir. Bu zaman nəticələr yem tərkibində 1 pay azota 6,25 pay zülal nisbəti (zülal əmsalı-6,25) ilə yoxlanmışdır.

Standartlara əsasən qüvvəli-qarışıq yemin keyfiyyətini xarici görünüşünə, iyinə və rənginə, nəmliyinə, xırdalanma dərəcəsinə, 100 kq qüvvəli-qarışıq yemdə olan yem vahidi miqdarına, həzm olunan protein, xam toxuma maddəsi, qum, metalmaqnit qarışıq, yabanı və mədəni bitki toxumların olması, həmçinin ziyanvericilərə bulaşması ilə qiymətləndirirlər [1]. Ancaq bütün bu göstəricilərə görə qənaətbəxş sayılan qüvvəli- qarışıq yem, onun tərkibindəki inqrediyentlər bərabər paylanmadıqda, yemləmə zamanı gözlənilən səmərəni təmin etmir. Bundan başqa hər hansı komponentın heyvanın gündəlik rasionunda həddindən artıq olması ziyanlı ola bilər. Qüvvəli-qarışıq yemlə yemləmədən maksimum səmərə əldə etmək üçün onların hazırlanmasında komponentlərin diqqətlə qarışması təmin edilməlidir.

Yemlərin yekcinsliliyini, hər hansı komponentin yem qarışığından götürülmüş nümunədə konsentrasiyasının orta kvadratik meyletməsi və yaxud onun nisbi ölçüsü olan-variasiya əmsalı ən yaxşı səciyyələndirir [2]:

$$V = \frac{\sigma}{a} 100 \le V_b\,, \tag{2}$$

burada $a$- konsentrasiyanın orta ədədi qiyməti;

$\sigma -$ konsentrasiyanın orta kvadratik meyletməsi;

$V_b$ - variasiya əmsalının buraxıla bilən qiymətidir.

$V_b$ - nin müəyyənləşdirilməsinin çətinliyi ondan ibarətdir ki, çox vaxt qüvvəli-qarışıq yem komponentlərinin qarışma keyfiyyəti ilə heyvanların məhsuldarlığı arasındakı asılılığı bildirən məlumat olmur. Bəzi müəlliflər [3, 4] yem qarışığı komponentının $a$-ya nəzərən yayınması 5%-dən az olduqda qüvvəli-qarışıq yemi yekcins kimi qəbul etməyi təklif edirlər.

Buraxıla bilən xətanın ($\delta$) artma ehtimalının variasiya əmsalından ($V$) asılılığına nəzər yetirsək (şək.1) görərik ki, $\delta$-nın böyük qiymətlərində nümunələrin böyük hissəsi şərti olaraq yekcinslik tələbinə cavab verəcəkdir.




**Şəkil 1. Buraxıla bilən xətanın ($\delta$) artma ehtimalının ($P$) qarışmış tərkibdə komponentlərin konsentrasiyasının variasiya əmsalından ($V$) asılılıq əyriləri:**

1 - $\delta$ =10%;  2 - $\delta$ =20%;  3 - $\delta$ =30% ;  4 - $\delta$ =40%

Qüvvəli-qarışıq yem tərkibində bəzi maddələr dozadan iki dəfə artıq  olduqda zəhərlənmə halı baş verdiyini [5] nəzərə alaraq demək olar ki, komponentin konsentrasiyası əmsalı 20%-dən az olmalıdır.

Tədqiqatlar zamanı qarışma keyfiyyətinin qiymətləndirilməsində məhz bu prinsiplərə əsaslanan metodikadan istifadə edilmişdir. Bir ton qüvvəli-qarışıq yemə 1 q-dan 50 q-a kimi mikroelementlər, vitaminlər və dərman preparatları daxil edirik. Odur ki, onların yemdən götürülmüş nümunə miqdarı xeyli dərəcədə fərqli ola bilər. Yem əlavələrinin miqdarının bərabər yayılmasını aşağıdakı halda məqbul hesab edilmişdir:

$$V = \sqrt{\frac{100 - a_i}{a_i - i}} = \sqrt{\frac{i - j}{ij}}, \tag{3}$$

burada $a_i = \dfrac{100j}{i}$ - hər hansı komponentin qarışıqda miqdarı, %;

$j$ - komponentin nümunəyə düşmüş hissəcikləri;

$i$ – nümunədəki hissəciklərin miqdarıdır.

$j \le i$ olduğunnu nəzərə alaraq düsturu sadələşdirə bilərik:

$$v = \frac{100}{\sqrt{j}}. \tag{4}$$

Əgər ekperimental qurğuda hazırlanmış yemdən götürülmüş nümunədə 100 hissəcik varsa, onda $v$ =100% edəcəkdir. Zootexnik normalara görə də əsas komponentlər üçün $v_b$ =5...10 %- dir.

Bu üsul sadə olmaqla həm də daha məqbul oluna bilən qiymətləndirmə aparmağa imkan verir. Qurğuda hazırlanmış qüvvəli-qarışıq yem o zaman məqbul sayılır ki, onun keyfiyyətini səciyyələndirən kəmiyyət yuxarı hüdud qiymətini keçmiş olmasın. Buna əsaslanaraq məhsulun üç kateqoriyasını, müəyyənləşdiririk: $V \le 5\%$ - yaxşı keyfiyyət; 5% $\le V \le 10$ % - orta kefiyyət  və $V > 10$ %  - zay məhsul.

Təcrübi olaraq tədqiqat zamanı eksperimental ekstruderdə hazırlanmış qüvvəli-qarışıq yemin tərkibinin yekcinsliliyini təyin etmək üçün aşağıdakı üsul tətbiq edilir. Yemdən *n* nümunə götürüb onun tərkibində istənilən komponentin konsentrasiyası $X_1, X_2, \ldots X_n$ müəyyən edilir. Əgər variasiya əmsalının seçilmiş qiyməti ($V_s$) nəzarət normativindlən (*K*) az və ya  ona bərabər olarsa yem qarışığı məqbul hesab olunur, əks halda yem qarışığı zay sayılır. Bu zaman çalışmaq lazımdır ki, xətalar ($\alpha$ və $\beta$) ən kiçik (005-0,1) olsun. Əgər $V_s$ üçün normativ *K*- dırsa o zaman hazırlanmış yemin məqbul olmama ehtimalı aşağıdakı kimi təyin edilir:

$$\alpha = 1 - P\{V_S \le K\} \tag{5}$$

$V_s$-parametri ilə $V$ onların yaxınlıq dərəcəsi (*q*) ilə qiymətləndirilir:

$$q = \frac{V_s}{V}. \tag{6}$$

Verilmiş $V_1$ və $V_2$ hüdud qiymətləri üçün

$$\alpha = 1 - P\{V_s > K, V = V_1 \text{ olduqda}\} \tag{7}$$

$$\beta = P\{V_s \le K, V = V_2 \text{ olduqda}\} \tag{8}$$

burada

$$q_\alpha = \frac{K}{V_1}; \qquad q_\beta = \frac{K}{V_2}. \tag{9}$$

Onda

$$\frac{q_\alpha}{q_\beta} = \frac{V_2}{V_1}.$$

Bu düsturla, keyfiyyətə nəzarət və təhlilin statistik üsulları [6] tərəfindən tərtib edilmiş cədvəl 1-ə əsaslanaraq *n* və *K*-nın səmərəli qiymətlərini müəyyən etmək mümkündür.

**Cədvəl 1.** Nümunələri sayını və nəzarət normativliyni təyin etmək üçün cədvəl

| *n* | *n*-1 | $q_\alpha$ | $q_\beta$ | $q_\alpha / q_\beta$ |
|---|---|---|---|---|
| 10 | 9 | 1,371 | 0,608 | 2,25 |
| 12 | 11 | 1,340 | 0,645 | 2,08 |
| 14 | 13 | 1,320 | 0,673 | 1,95 |

Cədvəl 1- dən aşağıdakı kimi istifadə edilir:

$V_1$=5 %, $V_2$=10 %, $\alpha = \beta = 0{,}05$. $n$ və $K$-nı təyin temək tələb olunur. $V_2/V_1$=2 olduğundan cədvəldən $1-\alpha$=0,95 və $\beta$=0,05 üçün seçmə üsulu ilə $n$=13 təyin edirk. Bu zaman $q_\alpha / q_\beta$=2. Deməк $q_\alpha$=132. Nəzarət normativi $K = q_\alpha V_1$=6,6 %.

Beləliklə təcrübə zamanı $V_s$ 6,6 %-dən çox olarsa bu məhsulun keyfiyyətinin qənaətbəxş olmaması deməkdir.

**Açar sözlər:** Qüvvəli-qarışıq yem, yekcislik, genişlənmə əmsalı, mikroelement, nümunə, gündəlik rasion, komponent, variasiya əmsalı

### Ədəbiyyat siyahısı:

1. Журавлев, Е.М. Руководство по зоотехническому анализу кормов/ Е.М.Журавлев- М.: Сельхозиздат, 1963.- 295 с.
2. Клычев, Е.М. Контроль однородности комбикормов/ Е.М.Клычев // Механизация и электрификация сельского хозяйства.- 1973, №7.- с.44.
3. Bloom C. and Liveseg E.F. «Manufacturing chemist», 1953, v .24. №9, p.375.
4. Nehrung K. und Kramp V. «Die Getreidemuhle», 1990, №9, s.241-245.
5. Pfost H.«Feedstuffs» USA, 1994. v.36, №19, p.104-106.
6. Шор, Я.Б. Статистические методы анализа и контроля качества и надежности/ Я.Б.Шор- М.: Советское радио, 1990.-с.28.

## МЕТОДИКА ОПРЕДЕЛЕНИЯ ОСНОВНЫХ ПОКАЗАТЕЛЕЙ КАЧЕСТВА ГОТОВОЙ КОНЦЕНТРИРОВАННОЙ КОРМОСМЕСИ

**Г.М. Аллахвердиева, Мастер В.Т.Аскеров**
**Азербайджанский Государственный Аграрный Университет**

**Резюме:** В статье представлена методика определения качества кормов, приготовленных на установке для приготовления концентрированной кормосмеси. Здесь указано что, одним из показателей механической прочности готового корма является его коэффициент относительного упругого расширения, и, что после выхода корма из матрицы он расширяется за счет потенциальной энергии, накопленной в результате деформации. Для определения степени распределения смеси микроэлементов в концентрированной кормосмеси использовали раствор комплекса микроэлементов (Премикс П 60-6М) с известным содержанием белка (182 г на 1 кг). Однородность корма характеризуется стандартным отклонением концентрации любого компонента в пробе, взятой из кормовой смеси, или его относительной величиной - коэффициентом вариации. Был использован метод для определения однородности состава сильно перемешанного корма, приготовленного в экструдере.

***Ключевые слова:*** Концентрированная кормосмесь, однородность, коэффициент расширения, микроэлемент, проба, суточный рацион, компонент, коэффициент вариации.

## METHODOLOGY FOR DETERMINING THE MAIN INDICATORS OF THE QUALITY OF THE FINISHED CONCENTRATED FEED MIXTURE

**G.M.Allahverdiyeva,**
**Master V.T.Asgarov**
**Azerbaijan State Agrarian University**

**Summary:** The article presents a methodology for determining the quality of feed prepared at the installation for the preparation of a concentrated feed mixture. It is indicated here that one of the indicators of the mechanical strength of the finished feed is its coefficient of relative elastic expansion, and that after the feed leaves the matrix, it expands due to the potential energy accumulated as a result of deformation. To determine the degree of distribution of a mixture of trace elements in a concentrated feed mixture, a solution of a complex of trace elements (Premix P 60-6M) with a known protein content (182 g per 1 kg) was used. Uniformity of feed is characterized by the standard deviation of the concentration of any component in a sample taken from the feed mixture, or its relative value - the coefficient of variation. The method was used to determine the uniformity of the composition of highly mixed feed prepared in an extruder.

***Keywords***: Concentrated feed mixture, homogeneity, expansion coefficient, trace element, sample, daily ration, component, coefficient of variation.

# AZƏRBAYCANDA BALIQÇILIQ SƏNAYESİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**L.R.Eyyubova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

Hazırda respublikamızın istehlak bazarında bir sıra xarici ölkələrdən idxal olunan müxtəlif çeşiddə ərzaq məhsulları, o cümlədən balıq və balıq məhsulları realizə olunur. Balıqçılıq sənayesi Azərbaycanın milli iqtisadiyyatının ən qədim sahələrindən biridir və ümumi gəlirdə neft sənayesindən sonra 2-ci yeri tutur. Azərbaycanın müstəqil dövlət kimi gələcək inkişafının əsas istiqamətlərindən biri ərzaq bolluğunu yaratmaq, əhalinin balıq və balıq məhsullarına olan tələbatının il boyu ödəmək və bu məhsulların bioloji dəyərliliyini yüksəltməkdən ibarətdir. Belə ki, balıq ovu 2018-ci ildə 9443, 2019-cu ildə 19153, 2020-19122 min ton, ixrac isə müvafiq olaraq 24;21,1;20,2 min ton olmuşdur. Nərə balığı ailəsinin balıq və balıq məhsulları həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda ən qiymətlidir.

Yeyinti məhsulları içərisində balıq məhsulları böyük əhəmiyyət kəsb edir. Balıq əti dadlı və şirəli olmaqla bərabər orqanizmdə çox tez həzm olunur (96-97%). Balıq və balıq məhsulları digər heyvan mənşəli zülallı məhsullara nisbətən iqtisadi cəhətdən daha sərfəlidir. 1 kq treska zülali eyni miqdarda toyuq zülalından 6 dəfə, inək və qoyun zülalından 3 dəfə ucuzdur. Balıqda olan zülali maddələrin əsas yeyinti dəyəri ondan ibarətdir ki, onların tərkibində insan orqanizminə lazım olan bütün əvəzedilməz aminturşuları arginin, histidin, izoleysin, leysin, lizin, metionin, fenilalanin, treonin, triptofan və s. vardır. Yeyinti məhsulları içərisində balıq əhəmiyyətli yerlərdən birini tutur. Balıq əti dadlı və şirəli olmaqla bərabər, həm də insan orqanizmi tərəfindən asan həzm olunur. Nərə balıqları dənizdə yaşayan və çay sularında kürü tökən anadrom balıqların kommersiya, tədqiqat və ölkə təsərrüfat əhəmiyyəti olan ən qədim növlərindən biridir. Nərə balıqlarının ətinin zərif və şirəli dadına görə konservləşdirilir, soyudulur, dondurulur, hisə verilir, onlardan kürü hazırlanır, həmçinin yapışqan, viziq, hətta dəri və dərman istehsalı üçün xammal kimi də xidmət edir. Nərə balıqlarının qida dəyəri, ilk növbədə, onların yüksək həzm olunmasındadır. Məsələn, orqanizm soyutma balığı 1,5 saatdan, yumurta, süd, ağ çörək, qızardılmış kartofu 2-3,5 saatdan, dana ətini 4 saatdan, inək ətini 5 saatdan, qızardılmış ördək ətini isə 7 saatdan sonra həzm edir. Qidada amin turşuların olmaması və ya az olması müxtəlif xəstəliklər törədir. Insan orqanizmində balıq yağının təqribən 96,7%-i həzm olunur. Balıq yağının 20-30 %-i doymuş, 70-80% -i isə doymamış yağ turşularından ibarətdir. Doymamış yağ turşularından linol, linolen və araxidon çox böyük bioloji və müalicə qabiliyyətinə malikdir. Onların bərk yağlara nisbətən qidalılıq dəyəri daha yüksəkdir. Balıq yağının fizioloji və bioloji əhəmiyyətindən başqa energetik cəhətdən də çox qiymətli yeyinti məhsuludur. 1 qram balıq yağı insan orqanizmində oksidləşərkən 9,5 kkal və ya 39,71 kC istilik əmələ gətirir. Təzə və yaxud soyudulmuş, dondurulmuş balıqdan ev şəraitində, ictimai yeməkxanalarda (aşxana, restoran və s.) lazımi kulinariya məmulatı hazırlamaq olur. Təzə, soyudulmuş və dondurulmuş balıqdan hazırlanan yeməklər yüksək keyfiyyətli olmaqla bərabər həm də insan orqanizmi tərəfindən tez həzm olunur. Buna görə də adambaşına düşən balıq və balıq məhsulları normasının 80%-i təzə, soyudulmuş və dondurulmuş balığın payına düşür.

Xülasə: Azərbaycanda balıqçılıq sənayesinin ümumi xarakteristikası göstərdiki adambaşına düşən balıq və balıq məhsulları normasının 80%-i təzə, soyudulmuş və dondurulmuş balığın payına düşür.

**ОБЩАЯ ХАРАКТЕРИСТИКА РЫБНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА**

**L.R.Эюбова**

**Резюме:** Общая характеристика рыбной промышленности в Азербайджане показывает, что 80% нормы вылова рыбы и рыбных продуктов на душу населения приходится на свежую, охлажденную и мороженую рыбу.

**GENERAL CHARACTERISTICS OF THE FISH INDUSTRY IN AZERBAIJAN**

**L.R.Eyyubova**
**Azerbaijan State Economic University**

**Summary:** The general characteristics of the fishing industry in Azerbaijan show that 80% of the per capita norm of fish and fish products falls on fresh, chilled and frozen fish.

# FERMENT PREPARATLARINDAN İSTİFADƏ ETMƏKLƏ YABANI GİLƏMEYVƏLƏRDƏN ŞİRƏNİN ALINMASI

**prof. Ə.Ə.Nəbiyev, A.A.Hacıyeva, magistrant Ə.M.Qasımov**

**Azərbaycan Texnologiya Universiteti**

**ami2011.65@mail.ru**

Hazırkı dövrdə qida məhsulları istehsalında şirə çıxımının artırılması məqsədilə bitki əzintisinin emal edilməsində və onun şəffaflaşdırılmasının sürətləndirilməsində, oksidləşmə proseslərinin və mikroorqanizmlərin inkişafının aradan qaldırılmasında müxtəlif ferment preparatlarından geniş istifadə edilir.

Giləmeyvələrdən şirə alınarkən prosesin çox çətinliklə həyata keçməsinin əsas səbəbi onların tərkibində böyük miqdarda pektin maddələrinin olmasıdır. Pektin maddələri kolloid məhlullar əmələ gətirmə qabiliyyətinə malikdirlər ki, bu da şirənin ayrılmasını və onun daxilindən keçməsini çətinləşdirir və ya tamamilə mümkünsuz edir.

Şirə çıxımının artırılması üçün texnoloji emalda giləmeyvələrin pektolitik təsirə malik ferment preparatları ilə işlənməsi mərhələsi tətbiq edilir ki, bu da giləmeyvə xammalının bitki toxumasını yumşaldır, həmçinin onun hüceyrə keçiriciliyini yüksəldir, nəticədə şirə çıxımı artır, eyni zamanda alınmış şirənin özlülüyü aşağı düşür.

Yabanı itburnu giləmeyvəsinin kimyəvi tərkibinin analizinin nəticələri əsasında pektolitik və qlükanolitik təsirə malik ferment preparatları seçilmişdir: pektolitik enzim VİNOFERM zümex və *Брюзайм* BGX.

Ferment preparatları ilə emal edilməzdən qabaq giləmeyvələr xırdalanmış, sonra alınmış kütləyə fermentin təsirinin optimal şərti (45 0C) nəzərə alınmaqla 3 saat ərzində hidroliz emalını həyata keçirmək üçün müxtəlif qatılığa malik ferment preparatları əlavə edilmişdir.

Ədəbiyyat məlumatlarına əsaslanaraq giləmeyvələrin emalı üçün tətbiq edilən ferment preparatlarının qatılığı xammal kütləsinə görə 0,01÷0,04 % təşkil etmişdir. Qatılığı 0,04 %-dən yuxarı olan ferment preparatının əlavə edilməsi məsləhət görülmür. Ferment preparatı əziyə əvvəlcədən bir qədər isti su ilə seyrəkləşdirilmiş suspenziya halında əlavə edilmişdir. Suspenziya şirəyə bilavasitə əlavə edilərkən hazırlanır. Müəyyən edilmiş zaman aralığından sonra ferment enziminin aktivsizləşdirilməsi məqsədilə qarışıq 20 saniyə ərzində temperaturu 75 0C-yə qədər yüksəldilməklə saxlanılmışdır, sonradan şirə mexaniki presdən istifadə edilməklə ayrılmışdır. Giləmeyvələrin emalı zamanı ferment preparatının təsir effektivliyi şirə çıxımına görə qiymətləndirilmişdir. Nəzarət nümunəsi olaraq bütün şərtlər saxlanılmaqla ferment preparatı ilə işlənməmiş yabanı itburnu giləmeyvəsi götürülmüşdür.

Əldə edilmiş nəticələri nəzərə almaqla tədqiq edilən ferment preparatları əsasında multienzim kompozisiyalarının (MEK) modelləşdirilməsi aparılmışdır. Multienzim kompleksinin (MEK) formalaşdırılması zamanı, hər bir preparat ayrılıqda tətbiq edildiyi nisbətlə müqayisədə, əvvəllər tədqiq olunmuş ferment preparatlarının dozalaşdırılması 2 dəfə aşağı salınmışdır. Multienzim kompleksi 1 hissə *Брюзайм* BGX ferment preparatından və 1 hissə pektolitik enzim olan VINOFERM zymexdən hazırlanmışdır.

Müəyyən edilmişdir ki, yabanı giləmeyvələrin 1,5 saat ərzində multienzim kompleksi (MEK) ilə işlənməsi şirə çıxımının 17% artmasına gətirib çıxarır. Giləmeyvə xammalının kütləsinə nəzərən ferment kompleksinin 0,02% miqdarında götürülməsi daha yaxşıdır.

Sonrakı tədqiqatların məqsədi yabanı itburnu giləmeyvəsindən şirə alınarkən, həmçinin bioloji aktiv komponentlərin də tam şəkildə ayrılmasını həyata keçirmək üçün onun fermentlərlə işlənməsinin əsaslandırılması olmuşdur.

Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yabanı itburnu giləmeyvəsinin multienzim kompozisiyası ilə ilkin emalı faydalı bioloji aktiv maddələrin şirəyə keçməsini əhəmiyyətli dərəcədə artırır: belə maddələr C və P vitamini, üzvi turşular, karbohidratlardır ki, bunlar da şirənin qidalılıq dəyərini yüksəldir və onun texnoloji xüsusiyyətini şərtləndirir.

**Açar sözlər:** ferment preparatları, multienzim kompozisiyası (MEK), pektin maddələri, yabanı giləmeyvələr, şirə, bioloji aktiv komponentlər.

## ПРИМЕНЕНИЕ ФЕРМЕНТНЫХ ПРЕПАРАТОВ ПРИ ПОЛУЧЕНИИ СОКА ИЗ ДИКОРАСТУЩИХ ЯГОД

**проф. А.А. Набиев,**
**А.А. Гаджиева,**
**А.М. Касумов**
**Азербайджанский технологический университет**

Самым большим затруднением при выделении сока из плодов и ягод является, большое содержание пектинов в их составе. Для увеличения выхода сока применяется процесс обработки ягод пектолитическими ферментными препаратами, которые смягчают растительную ткань ягодного сырья, в результате чего увеличивается выход сока.

По результатам анализа химического состава плодов шиповника, выбраны ферментные препараты с пектолитическим и глюканолитическим действием: пектолитический энзим VINOFERM zymex, и Брюззайм BGX. С учетом полученных результатов, было проведено моделирование мультиэнзимный композиций (МЭК) на основе исследуемых ферментных препаратов.

Установлено, что проведение предварительной обработки дикорастущих ягод мультиэнзимным комплексом в течении 1,5 часов способствует увеличению выхода сока на 17%.

Исследования показали, что первичная обработка плодов шиповника мультиэнзимным комплексом значительно увеличивает переход полезных биологически активных веществ в сок.

**Ключевые слова:** ферментные препараты, мультиэнзимный композиции (МЭК), пектиновые вещества, дикорастущие ягоды, сок, биологические активные компоненты.

## THE APPLICATION OF ENZYMED PREPARATIONS IN PRODUCING JUICE FROM WILD BERRIES

**prof. A.A.Nabiyev,**
**A.A.Haciyeva,**
**A.M.Kasumov**
**University of Technology of Azerbaijan**

**Summary:** The biggest difficulty in extracting juice from fruits and berries is the high content of pectins in their composition. To increase the juice yield, the process of processing berries with pectolytic enzyme preparations is used, which softens the plant tissue of berry raw materials, as a result of which the juice yield increases.

Based on the results of the analysis of the chemical composition of rose hips, enzyme preparations with pectolytic and glucanolytic effects were selected: pectolytic enzyme VINOFERM zymex, and Bruzzyme BGX. Taking into account the results obtained, the modeling of multienzyme compositions (MEC) based on the studied enzyme preparations was carried out.

It was found that pretreatment of wild berries with a multi-enzyme complex for 1,5 hours increases the juice yield by 17%.

Researches have shown that the primary processing of rose hips with a multienzyme complex significantly increases the transfer of useful biologically active substances into the juice.

**Keywords:** enzyme preparations, multienzyme compositions (MEK), pectin substances, wild berries, juice, biological active components.

# PANDEMİYA DÖVRÜNDƏ BƏZİ MEYVƏ VƏ GİLƏMEYVƏLƏRİN İNSAN SAĞLAMLIĞINA TƏSİRİ

**prof. Ə.Ə.Nəbiyev, b.f.d. S.O.Qurbanova, İ.Ə.Kazımova**

**Azərbaycan Texnologiya Universiteti**

**qurbanova-sevda@inbox.ru**

COVID-19 pandemiyası insanların öz sağlamlıqlarına xüsusi diqqət yetirmələrinə təsir edir. Pandemiya şəraitində əhalini ekoloji cəhətdən təmiz meyvə və giləmeyvələrlə, onlardan hazırlanmış təbii şirələrlə təmin etmək günümüzün ən aktual problemlərindəndir. Tədqiqat obyekti ekoloji baxımdan təmiz qida məhsulları olan, ölkəmizin əksər rayonlarında geniş yayılmış üzüm, balqabaq, xurma, nar və itburnu meyvə və giləmeyvələridir. Onların tərkibi orqanizm tərəfindən asan mənimsənilən sadə şəkərlərlə, vitaminlərlə, üzvi turşularla, fenol birləşmələri ilə, mineral maddələrlə və digər insan orqanizmi üçün vacib olan bioloji aktiv qida komponentləri ilə zəngindir. Bu məhsulların əkilib-becərilməsi üçün ölkəmiz əlverişli torpaq-iqlim şəraitinə malikdir. Üzüm, balqabaq bostan tərəvəzi, xurma və nar əhalinin həyətyanı sahəsində də geniş yayılmışdır. İtburnu giləmeyvəsi isə ölkəmizin dağ, dağətəyi, çay sahilləirində bol ehtiyatı olmaqla keyfiyyətli qida məhsuludur. Ancaq hal-hazırda bu meyvə və giləmeyvələrdən sənaye üsulu ilə çox az qida məhsulları, həmçinin şirələr istehsal olunur. Ədəbiyyat materiallarının və apardığımız tədqiqat işinin araşdırılmasından məlum olmuşdur ki, balqabağın tərkibi β-karotinlə, mineral maddələrlə və digər qida komponentləri ilə zəngin olmasına baxmayaraq insan orqanizmi üçün vacib olan sadə şəkərlərlə, üzvi turşularla, fenol birləşmələri ilə, hətta C və P vitaminləri ilə o qədər də zəngin deyildir.[6] Ancaq üzüm, xurma pandemiya şəraitində insan sağlamlığı üçün vacib olan qlükoza və fruktoza ilə, fenol birləşmələrinin ayrı-ayrı nümayəndələri ilə, yodla, nar isə flavonoidlərin nümayəndəsi olan antosianlarla, alifatik və aromatik üzvi turşularla, itburnu giləmeyvəsi isə C vitamini ilə xeyli zəngindir. [3]

Sadə şəkərlər orqanizm tərəfindən asan mənimsənilir, onlar insanlarda əhval-ruhiyyənin yaxşılaşmasına müsbət təsir göstərir. O da məlumdur ki, meyvə və giləmeyvələrdə olan sadə şəkərlər fementativ hidrolizə məruz qalmır. Onlar birbaşa qana keçərək hüceyrələrin qidalanmasına sərf olunaraq, orqanizmin enerjiyə olan tələbatının ödənilməsində iştirak edirlər. Pandemiya dövründə insanların qida rasionunda qeyd olunan meyvə və giləmeyvələrin olmaslı olduqca vacibdir. Bu meyvələrin tərkibində olan bəzi üzvi və qeyri-üzvi maddələr yüksək antioksidant, antimikrob, hətta antivirus xüsusiyyətlərinə malikdirlkər. Qeyd olunan meyvə və giləmeyvələrin tərkibində təbii üzvi turşuların olması diqqəti cəlb edir. Narın, üzümün, itburnu meyvə və giləmeyvələrinin tərkibindəki üzvi turşular (limon, quzuqulaq, şərab, alma və s.) qanın şəffaflaşmasına, qan təzyiqinin normallaşmasına, orqanizmdə xolesterolun tənzimlənməsinə və digər faktorlara təsir göstərir. Ona görə də insanların gündəlik qidasında adları qeyd olunan meyvə və giləmeyvələrin və onlardan hazırlanmış şirələrin istifadəsi Covid-19 və digər infeksion xəstəliklərin müalicəsi üçün təbii dərman preparatı hesab olunur.

Xurma, nar, üzüm və onlardan hazırlanmış şirələrin tərkibində fenol birləşmələrinin olması insan orqanizminin normal həyat-fəaliyyəti üçün çox vacibdir. Bu birləşmələr yüksək antioksidant, antimikrob, antivirus, hətta antimutagen təsirə malik olmaqla yanaşı həm də qan dövranı prosesinin tənzimlənməsində, yaddaşın möhkəmləsində, yorğunluğun, baş ağrılarının aradan götürülməsində, insanların iş qabiliyyətinin səmərəliliyinin artmasında mühüm əhəmiyyət kəsb edirlər. [1,5] Fenol birləşmələri hətta orqanizmdən radiasiyanı xaric etməklə yanaşı, bəd və xoş xassəli şişlərin əmələgəlmə riskini xeyli azaldır. Ona görə də hazırda dünya alimləri pandemiyaya qarşı mübarizə aparmaq üçün xurma və nar şirəsindən daha çox istifadə olunmasını tövsiyyə edirlər. Bu əsas onunla əlaqədardır ki, hər iki meyvənin tərkibi fenol birləşmələri ilə zəngindir. [2] Xurma meyvəsi katexinlərlə, nar isə antosianlarla və onların aqlikonları olan pelarquanidin, sianidin, delfinidin və digərləri ilə zəngin olması ilə fərqlənir. İtburnu meyvəsi isə yüksək qandurulducu xassəyə malik olan C və P vitaminləri ilə zəngindir. [4]

İnsan orqanizminin normal fəaliyyəti üçün C vitamininin böyük əhəmiyyəti vardır. Bu vitamin orqanizmdə çatışmadıqda soyuğa qarşı davamsızlıq, yoluxucu xəstəliklərə, o cümlədən Covid-19 qarşı müqavimətin zəifləməsi, tez yorulma halları, ruh düşkünlüyü, ümumi zəiflik, iştahsızlıq, əsəbilik, hətta ürək döyüntüsünün artması və digər arzuolunmayan hallar baş verir. Son zamanlar dünya alimləri, həmçinin iki dəfə Nobel mükafatı laureatı amerika alimi Laynus Polinq müəyyən etmişdir ki, insan orqanizmində C və P vitaminləri çatışmadıqda yağların mübadiləsi pozulur ki, bu da qanda xolesterinin

miqdarca artmasına səbəb olur. Elə ona görə də hazırda ürək və şuntlama (damar dəyişmə) əməliyyatlarının, öddə daş xəstəliklərinin əhali arasında geniş yayılması qida rasionlarında C və P vitaminlərinin çatışmaması ilə izah olunur.

Balqabaq bostan tərəvəzi də orqanizm üçün çox əhəmiyyətlidir. Belə ki, onun tərkibində olan β-karotin A vitamininin provitamini, yəni əvəzedicisi hesab olunur. Orqaniuzmə qəbul olunan karotinlər A vitamininə çevrilirlər. İnsan orqanizmində A vitamini çatışmadıqda tez yorulma halları, arıqlama və iştah pozğunluğu əmələ gəlir ki, bu da orqanizmdə immun sistemin zəifləməsinə səbəb olur. [7]

Meyvə və giləmeyvələrin mineral maddələrlə zəngin olması çöx önəmlidir. Belə ki, mineral maddələr (K, Na, Ca, Mg, J və s.) orqanizmdə zülalların, fermentlərin, hormonların, vitaminlərin sintezində iştirak edirlər. İnsan orqanizmində Ca çatışmadıqda D vitamininin sintezi pozulur. D vitamini orqanizmdə çatışmadıqda isə sümüklər yumşalır və asanlıqla deformasiyaya uğrayırlar. Bu da qan dövranı prosesinə mənfi təsir göstərir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq pandemiya şəraitində infeksion xəstəliklərə qarşı mübarizə məqsədilə insanların gündəlik qida rasionunda vitaminlərlə, üzvi turşularla, fenol birləşmələri ilə, mineral maddələrlə zəngin olan meyvə və giləmeyvələrin istifadə olunmasını tövsiyyə edirik.

**Ədəbiyyat siyahısı:**

1.Dostiyari E.N., Nəbiyev Ə. Ə. Xurma meyvəsindən müxtəlif çeşiddə qida məhsulları istehsalı texnologiyasının tədqiqi / Monoqrafiya, Bakı, Elm,2011-180 səh.

2.Qurbanova S.O. Xurma meyvəsində bəzi biokimyəvi göstəricilərin tədqiqi // Gəncə, ATU, Elmi xəbərlər məcmuəsi, 2016, №1, səh. 66-69

3.Алексашина С.А., Макарова Н.В.Исследование химического состава и антиоксидантной активности моркови, свеклы и тыквы //Хранение и переработка сельхозсырья, Москва, 2016, № 6, стр. 29-32

4.Бабаева У.А. Исследование фенольных соединений соков из плодов хурмы// Пиво и напитки, Москва, 2013, №5, стр. 52-54

5.Набиев А.А., Аббасбейли А.Г., Кязимова И.Г., Касумова А.А. Исследование активности полифенолоксидазы при производстве коньячных винематериалов//Виноделие и виноградство, Москва, 2013, № 6, стр. 38-39

6.Кязимова И.А., Хусаинова И.Ю., Набиев А.А. Исследование технологии производство соков из тыквы, плодов хурмы и щиповника//М., Пищевая промыщленность, 2018, № 6,стр.53-55,

7.Кязимова И.А., Набиев А.А Производства купажированного сока функционального назначения// Беларусь, Могилев, МГУП, 2018, стр.149-150,

## ВЛИЯНИЕ НЕКОТОРЫХ ФРУКТОВ И ЯГОД НА ЗДОРОВЬЕ ЧЕЛОВЕКА В ПЕРИОД ПАНДЕМИИ

**проф.А.А.Набиев, б.ф.д. С.О.Курбанова, И.А.Кязимова**
**Азербайджанский технологический университет**

**Резюме:** Продукты, которые значительно богаты фенольными соединениями, а также витаминами С и Р, имеют большое значение для поддержания здоровья в целом и для деятельности иммунной системы. Эти вещества в фруктах и ягодах подавляют активность не только окислительных ферментов, но и ферментов других классов. А это способствует эффективному замедлению развития микроорганизмов, в том числе коронавируса.

Для борьбы с инфекционными заболеваниями в условиях пандемии рекомендуем населению включать в свой ежедневный рацион экологические чистые фрукты и ягоды, которые богаты витаминами, органическими кислотами, особенно фенольными соединениями и минеральными веществами.

## EFFECTS OF SOME FRUITS AND BERRY ON HUMAN HEALTH DURING THE PANDEMY

**prof. A.A.Nabiyev, b.f.d S.O.Gurbanova, I.A.Kazimova**
**Azerbaijan Technological University**

**Summary:** Foods that are rich in phenolic compounds as well as vitamins C and P are essential for maintaining overall health and for the functioning of the immune system. These substances in fruits and berries suppress the activity of not only oxidative enzymes, but also enzymes of other classes. And this helps to effectively slow down the growing of microorganisms, including coronavirus.

To fight infectious diseases in a pandemic, we recommend that the population include organic, pure fruits and berries that are rich in vitamins, organic acids, phenolic compounds and minerals in their daily diet.

# YABANI BİTKİLƏRİN QİDA SƏNAYESİNDƏ İSTİFADƏ İMKANLARININ ARAŞDIRILMASI

**M.M.Tağıyev**

**Azərbaycan Texnologiya Universiteti**
**merdanaztu@mail.ru**

Qida, o cümlədən yabanı bitki ehtiyatlarının aşkarlanması, onlardan səmərəli istifadə edilməklə yeni çeşidli məhsullar istehsalında tətbiqi günün ən aktual məsələlərindən biridir. Dünyada ərzaq çatışmamazlığının höküm sürdüyü bir dövürdə yabanı faydalı bitkilərin ayrı-ayrı növlərinin müəyyənləşdirilməsinə, onların faydalı xüsusiyyətlərinin öyrənilərək istehsala tətbiq edilməsinə diqqət artırılmalıdır. Çünki, pandemiya şəraitində insanların uminetitetinin qorunub saxlanılmasında bu bitkilərin rolu xüsusi əhəmiyyətə malikdir. Bu bitkilər təbii antioksidantlarla, vitaminlərlə, makro- və mikroelementlərlə, üzvi turşularla çox zəngin olduqlarından, insan orqanizmində baş verən maddələr mübadiləsinin tənzimlənməsində xüsusi əhəmiyyət kəsb edirlər. Bu baxımdan yanaşdıqda Azərbaycan florasında mövcud olan yabanı bitkilər barədə məlumatların araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu bitkilərin bəziləri mövsümə uyğun olaraq əhali tərəfindən qidalanmada istifadə olunur. Ona görə də bu bitkilərin faydalı xüsusiyyətlərinin araşdırılması və istehsala tətbiqi maraq doğurur.

Yazın ilk aylarında yerli əhali tərəfindən istifadə olunan belə bitkilərdən biri gicitkəndir. Araşdırmalardan məlum olur ki, gicitkənin tərkibində bütün vitaminlər, makro- və mikroelementlər, fitonsidlər, taninlər mövcuddur. Ədəbiyat məlumatlarına görə gicitkənin tərkibi C,A,K vitaminləri, maqnezium, kalium və dəmirlə zəngindir. C vitamininin miqdarı limonun tərkibində olandan 2,5 dəfə çoxdur [5]

Enliyarpaq bağayarpağı əsasən insanlar tərəfindən irinli yaraların sağaldılmasında istifadə olunur. Mədəsində problemi olan insanlar təzə bağayarpağını yeməklə problemlərini həll edirlər.Təzə enliyarpaq bağayarpağının tərkibində 20% azotlu maddələr, flavanoidlər, limon və olen turşusu vardır ki, bu da bitkinin istifadə imkanlarını genişləndirir. Bağayarpağının yarpaqlarında C, A, K vitaminləri vardır [3.s.23].

Azərbaycanda çox istifadə olunan yabanı bitkilərdən biri də əvəlikdir. Qafqazda 25, azərbaycanda 17 növü bitir. Tərəvəz bitkisi kimi geniş istifadə edilən adi və yumrukök növləridir. Tərkibi C, A, E, PP və B qrup vitaminləri ilə zəngindir. Antioksidant təsirə malik bu bitkinin tərkibində olan C vitamini limonda olduğundan çoxdur. Kökündə nişasta, şəkər, C vitamini var. Fosfor və dəmirlə zənginliyi əvəliyin faydasını daha da artırır.

Əhali tərəfindən əvəliyin təzə dərilmiş yarpaq və dəmləməsindən laxlayan dişlərin dibinin möhkəmləndirilməsində, daxili qanaxmalarda, bədxassəli şişlərin, gec sağalan kəskin irinli yaraların müalicəsində, yaşıl hissəsinin şirəsindən isə qızdırma, zəhərlənmə əleyhinə geniş istifadə olunur [2, 4].

Yovşan (Artemisia) yunan sözü olan «artcmiziya»dan götürülərək «sağlam», «güclü» deməkdir. Bu, onun müalicəvi təsirə malik olduğunu göstərir. Yovşanın dünyada 400-dən artıq növü yayılmışdır. Azərbaycanda 16 növünə rast gəlmək olar. Adi yovşan, müalicə yovşanı, açı yovşanın istifadəsi maraq doğurur.

Adi yovşanın cövhərindən günvurmada, mədə-bağırsaq, qızdırma, böyrək xəstəliklərinin müalicəsində, qızardılmış və yağlı xörəklərin, xüsusilə də ördək və qaz ətlərinin yeyilməsində istifadə olunur.

Müalicə yovşanının cavan zoğlarından alınan efir yağından qənnadı və likör məmulatlarına xoş iy və dad verilmək üçün istifadə olunur. Xörəklərin və ət məhsullarının tərkibinə yovşandan hazırlanmış cövhər əlavə edildikdə onların saxlanma müddətini artırmaq mümkündür.

Dərmanşiinas ali Loniçerus müxtəlif xörəklərin tərkibinə azacıq da olsa acı yovşan- əlavə edilməsini məsləhət görür. Onun fikrincə o qidanın tez həzm olunmasına, həm də zəhərli maddələrin öd kisəsindən qovulmasına köməklik edir. İbn Sina yovşanın ödqovucu, sidıkqovucu və titrəmə əleyhinə vasitə olduğunu, həmçinin acı yovşanla hazırlanan düyüyə bal qatmaqla, qurd

xəstəliyi və göbələklə zəhərlənməni müalicə edildiyini qeyd edir. Acı yovşanın tərkibində 11,6-24,5% tuyil spirti, tyuon, fellendren, santonin, pinen, 24,1-35,2% tuyilasetat, kadenin, 0,25% siril, izovalerian və palmitin turşuları, 12 mq % karotin, 175 mq% C vitamini, inulin, aşı maddəsi və s. vardır [1.s. 264-271].

Beləliklə, apardığımız təhlillərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycan ərazisində yayılmış gicitkəndən, enliyarpaq bağayarpağıdan, əvəlikdən, yovşandan istifadə edilməklə müalicəvi və funksional əhəmiyyətli kombinəedilmiş dəmləmələr və uzunmüddətli saxlanmaya davamlı balzam tipli içkilərin hazırlanmasında istifadə etmək mümükündür.

**Ədəbiyat siyahısı:**

1. Qasımov M, Qədirova G. Ədviyyat və yabanı tərəvəz bitkilərinin ensiklopediyası / Mayis Qasımov, Gülər Qədirova. Bakı: «Elm», ABU, 2004,-592 səh.
2. Həsənov Ə.Əvəlik bitkisi haqqında nə bilirik.Şərq qapısı. Gündəlik ictimai-siyasi qəzet. 06.06.2013. http://serqqapisi.az/index.php/iqtisadiyyat/1520-aevaelik-bitkisi-hazhzh-nda-nae-bilirik
3. Демьянова, Е.И. Ботаническое ресурсоведение: учеб. пособие по спецкурсу / Е.И. Демьянова; Перм. гос. ун-т. – Пермь, 2007. – 172 с.
4. https://news.milli.az/health/760718.html
5. https://www.dw.com/ru/svezhie-sornjaki-k-vashemu-stolu-chto-rekomenduet-nemeckij-jekspert/a-57646412

## ИЗУЧЕНИЕ ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ДИКОРОСОВ В ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

**М.М.Тагиев**
**Азербайджанский технологический университет**
**merdanaztu@mail.ru**

**Резюме:** Обобщая результаты исследования можно прийти к выводу, что из произрастающих на территории Азербайджана крапивы, широколиственного подорожника, щавеля и горькой полыни можно приготовить комбинированные настои лечебного и функционального значения, а также возможно использовать их для приготовления напитков типа бальзама, устойчивого длительному хранению.

## STUDYING THE POSSIBILITY OF USING WILD IN THE FOOD INDUSTRY

**Mardan Maharram Tagiyev**
**Azerbaijan Technological University**
**merdanaztu@mail.ru**

**Summary:** Summarizing the results of the study, we can conclude that from the nettle, broad-leaved plantain, sorrel and bitter wormwood growing in Azerbaijan, it is possible to prepare combined infusions of therapeutic and functional value, and it is also possible to use them for making drinks like a balsam that is stable for long-term storage.

# PANDEMİYA DÖNƏMİNDƏ İNSAN SAĞLAMLIĞINA TƏSİR EDƏN AMİLLƏR

**dos.E.Ə.Bayramov**
**Azərbaycan Texnologiya Universiteti**
**eldaniz@rambler.ru**

Koronavirus pandemiyası dönəmində Azərbaycan əhalisinin sağlamlığının qorunması və yaxşılaşdırılması aktual xarakter daşıyır. Bununla əlaqədar məqalədə pandemiya dönəmində insan sağlamlığına təsir edən neqativ və fiziki amillər nəzərdən keçirilmiş, sağlam qalmaq üçün tövsiyələr və qidalanmanın bəzi şərtləri verilmişdir.

Pandemiya ilə mübarizədə Azərbaycan dövlətinin anti-böhran siyasətində kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur [1]. Koronavirus infeksiyası ilə mübarizə Azərbaycanın səhiyyə sisteminin də diqqət mərkəzində durur. Bu istiqamətdə səhiyyə işçiləri və bir çox mütəxəssislər çalışır. Lakin pandemiya dönəmində sağlam həyat tərzi öz mahiyyətini itirmir. Çünki sağlam həyat tərzi insanın istənilən infeksiyaya qarşı müqavimətini artırır [2].

Yada salaq ki, koronavirus infeksiyası hava-damcı yolu ilə danışarkən, asqırma və öskürmə zamanı ötürülür. Özünü təcrid şəraitində bir çox insanlarda həyat tərzi dəyişir: fiziki fəallıq azalır, qidalanma normadan artıq olur, yuxu rejimi pozulur, bir çox insanlarda psixiki durum pisləşir. Ona görə koronavirus pandemiyası dönəmində insan sağlamlığına təsir edən amillərin öyrənilməsi aktual xarakter daşıyır.

**İşin məqsədi** – pandemiya dönəmində insan sağlamlığına təsir edən amillərin tədqiqidir.

**Tədqiqat obyekti** – insanın sağlamlığıdır.

**Qarşıya qoyulan məsələlər:**

-insan sağlamlığına təsir edən neqativ amillərin öyrənilməsi;
-insan sağlamlığına təsir edən fiziki amillərin öyrənilməsi;
-pandemiya dönəmində özünütəcrid şəraitində sağlam qalmaq üçün tövsiyələrin sistemləşdirilməsi.

Sağlam həyat tərzi ictimai-iqtisadi formasiyada insanların həyat fəaliyyətinin bütün əsas formalarının məcmusu və onların fəaliyyəti prosesində yaranan münasibətlər kompleksidir ki, bunların vasitəsilə insanlar öz tələbatlarını ödəyir.

İnsanın sağlamlığına təsir edən neqativ amillər aşağıdakılardır [3]:

-siqaret çəkmək, alkoqoldan sui-istifadə etmək;
-həddindən artıq yemək, düzgün qidalanmamaq, şəxsi gigiyenaya riayət etməmək;
-hipodinamiya, stress;
-zərərli vərdişlər və başqa amillər.

İnsanın sağlamlığına təsir edən fiziki amillər aşağıdakılardır:

-havanın temperaturu, rütubəti və hərəkət sürəti, ekologiya, iqlim;
-istilik şüalanması; radiotezlik diapazonunda elektromaqnit şüalanması;
-elektromaqnit sahəsi, sənaye tezlikli elektrik və maqnit sahələri;
-ultrasəs, infrasəs, vibrasiya, işıqlanma, səs-küy və başqa amillər.

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, insanların sağlamlığını təmin edən amillərin payı müxtəlifdir (şəkil).




Şəkil. Sağlamlığın amilləri.

Bizim respublikamızda əhalinin sağlamlığı Səhiyyə sistemi ilə də müəyyən edilir. İnsanların sağlam olmasında səhiyyənin rolu 10%-dir. İnsan orqanizminin sağlamlığı irsiyyətlə müəyyən edilir, yəni valideynlərimiz öz orqanizmlərinin xüsusiyyətlərini, məsələn, saçlarının, gözlərinin, dərilərinin rəngini, eləcə də sağlamlığımızı təmin edən xüsusiyyətləri də bizə ötürürlər. Bundan başqa insanın vərdişləri də müəyyən dərəcədə sağlamlığa təsir edir. Ekologiya, yaşayış yerinin iqlimi, maddi-rifah halı insanların sağlam olmasında müstəsna rol oynayır.

Hər bir insan özünəməxsus həyat tərzi sürür. Məsələn, bəzi insanlar tez yatır və tez durur, bəziləri əksinə, gecə yarısına kimi oturmağı və səhərə yaxın uzunmüddətli yatmağı xoşlayır. Elə insanlar var ki, aktiv həyat sürməyi, piyada gəzməyi, bəziləri isə oturaq həyat sürməyi, televiziya proqramlarına baxmağı üstün tutur. Bəziləri həddən çox qidalanır, bəziləri isə pəhriz saxlayır. Bu cür yüzlərlə misallar göstərmək olar. Bir sözlə, insanlar nə edirsə, bu onların həyat tərzini əks etdirir. Şəkildən göründüyü kimi bütün amillərlə müqayisədə insanın sağlamlığına təsir edən əsas amil sağlam həyat tərzidir. Məhz sağlam həyat tərzi insanın normal fiziki inkişfaı, şəxsiyyət kimi formalaşması, intellektual səviyyəsinin yüksək və emosional vəziyyətinin rahat olması üçün lazım olan bütün şəraitlərdən ibarət olmalıdır. Bu da sağlamlığı qorumağa, insanlara öz məqsədlərinə çatmağa, planlarını uğurla həyata keçirməyə, qarşılaşdıqları çətinlikləri aradan qaldırmağa kömək edir.

Pandemiya dönəmində sağlam həyat tərzi fərqli olduğundan sosial görüşlər və fiziki aktivlik səviyyəsi azalır. Bu da fiziki və psixoloji sağlamlığa neqativ təsir edə bilər. Ona görə də pandemiya dönəmində özünütəcrid (evdə qal) şəraitində sağlam qalmaq üçün aşağıdakı tövsiyələrə əməl etmək məqsədəuyğundur:

**1.Fiziki fəallığınızı təmin edin.** Piyada yeriyin, yaxud 3-4 dəqiqəlik yüngül qimnastika ilə məşğul olun. Bu, əzələ gərginliyini aradan qaldırmağa, qan dövranını və əzələlərin işini yaxşılaşdrmağa kömək edir. Mütəmadi fiziki fəallıq yalnız bədən üçün deyil, həm də təfəkkür üçün faydalıdır. Fiziki fəallıq yüksək arterial təzyiqi aşağı salmağa, bədən çəkisinə nəzarət etməyə, ürək-damar, diabet, insult və müxtəlif xərçəng xəstəliklərinin yaranma riskini azaltmağa kömək edir. Çünki bu xəstəliklər COVİD-ə yoluxma ehtimalını daha da yüksəldir.

**2.Psixiki durumunuza diqqətlə yanaşın.** Gündəlik rejimə maksimum riayət edin, yaxud yeni gündəlik rejim yaradın. Stress yaradan xəbərlərə az qulaq asın. Yaxınlarınızla telefon və ya İnternetlə əlaqə saxlayın. Sosial şəbəkələrdə optimist və pozitiv məlumatlar yayın. Ehtiyacları olan insanlara qida məhsulları almağa kömək edin.

**3.Sağlam qidalanmaya fikir verin.** Müxtəlif qidalar, o cümlədən meyvə və tərəvəzlər yeyin (sitrus meyvələri, qara qarağat, üzüm, xurma, çaytikanı, itburnu, kələm, zəncəfil, sarımsaq, soğan və antioksidant tərkibli digər məhsullar). Taxıl bitkilərindən alınan məhsullarla (buğda, qarğıdalı, düyü, mərcimək, lobya) qidalanın. Duzdan (sutkada 5 q), duzlu souslardan (balıq sousu, soya sousu, bulyon əsaslı sous) az istifadə edin. Tərəvəzlərdən duzsuz hazırlanmış konservlərdən, təzə tərəvəzlərdən və ədviyyələrdən istifadə edin. Tərkibində natrium xlorid az olan məhsullara üstünlük verin. Yagdan az miqdarda istifadə edin. Ağ ət sortlarına (balıq, quş əti), yağsız və yağlılığı az olan süd və süd məhsulları ilə qidalanın. Şirniyyatlardan, qızardılmış və təkrar emal edilmiş məhsullardan uzaq durun. Buxarla, yaxud suda bişirilən yeməklərdən yeyin. Şəkərin qəbulunu məhdudlaşdırın. Qazlaşdırılmış suların, meyvə şirələri və içkilərinin, dadverici əlavəli suların, konsentratların, energetik, idman, çay və qəhvə içkilərinin, dadverici əlavəli süd məhsullarının istehlakını məhdudlaşdırın. Orqanizmin optimal fəaliyyətini təmin etmək üçün suyu kifayət qədər için. Alkoqoldan uzaq durun. Alkoqol sağlam qidalanmanın elementi hesab edilmir və COVİD infeksiyasından qorumur, əksinə, təhlükəli ola bilər. Körpələrin ana südü ilə qidalanmasını təmin edin. Ana südünün tərkibində olan anticisimlər körpələri geniş yayılmış bir çox xəstəliklərdən qoruyur.

**4.Siqaretdən uzaq durun.** Siqaret çəkənlərin koronavirusla yoluxma riski daha yüksəkdir, çünki onlar tez-tez barmaqları ilə dodaqlarına toxunurlar. Bundan başqa siqaret ağ ciyərlərin fəaliyyətini çətinləşdirir, COVİD xəstəliyinin ağır formalarının yayılmasına səbəb olur.

Beləliklə, ədəbiyyatların və internet mənbələrinin verilənlərinə əsasən tərəfimizdən analitik sistemləşdirmə aparılmış və belə nəticəyə gəlinmişdir ki, pandemiya zamanı özünütəcrid şəraitində

sağlam olmaq üçün insanlar fiziki fəallıqlarını təmin etməli, psixiki durumlarına diqqətlə yanaşmalı, sağlam qidalanmaya riayət etməli, bitki mənşəli məhsullara, o cümlədən meyvə-tərəvəzlərə üstünlük verməli, siqaretdən uzaq durmalıdırlar. Bu istiqamətdə tədqiqatlarımız davam edir.

**Açar sözlər:** pandemiya, koronavirus, sağlamlıq, qidalanma, qida məhsulları.

### Ədəbiyyat siyahısı:

1. Əliyev S., Çıraqov E. Pandemiya ilə mübarizədə dövlətin anti-böhran siyasəti ictimai rəydə / Azərbaycan barometri №6 (10), 2020. – 104 s.
2. Всемирная организация здравоохранения. https://www.who.int/ru/campaigns/connecting-the-world-tocombatcoronavirus/healthyathome?
3. Учреждение здравоохранения «Жодинская центральная городская больница» http://www.zhcgb.by/koronavirusnaya-infektsiya-covid-19/1466-pitanie-v-period-covid-19

## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ЗДОРОВЬЕ ЧЕЛОВЕКА В ПЕРИОД ПАНДЕМИИ

**доц.Э.Э.Байрамов**
**Азербайджанский технологический университет**
**eldaniz@rambler.ru**

**Резюме:** Проблема сохранения и улучшения здоровья населения Азербайджана в период пандемии является актуальным. В связи с этим в данной работе рассматриваются негативные и физические факторы влияющие на здоровье человека в период пандемии, приведены рекомендаци для сохранения здоровья и некоторые условия питания.

**Ключевые слова:** пандемия, коронавирус, здоровье, питание, продукты питания.

## THE USE OF FLOUR FROM PUMPKIN SEEDS IN THE PRODUCTION OF BREAD PRODUCTS FOR HEROIC PURPOSES

**Associate Professor E.E.Bayramov**
**Azerbaijan Technological University**
**eldaniz@rambler.ru**

**Summary:** The problem of maintaining and improving the health of the population of Azerbaijan during a pandemic is urgent. In this regard, this work examines the negative and physical factors affecting human health during a pandemic, provides recommendations for maintaining health and some nutritional conditions.

**Key words:** pandemic, coronavirus, health, nutrition, food products.

# ИННОВАЦИОНЫЕ ТЕХНОЛОГИИ В ПИТАНИИ

**А.А. Касумова**

**Азербайджанский технологический университет**
**afet-kasumova@rambler.ru**

В последнее время во всех сферах жизнедеятельности применяются инновационные технологии. Применение инновационных технологий в сфере питания относится к концу 20-го века. На основе проведенных исследований было выявлено, что предприятия питания можно классифицировать по ряду признаков, характеризующих степень использования инноваций. К первому классификационному признаку можно отнести способы обслуживания. Рассмотрим некоторые из них.

Таблет-питание представляет собой принцип раздачи блюд, позволяющий проводить все необходимые манипуляции с едой на кухне заблаговременно, а не во время раздачи. Температура для каждого блюда поддерживается индивидуально благодаря встроенному аккумулятору и термопластинам, реагирующим на температуру тарелки и сохраняющим ее постоянной [1]. Данное новшество особо популярно заграницей, применяется в больницах и детских садах. Из результатов исследований стало известно, что данную инновационную технологию можно внедрить и в ресторанах отелей, и в больницах, и в детских садах, а также во многих учреждениях питания.

Фрэш-бар – формат бара, меню которого основано исключительно на безалкогольных, легких напитках. В ассортименте бара могут присутствовать свежевыжатые и охлажденные соки.

Кейтеринг - система организации обслуживания чаше всего вне помещений предприятия питания. Наиболее характерными примерами такого обслуживания являются организация пикников, банкетов, фуршетов, свадеб и т. п. мероприятий, когда для их организации и проведения приглашаются профессиональные менеджеры [2,3].

Появление новых форматов в питании неразрывно связано с разработкой новых технологий обработки сырья и полуфабрикатов и использованием инновационного оборудования, например, позволяющего при повышении давления в процессе приготовления пищи сократить время приготовления блюд. Эта технология позволяет сохранить максимальное количество витаминов и питательных веществ, содержащихся в исходных продуктах.

Касательно инновационных технологий приготовления блюд, то к ним можно отнести молекулярную кухню, особенность которой состоит в соединении продуктов питания, новейшей технологии и молекулярной химии; фудпейринг- методика, основанная на сочетании различных продуктов, обладающих общим вкусовым компонентом; фьюжн- кулинария– система, основанная на смешивании стилей традиционных кулинарных предпочтений. Карвинг – это резная работа, орнамент по овощам и фруктам, составление из них украшений для сервировки столов. Одним из последних нововведений является арт-визаж блюд или кулинарный визаж. Арт-визаж – кулинарное искусство профессионально украшать блюда [4,5] .

Для быстрого и эффективного процесса приготовления пищи разработана система Cook&Chill. Система позволяет готовить одновременно большое количество не только однородной, но и разнородной продукции. Затем эта продукция быстро охлаждается (с 65 до 10ºC) и хранится в холодильнике, пока не настанет пора его разогревать перед подачей.

Широко распространены и новейшие технологии в системе обработки продуктов. Технология Sous Vide позволяет приготовить блюда без воздуха, т.е. под вакуумом. Данная технология способствует получению продукции высокого качества, сокращению потерь при тепловой обработке и увеличению срока хранения продукции. На сегодняшний день является одной из главных инноваций в технологии приготовления блюд.

Механическая обработка пищевых продуктов осуществляется физическими или гидромеханическими способами обработки пищевых продуктов. К тепловой обработке пищевых продуктов относят варку, жарку, тушение. Аль-денте – варка овощей или макаронных изде-

лий не до конца, а с небольшим ощущением хруста. Новинки появились и среди технологий сохранения продуктов. Одна из них — CapCold, разработанная в США. Этот способ подразумевает варку на пару большого объема пищи и его быстрого охлаждения в барабанах с ледяной водой [6].

В настоящее время предприятия постепенно внедряют различные новейшие технологии, что позволяет удерживать и повышать уровень конкурентоспособности предприятия.

Подводя итоги, необходимо отметить, что важнейшим условием роста спроса на продукты, обслуживание, услуги предприятий питания является внедрение в систему инновационных технологий функционирования. Необходимо регулярное проведение данных мероприятий на предпрятиях питания, что обусловлено усилением конкуренции, изменением предпочтений потребителей, быстрым развитием науки, изменениями на этой основе технологий в различных сферах деятельности, высокими темпами роста рынка услуг. Перспективы инновационного обновления связаны с целенаправленными действиями органов государственного управления по созданию необходимых условий для активизации процесса путем разработки необходимых нормативных документов (концепций, программ), создания обучающих программ, тренингов для инновационного обновления мышления собственников, персонала, потребителей.

**Список литературы:**

1. Алексеева Д. А. Состояние и тенденции развития общественного питания в России // Научно-методический электронный журнал «Концепт». – 2016. – Т. 6. – С. 151–155.
2. Затуливетров А. Ресторан. С чего начать, как преуспеть. Советы владельцам и управляющим. - СПб.: Питер, 2008.
3. Федцов В.Г. Культура ресторанного сервиса: учеб. пособие. 2-е изд. - М.: Дашков и К, 2010.
4. Электронный источник: http://www.gks.ru/wps/wcm/ connect/ rosstat_main/ rosstat/ ru/statistics/ enterprise/
5. Электронный источник: http://tourlib.net/books_tourism/zorin10.htm
6.Электронный источник: http://almapharm.ru/2012/11/innovacii-v-obshhestvennompitanii/

## QİDALANMADA İNNOVASİYA TEXNOLOGİYALARI

**A.A.Qasımova**
**Azərbaycan Texnologiya Universiteti**
**afet-kasumova@rambler.ru**

**Xülasə:** Son zamanlar hər bir sahədə olduğu kimi qidalanmada və xidmət sahəsində innovasiya texnologiyalarının tətbiqi xüsusi önəm daşıyır. Qida və xidmət sektorunun inkişafı turizm sənayesinin də vüsət almağında xüsusi rol oynayır. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, qida setorunda son zamanlar tablet-qidalanma, freş-bar, keyterinq, karvinq, art-vizaj, “hazırla və soyut texnologiyası” (Cook&Chill) və su-vid (Sous Vide) texnologiyaları və xidmət formaları tətbiq olunur. Bu texnologiyalar və xidmət formaları hal-hazırda qida və restoran sektorunda tətbiq olunsa, bu, həm ölkəyə xarici turistlərin gəlməsini sürətləndirər, həm də dövlət büdcəsinin zənginləşməsinə şərait yaradar.

## INNOVATIVE TECHNOLOGIES IN NUTRITION

**A.A.Gasimova**
**Azerbaijan Technological University**
**afet-kasumova@rambler.ru**

**Summary:** Recently, as in any field, the application of innovative technologies in the field of nutrition and services is of particular importance. The development of the food and service sector also plays a special role in the expansion of the tourism industry. As a result of the research, it was found that the food set has recently been using tablet-feeding, fresh-bar, catering, carving, art-visage, "Cook & Chill" and Sous Vide technologies and forms of service. If these technologies and forms of service are currently applied in the food and restaurant sector, it will both accelerate the arrival of foreign tourists to the country and enrich the state budget.

# İTBURNU GİLƏMEYVƏSİNDƏN LƏTLİ ŞİRƏNİN HAZIRLANMASI

**A.A.Qasımova**
**Azərbaycan Texnologiya Universiteti**
**afet-kasumova@rambler.ru**

Məlumdur ki, mədəni bitkilərlə müqayisədə yabanı bitkilər, o cümlədən inanların gündəlik qida rasionuna daxil olan meyvə və giləmeyvələr ekoloji cəhətdən daha təmiz olur. Müasir dövrümüzün ən aktual problemlərindən biri də əhalimizi ekoloji baxımdan təmiz qida mıəhsulları ilə təmin etməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, ekoloji qeyri-təmiz məhsulların tərkibində elə üzvi və qeyri-üzvi maddələr olur ki, onlar insan orqanizmində müxtəlif fəsadların əmələ gəlməsinə şərait yaradırlar. Son 20 ildə insanların ekoloji cəhətdən qeyri-təmiz məhsullarla qidalanması ilə yanaşı, həm də ölkə ərazisinə xeyli çeşiddə geni dəyişdirilmiş qida məhsulları idxal olunur ki, insanlar da bu cür qida məhsulları ilə qidalanmağa məcburdurlar. Bu baxımdan da tədqiqat işində itburnu giləmevəsindən lətli şirə istehsalı texnologiyasının işlənməsi qarşıya məqsəd qoyulmuşdur.

Itburnu giləmeyvəsindən lətli şirə hazırlamaq üçün ilk əvvəl onun istehsalından ötrü texnoloji sxem işlənib hazırlanmışdır. Itburnu meyvəsindən lətli şirə istehsalı texnologiyasının hazırlanması cədvəl 1-də verilmişdir.

Emal məntəqəsinə gətirilmiş itburnu meyvəsi xüsusi texnoloji xətt üzrə emal olunur. Gətirilmiş itburnu giləmeyvəsi təmiz, içməli su ilə yuyulur. Kənar qarıııqlardan təmizlənir, sonra isti emala ötürülür. Qeyd etmək lazımdır ki, itburnu giləmeyvəsindən adi şəraitdə qeyri-şəffaf lətli şirənin ayrılması çətin olur. Ona görə də biz 85-950C temperturda 10-15 dəqiqə müddətində itburnu giləmeyvəsi isti üsulla emal edilir. Sonra sürtgəcləmə əməliyyatı aparılır və qarışdırılır, daha sonra homogenləşdirmə prossinə məruz qalır [2,3].

Cədvəl 1

İtburnu giləmeyvəsindən lətli şirə istehsalı texnologiyası

| **Əməliyyatlar** | **Təyinatı** | **Yerinə yetirmənin üsul və parametrləri** | **Tətbiq edilən avadanlıqlar** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| Giləmeyvə-nin qəbulu | Yararsız meyvələri ayırmaq | Çürümüş və kiflənmiş meyvələri (emala yararsız) ayırırlar | KKT-tipli yoxlama traspartyorları |
| Giləmeyvə-nin təmiz içməli su ilə yuyulması | Yapışmış torpaq hissəciklərini, mikroorqanizmləri, zəhərli kimyəvi maddələrin ayırmaq | İtburnu giləmeyvəsi (30-400C) isti suda isladılır, sonra yuyulur və duş altında yoxlanılır. | A9-KLB/2, A9-KLB/1 tipli yuma maşın |
| Giləmeyvə-nin kənar qarışıqlardan təmizlənməsi | Sonrakı emalları asanlaşdırmaq | İtburnu giləmeyvəsi qabıq hissəsi, toxumları və daxili örtüyü təmizlənir, saplağı kəsilir. | Xüsusi bıcaq,A9-KLM/4-2 tipli balqabaq doğrayan,barabanlı çubuqşəkilli toxum ayıran |
| Doğrama (xırdalama) | İstilik emalına hazırlamaq üçün | İtburnu giləmeyvəsi daha kiçik hissəciklərə xırdalanır | A9-KİC tipli doğrayıcı, İKM-5 |
| Pörtmə(buxara vermə) | Toxumanın yumşaldılması | Xırdalanmış itburnu giləmeyvəsi yumşalana qədər (həddən çox ötmədən) 90-950C-də 10-15 dəq ərzində buxarla işlənir. | Yumşaltma üçün A9-KİB/15, ikiseksiyalı şinekli pörtücü |
| Sürtgəcləmə | İçkinin əsas komponentinin hazırlanması | Pörtülmüş kütlənin ələk deşiklərinin diametri 1,5 və 0,7-0,5 mm olan ikili sütrgəc maşınından keçirilir. | Tİ-KP2D tipli ikili barabanlı sürtgəc maşını |
| Qarışdırma | Hazır məhsulun alınması | Hazırlanmış komponentlər resepturaya uyğun qarışdırılır. | M3C-320 tipli vakkum qızdırıcı |
| Homogenləşdirmə | Konsistensiyanı yüksəltmək, laylanmanın qarşısını almaq | Hazır qarışıq 15-17 MPa təzyiq altında homogenləşdirilir. | A1-OQM, A1-OQM-15 və s. tipli homogenizatorlar. |
| Havasızlaşdırma və qızdırma | Məhsula oksigenin mənfi təsirini azaltmaq üçün havanı kənarlaşdırırlar | Məhsul izafi təzyiqi 21,2-27,9 kPa –də dearasiya olunur və 800C-də qızdırılır | DPU-tipli dearator pasterizator |

| | | | |
|---|---|---|---|
| Qablaşdırma (doldurma) | Konservləşdirmə üçün taralara yığma, əmtəə və istehlaka rahatlıq yaratmaq | Hazırlanmış şirələr tutumu (həcmi) 3l-n çox olmayan şüşə bankalara qablaşdırılır | DH-2 tipli avtomat doldurucu |
| Bağlama (hermetikləşdirmə) | Xarici havanın və mikroorqanizmlərin məhsula düşməsini əngəlləmək | Doldurulmuş bankaların ağzı ağ dəmirdən hazırlanmış və laklanmış qapaqlarla bağlanır | Müxtəlif tipli bağlama maşınları |
| Sterilizasiya | Məhsulu xarab edəcək mikroorqanizmləri məhv etmək, fermentləri inaktivləşdirməklə, uzunmüddətli saxlamanı təmin etmək. | Sterilizasiya doldurmadan öncə, axınlı üsulla şirə boru-boru içərisində və ya seksiyalı fasiləsiz işləyən istilik dəyişdiricidə aparılır. Şirə 1250C-ə kimi qızdırılır və bu temperaturda 1 dəq saxlanılır, sonra temperaturu 96-980C-ə kimi endirilir və qablaşdırılır.Avtoklavda isə 1200 C-də 20-50 dəq müddətində yerinə yetirilir. | Boru-boru içərisində və ya seksiyalı istilikdəyişdirici. B6-KAB tipli avtoklav |

Pörtləmə əməliyyatı 10÷15 dəqiqə aparılır. Sonra isə sürtgəcləmə qurğusuna ötürülür. Pörtlədilmiş itburnu kütləsi ayrı-ayrılıqda ələk deşiklərinin diametri 0,5÷0,7 mm olan ikili sürtgəc maşınlarından keçirilir. Sonra sürtgəcdən keçirilmiş lətli şirə yaxşı qarışdırılır, homogenləşdirilir və qızdırılaraq xüsusi tutumlara yerləşdirilərək sterilizasiya olunur.

Apardığımız təcrübə nəticəsində məlum olmuşdur ki, itburnu meyvəsindən lətli hissəsindən şirə isti vəziyyətdə ayrılır. Itburnu meyvələrini əvvəlcədən isti usulla emal etməklə hazırlanmış qeyri-şəffaf şirənin tərkibində istinin təsirindən kolloid hissəciklər də xeyli az olur. İstehsal prosesində cecə hissə üzvi və qeyri- üzvi maddələrlə zəngin olduğuna görə ayrı-ayrılıqdda quruducu kameralarda qurudulur [1,5]. Bu zaman toxum hissə də ayrılır. Qurudulmuş cecə hissə üyüdülür qida və aqrar sənayenin müxtəlif sahələrində istifadə olunması tövsiyyə olunur. Itburnu meyvələrinin toxumunun tərkibində 7÷10%, hətta daha çox yağ olduğuna görə ondan sənaye üsulu ilə yağ almaq da mümkündür. Sonrakı mərhələdə ayrılmış qeyri-şəffaf şirəni şəffaflaşdırmaq üçün 1÷2% hesabı ilə bentonit suspenziya əlavə olunaraq şirə şəffaflaşdırılır. Şəffaflaşmış şirə çöküntüdən ayrılır, təmiz yuyulmuş qablara köçürülür, süzgəcdən keçirilərək 0÷10C temperaturda saxlanılır və qablara doldurulur.

İtburnu giləmeyvəsindən alınmış lətli şirə dequstasiya zamanı 8,1 balla qiymətləndirilmişdir [4].

**Ədəbiyyat siyahısı:**

1. Əhmədov, Ə.İ. Yeyilən bitkilərin müalicəvi xassələri / Bakı, İqtisad Universiteti nəşriyyatı, 2014.-468 s.
2. Fətəliyev, H.K. Bitkiçilik məhsullarının emalı və saxlanma texnologiyası/ Bakı: Elm, 2010, 432 s.
3. Məmmədov, Q.B. Qida məhsulları texnologiyasının prosesləri və aparatları / Bakı: Elm, 2014, 508 s.
4. Mikayılov, V.Ş. Qida məhsullarının dequstasiyası. / Bakı, Kooperasiya nəşriyyatı, 2012-384 s.
5. Nəbiyev, Ə.Ə., Moslemzadeh E.Ə. Qida məhsullarının biokimyası. /Bakı, Elm, 2008-444 s.

## ПРИГОТОВЛЕНИЕ СОКА С МЯКОТЬЮ ИЗ ЯГОД ШИПОВНИКА

**А.А.Касумова**
**Азербайджаский технологический университет**
**afet-kasumova@rambler.ru**

**Резюме:** Для обеспечения населения экологически безопасными продуктами важно использовать ресурсы, произрастающие на территории страны. Одним из таких важных ресурсов является шиповник. Из результатов исследования стало известно, что шиповник богат ценными пищевыми компонентами, и потому приготовление из него сока с мякотью будет способствовать использованию продуктов, приготовленных из этой ягоды в течение всего года.

## PREPARATION OF ROSEHIP JUICE WITH PULP

**A.A.Gasimova**
**Azerbaijan Technological University**
**afet-kasumova@rambler.ru**

**Summary:** To provide the population with environmentally safe products, it is important to use the resources that grow on the territory of the country. One of such important resources is rosehips. From the results of the study, it became known that rosehips are rich in valuable nutritional components, and therefore the preparation of juice with pulp from it will contribute to the use of products made from this berry throughout the year.

# AZƏRBAYCANDAN İXRAC OLUNAN MEYVƏ-TƏRƏVƏZLƏRİN EKSPERTİZASI

**t.f.d., dos.əv. U.Ə.Babayeva, magistr V.F.Ağayeva**

**Azərbaycan Texnologiya Universiteti**

**ulduz7475@yahoo.com**

Hər bir ölkənin dövlətçiliyi onun sərhədlərindən başlayır. Etibarlı gömrük xidməti isə

hər bir zaman dövlətçiliyin mühüm və əhəmiyyətli amillərindən biri hesab olunur. Ölkəmizdən ixrac olunan və ölkəyə idxal olunan malların keyfiyyəti və yararlılığı isə məhz gömrük orqanlarında aparılan düzgün nəzarətin nəticəsindən birbaşa asılıdır. Gömrük ekspertizasının əsas məqsədi dövlətin təhlükəsizliyinin, insanların həyat və sağlamlığının, heyvanların, bitkilərin, ətraf mühitin, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii tarixi və arxeoloji sərvətlərinin, ölkə istehlakçılarının mənafelərinin qorunması və s.-dir[5].

"Gömrük ekspertizasının aparılması Qaydaları" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bu Qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 322.15-ci maddəsinə əsasən hazırlanmışdır və gömrük ekspertizasının təşkili və aparılması, habelə mallardan prob və nümunələrin götürülməsi, onlar barəsində sərəncam verilməsi qaydalarını müəyyən edir [1].

Gömrükdən ixrac olunan meyvə-tərəvəz məhsullarının ekspertizası Mərkəzi gömrük laboratoriyası və onun yerlərdə olan şöbələrində həyata keçirilir. Mərkəzi Gömrük laboratoriyasının qida məhsullarının ekspertizası şöbəsinin fəaliyyət istiqamətlərindən biri də meyvə-tərəvəzlərin və onların emalı məhsullarının analizi adlanır. Gömrük nəzarətindən keçirilən meyvə-tərəvəz məhsullarının ekspertizasına ehtiyac olduğu təqdirdə aşağıdakı tədqiqat üsullarından istifadə edilir:

- Ölçü üsulu- fiziki parametrlərin təyin edilməsi (çəki, uzunluq, diametr və s.)
- Orqanoleptik üsul-hissiyat orqanları vasitəsilə (rəng. qoxu. konsistensiya, görünüş və s.)
- Alət üsulu- fiziki, kimyəvi. fiziki-kimyəvi parametrlərin təyini (rütubət, turşuluq, nəmlik və s.) [2].

Meyvə-tərəvəzlərin ekspertizası aparılarkən əsas кeyfiyyət göstəriciləri olaraq məhz onların xarici görünüşü (forması, rəngi, təzəliyi, yetişməsi, səthinin vəziyyəti),iriliyi (ölçüsü və ya кütləsi), yol verilən кənarlaşmalar, daha doğrusu qüsurları (zədələnmənin növü və dərəcəsi) və xəstəliкləri (baкterial, göbələк, fizioloji) müəyyən edilir [3, 4].

İki ilə yaxındır bütün dünyada, o cümlədən ölkəmizdə də narahatlıq yaradan pandemiya şəraiti bütün sahələrdə olduğu kimi gömrük məsələlərinə də ciddi təsir göstərmişdir. Ölkəmizdən bir sıra məhsullarla yanaşı xarici bazarlara meyvə-tərəvəz məhsulları ixrac olunur. Bu ölkələr içərisində əlbəttə ki, Rusiya ilk sırada durur. Beləki, Azərbaycanın kənd təsərrüfatı məhsullarının demək olar 80 faizi, pomidorun isə hətta 90 faizi Rusiyaya ixrac olunur.

Cədvəl 1. Azərbaycandan ən çox ixrac olunan meyvələr

| İxrac olunan meyvələr | Miqdar (kq) | Məbləğ-manat |
|---|---|---|
| Albalı | 36 324.00 | 99 251.32 |
| Alça | 367 027.00 | 386 701.73 |
| Alma | 209 816.00 | 128 377.90 |
| Armud | 61 231.00 | 72 909.78 |
| Çiyələk | 58 234.00 | 179 412.24 |
| Ərik | 108 798.00 | 149 559.58 |
| Gavalı | 71 107.00 | 73 108.97 |

Cədvəl 2. Azərbaycandan ən çox ixrac olunan tərəvəzlər

| İxrac olunan tərəvəzlər | Miqdar (kq) | Məbləğ-manat |
|---|---|---|
| Badımcan | 43 945.00 | 82 039.59 |
| Baş soğan | 2 525 904.00 | 1 780 925.89 |
| Çuğundur | 2 575.00 | 1 797.95 |

| | | |
|---|---|---|
| Kartof | 19 013 930.05 | 14 564 031.23 |
| Kələm | 119 552.00 | 81 779.34 |
| Pomidor | 16 362 242.00 | 25 987 157.01 |
| Qarğıdalı təzə | 15 200.00 | 15 524.98 |
| Sarımsaq | 47.00 | 382.70 |

Həmçinin əsasən xurma və fındıq ixrac məhsulları içərisində ön sıralarda gələnlərdir. "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin açıqladığı statistikaya əsasən 2019-cu ilin ilk 9 ay ərzində Rusiya və Qətərə bir sıra meyvə-tərəvəz məhsulları ixrac olunub. Cədvəllərdə həmin məhsulların adları, miqdarı və əldə edilən gəlir göstərilmişdir. Ölkəmizdən meyvə-tərəvəz məhsulları Rusiya ilə yanaşı, bir sıra MDB ölkələrinə, eyni zamanda Almaniya, Belçika, Böyük Britaniya. Fransa kimi Bir sıra Avriopa ölkələrinə ixrac edilir. Ümumilikdə bitkiçilik məhsulların sərhədlərin keçirilməsi zamanı əsas məsələlərdən biri isə fitosanitar nəzarətin aparılmasıdır. Beləli, Azərbaycan Respublikasından ixrac edilən bitki və bitkiçilik məhsullarının beynəlxalq standartların tələblərinə uyğunluğunu təmin etmək məqsədi ilə fitosanitar sertifikatlaşdırılması aparılır. Fitosanitar sertifikatlar və ya onların elektron əvəzediciləri beynəlxalq standartların tələbləri nəzərə alınmaqla tərtib edilməli və verilməlidir. Fitosanitar sertifikatlarda təsdiq edilməmiş dəyişiklik və düzəlişlərin aparılmasına yol verilmir [2].

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının Nazirlər Kabineti «Gömrük ekspertizasının aparılması Qaydaları»nın təsdiq edilməsi haqqında Qərar № 232 Bakı şəhəri, 27 avqust 2013-cü il.
2. Nuriyev S.Q., Şəkərəliyev A.Ş.,Əliyev A.Ə.,Əhmədov S.T. "Gömrük ekspertizası", Bakı-2003, 323 səh.
3. Əhmədov Ə.İ.,Əliyev .T."Meyvə və tərəvəzin əmtəəşünaslığı", Bakı-2009,438 səh.
4. Əhmədov.Ə.İ.,Musayev N.X. "Ərzaq mallarının eksperizası" I hissə, Bakı-2005, 467səh.
5. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. "Gömrük işinin təşkili və idarə edilməsi, Bakı-2015, 168 səh.


## ЭКСПЕРТИЗА ФРУКТОВ И ОВОЩЕЙ, ЭКСПОРТИРУЕМЫХ ИЗ АЗЕРБАЙДЖАНА

**К.э.н., доцент У.А.Бабаева,**
**Магистр В.Ф.Агаева**
**Азербайджанский технологический университет**
**ulduz7475@yahoo.com**

**Резюме:** Фрукты и овощи – основные продукты, экспортируемых из нашей страны в зарубежные страны. Азербайджан в основном экспортирует фрукты и овощи в Россию, страны СНГ, Бельгию, Германию и Францию. На первом месте среди экспортных товаров - помидоры, финики и фундук. Досмотр экспортируемой плодоовощной продукции определяется на основании «Правил таможенного досмотра», утвержденных Кабинетом Министров Азербайджанской Республики от 27 августа 2013 года № 232.

## EXPERTISE OF FRUITS AND VEGETABLES EXPORTED FROM AZERBAIJAN

**Ph.D., Assoc. Prof. U.A.Babayeva,**
**Master V.F.Agayeva**
**Azerbaijan Technological University**
**ulduz7475@yahoo.com**

**Summary:** Fruits and vegetables are one of the main products exported from our country to foreign countries. Fruits and vegetables are primarily exported from Azerbaijan to European countries such as Belgium, Germany, France, Russia, CIS countries. Tomatoes, dates and hazelnuts are in the first place among export products. Expertise of exported fruit and vegetable products is determined on the basis of the "Rules for Customs Examination" approved by the Cabinet of Ministers of the Republic of Azerbaijan dated August 27, 2013 No. 232.

# XURMA MEYVƏSİNİN ANTİOKSİDANT VƏ ANTİMİKROB XÜSUSİYYƏTİNİN TƏDQİQİ

**S.O.Qurbanova**

**Azərbaycan Texniologiya Universiteti**
**qurbanova-sevda@inbox.ru**

Pandemiya şəraitində əhalimizi ekoloji baxımdan təmiz antioksidant, antimikrob və antivirus xassəli meyvə və giləmeyvələrlə təmin etmək insanların sağlamlığı baxımından çox önəmlidir. Bu baxımdan ölkəmizdə geniş yayılmış xurma meyvəsi xüsusi əhəmiyyət kəsb edir. Xurma meyvəsi antioksidant təbiətli üzvi və qeyri-üzvi birləşmələrlə zəngin olduğuna görə onun genini dəyişmək mümkün deyildir. Bu meyvə ölkə ərazisində geniş yayılmaqla onun tərkibi insan orqanizmi tərəfindən asan mənimsənilən sadə şəkərlərlə, vitaminlərlə, fenol birləşmələri ilə, β-karotinlə, mineral maddələrlə, əsasən də yodla çox zəngindir [5]. Digər meyvələrdən fərqli olaraq xurma ağacının əkilib-becərilməsində, meyvəsinin yetişməsində, hətta saxlanmasında kimyəvi dərman poreparatlarından istifadə olunmur. Bu meyvənin tərkibində elə qida komponentləri vardır ki, o özünü həm oksidləşmədən, həm xəstəliktörədici mikroorqanizmlərdən, həm də viruslardan qorumaq qabiliyyətinə malikdir. Ancaq bu keyfiyyətli qida məhsulundan əhalimiz 1-2 ay müddətində mövsümdə təzə halda istifadə edir. Ondan bütün il ərzində istifadə olunması insan sağlamlığı üçün çox əhəmiyyətlidir. Asan mənimsənilən şəkərlərlərlə zəngin olduğuna görə yüksək enerji vermək qabiliyyətinə malikdir.

Xurma meyvəsinin əsas keyfiyyət göstəricisi fenol birləşmələri hesab edilir. Son zamanlar insanların qida rasionunda fenol birləşmələri ilə zəngin olan bitki mənşəli qida məhsullarının çox olması olduqca vacibdir [6]. Fenol birləşmələri bioloji fəal maddələr olub bitkilərdə, o cümlədən xurma meyvəsində geniş yayılmışdır. Son tədqiqat işlərinin nəticələrindən məlum olmuşdur ki, bitki mənşəli məhsullarda 3000-dən artıq fenol birləşməsinə rast gəllinir. Bu birləşmələr heyvan mənşəli qida məhsullarının tərkibində olmur. Fenol birləşmələri əsasən də flavonoidlər, polimer fenol birləşmələri qan dövranı prosesinin tənzimlənməsində, yorğunluğun, yuxusuzluq hallarının aradan götürülməsində, yaddaşın möhkəmnlənməsində, iş qabiliyyətinin daha səmərəli fəaliyyət göstərməsində, əsəb sisteminin fəaliyyətinin normallaşmasında mühüm rol oynayır [1]. Hal-hazırda planetimizi cənginə almış Covid-19-la mübarizədə dünyanın görkəmli alimləri insanların gün ərzində fenol birləşmələri ilə zəngin olan meyvələrlə, əsasən də xurma meyvəsi ilə qidalanmalarına çox böyük önəm verirlər.

Fenol birləşmələri hətta orqanizmdən radiasiyanı xaric etmək qabiliyyətinə malikdir. Ona görə də radiasiyaya məruz qalmış insanların gün ərzində bu birləşmələrlə zəngin olan bitki mənşəli məhsullarla, xüsusilə də xurma meyvəsi ilə qidalanmaları tövsiyyə olunur. Bu məqsədlə biz xurma meyvəsinin uzun müddət soyuducu kamerada müxtəlif variantlar üzrə saxlanmasını tədqiq etmişik. Xurma meyvəsinin spesifik xüsusiyyətlərindən biri də onun tərkibinin sadə şəkərlərdən sonra ən çox fenol birləşmələri ilə zəngin olmasıdır. Bu meyvənin tərkibində fenol birləşmələrinin ayrı-ayrı nümayəndələrinin çox olması onu müxtəlif xəstəliklərdən qoruyur. Xurma meyvəsinin tərkibi nəinki kondensasiya olunmuş və kondensasiya olunmamış tanninlərdən, həmçinin flavonoidlərin nümayəndəsi olan epikatexinlərdən, qallokatexinlərdən, biflavonoidlərdən, prosianidinlərdən, müxtəlif qlikozidlərdən ibarətdir. Əvvəllər ədəbiyyat materiallarında qeyd olunurdu ki, xurmanın tərkibində antioksidant xüsusiyyətinin olması yalnız katexinlərlə əlaqədardır. Yəni antioksidant xüsusiyyəti bitkilərdə, o cümlədən xurmada o deməkdir ki, onun tərkibini təşkil edən qida maddələrinin oksidləşmə yolu ilə parçalanmasının qarşısını alan, yalnız büzüşdürücülük xüsusiyyətinə malik katexinlərdir. O da məlum olmuşdur ki, katexinlər oksidləşmə prosesini kataliz edən fermentlərin inhibitirləri hesab olunurlar. Apardığımız tədqiqat nəticəsində müəyyən edilmişdir ki, antioksidant xüsusiyyətinə nəinki yalnız katexinlər, həmçinin büzüşdürücülük xüsusiyyıtinə malik olmayan digər monomer, oliqomer və polimer fenol birləşmələri də təsir göstərə bilir. Daha dəqiq desək, kondensasiya olunan, yəni $C_6$ - $C_3$; $C_6$ - $C_1$ tərkibli tanninlər də antioksidant xüsusiyətə malikdirlər. Məsələn, xurma meyvəsinin müəyyən formaları (korolyok),

büzüşdürücülük xüsusiyyətinin olmamasına baxmayaraq yüksək antioksidant və antimikrob xassəyə malikdir[4].

Xurma meyvəsi nəinki monomer fenol birləşmələri ilə zəngindir, onun tərkibində oliqomer və polimer fenol birləşmələri də üstünlük təşkil edir. Tərkibində 2-dən 10-a qədər monomer fenol birləşmələri olan üzvi maddələrə oliqomer fenol birləşmələri deyilir. Tədqiqatımız nəticəsində məlum olmuşdur ki, xurma meyvəsinin tərkibi, nəinki flavonoidlərlə, həmçinin flavonoidlərin dimerləri olan prosianidinlərlə, biflavonoidlərlə də xeyli zəngindir. Araşdırmalar göstərmişdir ki, fenol birləşmələrinin oliqomer formalarının insan orqanizmi üçün əhəmiyyətinin öyrənilməsinə ehtiyac vardır. Qeyd olunan oliqomer fenol birləşmələri xurma meyvəsinin yetişməsinə, formalaşmasına və keyfiyyətli saxlanmasına təsir göstərirlər [2,3].

Qeyd etmək lazımdır ki, fenol birləşmələri ilə əhəmiyyətli dərəcədə zəngin olan bitkilər gen səviyyəsində dəyişkənliyə məruz qalmırlar, başqa sözlə mutasiyaya uğramırlar. Xurma meyvəsi kimi fenol birləşmələri ilə zəngun qida məhsulları insan orqanizminin immunitetinin yüksəlməsinə səbəb olur ki, bu da öz növbəsində mikroorqanizmlərin, həmçinin virusların, o cümlədən də karonavirusun inkişafının ləngiməsinə şərait yaradır.

**Ədəbiyyat siyahısı:**

1.Əhmədov Ə.İ. Yeyilən bitkilərin müalicəvi xassələri / Bakı,"İqtisad Universuteti" nəşriyyatı, 2014 – 468 səh.

2.Fətəliyev H.K. Bitkiçilik məhsullarının saxlanması və emalı texnologiyası / Elm, Bakı, 2010-432 səh.

3.Nəbiyev Ə.Ə., Moslemzadeh E.Ə. Qida məhsullarının biokimyası /Bakı, "Elm", 2008- 444 səh.

4.Алексашина С.А.,Макарова Н.В.Исследование антиоксидантной активности и химического состава овощей // Хранение и переработка сельхозсырья , Москва, 2016 , № 5,стр. 28-32

5. Бабаева У.А., Касумова А.А., Набиев А.А. Исследование качественных показателей соков, полученных из плодов хурмы восточной (Diospyros kaki L.) / Slovak University of Agriculture in Nitra Research Center AgroBioTech, Agribiodiversity for improving nutrition, health and life quality, Part I, Nitra, 2015, стр. 33-36

6.Курбанова С.О., Набиев А.А. Исследование фенольных соединений плодов хурмы при длительном хранении// Вестник Российской сельскохозяйственной науки №6, Москва, 2016, с.65-67.

## ИССЛЕДОВАНИЕ АНТИОКСИДАНТНЫХ И АНТИМИКРОБНЫХ СВОЙСТВ ПЛОДОВ ХУРМЫ

**С.О.Курбанова**
**Азербайджанский технологический университет**
**qurbanova-sevda@inbox.ru**

**Резюме:** Важно отметить, что плоды, богатые фенольными соединениями не подвергаются изменениям на генном уровне, т.е. не мутируются. Плоды, которые значительно богаты фенольными соединениями как хурма, повышает иммунитет человека. А это, в свою очередь, замедляет развитие микроорганизмов, и по всей вероятности коронавируса.

## RESEARCH OF ANTIOXIDANT AND ANTIMICROBIAL PROPERTIES OF PERSIMMON FRUIT

**S.O.Gurbanova**
**Azerbaijan Technological University**
**qurbanova-sevda@inbox.ru**

**Summary:** İt is impossible to change the genes of the plants that are rich in phenolic compounds. İn other words, these plants do not mutate. Fruits that are rich in phenolic compounds like persimmon (fruit) enhances human immunity. This in turn slows down the growth of microorganisms including coronavirus.

# PANDEMİYA DÖVRÜNDƏ NAR ŞİRƏSİ İLƏ QİDALANMANIN ÜSTÜNLÜKLƏRİ

**t.f.d. M.S.Aslanova**
**Azərbaycan Texnologiya Universiteti**
**aslanovamehriban@gmail.com**

COVID-19 pandemiyasının dünyadakı dağıdıcı təsirini göz önünə gətirdikdə, belə bir böhran dövründə düzgün qidalanmanın çox vacib məsələ olduğu ön plana çıxır. 2019-cu ilin sonundan etibarən yayılmağa başlayan bu virus bütün dünyanı öz cənginə aldı, demək olar ki, bütün sahələri, istər elm, istər iqtisadiyyat, istehsal, istehlak, istərsə də fərdi insan amilinə təsir edərək onu iflic vəziyyətinə saldı. Hər bir ölkə bu çətin vəziyyətdən çıxış yolları axtarmağa başladı. İqtisadiyyatı zəif olan, ərzaq təhlükəsizliyinin təmin olunmasında problemlər yaşayan, təhsil, səhiyyə sistemləri inkişaf etməyən ölkələr pandemiya dövründə çətinliklərlə üzləşdi, hətta bir sıra ölkələrdə səhiyyə, təhsil sistemləri çökdü. İnsanların qidalanmasında, məişətində, sağlamlığında problemlər yaşanmağa başladı. Hər kəs bu bəşəri bəladan qurtarmağın yollarını axtarmağa başladı. Dünya həkimlərinin yekdil rəyinə görə virusa qalib gəlməyin ən önəmli yolu qaydalara əməl etmək və düzgün qidalanmadır. Bu baxımdan nar şirəsinin rolu insan sağlamlığında danılmazdır. Meyvələr arasında nar insan sağlamlığı üçün ən əhəmiyyətlisidir. Nar şirəsi xərçəng və ürək xəstəlikləri əleyhinə xüsusiyyətlərə malikdir. Nar şirəsi antioksidantların yüksək konsentrasiyasından ibarətdir və şirənin sirri də məhz bundadır. Azərbaycanda narın bir çox sortları yetişdirilir ki, buna da Azərbaycan Güleyşəsi, Çəhrayı Güleyşə, Bala Mürsəl, Qırmızı mələs, Şirin nar, İridənə, Yaxşılaşdırılmış Kazake, Azərbaycan, "Gülöyşə", "Bala Mürsəl", "Nazik qabıq", "Şah Nar", "Qırmızı qabıq" sortlarını və ənənəvi sortlarla yanaşı Azərbaycan Bağçılıq və Subtropik Bitkilər Elmi- Tədqiqat İnstitutu (ABSBETİ) tərəfindən Qəşəng, Yeni Güleyşə, Ərəş, Qara Roza sortlarını göstərmək olar. Bu sortlardan"Gülöyşə", "Bala Mürsəl", "Nazik qabıq", Qəşəng, Yeni Güleyşə növləri şirə istehsalı üçün daha vacib hesab edilir [3, 4]. Bu sortların kimyəvi tərkibinin öyrənilməsi zamanı məlum olmuşdur ki, şirənin tərkibi insan sağlamlığı üçün vacib olan qida maddələri ilə - şəkərlərlə, üzvi turşularla, fenol birləşmələri ilə, C vitamini ilə, amintürşuları ilə, həmçinin makro və mikroelementlərlə daha zəngindir. Narın əsas keyfiyyət göstəricisi onun tərkibində olan ümumi turşuluqla müəyyən olunur. Nar şirəsinin tərkibində 1,72÷2,60% ümumi turşuluq olur, onun da təxminən 90%-i limon turşusundan təşkil olunmuşdur. Qeyd etmək lazımdır ki, yabanı nar şirəsinin tərkibində isə 5-9%-ə qədər ümumi turşuluq olur[1, 6]. Nar meyvəsi fenol birləşmələri ilə, o cümlədən antosianlarla daha zəngindir. Məlumdur ki, fenol birləşmələri ilə zəngin olan bitki mənşəli qida məhsulları, o cümlədən nar xəstəliktörədici mikroorqanizmlərin fəaliyyətini dayandırmaq qabiliyyətinə malikdirlər [2, 5].

Nar şirəsi ətirli maddələrlə zəngin olduğuna görə əsəb sistemini sakitləşdirir, insanların işgörmə qabiliyyətini artırır. Ədəbiyyat materiallarının araşdırılmasından məlum olmuşdur ki, nar şirəsinin tərkibində mineral maddələrin nümayəndəsi olan maqnezium çox olduğuna görə o, böyrəkdə, damarlarda və digər orqanlarda yığılmış xörək və digər duzların bədəndən xaric olmasına kömək göstərir [1, 2]. Aşağıda müxtəlif nar sortlarının fiziki-kimyəvi göstəriciləri verilmişdir.

Cədvəl 1. Nar şirəsinin kimyəvi tərkibi

| № | Sortun adı | Kimyəvi tərkibin orta göstəriciləri, % | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Həll olan quru mad-də-nin mi-qdarı | Ümumi şəkərlər | İnvert şəkərlər | C vita-mini x10$^{-3}$ | Titrlənən turşuların miqdarı | Aşı maddləri |
| | I.Ənənəvi sortlar | | | | | | |
| 1 | Azərbaycan Güleyşəsi | 17,8 | 13,6 | 11,48 | 6,62 | 2,35 | 1,26 |
| 2 | Qırmızı Məłəs | 17,2 | 12,6 | 10,96 | 6,35 | 2,16 | 0,98 |
| 3 | Orta göstəricilər | 17,5 | 13,1 | 11,22 | 6,49 | 2,26 | 1,12 |
| | II. Yeni sortlar | | | | | | |
| 1 | Qəşəng | 17,6 | 15,4 | 13,48 | 8,22 | 0,66 | 1,02 |
| 2 | Qara Roza | 17,4 | 15,2 | 14,04 | 7,64 | 1,94 | 0,92 |
| 3 | Orta göstəricilər | 17,5 | 15,3 | 13,76 | 7,93 | 1,33 | 0,97 |

Cədvəldən də göründüyü kimi nar şirəsinin tərkibi insan orqanizmi üçün lazım olan qida komponentləri ilə zəngindir. Bu baxımdan insanların bu qiymətli meyvədən istifadə etməsi onların sağlamlığı baxımından vacibdir. Nar şirəsi arıqlamağa kömək edir. Gün ərzində 2 stəkan nar şirəsi içdikdə xüsusilə, qarın hissəsindəki yağların əriməsinə kömək edir. Hər gün 2 stəkan nar şirəsi ilə sağlam şəkildə arıqlaya bilərsiniz. Bu fayda xüsusilə hərəkət məhdudiyyətlərinin yarandığı mövcud vəziyyətdə daha faydalıdır. Nar şirəsinin xərçəngə qarşı qoruyucu təsiri var. Gündəlik həyatımızda baş verən stresslər sonda bu xəstəliyə yol açir. Bu işdə də bizə nar şirəsi köməyə gəlir. Nar şirəsinin tərkibində olan komponentlərin xərçəng hüceyrələri ilə mübarizə təsiri daha güclüdür. Nar şirəsi infarkt riskini azaldır. Ürək xəstəlikləri müalicəsinə və qan dövranına kömək edir. Nar şirəsi yaşıl çaydan daha faydalıdır. Araşdırmalar nəticəsində nar şirəsinin yaşıl çaydan 3 dəfə çox antioksidant tərkibli olduğu müəyyən edilmişdir. Sağlamlıq baxımından dadını bəyənmədiyiniz halda yaşıl çay içməyə məcbur olursunuzsa, onu nar şirəsi ilə də əvəz edə bilərsiniz. Nar şirəsi qan təzyiqini aşağı salır. İnsanlar üzərində edilən araşdırmalar göstərir ki, 2 həftə ərzində 150 ml nar şirəsi içmək qan təzyiqini azaldır. Nar şirəsi diş ətindəki iltihabı azaldır. Nizamlı şəkildə nar şirəsi içmək diş ətindəki iltihabların və ağızda yaranan infeksiyaların tez bir zamanda sağalmasını təmin edir.

**Ədəbiyyat siyahısı:**

1.Aslanova M.S. Narın bəzi xassələri və onun saxlanması problemləri // AMEA GREM, Xəbərlər Məcmuəsi. Gəncə, 2010, № 42, s. 59-63.

2.Aslanova M.S. Yeni nar sortlarının aminturşuları tərkibi və MQM-da saxlanma zamanı onların dəyişməsi. // ADAU-nun Elmi əsərləri, Gəncə, 2013. № 3. 47 – 49.

3. Məhərrəmov M.Ə. Narın bioekoloji, fiziki, İstilik və elektrofiziki xassələri // AMEA GREM, Xəbərlər Məcmuəsi. Gəncə, “Elm”, 2007, №27, с. 68-74.

4. Əliyev İ.H. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın təsdiq olunmasına dair AR Prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı. Bakı.

5. Магеррамов М.А. Теплофизические свойства натуральных и концентрированных плодоовощ-ных соков. Баку «Елм», 2006, 274 с.

6. Карашарлы А.С. Гранат и его использование. Баку, 1981.119 с.

**ПРЕИМУЩЕСТВА ПИТАНИЯ ГРАНАТОВЫМ СОКОМ В ПАНДЕМИЙНЫЙ ПЕРИОД**

**М.С.Асланова**
**Азербайджанский технологический университет**

**Резюме:** Гранат является наиболее важными для здоровья человека плодом. Гранатовый сок обладает противораковыми и сердечно-сосудистыми свойствами. Пищевые и оргонолептические свойства физиологически активных веществ гранатового сока делают его широко используемым в питании.

**ADVANTAGES OF EATING POMEGRANATE JUICE DURING THE PANDEMIC PERIOD**

**M.S.Aslanova**
**University of technology of Azerbaijan**

**Summary:** The pomegranate is the most important fruit for human health. Pomegranate juice has anti-cancer and cardiovascular properties. The nutritional and organoleptic properties of the physiologically active substances of pomegranate juice make it widely used in nutrition.

# II BÖLMƏ

# TURİZM XİDMƏTİ

## POSTPANDEMİYA DÖVRÜNDƏ TURİZM MÜƏSSISƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

**doktorant V.V.Cəfərli**

**Bakı Avrasiya Universiteti**
**vusaljafarli@mail.ru**

Beynəlxalq təcrübəyə nəzər saldıqda, turizm müəssisələrinin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə, daha çox sistemli təhlillər aparılmalı, müasir reallıqlar və yanaşmalar əsas götürülməklə mövcud vəziyyət qiymətləndirilməlidir. Hazırkı şəraitdə, xüsusilə COVİD-19 pandemiyasının təsirindən yaranan yeni bir dövrdə ortaya çıxan çağırışların diqqətlə öyrənilməsi, turizm sektoruna bu pandemiyanın fəsadlarının təsirinin araşdırılması və daha təkmil fəaliyyət mexanizmlərinin hazırlanması tələb olunur. Turizm sektorunda göstərilən xidmətlərin böyük bir hissəsi mövsümi xarakter daşıyır və buna görə də nəzəri-metodoloji yanaşmalarda bu amilə xüsusi diqqət yetirilməlidir. Turizm dünya xidmət sistemində dinamik inkişaf yolu keçən gəlirli iqtisadiyyat sahələrindən hesab olunur və buna görə də turizmin inkişafı dünya ölkələrinin iqtisadi siyasətlərində prioritet sahələrdən biri kimi qiymətləndirilir. Bunu nəzərə alaraq son onilliklərdə Azərbaycanda turizm potensialı yüksək olan regionların infrastruktur bazası gücləndirilmiş, müasir yollar çəkilmiş, təbii qaz və içməli su təchizatı gücləndirilmiş, eyni zamanda, dünya standartlarına cavab edən turizm obyektləri, otellər, istismara verilmiş, turizmin dövlət tənzimlənməsi və dəstəyi tədbirləri genişləndirilmişdir [1]. Amma, COVİD – 19 pandemiyası turizm müəssisələrinin fəaliyyəti və rəqabətqabiliyyətlilik məsələləri ilə bağlı yeni tədbirlərin görülməsini məcburi etmiş və bütün dünyada iflic vəziyyətə düşmüş turizm sektorunun dirçəldilməsini üçün zəruri hala gətirmişdir. BMT-nin Ümumdünya Turizm Təşkilatı postpandemiya dövründə turizmin dirçəlməsi istiqamətində fəaliyyətin gücləndirilməsini, rəqabətqabiliyyətli yeni xidmətlərin göstərilməsini vacib hesab edirlər [2]. Bu baxımdan, ölkəmizdə fəaliyyət göstərən turizm qurumları və turizm müəssisələri də bu sahədə postpandemiya dövrünə hazırlaşmaqda davam edirlər və bunun üçün mövcud turizm xidmətlərinin, yanaşmaların, standartların təkmilləşdirilməsi, yenilənməsi tədbirləri görülür. COVİD - 19 pandemiyası turizm sektoruna və onun müəssisələrinə çox ciddi mənfi təsir göstərmişdir. “Dünyada qlobal olaraq pandemiya halını alan COVİD – 19 virusu dünya həyatını, iqtisadiyyatını böyük bir təhdid altında saxlayır. Təbii ki, bunun turizm iqtisadiyyatına da mənfi təsirləri həddən artıq çoxdur. Belə demək mümkündürsə turizm sahəsini sıfır vəziyyətinə gətirib çıxarır. Bu sahədə yüz milyondan çox iş yeri itirilib və ümumilikdə turizm iqtisadiyyatının itkisi təqribən 2 trilyon ABŞ dollarına bərabərdir” [3]. Ölkənin bütün iqtisadi sahələrində postpandemiya dövründə hədəflərin müəyyənləşdirilməsi, bu sahədə də vəziyyətin tənzimlənməsinə və turizm sektorunun inkişafının dinamikliyinin təmin olunmasına imkan verəcəkdir [4].

**Beynəlxalq təcrübədə turizm sektoru və müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsinə yanaşmalar**

Turizm müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsinə beynəlxalq səviyyədə tətbiq olunan fəaliyyət mexanizmlərinin, dövlət siyasətinin mühüm məqamlarının və turizm şirkətlərinin real fəaliyyət prinsiplərindən, təcrübəsindən yanaşdıqda bir qrup amillər və xüsusiyyətlər daha çox diqqət çəkirlər. COVID-19 pandemiyasının mənfi təsirinə diqqət yönəldək turizm sektorunun iflic olması, eyni zamanda turizm xidmətlərinin məhdudlaşdırılması milyonlarla insanların iş yerlərini itirilməsinə, gəlirlərindən məhrum olmasına, turizm sektoru ilə əlaqəli sahələrdə iş yerlərinin bağlanmasına və işsizlərin sayının artmasına səbəb olmuşdur. 2020-ci ildə beynəlxalq turizm marşrutları üzrə hərəkət və turist axını 70-72 % səviyyəsində azalmışdır və COVİD-19 pandemiyası səbəbindən turizm sektorunun fəaliyyəti öz tarixində ən ağır vəziyyətə düşmüşdür. 2019-cu illə

müqayisədə dünya ölkələri demək olar, ki, turizmin bütün seqmentlərində 10 dəfədən çox zərərlə üzləşmişlər və itkilərinin ümumi həcmi 1,1 trln. ABŞ dollarından çox olmuşdur. Bu isə öz növbəsində dünya ÜDM-un 2 trln dollarlan çox azalması deməkdir [5]. Dünya regionları üzrə baxsaq, görmək olar ki, turistlərin axını və səyahəti Asiya-Sakit Okean regionunda 82 %, Yaxın Şərqdə - 73%, Afrikada – 69 %, Avropa və Amerikada isə 68 % azalmışdır. BMT-nin mütəxəssislərinin hesabatlarına görə, pandemiya səbəbindən artıq 120 mln. nəfərdən çox insan turizm sektoru müəssisələrinin fəaliyyətinin məhdudlaşdırılmasına görə işlərini itirmişlər. [6]

**Azərbaycanda turizm müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri və istiqamətləri**

Ölkədə turizm sektorunda yaradılmış əlavə dəyər üçün geniş imkanlar vardır, məsələn, 2018-ci ilin yekununda ölkə ÜDM-də bu sektorun payı 4-5 % səviyyəsində qeydə alınmışdır. Bundan əlavə, 2015-2019-cu illər üzrə turizm sektorunda fəaliyyət göstərən səyahət agentliklərinin və turoperatorların, mehmanxana və mehmanxana tipli müəssisələrin sayında nəzərə çarpacaq dərəcədə artım olmuşdur. Amma, pandemiyanın təsirindən ölkəmizin turizm sektorunda da vəziyyət tamamilə dəyişilmişdir və hazırda bu sahədə ixtisaslaşan müəssisələr əsasən öz fəaliyyətlərini dayandırmışlar. Postpandemiya dövründə turizm sənayesinin daha çox dəstəyə ehtiyacı olan sahə kimi qiymətləndirilməsi obyektiv reallıqlara söykənmişdir. Ölkəmizdə turizm sahəsində sahibkarlara verilən dəstək proqramlarının və növbəti mərhələlərdə turizmin bərpa edilməsinə hazırlıq işlərinin görülməsi fazası intensiv xarakter daşıyır. 2020-ci il ərzində ölkəmizə gələn turistlərin sayı 4 dəfəyə qədər azalmışdır. Pandemiya şəraitində ölkədə turizm sektorunun fəaliyyətinin davam etdirilməsi üçün tanıtım stategiyasına üstünlük verilmiş, onlayn platformalar və təlim mərkəzləri yaradılmış, daxili turizmin bərpası istiqamətində işlər aparılmışdır. Bu amillər baxımından, 2021-ci ildə pospandemiya dövründə turizm sektorunun və onun müəssisələrinin fəaliyyətinin sabitləşdirilməsi, rəqabətqabiliyyətinin artırılması istiqamətində geniş həcmli işlərin görülməsi və bununla bağlı mühüm məsələlərin nəzərə alınması vacibdir [7]. Nəzərə almaq lazımdır ki, turizm müəssisələrinin rəqabət qabiliyyətinin gücləndirməklə və onların fəaliyyətini genişləndirməklə, yeni iş yerlərinin yaradılması, həmin müəssisələrin yerləşdikləri ərazilərdə və regionlarda əhalinin iqtisadi fəallığının artırılması üçün əlavə potensial formalaşdırmaq olar. Buna görə də, turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi üçün görülən tədbirlərinin səmərəliliyinin artırılmasına nail olunmalıdır.

**Açar sözlər:** postpandemiya dövrü, turizm sektoru, turizm müəssisələri, turizm potensialı, rəqabətqabiliyyətlilik, rəqabətqabiliyyətlilik problemləri.

**Nəticə:** Beləliklə, turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsinə nəzərimetodoloji, həmçinin, müasir reallıqlar bazımından yanaşmaqla, bir qrup məsələlərə xüsusi diqqət yetirilməsinin vacibliyini qeyd edirik:

- turizm sektoruna yaxın illərdə, konkret olaraq, postpandemiya dövründə dünya iqtisadiyyatında daha çox diqqət yetiriləcək və prioritet olan iqtisadiyyat sahələrindən birinə çevriləcəkdir;
- ölkəmizdə turizm müəssisələrinin rəqabət qabiliyyətinin artırılması və turist xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, əlçatanlığının təmin olunması tədbirlərinin səmərəliliyi maksimum nəzərə alınmalıdır;
- ölkəmizdə turizm sahəsinin yüksək perspektivləri əsas götürülməklə, yaxın illərdə turizm müəssisələrinin rəqabətqabiliyyətinin dünya standartları səviyyəsinə çatdırılması üçün məqsədli fəaliyyət proqramlarının və strategiyaların hazırlanaraq həyata keçirilməsinə ciddi ehtiyac yaranmışdır.

**Ədəbiyyat siyahısı:**

1. Fuad Nağıyev: "Turizm daha çox dəstəyə ehtiyacı olan sahə kimi qiymətləndirilir". 23.06.2020.
2. BMT-nin Ümumdünya Turizm Təşkilatı postpandemiya dövründə turizmin dirçəlməsi istiqamətində fəaliyyət göstərəcək. 25.08.2020.

3. İsmayılbəyli S. Turizm sahəsində postpandemiya dövrünə hazırlaşmalıyıq. 8 İyun 2020. 4. İlham Əliyev postpandemiya dövrünün hədəflərini müəyyənləşdirir. 12.09.2020.
5. Международный туризм сократился в 2020 году до уровня 1990 года. 17 декабря 2020.
6. Roberto Crotti, Tiffany Misrah. The Travel & Tourism Competitiveness Report 2017 // World Economic Forum, 2017.
7. Bayramova A. "Azərbaycan turizmi 2021-ci ilə necə gedir?" 28 Dekabr, 2020.

## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ТУРИСТИЧЕСКИХ ПРЕДПРИЯТИЙ В ПЕРИОД ПОСТПАНДЕМИИ

**В.В.Джафарли**
**Бакинский Евразийский Университет**
**vusaljafarli@mail.ru**

**Резюме:** В статье исследованы теоретико-методологические аспекты повышения конкурентоспособности туристических предприятий. С этой целью раскрыта сущность понятия конкурентоспособности. Анализированы теоретико-методологические аспекты повышения конкурентоспособности. Рассмотрена роль фактора конкурентоспособности в экономике. Исследованы вопросы и проблемы развития туристических предприятий. Отмечена важность повышения конкурентоспособности туристических предприятий. Рассмотрено совершенствование структуры, проблемы повышения показателей качества диверсификации туристических услуг. Указана важность вопроса организации основных видов туристических услуг в течении всего календарного года и тем самым обеспечение устойчивости туристических предприятий на рынке. Рассмотрены вопросы активизации деятельности туристического сектора в постпандемическом периоде. Подготовлены рекомендации и даны предложения по повышению конкурентоспособности туристических предприятий.

**Ключевые слова:** постпандемический период, сектор туризма, предприятия, потенциал туризма, конкурентоспособность, проблемы конкурентоспособности.

## Postpandemic period heoretical and methodological aspects of increasing the competitiveness of tourism enterprises

**V.V.Jafarli**
**Baku Eurasian University**
**vusaljafarli@mail.ru**

**Summary:** The theoretical and methodological aspects of increasing the competitiveness of tourist enterprises are investigated in the article. The essence of the concept of competitiveness is considered for this purpose. Theoretical and methodological aspects of competitiveness improvement are analyzed. The role of competitiveness factor in economy is given. Issues and problems of tourism enterprises development are studied. The importance of increasing the competitiveness of tourism enterprises is noted. Improvement of structure and problems of improvement of quality indicators of tourism services diversification are considered too. The importance of the issue of organizing the main types of tourist services throughout the calendar year and thereby ensuring the sustainability of tourist enterprises on the market is indicated. The issues of revitalization of the tourism sector in the postpandemic period are considered. Recommendations and proposals to increase the competitiveness of tourism enterprises are given in the end of the article.

**Keywords:** post-pandemic period, sector of tourism, tourist enterprises, tourism potential, competitiveness, competitiveness problems.

# TURİZM ÖLKƏ İQTİSADİYYATININ APARICI SAHƏLƏRİNDƏN BİRİ KİMİ

**X.Q.Xəlilova**

**Mingəçevir Dövlət Universiteti**
**xeyalexelilova2@gmail.com**

Azərbaycan zəngin mədəni-tarixi irsi və əlverişli təbii şəraiti ilə əlaqədar olaraq turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir. Ölkəmizdə turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Son dövrdə respublikamız inkişaf tempini sürətləndirərək, dünyanın aparıcı və inkişafda olan ölkələri sırasında öz mövqeyi, eləcə də, mövcud potensialı ilə seçilir və özünəməxsus yer qazanmışdır. Qısa bir dövr ərzində əldə olunan nailiyyətlər ölkənin milli maraqlarının zəminində formalaşmış, eləcə də, dövlət tərəfindən həyata keçirilən milli strategiya, yürüdülən ictimai, siyasi və mədəni mövqe məhz belə imicin Azərbaycan ətrafında yaranmasına gətirib çıxarmışdır. Bu uğurlar və nailiyyətlər sözsüz ki, Azərbaycanın iqtisadiyyatının inkişafına, sosial rifahının yüksəlməsinə gətirib çıxarmışdır. Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft və bununla bağlı imzalanan beynəlxalq sazişlər, müqavilələr dövlətin maliyyə vəsaitinin yüksəlməsinə və bunun müqabilində ölkənin bütövlükdə sferasının dəyişməsinə səbəb olmuşdur. Dövlət başçısı İlham Əliyevin Azərbaycan iqtisadiyyatına neft sektoru tərəfindən gələn gəlirin bərabərində, eləcə də, ondan daha artıq bir şəkildə gəlir gətirə biləcəyi turizmin inkişafını zəruri hesab etməsi, əlbəttə ki, müəyyən faktorlara əsaslanır. Ölkənin yeraltı və yerüstü sərvətləri, mövcud iqlimin olması Azərbaycan turizmi üçün lazımi şəraitin olduğunu göstərir. Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkəmizdə qarşıda duran mühüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. Hazırda turizm planetar miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümumi milli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür. Göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Dünyada əməkqabiliyyətli əhalinin 8,1 faizi turizm və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur [1].

Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir. Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir [2]. Dövlət Proqramında göstərilir ki, 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 94 olduğu halda ötən dövr ərzində onların sayı 4 dəfə artaraq 370-ə çatmışdır. Bu obyektlərdə ümumi yerlərin sayı da 2002-ci illə müqayisədə təxminən 3 dəfə çoxdur.

Bir müddət sonra "2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı" təsdiqləndi. Bir il sonra isə Azərbaycan Respublikasında "2010-2014-cü illərdə Turizmin İnkişafına dair Dövlət Proqramı" qəbul olundu. Bu proqram ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişaf etdirilməsinin təmin edilməsi üçün hazırlanıb. Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi məqsədi ilə ölkədə turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyəti həyata keçirilir [3]. Turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməklə səmərəli dövlət tənzimlənməsi və idarə edilməsi mexanizmlərinin yaradılması əsas şərtlərdəndir. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması məqsədi ilə görülən işlər davamlı olaraq həyata keçirilir. Turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, turizm zonalarında müvafiq infrastrukturun yaradılması, ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi, ölkənin bütün

regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması, turizm xidmətlərinin keyfiyyətinin artırılması məqsədi ilə mütərəqqi üsulların və standartların hazırlanması və tətbiq edilməsi və bu kimi yeniliklərin Azərbaycan turizm bazarında tətbiqi yaxın 5 il ərizində tam şəkildə həllini tapacaq. Sözsüz ki, artıq bu və ya digər nailiyyətlər Azərbaycan turizm sektorunda özünü göstərir. Mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi, turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi, Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnoloşiyalarının tətbiq edilməsi, turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi də vacib şərtlərdəndir. Turizmin rolunu və əhəmiyyətini nəzərə alan Azərbaycan prezidenti 2011-ci ili "Turizm İli" elan etdi.

**Ədəbiyyat siyahısı:**


1. Soltanova H.B. Azərbaycan Respublikasında “Turizm və onun inkişafı”.
2. Məmmədov J.A, Soltanova X.B., Rəhimov S.G. “Beynəlxalq turizm coğrafiyası”, 2002.
3. Əsgərov Ə.T., Bilalov B.Ə., Gülalıyev Ç.G. “Ekoloji turizm”.


## ТУРИЗМ КАК ОДНА ИЗ ВЕДУЩИХ ОТРАСЛЕЙ ЭКОНОМИКИ СТРАНЫ


**Х.Г.Халилова**
**Мингечаурский государственный университет**
**xeyalexelilova2@gmail.com**



**Резюме:** Благодаря своему богатому культурно-историческому наследию и благоприятным природным условиям Азербайджан имеет большие перспективы для развития в сфере туризма. В нашей стране есть широкие возможности для развития большинства видов туризма.


## Tourism as one of the leading sectors of the country`s economy


**Kh.G.Khalilova**
**Mingechaur State University**
**xeyalexelilova2@gmail.com**



**Summary:** Due to its rich cultural and historical heritage and favorable natural conditions, Azerbaijan has great prospects for development in the field of tourism. There are wide opportunities for the development of most types of tourism in our country.

# PANDEMİYA DÖVRÜNÜN TURİZM SEKTORUNA VƏ TƏDQİQATLARINA TƏSİRİ

**dos Y.Ə.Hümbətov, ass A.R.Qurbanova, magistr E.H.Əliyev, magistr İ.Yusibov**

**Azərbaycan Texnologiya Universiteti,**
**humbetov-1964@mail.ru**

Turistlərin ölkəyə səfərinə təsir edən bir çox amillər var. Bunların bəziləri təyinat yerinin təbii və fiziki şərtlərindən, bəziləri isə siyasi, sosial və iqtisadi şəraitdən asılıdır. Buna görə də destinasiyanın turistlər tərəfindən təhlükəsiz zona kimi qəbul edilməməsi turizm hərəkətlərinə mənfi təsir göstərə bilər. Bu düşüncəni formalaşdıran ən mühüm amil ölkədəki böhrandır. Böhranlar müxtəlif amillərin təsiri ilə yarana bilər. Epidemiyalar da həmin böhranları yaradan səbəblər sırasındadır. SARS, quş qripi, donuz qripi (H1N1) və Ebola epidemiyalarının turizm sektoruna mənfi təsir göstərdiyi hərkəsə məlumdur.Turizm sektoru üçün yaranan sağlamlıq böhranlarının ən mühüm mənfi nəticəsi destinasiyaya tələbatın azalmasıdır [1,6].

Turizm, xüsusilə II İkinci Dünya Müharibəsindən sonra mühüm qlobal iqtisadi fəaliyyətə çevrildi. Bu gün turizmin həcmi 4-5% artım tempi isə qlobal məhsulun 8%-ni təşkil edir. Ümumilikdə, turizm ölkə əhalisinin məşğulluğunun 10%-ni təşkil edir (ÜTT, 2020). Bundan əlavə, turizm yüksək multiplikatordur. O, öz təsiri ilə 135-dən çox sektora təsir edərək, tədiyyə balansına valyuta daxilolmalarını yaradır. O, həmçinin nəqliyyat, ticarət, tikinti, səhiyyə, maliyyə kimi bir çox aparıcı sənayelərə töhfə verir. İqtisadi təsirlərindən başqa, turizmin bir çox sosial, mədəni və siyasi təsirlərlərə də malikdir. Turizm mühüm qlobal iqtisadi sektor olsa da, o, öz ölkəsində və ya bölgəsində yaranan böhrana qarşı çox həssasdır.Turizmin tələbi dayanıqlı bir məsələ olduğundan, təhlükəsizlik, iqtisadi və siyasi problemləri hər zaman əsas məsələlərdən sayılır. Siyasi sabitlik, iqtisadi inkişaf səviyyəsi və təhlükəsizlik turistlərin ölkələrə səfərinə müsbət və mənfi təsir göstərə bilir [2,3,4].

2019 - cu ilin sonundan sürətlə yayılan virusun yeni növü olan Covid-19 çox qısabir zamanda bütün dünyanı təsiri altına aldı vəyüz minlərlə insan həyatını itirməsinə və milyardlarla insanın şəxsi və mənəvisəhhətinin pisləşməsinə səbəb oldu. Dünyanın iqtisadi və sosial həyatına dərindən təsir edən bu epidemiya günlərlə evdən çıxma qadağaları elan etdirmiş, adət halını almış bütün qanunları unutdurub, yeni qanunlara səbəb olmuşdur. İqtisadiyyatınbütün sahələrinə mənfi təsir edən Covid-19 pandemiyası şübhəsiz ki, turizm sektorundan da yan ötmədi. Həm turizm sektoruna, həm də bu sektorda inkişaf üçün nəzərdə tutulan araşdırmalara çox pis təsir etdi [5,7,8].

Beləki, pandemiya istər bu sahə üzrə ixtisaslaşmış şəxslərin, istərsə də bu sektora yeni yönələn gənclərin təcrübələrinin və tədqiqatlarının yarıda qalmasına və fərqli üsullarla davam etdirilməsinə səbəb oldu. İllərdir yeniliklər edilərək davam etdirilən ənənəvi sektor araşdırmaları kəskin qapanmalar nəticəsində yarıda qaldı və onlayn davam etdirilməyə məcbur olundu [9,10].

Turizm sektoru üzrə ixtisaslaşmış peşəkarların tədqiqatlarına da mənfi təsir göstərən pandemiya dönəmi daha çox bu sektora yeni yönlənən gənclərin iş və araşdırmalarına ciddi şəkildə mənfi təsir etdi. Bir çox yeniliklərə səbəb olacaq araşdırmalara mənfi təsir göstərən Pandemiya üzündən bütün ənənəvi üsulları həyata keçirilməsi çətinləşdi. Bütün bunlara baxmayaraq, sektor bu böhrandan ən az zərərlə çıxması, yenidən canlanması və səmərəli xidmət etməyə davam etməsi üçün bir çox tövsiyələr hazırlanmışdır.

Turizm sektorunda ciddi problemlər yaransa da dövlət dəstəyi göstərilməklə mövcud vəziyyətdən çıxmaq üçün həlli yolları araşdırılaraq ən az zərərlə pandemiya dönəmindən çıxmağa çalışımışdır. Bu gün turizm sektorunun Pandemiya dövründə və sonrakı dövr üçün geniş tədqiqatlar aparılaraq təklif və tövsiyyələr hazırlanır.

**Ədəbiyyat siyahısı:**

1.Rosbi, S. (2020). Effect of Coronavirus Disease (COVID-19) to Tourism Industry. International Journal of Advanced Engineering Research and Science, 7(4), 189-193.

2. Bertrand, M., Cullen, Z. B., Glaeser, E. L., Luca, M., ve Stanton, C. T. (2020). How are Small Businesses Adjusting to Covid-19? Early Evidence From A Survey. National Bureau of Economic Research.

3. Dillette, A. ve Alderman, D. H. (2020): "We Can't Return to Normal": Committing to Tourism Equity in the Postpandemic Age. Tourism Geographies.https://doi.org/10.1080/14616688.2020.1759130

4. Marquez, J. P. (2020). How much did the Tourism Industry Lost? Estimating Earning Loss of Tourism in the Philippines.Preprint.

5.Alderman D. H. (2020): Cancelling March Madness Exposes Opportunities for a more Sustainable Sports Tourism Economy. Tourism Geographies.

6. Bilalov B."Turizmin tarixi". Bakı, 2008

7.Hümbətov.Y.Ə, Kərimov.F.C, Qapaqov.V.F, Cavadzadə.X.N "Turizm sənayesinin təşkili" Bakı, Avropa nəşriyyatı -2021, 333 səh.

8. Məmmədova C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizm coğrafiyası/Dərs vəsaiti. Bakı: Mütərcim. 2002.

9. Soltanova H., Ağakərimov M., Babazadə S."Mehmanxana təsərrüfatı". Bakı, 2005

10.Əlirzayev Ə., Aslanova S."Turizmin inkişafının sosial-iqtisadi problemləri". Bakı, 2006

## ВЛИЯНИЕ ВОЗРАСТА ПАНДЕМИИ НА СЕКТОР ТУРИЗМА И ИССЛЕДОВАНИЯ

**Ю.А.Гумбатов, А.Р.Курбанова, Э.Г.Алиев, И. Юсибов**
**Азербайджанский технологический университет**
**humbetov-1964@mail.ru**

**Резюме:** Период пандемии, который негативно повлиял на исследования профессионалов туристического сектора, оказал серьезное негативное влияние на работу и исследования молодых людей, которые только начали работать в этом секторе. Из-за пандемии, которая негативно повлияла на исследования, которые приведут к многочисленным инновациям, стало трудно применять все традиционные методы. Несмотря на то, что во время пандемии в туристическом секторе существуют серьезные проблемы, изучаются решения, позволяющие преодолеть сложившуюся ситуацию при государственной поддержке. Сегодня предложения и рекомендации готовятся путем проведения обширных исследований в туристическом секторе во время и после пандемии.

## THE IMPACT OF THE PANDEMY AGE ON THE TOURISM SECTOR AND RESEARCH

**Y.A.Humbatov, A.R.Gurbanova, E.H.Aliyev, I.Yusibov,**
**Azerbaijan Technological University**
**humbetov-1964@mail.ru**

**Summary:** The pandemic period, which had a negative impact on the research of professionals specializing in the tourism sector, had a serious negative impact on the work and research of young people who are new to the sector. Due to the pandemic, which has negatively affected research, which will lead to many innovations, it has become difficult to implement all traditional methods. Although there are serious problems in the tourism sector during the pandemic, solutions are being explored to overcome the current situation with state support. Today, proposals and recommendations are being prepared by conducting extensive research in the tourism sector during and after the pandemic.

# PANDEMİYA DÖVRÜNDƏ TURİZMİN TƏDQİQAT PROBLEMLƏRİ

**ass A.Ş.Həsənova**

**Azərbaycan Texnologiya Universiteti**
**adile.hesenova1997@gmail.com**

Respublikamızın təbii sərvətləri, rəngarəng iqlimi, zəngin tarixi-mədəni irsinin olması turizm sahəsinin inkişafına və həmçinin ölkəyə daha çox turistin cəlb edilməsinə öz töhvəsini verir. Turizm Azərbaycanda iqtisadiyyatın ayrıca sektoru kimi mövcuddur. Bu sahənin inkişafı Azərbaycanın həm imici həm də dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Çünki, bir ölkənin inkişafı ümumilikdə iqtisadiyyatın gücləndirilməsi deməkdir.

Dünyada hakim rol alan turizm sahəsi son 10 ildə Azərbaycanda da öz yerini almışdır. Qeyd etmək lazımdır ki, turizm üzrə rəqabətqabiliyyətlilik siyahısında Azərbaycan 148 ölkə arasında 39-cu yerdə qərarlaşmışdır. Ümumdünya Səyahət və Turizm Şurasının hesabatına əsasən Azərbaycan 2010-2016-cı illərdə turizmin ən sürətlə inkişaf etdiyi 10 öklə arasına daxil olmuşdur [1].

Lakin, turizmin ildən-ilə inkişaf etməsinin dünya iqtisadiyyatına müsbət təsirini müşahidə edərkən, anidən meydana çıxan COVID-19 virusu bu sahəyə həddindən artıq zərər vurdu. Artıq 2019-cu ildən dünya dövlətlərinin üzərinə çökmüş bu virus turizm sahəsində tədqiqat problemlərinin də dayanmasına gətirib çıxarmış oldu. Pandemiya dövründə dünya ölkələrinin çoxu, o cümlədən Azərbaycan da öz sərhədlərini bağladı. Hətta bu sahəyə dəyən ziyan milyardlarla ölçülür. Qeyd etmək lazımdır ki, post-pandemiya dövründə də bu sahənin bərpa olunması üçün çoxşaxəli fəaliyyətə ehtiyac vardır.

Son vaxtlar Azərbaycana gələnlərin sayının xeyli artması müşahidə olunurdu. Bu artımda Formula 1 yürüşlərinin keçirilməsinin xüsusi rolu olmuşdur. Hər keçən il bu sahədə artım dinamikası hiss olunurdu. Müxtəlif məlumatlara görə əcnəbilər Azərbaycanda hər il təqribən 1,5-2 milyard dollar pul xərcləyirdilər. Bu isə onu göstərir ki, turizm sahəsi bizim iqtisadiyyata böyük valyuta axınını təmin edir. Hətta rekord göstəricisi qeydə alınmışdı – 3 milyondan çox əcnəbi vətəndaşın Azərbaycana səfər etməsi müşahidə olunmuşdu. Bunu faiz nisbətində dəyərləndirsək, turist axını təqribən 15 faiz artmışdı. Bütün bu irəliləyişlərin dayanmasına səbəb olan COVID-19 virusuna qarşı vaksinasiya edilməsi ilə sərhədlərin və ölkə daxili gediş-gəlişin yenidən bərpa edilməsi azda olsa turizmin canlanmasına öz töhvəsini verdi.

Aydın məsələdir ki, Azərbaycandan turist axını kifayət qədərdir. Bu müddət ərzində müşahidələr göstərdi ki, pandemiyanın xarici turizmə mənfi təsiri daxili turizmin inkişafına gətirib çıxardı. Sərhədlərin bağlanması daxili turizmə böyük diqqət yetirilməsi turizm infrastrukturunda yaranmış boşluğu qismən doldurmağa nail oldu. Şübhəsiz ki, sabit ictimai-siyasi şərait, təhlükəsizlik, coğrafi mövqe, xalqın qonaqpərvərliyi, tarixi abidələr, təbiətin müxtəlifliyi, yay turizmi, qış turizmi və dadlı mətbəx kimi amillərin mövcudluğu Azərbaycanda turizm sənayesinin bərpa olunmasına kömək etdi. Post-pandemiya dövründə nəinki Azərbaycanda hətta bütün dünyada daxili turizm sektoru daha çox inkişaf etməyə başladı.

Məlumdur ki, Azərbaycan Respublikası üçün 2020-ci il yaddaşlara və tarixə yazılacaq bir il oldu. Bu vətən müharibəsində öz torpaqlarımızı alaraq zəfər qazandıq. İstər zəngin sərvətə, istərsə gözəl təbiətə malik olan bu torpaqlarda görülməli olan xeyli tədqiqat işləri mövcuddur. Pandemiyanın bu dövrə rastlaması isə təəssüfləndirici hal oldu. Yaranan mövcud vəziyyətin tədricən aradan qaldırılması görüləcək xeyli sayda tədqiqat işlərinin başlamasına təkan vermiş olacaq.

**Ədəbiyyat siyahısı:**

1. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_turizm

## ПРОБЛЕМЫ ИССЛЕДОВАНИЯ ТУРИЗМА ВО ВРЕМЯ ПАНДЕМИИ

**А.Ш.Гасанова**
**Азербайджанский технологический университет**
**adile.hesenova1997@gmail.com**

**Резюме:** Доминирующий туристический сектор в мире занял свое место в Азербайджане за последние 10 лет. Однако, наблюдая за положительным влиянием ежегодного развития туризма на мировую экономику, внезапное появление вируса COVID-19 нанесло этой области огромный ущерб. Во время пандемии многие страны, в том числе Азербайджан, закрыли свои границы. Закрытие границ и уделение большего внимания внутреннему туризму частично восполнили пробел в туристической инфраструктуре. В постпандемический период сектор внутреннего туризма начал развиваться не только в Азербайджане, но и во всем мире. Как известно, 2020 год стал для Азербайджанской Республики годом, который останется в памяти и в истории. Мы выиграли эту войну, вернув наши земли. В этих богатых и красивой природой краях предстоит провести много исследований. Постепенное устранение сложившейся ситуации даст толчок к началу большого количества исследований.

## RESEARCH PROBLEMS OF TOURISM DURING THE PANDEMIC

**A.Sh.Hasanova**
**Azerbaijan Technological University**
**adile.hesenova1997@gmail.com**

**Summary:** The dominant tourism sector in the world has taken its place in Azerbaijan over the past 10 years. However, while observing the positive impact of the annual development of tourism on the world economy, the sudden appearance of the COVID-19 virus has caused extreme damage to this area. During the pandemic, many countries, including Azerbaijan, closed their borders. Closing the borders and paying more attention to domestic tourism have partially filled the gap in the tourism infrastructure.

During the post-pandemic period, the domestic tourism sector began to develop not only in Azerbaijan but also around the world. It is known that for the Republic of Azerbaijan, 2020 was a year to be written in memories and history. We won this war by taking our lands. There is a lot of research to be done in these lands, which are rich in wealth and beautiful nature. The gradual elimination of the current situation will give impetus to the start of a large number of studies.

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA ATÇILIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**t.f.d., dos.əv. A.A.Qasımova, S.Y.Mustafayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**ffidan096@gmail.com**

Ölkə rəhbərinin Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında başlatdığı yenidənqurma, quruculuq və abadlıq işləri burada yaradılacaq yeni və müasir tələblərə cavab verəcək kənd təsərrüfatı , xüsusilə modern "ağıllı kənd" kompleksi layihəsi, bu rayonlarda müasir aqroturizm və kənd - fermer turizminin inkişafına təkan versin. Son zamanlar kənd-fermer turizminin inkişaf etdirilməsi təkcə yerli turistlərin deyil, həm da xirici tuistlərin cəlb olunmasına şərait yaradır. Kənd-fermer turizmində atcılığın inkişaf etdirilməsi, yerli əhalinin məşğulluğuna zəmin yaratmaqla birgə, həm də regiona turist axınını çoxaldacaq və dövlət büdcəsinin zənginləşməsinə səbəb olacaq.

Atçılıq - hələ Qarabağ Xanlığının xanədanlıq dövründə mövcud olmuş və SSRİ dönəmində də inkişaf etmiş atçılıq fermaları dünyanın bir sıra qabaqcıl ölkələrində iqtisadiyyata öz töhvəsini vermişdir. Hazırda atçılıq bir təsərrüfat kimi Azərbaycanda öz tənəzzül dövrünü yaşayır. Ölkəmizdə atçılığın inkişafı və kənd - fermer turizminə öz töhvəsini verməsi üçün onun bir təsərrüfat halına gətirilməsi labüddür. Bundan başqa atçılıq - heyvandarlığın qədim sahələrindən biri olmaqla cəmiyyətin mühüm ehtiyaclarını ödəmək məqsədilə əsrlər boyu yetişdirilmişdir. İnsanlar atçılıqla ən qədim zamanlardan - daş dövrünün sonlarından məşğul olmağa başlamışlar.

Qarabağ atı - Azərbaycanın Qarabağ ərazisində yaradılmış və geniş yayılmış dağ-minik at cinsidir. XVII-XVIII əsrlərdə Qarabağ xanlığında bu at cinsi daha da təkmilləşdirilmişdir. Qarabağ atları Asiya və Qafqazda ən qədim at cinsi hesab edilir. Hal-hazırda Azərbaycan Respublikasında milli at cinsidir. Qarabağ atının əsas yayıldığı məkan Azərbaycanın Qarabağ zonası olmuşdur. Ən yaxşı atlar Şuşa, Ağdam və burayonlara yaxın ərazilərdə yayılmışdır. Bu cinsdən olan atlar Şimali Qafqaza, Dona və Rusiyanın cənubunda yerləşən bir çox at zavodlarına da aparılmışdır. Hazırda "Ərəb", "Don", "Budyonnı" kimi məşhur at cinsləri arasında Qarabağ atları da xüsusi yer tutur.[2]

Qarabağ atı yüksək qaçış sürəti ilə seçilir. Rekord sürət Ağdam Atçılıq Zavodunda yetişdirilən Sumqanda adlı at qeydə alınmışdır. Eksteryer etibarilə Qarabağ atı tipik dağ minik atıdır. Bu atların əsas yeriş forması çaparaq yerişdir, yerişi geniş və cəld, bütün hərəkətləri çevikdir. Qarabağ atı hündür, çevik, hərəkəti səlis, bədən quruluşu möhkəmdir. Alın və burun sümükləri yaxşı inkişaf edib, gözləri qabarıqdır. Boynu orta uzunluqda, hətta bir qədər də gödək və hündür duruşludur.Qarabağ atı daha dözümlüdür və yemə qarşı tələbkar deyil. Qarabağ atlarını Qafqazda mövcud olan digər cinslərlə calaq edərmişlər. Qarabağ cinsli atlar orta boyu, əzələli, yorğa atdır. Başları balaca, profilləri düzdür. Arxası və beli düz, döşü və ümumiyyətlə, gövdəsi enli, ayaqları quru, temperamentli, oynaqdırlar. Dərisi nazik, tükləri yumşaq və parıltılıdır [3]. Qarabağ atını başqalarından fərqləndirən əsas cəhət limona çalan, sarı-qızılı, yaxud parlaq narıncı rəngidir. Yalnız Qarabağ atlarına məxsus olan bu orijinal çalardan kürən, qızılı kəhər, qızılı qonur rəngli atlar da yaranıbmış [6]. Sovetlər İttifaqının dağılması və Azərbaycanın müstəqillik qazanması qansız-qadasız qurtarmayaraq bu günümüzə qədər davam edən Qarabağ müharibəsi ilə təzahür etdi. Bu müharibədə dinc əhalimizin kütləvi soyqırımı, milyona qədər qaçqın və məcburi köçkünlər ordusunun yaranması ilə yanaşı, ölkənin təsərrüfat sisteminə, o cümlədən atçılığa da ağır zərbə vurdu. 1993-cü ilin iyul ayında Ağdam rayonu erməni təcavüzkarları tərəfindən işğal edildi. Erməni qoşunları rayonun ərazisinə soxulan zaman onları ilk növbədə maraqlandıran obyektlərdən biri məhz Ağdam Atçılıq Zavodu idi. Lakin ermənilər bu istəklərinə nail ola bilmədilər, fədakar atçılar Qarabağ atlarının döyüş bölgəsindən çıxarılmasını təmin etdilər. Döyüş bölgəsindən çıxarılan Qarabağ atları əvvəlcə bir müddət Yevlax rayonundakı "Aran" damazlıq qoyunçuluq təsərrüfatının ərazisində yerləşdirildi. Lakin həmin yerlərin təbii şəraiti Qarabağ atları üçün əlverişli olmadığına görə atlar zavodun Ağcabədi rayonu ərazisindəki Lənbəran qışlağına köçürüldü.Ağdam Atçılıq Zavodu köçürüləndə 300-ə qədər at qeydə alınıb. Mütəxəssislər deyirlər ki, Qarabağ zonasındakı

hazırkı yerli atların çoxu bu cinsin cırlaşmış qalıqlarıdır. Buna görə də uyğun zoobaytariya şəraitində bu atların yaxşı hissəsi əsasında məşhur Qarabağ cinsini bərpa etmək və təkmilləşdirmək mümkündür [4,5].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 noyabr 2014-cü ildə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, seleksiya-damazlıq işlərinin elmi əsaslarla aparılmasının təmin edilməsi üçün sərəncam vermişdir. 8 oktyabr 2007-ci ildə "Atçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 580 nömrəli Fərmanının 1.4-cü bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti "Atçılığın inkişafı üzrə Proqram"ı təsdiq etmişdir [1]. Proqramda atçılığın, o cümlədən məşhur Qarabağ atlarının inkişafı üzrə məsələlər sadalanır. Azərbaycan atçılığın inkişafı üzrə dövlət proqramında həmçinin qeyd olunur ki, hazırda dünya üzrə 260 cins atın ikisi Azərbaycana məxsusdur. Bunlar "Dilbaz" və "Qarabağ" atlarıdır. Proqrama əsasən son məlumatlara görə Azərbaycanda 69 984 baş at yetişdirilir. Proqramda elmi-tədqiqat işlərinin aparılması, mütəxəssislərin hazırlanması, müvafiq kitabların buraxılması, reyestr, cins atların, pasportlarının, qeydiyyat formalarının, həmçinin normativ-hüquqi sənədlərin hazırlanması, genetik fondun qorunması nəzərdə tutulmuşdur [3].

**Резюме:** Статья направлена на наличие потенциальных возможностей для развития сельского туризма в Азербайджане. В то же время говорится о воздействии сельского хозяйства на экономику страны, о привлечении местных и иностранных туристов в нашу страну, о наличии природных условий для развития сельского туризма. Подчеркнуто, что наличие этнических элементов, национальной кухни, красивых уголков природы, исторических архитектурных памятников являются факторами, вызывающими поток туристов.

## PROSPECTS FOR THE DEVELOPMENT OF RURAL TOURISM IN AZERBAIJAN

**T.A.Salmanova**
**Azerbaijan Technological University**
**salmanovaterane@yahoo.com**

**Resume:** The article focuses on the availability of potential opportunities for the development of rural tourism in Azerbaijan. At the same time, they are talking about the impact of agriculture on the economy of the country, attracting local and foreign tourists to our country, availability of natural conditions for the development of rural tourism. It is emphasized that the presence of ethnic elements, national cuisine, beautiful nature, historical architectural monuments are factors that cause the flow of tourists.

# RESPUBILKAMIZDA TURIZMIN INKIŞAFININ NƏZƏRI MƏSƏLƏLƏRI

**N.İ.Hüseynova**
**Azərbaycan Texnologiya Universiteti**
**narmina.guseynova.99@mail.ru**

Bu gün Azərbaycanda turizm, o cümlədən beynəlxalq turizm sahəsi diqqət mərkəzindədir. Turizm insan kütləsini özündə birləşdirən bir sahə olduğu üçün burada insanların mədəni ünsiyyətinin və onların maarifləndirilməsinin də böyük ictimai-siyasi və kulturoloji əhəmiyyəti vardır. Turizm təkcə insanların səyahatlərinin təşkilinə onların mənəvi həzzinə xidmət etmir, eyni zamanda turizm insanların müxtəlif bilgilərlə maarifləndirmək, onların dünyagörüşlərini inkişaf etdirmək funksiyalarını yerinə yetirir.

Azərbaycanın turizm profilli ölkəyə çevirməsi və dünya arenasında öz sözünü deməsi üçün böyük potensialı vardır. Zəngin təbii sərvətləri , qədim tarixi və memarlıq abidələri özünəməxsus mentaliteti əlverişli ictimai coğrafi mövqeyi , xəzərin sahil zonaları turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edir . Bu halda bizi belə bir sual düşündürə bilər. Bu qədər təbii sərvətləri olan ölkəni inkişaf etmiş turist ölkəsinə çevirmək üçün nə çatmır? İlk öncə Azərbaycanın bu sahədə düzgün siyasəti, strategiyası olmalıdır. Məlumdur ki, turizm milli maraqların və iqtisadi inkişafın əsas istiqamətlərindən biridir. Hər bir Azərbaycan vətəndaşı bu gün tam əmin olmalıdır ki, turizm insanın sosial-iqtisadı problemlərini həll etməyə qadirdir. Turizm həmçinin cəmiyyətdə gedən polyarizasiya-qütbləşmə və təbəqələşmə prosesinin də qarşısını alır. Bu sahə milli gəlirin əhali arasında bərabər bölünməsinədə müəyyən şərait yaradır. Aydın məsələdir ki, turizm iqtisadiyyatla qarşılıqlı əlaqədədir.

Ölkəmizin turizm sənayesi inkişaf dövrünə qədəm qoymuşdur. Hüquqi bazası Ümummilli liderimiz Heydər Əliyev cənablarının təşəbbüsü ilə 1999-cu ildə "Turizm haqqında Azərbaycan Respublikasının Qanunu" qəbulu ilə qoyulmuş turizm 2001-ci ilin 18 aprelində Gənclər İdman və Turizm Nazirliyinin yaradılması , 2002-ci ilin avqustundə təsdiq olunmuş Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı ilə güclü təkan almışdır. Bütün dünyada olduğu kimi Azərbaycan Respublikasında da turizm inkişaf etməkdədir. Rəsmi statistikaya görə 2004-cu ildə dünyada səyahət edənlərin sayı 703 milyon nəfər gələn gəlir isə 470 milyard dollar olmuşdur[1].

Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyinin (İndi Turizm sözü götürülmuşdur) açıqlamalarına görə 2003-cu ildə ölkəmizə 1.066 min 2004-cü ildə isə 1.348 min nəfər əcnəbi gəlmişdir.Rəqəmlərdən göründüyü kimi ölkəyə gələn əcnəbilərin sayı artmaqdadır.Bu isə turizm sənayesi üçün peşəkar kadrların hazırlanmasını labüd edir. Turizm fəaliyyəti ilə məşğul olan hər bir şəxs turizmin hüquqi bazası ilə BMT və ÜTT-nin sənədləri Milli Qanunlar turizmlə əlqəli sahələrin hüquqi sənədləri ilə yaxından tanış olmalı öz fəaliyyətində onların əməl etməyə borcludur. Turizm fəaliyyətinin tənzimlənməsinin predmetini ölkələr ayrı-ayrı təşkilatlar, firma ilə turistlər arasında münasibətlər təşkil edir[2].

Strateji Yol Xəritəsi nəzərdə tutulmuş müddətlər ərzində turizm sektorunun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətli və rəqabətə davamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, müasir ideya və innovasiyalara əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi və turizmin inkişafı ilə əlaqədar aidiyyəti orqanların qarşılıqlı koordinasiyası kimi tədbirləri özündə ehtiva edir.

Ölkəmizdə turizmin inkişafının hüquqi bazası 27 iyul 1999 - cu ildə "Turizm fəaliyyiti haqqında" Qanun hazırlanmış və təsdiq edilmişdir.

Bu gün turizmin inkişafına bir sıra amillər mənfi təsir göstərir. Bu amillərdən biri ölkəmizin geniş turizm potensialına malik olan Qarabağ zonasının işğal altında olması idi. Xarici ölkələr münaqişəli ərazi olduğuna görə Azərbaycan turizminə investisiya yatırmaqdan çəkinirdilər. Lakin artıq 2020-ci ilin 27 sentyabrından başlayaraq 44 günlük əks hücumun həyata keçirilməsi nəticəsində ölkəmizin zəngin turizm ehtiyatlarına malik Qarabağın işğaldan azad edilməsi ölkəmizə xarici turizm şirkətlərinin sərmayə qoymasına geniş imkanlar yaradacaqdır.

Turizmin inkişafına siyasi, iqtisadi amillərin təsiri ilə yanaşı tarixi, təbii, mədəni amillərin də təsiri vardır. Ölkədə baş verən siyasi hadisələr terror, müharibə vəziyyəti, dövlətin siyasi statusunun dəyişməsi və s. kimi amillər turis axınına böyük təsir edir.

Tədqiqtlardan belə nəticəyə gəlmək olar ki, turizmin sənaye əsasında təşkili, turist xidmətlərini və turist tələbatlı malların satışı ilə məşğul olan istehsal, ticarət və nəqliyyat müəssisələrinin birgə fəaıiyyətini təmin edərdi.

Qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi həm regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, həm də dövlət büdcəsinin gəlirlərinin artırılması və onun müxtəlif mənbələrdən formalaşdırılması, ixrac gəlirlərinin artırılması, idxalı əvəz edən və ixracyönümlü, geniş çeşidə malik sənaye məhsullarının istehsalı baxımından önəmli hesab edilir[3].

2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş hədəflərin reallaşması nəticəsində Azərbaycanda 2020-ci ildə real ÜDM-in birbaşa 293 milyon və dolayı 172 milyon manatadək artacağı, cəmi 35 min olmaqla bilavasitə turizm sektorunda 25 min iş yerinin yaradılacağı proqnozlaşdırılır. Təsirin gerçəkləşdirilməsi dövlət-özəl resursları hesabına 350 milyon manat həcmində investisiya qoyuluşunu tələb edir. Turizm sektorunda göstərilən əsas təşəbbüslər Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əlaqələndiriləcəkdir.

Azərbaycanın mədəniyyət və turizm potensialının xaricdə təbliğ və təşviq olunması, ölkəmizdə keçirilən mühüm tədbirlərin digər dövlətlərdə işıqlandırılması, əcnəbi turist axınının çoxaldılması məqsədilə biz bəzi populyar televiziya kanalları (CNN, Euronews, habelə rus,fransız, türk televiziya kanalları...) ilə əməkdaşlıq edirik.

Keyfiyyətli turizm xidməti təqdim etmək lazım olduğu bu sektorda əsas məsələ müştəri məmnuniyyətini təmin etməkdir. Əgər bir turizm müəssisəsi ümumi qaydalara uyğun xidmət istehsal edən professional işçilərdən məhrumdursa, o yerdə qonaqları məmnun edə bilməzsiniz. Təhsilli, savadlı və bacarıqlı kadr olması çox vacibdir.

Çünki, turizmdə insan can atan faktor olduğunu unutmamalıdır. Bu səbəbdən turizmdə təhsil gələcəyə yönəlmiş mühüm bir sərmayə olaraq dəyərləndirilir. Əgər keçmişdə də turizmdə bü günə qədər davam edən sağlam bir təhsil qanunu olsaydı məqsədimizə artıq çatmış olardıq və savadlı işçi sıxıntısı çəkməzdik.

Turizmin inkişafı ilə bağlı aparılmış tədqiqatların nəticələrinə görə, 2020-ci illərdə turizm təhsilinin müxtəlif səviyyələri üzrə ixtisaslaşmış təxminən 70-75 min nəfərə ehtiyac olacaqdır. Bu ehtiyacı ödəmək üçün Respublikamızda kompleks tədbirlər həyata keçirilir.

**Ədəbiyyat siyahısı:**


1. «Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2010-2014-cü illərdə turizmin inkişafına dair "Dövlət Proqramı».

2.«Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi», 2016-cı il.

3. Hümbətov, Y.Ə, Kərimov , F.C, Qapaqov, V.F, Cavadzadə, X.N. "Turizm sənayesinin təşkili". Bakı, Avropa nəşriyyatı, 2021, – 333 səh.


## ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ РАЗВИТИЯ ТУРИЗМА В НАШЕЙ СТРАНЕ


**Н.И.Гусейнова**

**Азербайджанский технологический университет**

**narmina.guseynova.99@mail.ru**



**Резюме:** В современном мире, туризм - один из наиболее динамично развивающихся отраслей экономики любой страны. Серьезное внимание уделяется развитию этой области и в Азербайджане. Туризм уже стал одной из самых прибыльных отраслей в мире, крупным и быстрорастущим сектором экономики. Устойчивое развитие и расширение туристического сектора сделали этот сектор главной движущей силой социально-экономического развития. Это находит отражение в создании новых рабочих мест, связанных с туризмом предприятий и инфраструктуры.


## THEORETICAL ISSUES OF TOURISM DEVELOPMENT IN OUR COUNTRY


**N.I.Huseynova**

**Azerbaijan Technological University**

**narmina.guseynova.99@mail.ru**



**Summary:** Today, the focus in Azerbaijan is on tourism, including international tourism. As tourism is an area that unites people, cultural communication and enlightenment of people are of great socio-political and cultural importance. Tourism not only serves the spiritual pleasure of people in the organization of travel, but also tourism serves the purpose of educating people with various information, developing their worldview.

# PANDEMİYA DÖVRÜNDƏ TURİZM SAHƏSİNDƏ TƏHSİL ALAN GƏNCLƏRİNTƏTQİQAT PROBLEMLƏRİ

**ass. S.Ə.Məmmədova, ass. G.Q.Hüseynova**
**Azərbaycan Texnologiya Universiteti**
**memmedovas941@gmail.com**
**gulshen.novruzova1994@mail.ru**

Turizm sahəsi hazırda ən çox inkişaf edən sahələrindən biri sayılır. Gündən-günə turizm sektorunda yaxşı ixtisaslandırılmış kadrlara daha çox tələb yaranır və bu səbəbdən bir çox gənclər sırf bu sahədə təhsil almağı düşünürlər. Turizm özünəməsus marağı ilə digər sahələri geridə qoyur. Hər zaman yeni insanlarnan tanış olub, həm dünyagörüşünüzü, həm də dil biliklərinizi inkişaf etdirə bilərsiniz. Turizm sahəsində işləmək sadəcə iş yox, eyni zamanda bir həyat tərzidir.

İnkişaf etmiş və etməkdə olan bir çox ölkə dünyanın genişlənən turizm bazarındakı payını artırmaq üçün öz turizm sektorlarına önəmli dərəcədə investisiya yatırırlar. Beynəlxalq turizmdə getdikcə artan rəqabət şəraitində üstünlük əldə etmək böyük ölçüdə müştəri məmnuniyyətinə və xidmət keyfiyyətinə bağlıdır. Bu səbəbdən turizmin bir xidmət sektoru olması və xidməti alan ilə xidməti təklif edən şəxslərin qarşılıqlı əlaqədə olması, sektorda fəaliyyət göstərəcək insanların təhsilinin önəmini ön plana çıxarır. Turizm təhsili bu gün bütün dünya üzrə öz önəmini artırmaqdadır. Belə ki, yüksək sürətlə böyüyən turizm sektoru artıq daha yüksək ixtisaslı və daha peşəkar mütəxəsislər axtarmaqdadır [1,2].

Turizm təhsili nəzəriyyə və təcrübəni əhatə edir. Nəzəriyyə və təcrübə kurslarında əldə edilən təlim nəticələri də turizm sekorunda təcrübə və ya iş yerində təlim təcrübələri kimi gücləndirilir və inkişaf etdirilir. Turizm təhsili dövrü universitet və turizm müəssələrinin əməkdaşlığı və birgə fəaliyyəti ilə tamamlanır. Lakin bütün dünyada tüğyan edən yeni növ koronavirus (COVİD-19) pandemiyası bir çox keçməyib.

Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu dərsin keyfiyyətini artırmaq məqsədi ilə güclü vasitə ola bilir. Fəal təlim həm məzmunun öyrənilməsinin, həm də tətbiqinin səmərəliliyini artırır və tələbələrin dərketmə fəaliyyətini daha da inkişaf etdirir. Müasir dövrdə qlobal miqyasda təsirini davam etdirən COVID-19 pandemiyası ilə əlaqədar təhsilin distant təhsilə keçməsi nəzəri təlimlərin effektivliyi və səmərəliliyi müzakirə mövzusuna çevrilib. Buna görə də, bu nəzəri biliklər müxtəlif praktik tətbiqlərlə dəstəklənməlidir. Xüsusilə xidmət sektoru üçün kadr hazırlayan ixtisaslarda bu ehtiyac ən yüksək səviyyədədir [3,4].

Yuxarıda qeyd edildiyimiz kimi, turizm təhsili nəzəriyyə ilə praktikanı birləşdirən təhsildir. Praktiki hissə - tətbiqi kurslar, iş yerində təlim təcrübəsi kursu (turizm stajı) və ya təcrübədən ibarətdir. Pandemiya dövrününxüsusilə tətbiqi təhsilə mənfi təsir göstərdiyi danılmaz bir faktdır.Distant təhsildə praktikanın vacib olduğu dərslərdən kifayət qədər səmərəlilik əldə etmək mümkün deyil. Təcrübəni özündə cəmləşdirən dərslər müəllimlə tələbələrin fiziki birgə fəaliyyətinin daha səmərəli olduğu, tələbənin fəal iştirak etdiyi, nəzəriyyənin praktikaya köçürüldüyü dərslərdir.Gənclərin dəyişən əmək bazarına mümkün qədər hazır olması üçün fənlərarası tədqiqat və təlimə ehtiyac var.

Distant təhsilin dezavantajlarından olan passiv təhsil və pandemiyanın yayılmasının qarşısının alınması üçün görülən qapanma tədbirləri turizm sahəsində təhsil alan gənclərin tətqiqat apararaq təcrübə toplamalarına ciddi maneələr törədir. Turizm sahəsində təhsil verən ali təhsil müəssisələri bu problemin aradan qaldırılması üçün müxtəlif aktiv öyrənmə üsullarını mənimsəməli, nəzəri təhsillə yanaşı, fərqli təhsil və təlim texnikalarını araşdırmalı və tələbələri bu üsullarla iş dünyasına hazırlamalıdırlar.

## Ədəbiyyat siyahısı:

1.Acar, Y. (2020). Yeni Koronavirüs (Covid-19) Salgını ve Turizm Faaliyetlerine Etkisi. Güncel Turizm Araştırmaları Dergisi

2.Bahar, O. ve İlal, N. Ç. (2020). Coronavirüsün (Covid-19) Turizm Sektörü Üzerindeki Ekonomik Etkileri. International Journal of Social Sciences and Education Research
3.İlqar Hüseynov,Nigar Əfəndiyeva. "Turizmin əsasları", Dərslik. «Mars-Print» nəşriyyat-poliqrafiya müəssisəsi, 2007, səh. 1000
4.https://riakalm.ru/index.php/news2/26944-vnutrennij-turizm-i-obrazovanie-v-period-pandemii

## ПРОБЛЕМЫ ИССЛЕДОВАТЕЛЬСКОЙ РАБОТЫ МОЛОДЕЖИ, ОБУЧАЮЩИХ-СЯ В ОБЛАСТИ ТУРИЗМА ВО ВРЕМЯ ПАНДЕМИИ

**С.А.Мамедова**
**Г.К.Гусейнова**
**Азербайджанский технологический университет**
**memmedovas941@gmail.com**
**gulshen.novruzova1994@mail.ru**

**Резюме:** В статье отмечается, что, поскольку туристское образование охватывает теорию и практику, молодое поколение, обучающееся в сфере туризма, укрепляет и развивает результаты обучения, полученные на теоретических и практических курсах в форме стажировок или производственного обучения. Однако новый штамм коронавируса (COVID-19), который распространяется по всему миру, вызвал значительные трудности во многих сферах, включая образование в сфере туризма, и существенно повлиял на практический опыт молодых людей в туризме. Чтобы преодолеть эту проблему, высшие учебные заведения в секторе туризма, помимо теоретической подготовки, должны изучить различные методы преподавания и обучения и подготовить студентов к работе в этом секторе.

## PROBLEMS OF RESEARCH WORK OF YOUTH TRAINING IN THE FIELD OF TOURISM DURING A PANDEMIC

**S.A.Mammadova**
**G.K.Gusenova**
**Azerbaijan Technological University**
**memmedovas941@gmail.com**
**gulshen.novruzova1994@mail.ru**

**Summary:** The article notes that since tourism education encompasses theory and practice, the younger generation studying in tourism strengthens and develops the learning outcomes obtained in theoretical and practical courses in the form of internships or industrial training. However, the new strain of coronavirus (COVID-19) that is spreading around the world has caused significant difficulties in many areas, including tourism education, and has significantly influenced the practical experience of young people in tourism. To overcome this problem, higher education institutions in the tourism sector, in addition to theoretical training, must study various teaching and learning methods and prepare students for work in this sector.

# III BÖLMƏ
# LOGİSTİKA MÜHƏNDİSLİYİ
# TƏCHIZAT ZƏNCIRININ IDARƏEDILMƏSINDƏ INVERTAR NƏZARƏT MODELLƏRI

**Q.R.Məmmədova, magistr E.S.Axundov**
**Azərbaycan Texnologiya Universiteti**
**axundov-elmeddin@mail.ru**

İnventarlaşdırma – anbarın,müəssisənin, idarənin, təşkilatın və başqa təsərrüfat subyektlərinin əmlakının, öhdəliklərinin, hesablaşmalarının, maddi və digər sərvətlərin faktiki vəziyyətinin yoxlanılmasıdır. Həmçinin, qiymətləndirilməsi və sənədlərlə rəsmiləşdirilməsidir. Təbii olaraq baş vermiş itkilərə, mal-material qiymətləri qəbul edilən və buraxılan zaman yol verilən nöqsanlara, qeydiyyatda olan nöqsanlara görə baş verə bilər. Bu uyğunsuzluqları vaxtında üzə çıxarmaq və onların qarşısını almaq məqsədilə mütəmadi olaraq inventarlaşdırma həyata keçirilir. Təşkilatın balansında olan əmlakın mühasibat uçotu məlumatlarına müvafiq gəlib-gəlmədiyi yoxlanılır. İnventarlaşdırma - qeyd etdiyimiz aktiv və öhdəliklərin mühasibat uçotunda olan vəziyyəti ilə (miqdarı, yararlılığı, çeşidi, məbləği və s.) faktiki vəziyyətinin qarşılaşdırılmasıdır. Ümumiyyətlə, təcrübəyə əsasən, maddi aktivlərin inventarlaşdırılması aparılır. Tövsiyə edilir ki, illik maliyyə hesabatı tərtib olunmamışdan əvvəl inventarlaşdırma aparılsın. İnventar , tam və qismən olurlar . Anbarlarda inventarlaşma aparıldıqda, anbarda ilk növbədə digər proseslər dayandırılır. Xarici ölkələrdə bəzi inkişaf etmiş anbarlarda inventarlaşmada dronlardan istifadə edilir. Bu zaman digər proseslərin dayandırılmasına ehtiyac yoxdur. Bu işin məhsuldarlığının artmasına, vaxt itkisinin qarşısının alınmasına imkan yaradır. Təşkilatın rəhbərliyi və onun mülkiyyətçiləri müəssisədə inventarlaşdırmanın müntəzəm və vicdanla həyata keçilirməsində maraqlıdırlar.

Təchizat zəncirində istifadə olunan klassik invertar nəzarət modelləri aşağıdakılardır:

- Vizual nəzarət modeli;
- Üç qablı nəzarət modeli;
- Sabit zaman modeli;
- Sabit miqdar modeli;
- ABC modeli.

Müəssisələrin inventar maddələri çox sayda müxtəlifliyə və müxtəlif əhəmiyyət dərəcələrinə malikdir. A B C metod bu sayca çox olan inventar maddələrinin cəmində məcmu faizlərinə əsaslanır. İllik səhmlərin pul dəyərinə görə A, B və C olaraq üç fərqli şəkildə təsnif edilir.

Yüksək dəyərli maddələr ***"A"*** kimi təsnif edilir. Ümumiyyətlə, illik istehlak dəyərinin 75-80% -ni təşkil edən inventar maddələrinin% 15 -25% -ni təşkil edirlər. Bu maddələrə ciddi nəzarət edilməlidir.

***"B"*** kateqoriyası daha aşağı istehlak dəyəri olan maddələrdən ibarətdir. Bu, illik istehlak dəyərinin 10% -15% -ni təmsil edən inventar maddələrinin 20% -30% -dən ibarətdir. Bu maddələrdə uyğun qaydada nəzarət aparılmalıdır.

Daha az əhəmiyyətli inventar maddələri ***"C"*** kimi təsnif edilir. İllik istehlak dəyərinin 5% -15% -ni təşkil edən inventar maddələrinin% 45 -65% -dən ibarətdir. Bu maddələrin dəyəri aşağı olduğundan, onlara az nəzarət edilir.

ABC modelində invertar nəzarət prosesi aşağıdakı ardıcıllıqda aparılır:

1. Bütün invertarların siyahısı çıxarılır və hər birinin dəyəri hesablanır;
2. Tələbə uyğun olaraq hər bir invertar üçün tələbat miqdarları hesablanır;
3. Dəyər hesablandıqdan sonra ümumi qiymətlərinə görə kateqoriyalara bölünür.

Hal – hazırda invertar nəzarət modelləri arasında ən çox istifadə olunan model ABC modelidir. Çünki bu metodun tətbiqi zamanı müəssisədə olan bütün vəsait,mal - materialın qiyməti, təbii itkilərin vaxtında müəyyən edilməsi və baş vermiş problemin aradan qaldırılması prosesini daha sürətli aparmaq mümkündür.

Xülasə: Təchizat zəncirinin idarəedilməsində invertar nəzarəti vacib məsələlərdən biridir. Son illərdə müxtəlif yeni təchizat zənrici və invertara nəzarət modelləri logistik idarəetmənin işini yaxşılaşdırmaqdan ötrü inkişaf etdirilmişdir. Bu məqalədə təchizat zəncirinin idarəedilməsində inverat nəzarət modelləri və onların problemləri araşdırılıb. Əsas məqsəd tələbin proqnozlaşdırılması prosesini sürətləndirmək və düzgün invertar nəzarət modelini tətbiq etməkdir.

**МОДЕЛИ ИНВЕРТАРНОГО УПРАВЛЕНИЯ В УПРАВЛЕНИИ ЦЕПОЧКОЙ ПОСТАВОК**

**Г.Р. Мамедова,**
**магистр Э.С.Ахундов**
**Азербайджанский технологический университет**
**axundov-elmeddin@mail.ru**

**Резюме:** Инвертарное управление является одним из важных вопросов в управлении цепочкой поставок. В последние годы были разработаны различные новые модели управления цепями поставок и инвертарного управления, для улучшения управления логистикой. В этой статье мы исследовали модели перевернутого контроля в управлении цепочкой поставок и их проблемы. Основная цель - ускорить процесс прогнозирования спроса и применить правильную инверторную модель управления.

**INVERTED MANAGEMENT MODELS IN SUPPLY CHAIN MANAGEMENT**

**Q.R.Mammadova,**
**master E.S.Akhundov**
**Azerbaijan Technological University**
**axundov-elmeddin@mail.ru**

**Summary:** Inverter control is one of the important issues in supply chain management. In recent years, various new supply chain and inverter control models have been developed to improve logistics management. In this article, we have explored the inverted control models in supply chain management and their problems. The main goal is to speed up the demand forecasting process and apply the correct inverter control model.

# IV BÖLMƏ
# YÜNGÜL SƏNAYE MÜHƏNDİSLİYİ

## QIZILAĞAC QABIĞININ SUDA EKSTRAKTI İLƏ TƏBİİ İPƏK LİFİN BOYADILMASI TEXNOLOGİYASININ TƏTQİQİ

**İ.Q.Qasımov, İ.T.Əliyeva, G.A.Tomuyeva, Ş.Q.Əliyeva**
**AMEA Gəncə Bölməsi**
**penahova.shahnaz@mail.ru**

AMEA-da 2021-2025-ci illərdə aparılacaq elmi-tədqiqat işlərinin planlarına müvafiq olaraq Gəncə Bölməsi Bioresurslar İnstitutu "Boyaq emalı texnologiyası" laboratoriyasında qərb bölgəsinin boyaq bitkilərindən ekoloji bitki boyaları alınması və tətbiq sahələri istiqamətində elmi-tədqiqat işləri davam etdirilir.

Tədqiqat işlərinin aparılmasında məqsəd Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar Respublika Prezidenti cənab İlham Əliyevin məlum sərəncamlarından irəli gələn Dövlət Proqramlarının yerinə yetirilməsidir.

Azərbaycan Respublikası İqtisadiyyatının əsas sektorları üzrə Strateji Yol Xəritəsinin icrası ilə bağlı Fəaliyyət Proqramının tələblərinə uyğun Qərb bölgəsinin təbii resursları, aqrosənaye tullantılarından faydalı komponentlərin alınması sahəsində elmi araşdırmalar aparılır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan florasına daxil olan bitkilərin 24%-i işğaldan azad olunmuş Qarabağ ərazilərində yerləşir. Ənənəvi boyaq bitkilərindən boyalar alınması, təbii ipək, yun, pambıq həmçinin sintetik qarışıq liflərin boyadılması, xalçaçılıq və ipəkçilikdə istifadəsinin daha səmərəli texnologiyaların hazırlanmasının elmi araşdırmalarına böyük ehtiyac yaranmışdır. Dağ, meşə-dağ, düzən sahələrində bitən ayrı-ayrı boyaq bitkilərindən davamlı bitki boyaları alınması qarşıda duran mühüm məsələlərdən biridir.

Azərbaycan xalçaları və ipəyinin dünyada məşhurluğu hər birimizə yaxşı məlumdur. Burada xüsusən Gəncə-Qazax məktəbi ayrıca qeyd olunmalıdır. Boyaqçılıqda istifadə olunan istər ekoloji, istərsə də davamlılıq baxımından bitki boyalarına üstünlük verilir.

Bu sahədə tədqiqat işləri davam etdirilərək bölgə üçün xarakterik boyaq bitkilərindən olan qızılağac bitkisinin qabıq və oduncağından boya alınması və ipəyin boyadılması texnologiyası işlənmişdir. [1, s. 41-43]

Tozağacıkimilər fəsiləsinə daxil olan qızılağac (alnus) bitkisinin 40-a qədər növü məlumdur. Azərbaycanda 3 növü yayılmışdır: Ürəkyarpaqlı qızılağac (Alnus Subcordata), Boz qızılağac (Alnus İnsana) və saqqallı qızılağac (Alnus Bardata). Qara qızılağac işıqsevər bitki olub çayların kənarlarında, otlu bataqlıqlarda, göllərin sahillərində, yüksək nəmlik saxlayan humuslu torpaqlarda bitir, hündürlüyü 7 metrə çatan qara rəngli, hamar qabıqlı, kiçik ağac və ya koldur. Cavan zoğları qırmızımtıl-şabalıdı rəngli və lansetvaridir. Zoğları, tumurcuqları şabalıdı rəngli, ipəkvaridir. Oduncaq hissəsindən açıq qəhvəyi, qəhvəyi, qəhvəyi-qonur, şabalıdı və s. rənglər, yarpaqlarından isə yaşıl rəng və onun çalarları alınır. [2, s. 29-31].

Elmi - tədqiqat işində isti ekstraksiya üsulu qızılağac bitkisi qabığından alınmış ekstraktla təbii ipək lifin boyadılması texnologiyası müxtəlif rəngablardan istifadə olunmaqla tədqiq olunmuşdur.

Qızılağac bitkisinin qabıq və sırğalarından alınan boya ilə dəri və ipəyin boyadılmasında geniş istifadə edilir. Qəhvəyi rəngi isə daha çox tumurcuq hissədən alınır.

Boyaq sənayesi üçün onun yarpaqları may-iyun ayından iyulun 1-dək, meyvəsi tam yetişən zaman, yəni sentyabr-oktyabr aylarında, qabıq və oduncaq hissəsi isə erkən yazda toplanmalıdır.

1 kq qızılağac qabığı tozundan hazırlanan boya məhlulu ilə 9-10 kq-a qədər yun və yaxud ipək məmulatları boyamaq mümkündür. [3, s. 50-53].

Boyamanın ümumi prinsiplərinə müvafiq tədqiqat işi aşağıdakı mərhələlər üzrə icra olunmuşdur.

1. Boyamaya hazırlıq
2. Boyama prosesinin aparılması

3. Rəngin lifə bərkidilməsi

Qızılağac bitkisinin bu xüsusiyyətlərini nəzərə alaraq ondan müxtəlif rəng və rəng çalarlarına malik boyalar alınmış, ipəyin boyadılması texnologiyası tədqiq olunmuşdur. Onun oduncaq və zoğlarından alınmış ekstrakt ilə təbii ipək lifin boyadılması texnologiyasının tədqiqi məqsədi ilə texnoloji sxem müəyyən olunmuşdur. [4, s. 30-34].

**Açar sözlər:** *ekstrakt, qabıq, təbii ipək, boyama, fiziki-kimyəvi, kinetik parametrlər, texnoloji sxem.*




**Ədəbiyyat siyahısı:**

1. Касумов М.А. Георгин изменчивый новый пищевой краситель. 1, с. 41-43. || Докл. А.Н.Аз.ССР. 1985. Т.45. № 10 С. 6970.
2. Бешимов Ю.С., Суюнов У.У., Курбанов М.Т. Технология переработки отходов сельское хозяйства и пищевой промышленности. 4,с. 30-34. Молодой ученый 2013 г.
3. Патент РФ № 2077543 кл. С. 09B61/100 1994г. Квасенков О.И. Способ получения антоцианового красителя из растительного сыря. 5, с. 1.
4. Бородукин В.Ф. Химия красителей 6, с. 20-22. М., 2012 г.

## ИССЛЕДОВАНИЕ ТЕХНОЛОГИИ КРАШЕНИЯ НАТУРАЛЬНОГО ШЕЛКОВОГО ВОЛОКНА ВОДНЫМ ЭКСТРАКТОМ КОЖУРОЙ ОЛЬХЫ

**И.К. Касумов, И.Т. Алиева, Г.А. Томуева, Ш.К. Алиева**
**Гянджинское Отделение НАНА**
**penahova.shahnaz@mail.ru**

**Резюме:** Исследовано ареал, физико-химический состав получение водного экстракта из ольхи. Изучены кинетические параметры, технология крашения, температура, время, воздействие протравы на окраску. Внешние физико-химические воздействия на прочность окрашивания. Изучено устойчивость изменение окраски внешним воздействиям, оценено 5 и 8 бальной системой.

**Ключевые слова:** экстракт, протрава, кожура, природный шелк, крашение, физико-химический, кинетические параметры, технологическая схема

## RESEARCH OF TECHNOLOGY OF NATURAL SILK FIBER DYEING WITH AQUATIC EXTRACT OF ALFALFA SHELL

**I.G. Gasimov, I.T. Aliyeva, G.A. Tovuyeva, Sh.G.Aliyeva**
**Ganja Branch of ANAS**
**penahova.shahnaz@mail.ru**

**Summary:** Thus, an extract of alder bark was obtained in water, and with this extract, natural silk fiber was dyed in different shades of bees using different dyes. The technology of the dyeing process was developed, physicochemical parameters and chemical kinetics were studied. The resistance of the color to external influences was evaluated with a studied 5 and 8 point system.

**Key words:** extract, bark, natural silk, dyeing, physicochemical, kinetic parameters, technological scheme.

# AVROPADA MÜASIR GEYIM MODALARININ VƏ ÜSLUBLARININ ANALİZİ

**dos. T.H.Mirzəyev, magistr H.R.Əliyeva, R.T.Mirzəyev,**
**Azərbaycan Texnologiya Universiteti**
**hecer23@mail.ru**
**mirzoev.tofig@yandex.ru**

Cəmiyyətin qəbul etdiyi geyim forması, hər bir fərdin daxili istəkləri ilə üst-üstə düşürsə bu arzu olunan obraz olub, geyim modası kimi xüsusi dəyərə malik olur. Bu şərtlə ki, təyinatı üzrə geyim əvvəl olanlardan formasına, emal üsuluna, materiallarına görə nəzərə çarpacaq dərəcədə fərqlənmiş olsun. Belə olduqda, moda istifadəçinin kompasına çevrilir və insanlar modanın arxasınca getməyə və geyimləri əldə etməyə çalışırlar. Modaya dəb obyektləri ilə bağlı olan bir obyekt kimi baxmaq mümkündür. Ona görə də geyim, onun aksesuarı moda obyektləri kimi ən çox dəyişkənliyə məruz qalan olurlar. Yeni geyim modalarında hallarda, onin əsas hissələrində (detallarında) və ya aksesuarlarında faydalıq meyarı deyişməz qaldığı halda, onun elementləri üzrə müəyyən hissələri dəyişir. Başqa sözlə yeni moda baza modelinin hissələrinin formaca transformasiyaya uğramasından yaranır. Digər tərəfdən yrni modellərin yaranmsı geyim stilinin dəyişməsi ilə əlaqəli də ola bilər. Lakin, bu tip modalaın istehlakçı mımuniyyəti qazanacağı sual altında qalır. Səbəb yeni geyim stilinin insanların dünya görüşünə, dövrün ədəbiyyat, incəsənət və mental düşüncülərinə uyğun olmamasındadır.

Beləliklə, modanın əsas dəyəri onun müasir zövqə uyğun gəlməsidr. Moda öz müasirliyini əvvəlki dövrlərdə mövcud geyim modalarına qayıdıldıqda belə saxlayır. Bu onun mahiyyətinin əsasındadır [1]. Geyim modasının əsas mahiyyətini "Müasirlik və keçərlilik" təşkil edir. Moda aşağıdakı universal xassələrə malikdir:.

- Moda üçün regional dövlət sərhədləri və etnik məhdudiyyətlər yoxdur;
- Moda cəmiyyətdəki təbəqələşmə və fərqli siniflər arasındakı fərqi aradan götürmək xassəsinə malikdir.

Azərbaycanda geyim modaları Avropa geyim istiqamətinə uyğundur. Ona görə də Avropada müasir geyim moda və üslublarının analizi, Azərbaycanda müasir geyimlərin təhlili əsasıda da aparıla bilər.

Nəzəri tədqiqatlarda, modanın mənfi cəhətləri qiymətləndirilir. Özündən razı stereotiplərə və ruhani inkişafa mane olan moda sosial bərabərsizlik nəticəsində yaranan sosial bir zorakılıq aləti hesab olunur. Ona görə ki, moda qurulduğu gündən bu günə qədər vizual təqdimatın mühüm bir hissəsi kimi inkişaf edir, və onun əsas dəyərləri yenilik və formaların yaranmasıdır. XX əsrin modası XIX əsrin modellərindən fərqli olmaqla yeni formanın yaranması ilə bağlı nəzəri tədqiqatlar moda müəlliflərinin müxtəlif mövqeyinə görə qruplaşdırıla bilər. Beləliklə, bir qrup moda müəllifləri fəza təzahürlərinin bir növü kimi fəlsəfi mövqelərdən yanaşır, digər bir qrup müəlliflər isə modaya insan ehtiyaclarının məhsulu və sosial davranışın tənzimləyən bir mexanizm kimi yanaşırlar.

XVIII əsrdə A. Smith antropologiyasında və I. Kant fəlsəfəsində modanın və dəbin öyrənilməsinin vacibliyi göstərirdilər. Daha sonra moda yeni bir elm obyekti olub – sosiologiyada öyrənilməyə başlanıldı. Cənab Simmel 1904-cü ildə moda haqqında bir təfərrüat yazır. XX əsrin 20-ci illərində tədqiqat mərkəzləri moda tarixinin öyrənilməsinin vacibliyini sübut edirlər. Bu zaman kostyum tarixinin analizi üçün geniş iş görülməsini tələb edirdi. Modanın iqtisadi tədqiqatı P. Neistromun "Moda İqtisadiyyatı" (1928) əsərləri ilə XX əsrin birinci yarısında başlamışdır. Tədqiqatçılar moda təbliğat proseslərini anlamaq istəyirdilər. Bu sahədə bir sıra tənqidçilər meydana gəlməyə başlamışdır. (G.Tard, T.Veblen, G.Simmel) C.King, moda prosesinin dinamikasını homogen sosial qruplar içərisindəki dinamikası kimi əsaslandırır [2]. Buna paralel olaraq, marketoloqlar moda kommunikasiya nəzəriyyəsini və moda iqtisadiyyatının diffuz bir nəzəriyyəsini inkişaf etdirirdilər. Beləliklə, tədqiqatçılar istehlak və istehlakçı davranış prizmasını araşdırılmağa başlayırdılar.

Azərbaycan ərazisində geyimdə olan ənənələr təbii coğrafi şəraitin müxtəlifliyi və sosial-iqtisadi həyatın və mədəniyyətin inkişafında tarixən müəyyən edilmiş qeyri-bərabərlik səbəbindən

öz növbəsində müxtəlifliyini də əks etdirir. Geyim, ölkənin müəyyən zonasının iqtisadi və mədəni inkişafının xüsusiyyətlərini əks etdirir. Lakin, Azərbaycanda moda Avropada müasir geyim moda və üslublarına uyğun inkişaf edir [3].

Tədqiqat işində Avropada müasir geyim moda və üslublarının analizi ilə müəyyən edilmişdir:

- Geyim sənayesinin inkişafı və insan həyatında əhəmiyyətliyinin artması, tədricən onun fəsillərə, gündəlik yaşam tərzinə, peşələrə uyğunlaşmasının əsas səbəbi moda fenomenin yaranması oldu;
- Moda, mürəkkəb və çoxölçülü bir hadisədir. Onun əhəmiyyəti XX əsrin sonu XXI əsrin əvvələrində daha çox artmağa başladı;
- Geyimin təsirini öyrənmək bir insanın dəbə olan qeyri-müəyyən münasibətini başa düşməyə imkan verdi;
- Hər bir fərdin sosial mühitdən təcrid olunmamaq üçün dəbə tabe olmağa çalışması;
- Müasir geyim arqumentinin fərqli qütblərdə olan müxtəlif sosial qrupları ayıran fenomen kimi qəbul edilməsi;
- Dünya xalqlarının maddi və mənəvi xüsusiyyətlərini özündə daşıması;
- Azərbaycan tarixinə nəzər yetirdikdə, yerli əhalinin geyim mədəniyyətinin formalaşmasına təsir edən bir çox sosial və siyasi hadisələrin nəticəsində lokal xüsusiyyət (ayrı-ayrı şəhərlər üzrə) daşıması ilə seçilməsi;
- Geyim və onun insan həyataında rolu ilə bağlı hər il yeni nəzəriyyələrin formalaşması, tədqiqatlar aparılması, trendlər yaranması ilə səciyyələnir.

**Ədəbiyyat siyahısı:**


1. Килошенко, Мая. Психология моды. СПб., 2011, с. 19-25
2. Комиссаржевский Ф. История костюма., Минск. II изд., Совлит, 2014, 225 с.
3. E.N.Qasımova, L.N. Məmmədova "Kostyumun kompozisiyası" – dərslik, BAKI: Təbib, 2013.- 180s.


**АЗЕРБАЙДЖАНСКИЙ ТЕХНОЛОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**АНАЛИЗ СОВРЕМЕННОЙ МОДЫ И СТИЛЕЙ ОДЕЖДЫ В ЕВРОПЕ**


**Т.Г. Мирзаев, Г.Р. Алиева, Р.Т. Мирзаев**

**Азербайджанский технологический университет**

**hecer23@mail.ru**

**mirzoev.tofig@yandex.ru**



**Резюме:** Со времени формирования цивилизации и до наших дней одежда остается важным элементом человеческой жизни. В мире существуют формы одежды, отражающие национальную культуру, этническую структуру, религиозные убеждения и т. д. Одежда является не только носителем нравственных качеств, но и одной из основных отраслей мировой экономики. Одежда занимает особое место в рамках международно-правовой системы как один из основных сегментов человеческих свобод. В XX веке ряд вопросов были исследованы в ходе анализа современной моды и стилей одежды Европы и Азербайджана.


**ANALYSIS OF MODERN FASHION AND CLOTHING STYLES IN EUROPE**


**T.H.Mirzayev, H.R.Aliyeva, R.T.Mirzayev,**

**Azerbaijan Technological University**

**hecer23@mail.ru**

**mirzoev.tofig@yandex.ru**



**Summary:** From the time of the formation of civilization to the present day, clothing remains an important element of human life. There are forms of clothing in the world that reflect the national culture, ethnic structure, religious beliefs, etc. Clothing is not only a carrier of moral qualities, but also one of the main branches of the world economy. Clothing has a special place in the basis of the international legal system as one of the main segments of human freedoms. In the 20th century, a number of issues were investigated during the analysis of modern fashion and clothing styles in Europe and Azerbaijan.

# PAMBIQTƏMIZLƏYICILƏRDƏ KOLOSNIKLƏRIN TƏSNIFATLAŞDIRILMASI

**H.Q.Kərimov**
**Azərbaycan Texnologiya Universiteti**
**kerimov_husnu@mail.ru**

Pambığın ilkin emalı müəssisələrində quruducu-təmizləyici və təmizləyici sexlərdə istərən-ənəvi batareyalı, istərsə də PLPX və LP-1S axın xətlərində tətbiq edilən PX-1, 1PX, XP iri qarışıq təmizləyicilərində və UXK aqreqatında kolosniklərdən istifadə edilir [1]. Kolosniklər bu sahədə çalışan mütəxəssislər tərəfindən daim təkmilləşdirilir. Lakin onların sistemli təsnifatlaşdırılması aparılmadığından çətinliklər yaranır.

**Tədqiqatın nəticələri**: Pambıqtəmizləyici maşınların təmizləmə effektinin qiymətləndirilmə-sində kolosniklərin konstruktiv xüsusiyyətləri böyük rol oynadığından onların təsnifatlaşdırılma-sı böyük maraq doğurur. Materialı poladdan olmasına baxmayaraq, son zamanlar polimerlərdən hazırlanmasına cəhd göstərilir. Metallik kolosniklər tərpənməz və tərpənən olmaqla iki sinifə bö-lünür (Şəkil).

Lap əvvəllər pambıqtəmizləmə sənayesində təmizləyici maşınlarda işçi səthi 25mm, mişarlı barabanın rasiusuna nəzərən $155^0$ bucaq altında quraşdırılmış və ölçüləri $25 \times 16 \times 12 \times 10$ mm olan trapesiya şəkilli kolosniklər tətbiq edilirdi. Keçən əsrin sonlarından indiyə qədər isə diametr 20 mm olan dairəvi en kəsiyə malik kolosniklər tətbiq edilməyə başlandı.

Tərəfimizdən daha yüksəsk təmizləmə effektinə malik işçi səthi 12 mm olmaqla, ölcüləri $25 \times 19 \times 12$ mm olan üçüzlü prizmatik və dairəvi-seqment profilli kolosniklər təklif olunmuşdur. Belə tərpənməz kolosniklərin tətbiqi optimal həndəsi parametrlərin seçilməsi ilə təmizləmə effektini tənzimləməyə imkan verir [2].

Son zamanlar kolosniklərin səthinin aktivləşdirilməsi sahəsində də işlər görülmüşdür. Bu zaman polimer örtüklər tətbiq edilmiş, lakin bununla təmizləmə effektinin yüksəlməsinə baxmayaraq sənayedə özünə geniş yer tapmamışdır. Kolosniklərin sərbəstlik dərəcəsinin artırılması istiqamətində də görülən işləri təqdirə layiq hesab etmək olar. Lakin prosesin mürəkkəbliyi baxımından belə tərpənən iş prinsipinə malik olan kolosniklər də kütləvi istehsala daxil ola bilmədi.




**Şəkil 1 . Kolosniklərin təsnifatı**

**Açar sözlər:** Xam pambıq, təmizləyici, kolosnik, təsnifat, kənar qarışıq

**Nəticə:** Bütün bunları analiz etdikdə görünür ki, kolosniklərin təsnifatlaşdırılmasının təkmilləşdirilməsi, təmizləyici maşınlarda daha effektiv işləyər kolosniklərin layihələndirilməsi üçün konstruktorların işini asanlaşdıracaqdır. Hal hazırda müxtəlif parametrlərə malik tərpənməz kolosniklərin layihələndirilməsi daha aktual hesab olunur.

**Ədəbiyyat siyahısı:**

1.V.N. Hüseynov, "Pambığın ilkin emalının texnologiyası", dərslik, Bakı, 2015, 284 s.
2. F.Ə. Vəliyev, V.N. Hüseynov, HQ Kərimov, "Xam pambığın təmizlənməsi üçün kolosnik şəbəkə", F 2020 № 0023, Faydalı model üçün patent, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Bakı, 2020

## КЛАССИФИКАЦИЯ КОЛОСНИКОВ В ХЛОПКООЧИСТИТЕЛЯХ

**У.Г.Керимов**
**Азербайджанский технологический университет**
**kerimov_husnu@mail.ru**

**Резюме:** Классификация и усовершенствование колосников являющихся основным рабочим органом при очистке хлопка-сырца от крупного сора постоянно находится в центре внимания специалистов работающих в этой области. Классификация колосников изучена недостаточна, поэтому есть определенные трудности с усовершенствованием хлопкоочистительных машин.

## CLASSIFICATION OF GRATES IN COTTON GINS

**H.K.Karimov**
**Azerbaijan Technological University**
**kerimov_husnu@mail.ru**

**Summary :**Classification and improvement of grates, which are the main working body in the cleaning of raw cotton from coarse litter, is constantly in the focus of attention of specialists working in this field. The grate classification has not been studied sufficiently, therefore there are certain difficulties with the improvement of cotton ginning machines.

# KƏLAĞAYILARIN ORNAMENTAL KOMPOZISIYALARI TARIXIN VARISLƏRI KIMI

**H.Ə.Ramazanova, V.Ş.Bağırova**

**Azərbaycan Texnologiya Universiteti**

**hicran.ramazanova76@mail.ru**

**Validealesgerov@gmail.com**

Bu məqalədə məqsəd türk xalqlarına məxsus olan "Buta" ornamentinin tarixi keçmişini araşdırmaqla müxtəlif dövrlərdə stilizə olunaraq dəyişikliklərə məruz qalması və tətbiqi sənətin müxtəlif (xalq sənətkarlığının) növlərində geniş istifadə olunmasını araşdırmaqla Azərbaycan ornamental kompozisiyasına yeni fikir və məna gətirməkdən ibarətdir.

Burada "Buta" ornamentinin Azərbaycan tətbiqi sənətində də geniş istifadə olunaraq və hətda bölgələr üzrə müxtəlif "buta"ların formalaşması da önəmli yer tutur.

Məlum olduğu kimi ornamental kompozisiyalar əsrlər boyu stilizə olunaraq , forma dəyisiklərinə məruz qalır və şahidi olduğu tarixi hadisələri özlərində əks etdirirlər.

Ornamental kompozisiyalar tətbiq olunduğu sahələrdən asılı olmayaraq bölgə xususiyətlərini özlərində tərənnüm edərək, yaşadırlar.

Kəlağayılarımızda əsas element kimi istifadə olunan "Buta" kompozisiyası, dekorativ- tətbiqi sənətimizin digər nümunələrində əhəmiyyətli dərəcədə yer tutur. Ümumiyyətlə "Buta" kompozisiyasının tarixi çox genişdir. Tarixi araşdırmalara əsaslanaraq deyə bilərik ki, qədim və erkən orta əsrlərdən bəri bütün türk xalqları tətbiqi sənət nümunələrində "Buta" elementindən istifadə etmişlər. Onu da qeyd etmək vacibdir ki, tətbiqi sənətin bir çox nümunələrində təsvir olunan tovuz quşu rəsmləri əsrlər keçdikcə stilizə olunaraq buta formasını almışdır.

XVII əsrdə Təbrizdə hazırlanmış "Tirmə" parça üzərində müxtəlif ölçülərdə "Buta" ornamentli kompozisiya təsvir olunmuşdur. Həmçinin XVIII əsrdə Şuşada hazırlanmış "Təkəlduz tikməli" baş geyimində də "Buta" elementli kompozisiya təsadüf olunur. Eləcədə bölgələrdə toxunmuş xovlu və xovsuz xalçalarımızda bu kompozisiya elementindən geniş istifadə olunmuşdur. O cumlədən XIX əsrdə Şamaxıda hazırlanan kəlağayılar, bədii tikmələr və "Pilə" tikməli örtüklərdə "Buta" naxış elementlərinə rast gəlinir. Həmçinin XIX əsrdə Şəkidə hazırlanmış bədii tikmədə də kənar haşiyə "Buta"larla əhatələnmişdir.

Ümumiyyətlə Azərbaycanda toxuculuq sənəti inkişaf etdikcə, parça üzərində işlənən kompozisiyaların bədii keyfiyyəti də təkmilləşirdi. Bəzi məxəzlərdə qeyd olunduğu kimi XVIII əsrdə Şamaxıda 1500 ipək parça toxuyan dəzgah işlədiyini, digər mənbələrdə isə Şamaxı yaxınlığındakı iki kənddə: Basqalda və Mücidə, həm parça toxuyan emalatxanaların, həm də toxucu dəzgahları düzəldən emalatxanaların olduğu faktlarına rast gəlirik.

XVIII-XIX əsrlərdən qalmış bir çox qəliblər, basma naxışlı kəlağayı və parça nümunələri o dövrün toxuculuq sənəti haqqında təsəvvür yaradır. Parçaların bəzədilməsində istifadə olunan ornamental qəliblərin arasında "Buta" elementinə də rast gəlirik. Azərbaycanın bir çox bölgələrində, o cümlədən Şamaxıda, Basqalda, Şəkidə, Gəncədə, Şuşada və digər yerlərdə bu element kompozisiya quruluşuna görə fərqli formalarda hazırlanırdı.

Nəticə olaraq "Buta" ornamentinə əlavə edilən butanın kitabla xarı bülbül, muğam üçlüyü ilə elementləri keçmişlə gələcəyi qovuşdurmaqla Qarabağdakı qələbəmizə tövhə olaraq, həmçinin xarı bülbülündə əsarətdən azad olması mənasında, elm və incəsənətin davamlı inkişafına təkan vermək məqsədi daşıyır.

## Ədəbiyyat siyahısı:

1. Ə.Məlikova Kəlağayı sənəti. Bakı. BPAzərbaycan. 2018.
2. V.A.Çıraqzadə Qədim İpəkçilik diyarında. Bakı.Azərnəşr. 1988.

## ОРНАМЕНТАЛЬНЫЕ КОМПОЗИЦИИ НА КЕЛАГАИ КАК НАСЛЕДНИКОВ ИСТОРИИ

**В.Ш.Багирова, Х.А.Рамазанова**
**Азербайджанский технологический университет**
**hicran.ramazanova76@mail.ru**
**Validealesgerov@gmail.com**

**Резюме:** Целью данной статьи является привнесение новых идей и смысла в азербайджанскую орнаментальную композицию путем изучения исторического прошлого орнамента бута, принадлежащего тюркским народам, стилизации и изменения его в разные периоды и широкого использования в различных видах прикладного искусства (народное изобразительное искусство).

Орнамент бута широко используется в прикладном искусстве Азербайджана, и даже формирование различных видов орнамента «буты» в регионах играет важную роль.

## ORNAMENTAL COMPOSITIONS OF KALAGAYS AS HEIRS OF HISTORY

**V.SH.Bagırova, H.A.Ramazanova**
**Azerbaijan Technological University**
**hicran.ramazanova76@mail.ru**
**Validealesgerov@gmail.com**

**Summary:** The purpose of this article is to bring new ideas and meaning to the Azerbaijani ornamental composition by studying the historical past of the Buta ornament belonging to the Turkic peoples, stylized and changed it in different periods and widely used in various types of applied art (folk art).

The Buta ornament is widely used in Azerbaijani applied art, and even the formation of various "buta" in the regions plays an important role.

# XALÇA KOMPOZISIYALARININ RƏNG HƏLLI VƏ HAŞIYƏ QURŞAQLARI ARASINDAKI MÜTƏNASIBLIK

**R.X.Aslanova, T.D.Həsənova, K.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**

Azərbaycan xaçalarının bədii və texnoloji xüsusiyyətlərinə görə xalça məmulatları 4 qrupa bölünür.

1. Quba-Şirvan
2. Gəncə-Qazax
3. Qarabağ
4. Təbriz

Hər bir qrupa daxil olan müəyyən xalçalar toxunduqları yerin adını daşıyır. Azərbaycan xalça sənətində əsasən ornamen,t rəng və kompozisiya prinsipləri nəzərə alınmalıdır. Bir-biri sıx əlaqədə olan bu üç anil Azərbaycan xalçalarının bədii xüsusiyyətlərini müəyyən edir. Azərbaycan xalçalarında istifadə olunan naxışlar xalçanın bədii xüsusiyyətlərini və məzmununu açır. Azərbaycan xalçaları rənginə görə də müxtəlif olur və onlar üçün çox rənglilik səciyyəvidir.Bir-birinə zidd müxtəlif rənglərin harmonik işlədilməsi Azərbaycan xalçalarının tipik xüsusiyyətlərindəndir.

Xalçanın ortasının və kənar naxışlarının kompozisiya xüsusiyyəti onda istifadə olunan rənglərin və ornamentlərin bir-birinə tənasüb (müntənasib) olması ilə səciyyələnir.

Azərbaycan xalçalarının bu cəhəti onların keyfiyyətini müəyyənləşdirir. Xalçalarımımz qədim zamanlardan bu günə kimi həm əməli, həm də ideya-bədii əhəmiyyətə malik olmuşdur. Bədii xüsusiyyət və məzmunu toxunan xalçanın ornamentində, rəngində öz əksini tapmışdır. Xalça sənətində haşyələrin qurulmasında və onların sərbəst şəkildə deyil, ara sahənin qurulma sxeminə görə əlaqələndirilir. Bu əlaqələnmələr nə qədər üst-üstə düşərsə, kompozisiyanın umumi quruluşu bir o qədər mütanasib olar. Burada haşiyə elementləri ara sahə kompozisiyasının ideya və məzmununu tamamlamaq üçün düzgün seçilməlidir. Həm rəng həlli, həm də haşiyə motivləri işlənərkən mövzu ideyanın açılmasına təsir etməlidir.

Xalça kompozisiyalarını layihələndirərkən həm birinin quruluşuna uyğun haşiyə zolaqları tərtib edilməlidir və ölçü nəzərə alınmalıdır. Hər bir xalçanın haşiyə qurşağının xalçanının haşiyə qurşağının eninin 5 hissəsini təşkil etməlidir. Bu nisbətdən kənara çıxma halları xovsuz xalçalarda rast gəlinir. Umumi haşiyə zolaqlarının xüsusilədə ara haşiyənin küncləri, onların qarışı (raportu) kompozisiyasına uyğun olaraq, düzgün qurulmasıdır. Künclərin düzgün həll edilməsi və onun təsadüfü dü.məsindın nöqsanlar yaranır.

Haşiyə qurşağının ümumi qurulmasında onların rəng həlli də xüsusi rol oynayır.

Əsrlər boyu xalça ustaları xalçanın rəng seçimində də sadə qanunlar yaradaraq onu inkişaf etdirmişlər. Lakin, xalçaların rəng əlaqələri təbii mühit və sənətkarın zövqünə uyğun olaraq dəyişmiş, inkişaf etmiş və təkmilləşmişdir.

Xalça kompozisiyalarının rəng həllində, ara sahə ilə haşiyə qurşaqları arasındakı mütənasiblik bir biri ilə sıx bağlıdır. Bu səbəbdən rəng kontrastlığına bə ya müxtəlif və ya eyni tonluluğa ara sahədə olduğu kimi haşiyədədə rast gəlmək our.

Ara sahə ilə haşiyə zolaqlarının yerliyi müxtəlif olmalıdır. Xalçanın "ağzı" ara sahənin rəngi ilə eyni olmalıdır. Ara sahə ilə ümumi haşiyə arasında iki cür rəng əlaqəsi vardır.

1. Ara sahənin rəngi ümumi haşiyə rənginə nisbətən (müxtəlif tonda) açıq və ya əksinə, tünd olur.
2. Ara sahə ilə ümumu haşiyə qurşağının rəngləri arasında müəyyən rəng uyğunluğu (eyni tonlu, açıq və ya tünd rənglərlə) olur.

Bu xüsusiyyətlər müasir dövrdə toxunan xalçalarda da ənənəvi olaraq yaşamaqdadır. Azərbaycan xalçalarında ara sahə haşiyə və onun hissələrində eyni zamanda kiçik və böyük elementlərdə işlənən rənglərin sayı müxtəlif olur və kontrastlıq prinsipi əsas götürülür. Ara sahə ilə ümumi haşiyə arasında rənginə görə nisbətən açıq və ya əksinə, tünd olan xalçaları fərqləndirmək onların məna daşıyan xüsusiyyətlrini öyrənməkdə çox böyük əhəmiyyət daşıyan amillərdən sayıla

bilər. Azərbaycan xalçalarında ara sahə haşiyə və onun hissələrində, habelə kiçik və böyük elementlərdə işlənən rənglərin sayı müxtəlif olur və kontrastlıq prinsipi əsas götürülür. Ara sahə ilə ümumi haşiyə arasında rənginə görə nisbətən açıq və ya əksinə, tünd olan xalçaları fərqləndirmək onların məna daşıyan xüsusiyyıtlərini öyrənməkdə çox böyük önəm daşıyan amillərdən sayıla bilər.

Əgər xalçanın ara sahəsi tünd rəngdə verilibsə onda mütləq böyükdən-kiçiyə doğru haşiyə qurşaqlarının rəngi işıqlı rəngdə götürülməlidir. Burada hər bir rəngin öz mənası, öz açımı vardır.

**Ədəbiyyat siyahısı:**

1. Məmmədhüseyn Hüseynov, Xalça sənətində,haşiyə elementləri və onların quruluşu, Bakı-2012
2. Kərimov K.C, Əfəndiyev R.S, Rzayev N.İ, Həbibov N.D, Azərbaycan incəsənəti-Bakı işıq 1992

## ЦВЕТОВОЕ РЕШЕНИЕ И СООТНОЩЕНИЕ МЕЖДУ КАЙМОВЫХ ПОЯСАХ В КОМПОЗИЦИИ КОВРОВ

**Азербайджанский технологический университет**
**Р.Х.Асланова, Т.Д.Гасанова, К.Мамедова**
**Азербайджанский технологический университет**

**Резюме:** В искусстве ковроткачества создание каемки взаимосвязано не в свободной форме, а по схеме промежуточного поля.

Настолько больше совпадает это взаимосвязь, настолько и бывает пропорциональность общего вида композиции. Здесь нужно правильно выбирать элементы границы и идеи композиции промежуточного поля.

## PROPORTIONALITY BETWEEN THE COLOR SOLUTION OF CARPET COMPOSITIONS AND THE BORDER ZONES

**R.X.Aslanova, T.D.Hasanova, K.Mammadova**
**Azerbaijan Technological University**

**Summary:** In carpet weaving the construction of borders and their connection does not occur freely,but according to the scheme of constructing an intermediate field. As much as this connections overlap, so much is the proportionality of the overall structure of the composition.Here it is necessary to choose the right border elements to complete the idea and content of the composition of intermediate field. Both the color scheme and the frame should influence the disclosure of the idea when working with motifs.

# GƏNC NƏSİLİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİNDƏ TƏSVİRİ SƏNƏT ƏSƏRLƏRİNİN ROLU

**Ə.P.Məhərrəmov**
**Azərbaycan Texnologiya Universiteti**
**abulfat61@mail.ru**

Təsviri sənət inkişaf etmiş şəxsiyyət tərbiyəsində mühüm rol oynayır. Vətənpərvərlik mövzularında işlənən təsviri sənət əsərləri vətənpərvərliyin formalaşdırılmasında faktiki olaraq geniş və zəngin material verir. Qrafika, heykəltəraşlıq, rəngkarlıq əsərlərinin nümunələri xüsusi olaraq uşaq və gənclərin yaddaşında daha dəqiq həkk olunaraq onların düşüncə tərzlərini, dünya görüşlərini formalaşdırmaqla vətənpərvərlik hissilərini gücləndirir.

Bu mənada təsviri sənətin batal janrında çəkilən təsvirlər təsir gücü baxımından daha səmərəlidir. Təsviri sənətdə hərb və döyüş səhnələrinin epizodlarını əks etdirən təsvirlər "batal" janrı adlandırılmışdır. "bataille" Fransız sözü olub tərcümədə döyüş deməkdır. Batal rəngkarlıqda hərbi həyatın həm məişət, həm də dəniz, quru, və hava səhnələrinin ayrı-ayrı epizodları təsvir olunur. Döyüş, mübarizə, yürüş, səhnələrinin təsviri bəşəriyyət tarixinin bütün dövrlərində gündəmdə durmuşdur.

Qədim zamanlardan bəri hökmdarların, sərkərdələrin döyüş meydanlarında qalaların və şəhərlərin alınması üçün hücum səhnələrini əks etdirən təsvirləri bu günümüzə qədər gəlib çatmışdır. Hmin əsərlər mifik personajlar və real insanların həmin dövrdə əldə etdikləri döyüş zəfərlərini təbliğ edir. Belə ki, həmin təsvirlərin nümunələrinə biz kitab miniatürlərində, ikonalarda, parçaların üzərlərində, xalçalarda, rospislərdə (divar rəsmləri) rast gəlirik. Bu da həm Avropa, həm də Asiya xalqlarına aiddir.

Məsələn Şəki Xan sarayının daxili divarında miniatür formada xanın təsviri döyüş səhnəsində verilib. Sultan Məhəmmədin miniatüra təsvirlərində də döyüş səhnələrinə rast gəlmək mümkündür. Realist formada müharibə və döyüş səhnələrinin epizodlarının təsvirlərinə isə Böyük İntibah dövründə rast gəlinməyə başlanılmışdır. Rusiyada batal janrına yeni impulsu Suvarov və Kutuzovun döyüşlərdə əldə etdikləri qələbələr vermişdir.

XX əsrdə "batal" janrına aid edilən əsərlərin çəkilməsi ikinci dünya müharıbəsi ilə bir başa əlaqəli olmuşdur. Milliyyətindən asılı olmayaraq faşizmə qarşı mübarizə aparan xalqların nümayəndələrinin əsgər və zabitlərinin göstərdikləri şücaət və qəhrəmanlığını əks etdirən sənət əsərləri hərbi döyüş ruhunun yüksəldilməsində müstəsna əhəmiyyətə malik olmuşdur.

A.Deneykanın "Sevastopolun müdafiəsi" əsəri döyüş meydanının ən şiddətli epizodlarının birini əks etdirir. Qerasimovun "Partizan anası", Toidzenin "Ana Vətən çağırır!" kimi əsərləri insanların döyüş əzminin, vətənpərvərliyinin artırılmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Lakin bizim üçün daha maraqlı və əhəmiyyətli odur ki, torpaqlarımızın erməni işğalçıları tərəfindən zəbt edildiyi, onların məkirli niyyətlərindən əl çəkmədikləri zamanda gənclərimizin vətənpərvərlik və döyüş ruhunun gücləndirilməsi daha aktualdır. Bu işdə təsviri sənətin batal janrında yaradılan əsərlərinə daha çox ehtiyac vardır.

Azərbaycan rəssamlarının ən görkəmli nümayəndələrinin batal yanrında yaratdıqları əsərlər mövcuddur. Həmin əsərlərin böyük bir qismi ikinci dünya müharibəsinə həsr olunmuşdur. Bunların sırasında xalq rəssamı M. Abdullayevin "1941-ci ilin iyunu", V. Nərimanbəyovun "And", "Cəbhə yolları", "Gözləmə" və s. kimi əsərlərin adlarını qeyd edə bilərik. Eyni zamanda S. Bəhlulzadənin "Bəzz qalasının alınması" əsəri də döyüş səhnəsini əks etdirən əsərlərin sırasıına daxildir.

Bütün bunlarla yanaşı biz müstəqilliyə nail olduğumuz son 31 ildə apardığımız mübarizələrin nəticələrini qorumaq üçün təsviri sənətin güclü təbliğat vasitələrindən biri olduğunu dərk edərək, batal janrında yaradılan əsərlərə ehtiyacımız olduğunu hamılıqla hiss etməliyik. Şəhər, qəsəbə və rayonlarda heykəltəraşlıq nümunələri vardır. Lakin, bu işlər orta məktəb dərsliklərində kütləvi təbliğat vasitələrində öz əksini tapmalıdır ki, gənclərimiz vətənpərvər ruhda böyüsünlər və azğın düşmənin məkirli niyyətlərini hər zaman pozmağa hazır olsunlar.

Azərbaycan Rəssamlar İttifaqının üzvü kimi, təsviri sənət sahəsində uzun müüddətli elmi pedaqoji fəaliyyəti olan bir mütəxəsis kimi I və II Qarabağ müharibəsinə həsr olunan N-saylı hərbi hissələrdən birində iri həcmdə, divarda yağlı boya ilə “Hücum” adlı pano yaratmışam. Bundan əlavə “Vətənin keşiyində”, “Şəhid anası”, “Xocalı qırğını”, “Qarabağ döyüşçüsü” “Milli Qəhrəman Mübariz İbrahimov” “Vətən Nəğməsi” və s. kimi əsərlərin müəllifiyəm. Düşünürəm ki, kətan üzərində çəkilən həmin tablolar məzmun etibarı ilə istər əsgərlərimizin, istərsə də gənclərimizin vətənpərvərlik tərbiyəsinə güclü təsir göstərə bilmişdir.

Uzun illər gənclərimizin hərbi vətənpərvərlik ruhunda düzgün istiqamətdə tərbiyə edilməsinin nəticəsində nəhayət ki, torpaqlarımiz Ali Baş komandan, ölkə prezidenti İlham Əliyevin komandanlığı altında erməni işğalçılarından azad edildi. Əsgər və zabitlərimizin yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmsı nəticəsində müasirr hərb tarixində yüksək zəfərin əldə olunmasına gətirib çıxardı. 44-gündə Azərbaycan xalqının birgə əldə etdiyi qələbə dünya ictimaiətini heyrətə saldı. Lakin düşmənin hələ də revanş niyyəti, bir çox ölkələrin ölkəmizə qarşı təxribatçı mövqe sərgilədiyi tarixi bir zamanda arxayınlaşmaq, sayıqlığı itirmək olmaz.

Gənclərimizin vətənpərvərlik və döyüş ruhu daima diqqət mərkəzində olmalıdır. Bu baxımdan incəsənət əsərlərinin əhəmiyyəti çox böykdur. Arzu edirəm ki, müstəqillik dövrümüzdə apardığımız mübarizələrin, qanlı döyüşlərin təsvirlərini əks etdirən əsərlərin mütəmadi olaraq sərgiləri təşkil olunsun. Rəsm müsabiqələri keçirilsin. Məsələn, Ramil Səfərov və Mübariz İbrahimov kimi digər milli qəhrəmanlarımızın, II Qarabağ döyüşlərinin qəhrəmanlarının və şəhidlərinin döyüş yollarını əks etdirən təsviri sənət əsərlərinin yaradılması, Azərbaycan gənclərinin vətənpərvərlik ruhunun, mübarizliyinin artmasına səbəb olar. Təsviri sənətin güclü emosional təsir gücünün olması qeyd edilənlərə bir sübutdur.




İrakli Toidze
“Ana Vətən çağırır !”



Əbülfət Məhərrəmov
“Milli Qəhrəman”



Əbülfət Məhərrəmov
“Hücum”



Əbülfət Məhərrəmov
“Vətən Nəğməsi”

**Ədəbiyyat siyahısı:**


1. Г.О.Беда. Основы грамоты. Рисунок, Живопись, Композиции. М.1981г.
2. Б.Саланский. «Техника живописи» Издательство Академии художеств. СССР. Москва 1962 г.
3. Б.И.Иогансон. «О живописи». Москва. 1960 г.
4. П.В.Виннер «Как работает мастера живописи». Москва 1965 г.
5. Н.Н.Волков. «Композиция в живописи». Москва. 1977 г.


## РОЛЬ ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА В ВОСПИТАНИИ МОЛОДОГО ПОКОЛЕНИЯ В ВОЕННО-ПОТРУАТИЧЕСКОМ ДУХЕ

**А.П.Магеррамов**
**Азербайджанский технологический университет**
**abulfat61@mail.ru**

**Резюме:** Изобразительное искусство играет важную роль в развитии развитой личности. Произведения изобразительного искусства на патриотическую тематику дают широкий и богатый материал в формировании патриотизма.

В XX веке производство произведений, относящихся к жанру «баталь», было тесно связано со Второй мировой войной. Произведения искусства, отражающие отвагу и героизм солдат и офицеров народов, борющихся против фашизма, независимо от национальности, сыграли исключительную роль в повышении духа военной войны.

В результате многолетнего воспитания нашей молодежи в правильном направлении в духе военного патриотизма, наши земли наконец были освобождены от армянских оккупантов под руководством Верховного Главнокомандующего, Президента Ильхама Алиева.

В то же время, мы все должны осознавать потребность в произведениях в жанре баталь, признавая, что изобразительное искусство является одним из сильнейших средств пропаганды, чтобы сохранить результаты нашей борьбы за независимость за последний 31 год.

## THE ROLE OF IMAGE IN ART IN THE EDUCATION OF THE YOUNG GENERATION IN THE MILITARY-POTRUATIC SPIRIT

**A.P.Magerramov**
**Azerbaijan Technological University**
**abulfat61@mail.ru**

**Summary:** The visual arts play an important role in the development of a well-developed personality. Works of fine art on patriotic themes provide a wide and rich material in the formation of patriotism.

In the twentieth century, the formation of works belonging to the "batal" genre was closely connected with the Second World War. Works of art reflecting the bravery and heroism of the soldiers and officers of the peoples fighting against fascism, regardless of nationality, played exceptional role in enhancing the spirit of military warfare.

As a result of many years of education of our youth in the right direction in the spirit of military patriotism, our lands have finally been liberated from the Armenian occupiers under the command of the Supreme Commander-in-Chief, President Ilham Aliyev.

At the same time, we should all be must aware the need of works in the genre of battalion, recognizing that the fine arts is one of the strongest means of propaganda to protect the results of our struggle for independence in the last 31 years.

# V BÖLMƏ
# İNFORMASİYA TEXNOLOGİYALARI VƏ KOMPYUTER MÜHƏNDİSLİYİ
## QARĞIDALI QIÇASINDAN DƏN AYIRMASINDA TƏDQIQATIN NƏTICƏLƏRININ RIYAZI IŞLƏNMƏSI

**dos. U.T.Tağıyev, magistr A.İ.Məmmədova**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

Eksperimentin nəticələrinin qiymətləndirilməsində məqsəd aparılan tədqiqatın keyfıyyət və kəmiyyət göstəricilərinin həqiqətə uyğunluğunu təyin etməkdir. Bunlar statistika xarakteristika adlanmaqla orta riyazi kəmiyyət ($\bar{x}$), dispersiya (D=σ2),orta kənarlaşma, orta riyazi səhvlik ($\sigma_{\bar{x}}$), variasiya əmsalı ***(v)*** və seçimin nisbi səhvliyindən ($\sigma_{\bar{x}}$ %) ibarətdir [1, 2, 3].

Orta riyazi ***kəmiyyət dedikdə*** tədqiq olunan göstəricinin orta qiyməti və ya onun ağırlıq mərkəzi nəzərdə tutulur.

Onun qiyməti

$$\bar{x} = \frac{\sum X}{n} \qquad (1)$$

və ya

$$\bar{x} = \frac{m_1 x_1 + m_2 x_2 + \cdots + m_n x_n}{m_1 + m_2 + \cdots + m_n} \qquad (2)$$

ifadələri ilə təyin olunur.

Burada ***ΣX*** **-** tədqiq olunan göstəricinin ümumi miqdarıdır;

n - tədqiqatların sayıdır;

***x1,x2,…,xn*** **-** müxtəlif pillələrdə kəmiyyətin qiymətidir;

*m1,m2,* ***…,mn*** **-** eyni qrupdan olan göstəricilərin sayıdır.

Orta riyazi kəmiyyətin əsas xüsusiyyəti onun (+) və (-) qiymətlərinin cəminin 0 -a bərabər olmasındadır.

Beləki;

$$\sum (x - \bar{x}) = (x_1 - \bar{x}) + (x_2 - \bar{x}) + \cdots + (x_n - \bar{x}) = 0$$

Dispersiya (σ2) və orta kvadratik meyillənmə (σ) tədqiq olunan parametrlərin axtarılan qiymətindən kənarlaşması və ya saga sola səpələnməsini göstərir. Beləki,

$$\sigma^2 = \frac{\sum (x - \bar{x})^2}{n - 1}. \qquad (3)$$

Orta kvadratik meyillənmə dispersiyanın kvadrat kökünə bərabərdir, Onun kvadrat kök daxilindəki qiyməti (+) müsbət olmaqla aparılan eksperimentin minimum kənarlaşmasını göstərir və eksperiment göstəricilərinin çox hissəsi həmin qiymət ətrafında olur.

Onda orta kvadratik meyillənmə

$$\sigma = \sqrt{\frac{\sum (x - \bar{x})^2}{n - 1}} \qquad (4)$$

düsturu ilə də hesablana bilər.

Orta kvadratik meyillənmə məlum olduqdan sonra dispersiya təyin olunur D=σ2 olar.

Göstərildiyi kimi orta kvadratik meyillənmə səhvliyin əsas göstəricisi olmaqla ümumi eksperiment məlumatlarının 2/3-in cəmləndiyi bir sahədir. Aparılan tədqiqatların nəticələri göstərir ki, hadisələrin 99,5% -i ±3σ ətrafında baş verır.

*Variasiya əmsalı* - orta kvadratik meyillənmənin orta riyazi göstəriciyə % -lə nisbətinə deyilir:

$$V = \frac{\sigma}{\bar{x}} \cdot 100\%. \qquad (5)$$

Variasiya əmsalı göstəricinin nisbi dəyişkənliyini göstərir. Variasiya əmsalını dəyişkənliyin 10% -dən aşağı qiymətlərində hesablamaq məqsədəuyğundur.

*Tədqiqatın səhvliyi və ya seçimin səhvliyi* orta kvadratik meyillənmənin ölçmələrin sayının kvadrat kökünə nisbətinə deyilir və

$$P = \frac{\sigma}{\sqrt{n}} = \sqrt{\frac{\sigma^2}{n}} \tag{6}$$

ifadəsi ilə təyin olunur.

Səhvlik % -lə hesablanarsa onun qiyməti $P = \frac{\sigma}{\sqrt{n}} \cdot 100\%$ ifadəsi ilə təyin olunur.

Tədqiqatın səhvliyini dispersiyanın orta riyazı kəmiyyətə nisbəti ilə də təyin etmək mümkündür.

İfadənı %-lə göstərsək, $P = \frac{\sigma^2}{m_{or}} \cdot 100\%$ olar.

Təcrübənin dəqiqliyi çox faktorlardan asılıdır. Onlardan şərait, tədqiq olunan obyektin reallığına uyğunluğu, ölçü cihazlarının dəqiqliyi, ölçü aparan şəxsin səriştəsi və s. göstərilə bilər.

Ümumi qaydaya əsasən təcrübənin səhvliyi - (P) 5% -dən yuxarı olarsa həmin təcrübəni ləğv edib, metodika və təcrübənin üsulunu dəyişməklə onun təkrar aparılması məqsədəuyğundur.

Tədqiqat işlərinin dəqiqliyinin artrılması məqsədi ilə onun sayının (n) müəyyənləşdirilməsi vacib məsələlərdən biridir. Belə ki, təcrübələrin sayının azaldılması, optimal qiymətə malik olması vaxta, onun aparılmasına əmək sərfinin azaldılmasına səbəb ola bilər. Bunları nəzərə alaraq müxtəlif müəlliflər tərəfindən təcrübələrin sayının aşağı salınması və optimal vahid variantın seçilməsi məqsədi ilə riyazi üsul işlənilmişdir. Onların mahiyyəti ondan ibarətdir ki, kənd təsərrüfatında və texnikada səhvliyi 3...5% qiymətlərində qəbul edərək təcrübələrin sayı təyin edilir [4].

Təcrübənin səhvliyini $P = \frac{\sigma^2}{m_{or}} \cdot 100\%$ ifadəsi ilə təyin etsək və

$\sigma = \sqrt{\frac{\sum (x_i - \bar{x})^2}{n-1}}$ qiymətini yazsaq, onda

$$0{,}01 \cdot Pm_{or} = \sqrt{\frac{\sum m_i (x_i - \bar{x})^2}{n-1}} \tag{7}$$

$$n - 1 = \frac{\sum (x_i - \bar{x})^2}{0{,}01 \cdot Pm_{or}}$$

$$n = \frac{\sum (x_i - \bar{x})^2}{0{,}01 \cdot Pm_{or}} + 1.$$

Bu ifadə vəsitəsi ilə təcrübələrin sayı təyin olunur. Əgər təcrübənin səhvliyini 3% qəbul etsək

$$n = \frac{\sum (x_i - \bar{x})^2}{0{,}03 \cdot Pm_{or}} + 1 \tag{8}$$

$$X = m_{or} = \frac{m_1 X_1 + m_2 X_2 + \cdots + m_n X_n}{m_1 + m_2 + \cdots + m_n} \tag{9}$$

qəbul edirik.

Digər tərəfdən eksperimentlərin sayının 99,5% -nin 3σ ətrafında olduğunu nəzərə alsaq n =3σ qəbul etmək olar. Yəni eksperimentin sayını orta kvadratik meyillənmənin qiymətindən 3 dəfə artıq götürmək lazımdır.

Açar sözlər: Riyazi işləmə, orta kvadratik kənarlaşma, təcrübə, riyazi üsul, dəqiqlik, faktorlar, optimal variant, eksperiment

## Ədəbiyyat siyahısı:

1.Qurbanov X.H. Eksperimentin planlaşdırılması/X.H.Qurbanov, K.H.Fətəliyev, E.B.İsgəndərov - Bakı: ”Vektor” nəşrlər evi, 2015. 120 s.

2. Косарев, Е.Л. Методы обработки экспериментальных данных/ Е.Л.Косарев- М.: Физматлит, 2009. 208 с.

3.Костин, В.Н. Статистические методы и модели: Учебное пособие/ В.Н.Костин, Н.А.Тишина - Оренбург: ГОУ ОГУ, 2004. 138 с.

4.Митин, И.В. Анализ и обработка экспериментальных данных/ И.В.Митин, В.С.Русаков- М.: Физический факультет МГУ, 2012. 44 с.

## МАТЕМАТИЧЕСКАЯ ОБРАБОТКА РЕЗУЛЬТАТОВ ИССЛЕДОВАНИЙ ПО ОТДЕЛЕНИЮ СЕМЯН КУКУРУЗЫ ОТ ПОЧАТКОВ

**доц У.Т.Тагиев, магистр А.И.Мамедова**
**Азербайджанский Государственный Аграрный Университет**

**Резюме:** В статье представлена математическая разработка процесса отделения семян кукурузы от початков. Целью оценки результатов эксперимента является определение точности качественных и количественных показателей исследования. Для этого определялись средняя математическая величина, дисперсия, среднее отклонение, средняя математическая погрешность, коэффициент вариации и относительная погрешность выбора. Результаты исследований показывают, что в 99,5% случаев средне квадратичное отклонение находится в пределах ±3σ. Точность эксперимента зависит от многих факторов, к которым относятся условия, соответствие реальности исследуемого объекта, точность измерительных приборов, компетентность человека, проводящего измерения, и так далее. Уменьшение количества экспериментов может способствовать оптимальности времени проведения и к снижению трудозатрат. Для этого на основе существующей методики была выполнена разработка математического метода с целью уменьшения количества экспериментов и выбора оптимального единичного варианта.

**Ключевые слова:** математическая обработка, средне квадратичное отклонение, опыт, математический метод, точность, коэффициенты, оптимальный вариант, эксперимент.

## MATHEMATICAL PROCESSING OF RESEARCH RESULTS ON THE SEPARATION OF CORN SEEDS FROM EARS

**prof. U.T.Tagiyev, master A.I.Mamedova**

**Summary:** The article presents a mathematical development of the process of separation of corn seeds from the cobs. The purpose of evaluating the results is to determine the accuracy of the qualitative and quantitative indicators of the study. For this, the average mathematical value, variance, average deviation, average mathematical error, coefficient of variation and relative selection error were determined. The results show that in 99,5% of cases the standard deviation is within ± 3σ. The accuracy of the experiment depends on many factors, such as the conditions, the suitability of the object under study, the accuracy of the measurements of the instruments, the competence of the person taking the measurements, and so on. Reducing the number of experiments can be the optimal timing and reduce labor costs. For this, on the basis of the existing methodology for reducing the number of experiments and choosing the optimal option, the development was carried out by a mathematical method.

**Key words:** mathematical processing, standard deviation, experience, mathematical method, accuracy, coefficients, optimal variant, experiment.

# İNFORMASIYA-PROQRAM TƏMINATLI IDARƏ OLUNAN PROSESIN IDENTIFIKASIYASI

**prof. Q.B.Məmmədov, magistr E.E.Məmmədov**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

Prosesin identifikasiyası pres-qranulyatorun müvafiq iş rejimi sahəsində prosesin optimallığını təmin edən cavab funksiyasının səthinin xarakterini və şərtlərini müəyyən etməkdən ibarətdir [1]. İdarəedici faktorlar kimi kondensasiya edici buxarın (suyun və digər nəmləşdirici, birləşdirici mayelərin) verilmə miqdarı ($G$), qarışdırıcı şnekin fırlanma tezliyi ($\omega$) və buxarın təzyiqi ($p$) qəbul olunmuşdur. Cavab funksiyası isə $T$-soyuducunun dolma vaxtı (boşaldıcı qurğunun tsiklləri arasında) götürülmüşdür [2]. Qeyd olunanın riyazi formasını aşağıdakı kimi ifadə etmək mümkündür:

$$T(G,\omega,p) \rightarrow min \qquad (1)$$

$$G=\xi_1,\ \omega=\xi_2,\ p=\xi_3,$$

burada $\xi_1$, $\xi_2$, $\xi_3$-nizamlıyıcı faktorların ($G,\omega,\rho$) optimal qiymətləri.

Nizamlayıcı faktorlar aşağıdakı düsturlardan təyin olunur:

$$\frac{\partial T}{\partial G}=0;\ \frac{\partial T}{\partial \omega}=0;\ \frac{\partial T}{\partial p}=0. \qquad (2)$$

Buxarın verilməsini nizamlayan orqanın vəziyyəti icra mexanizmləri siqnallar verilməklə elektron hesablayıcı ilə təmin olunmuş mikroprosessorlarla mümkündür.

Şnekin fırlanma tezliyinin dəyişməsi onun intiqalının sabit elektrik cəryanlı mühərrikinin yakorunun cərəyanını dəyişməklə mümkündür.

Buxarın təzyiqi nizamlayıcı kran və manometrlə nizamlanır.

Faktorların variasiya səviyyəsinin seçilməsi pres-qranulyatorun qəzasız iş rejimini təmin edən zonanın şərtlərinə əsaslanmışdır. Bu zona müxtəlif reseptli yem qarışığı üçün müxtəlif ola bilər. Odur ki, hər konkret hal üçün istənilən göstərici bilavasitə təcrübə qabağı təyin edilmişdir.

Riyazi modelin qurulması üçün mərkəzi kompozisiyalı plan [3, 4] seçilmişdir.

Obyektin işi aşağıdakı reqressiya tənliyi ilə ifadə olunmuşdur:

$$T=b_0+\sum b_i x_i+\sum b_{ij} x_i x_j+\sum b_{ii} x_i^2\ , \qquad (3)$$

burada $b_0$, $b_i$, $b_{ij}$, $b_{ii}$-reqressiya əmsallarıdır.

Reqressiya əmsalları bir-birindən asılı olmayaraq aşağıdakı kimi müəyyən edilir [5]

$$b_0=\frac{\sum_{u=1}^{N} T_u}{N}, \qquad (4)$$

$$b_i=\frac{\sum_{u=1}^{N} x_{iu} T_u}{10,95}, \qquad (5)$$

$$b_{ii}=\frac{\sum_{u=1}^{N} x_{iu} T_u}{4,36}, \qquad (6)$$

$$b_{ij}=\frac{\sum_{u=1}^{N} x_{iu} x_{ju} T_u}{8}. \qquad (7)$$

Prosesin bərpa olunması Koxren kriteriyasına görə müəyyən edilmişdir [6, 7]:

$$G_{hes}=\frac{S_{u\,max}^2}{\sum_{u=1}^{N} S_u^2} \le G_{cəd}(0,05;\ f_N;\ f_u), \qquad (8)$$

$$S_u^2=\frac{\sum_{u=1}^{N}(T_u-\bar{T})}{m-1}, \qquad (9)$$

burada $G_{hes}$, $G_{cəd}$-Koxren kriteriyasının müvafiq olaraq hesabat və cədvəl qiymətləri;

$S_u^2$-faktorların "$u$" səviyyəsində təcrübə nəticələrinin yayılmasının xarakterizə edən dispersiya;

$\bar{T}$-cavab funksiyasının orta qiyməti;

*m*-paralel təcrübələrin sayı;
$f_N$-sərbəst qiymətlərin sərbəstlik dərəcəsi sayı;
$f_u$-hər qiymətin sərbəstlik dərəcəsi sayı.
Bərpa olunma dispersiyası aşağıdakı ifadədən təyin olunur:

$$S_{bər}^2 = \frac{\sum_{u=1}^{N} S_u^2}{N}. \quad (10)$$

Tənliyin adekvatlığı Fişer kriteriyası ilə müəyyən edilmişdir [6]:

$$F_{hes} = \frac{S_{ad}^2}{S_{bər}^2} \le F_{cəd}(0,05; f_{ad}; f_u) \quad (11)$$

$$S_{ad}^2 = \frac{\sum_{u=1}^{N} (\bar{T} - \hat{T}_u)^2}{m-1}, \quad (12)$$

burada $F_{hes}$, $F_{cəd}$-Fişer kriteriyasının müvafiq olaraq hesabat və cədvəl qiymətləri;
$S_{ad}^2$-adekvatlıq dispersiyası;
$\bar{T}$-plan sətrində cavab funksiyasının orta qiyməti
$\hat{T}$-u-təcrübəsində cavab funksiyasının hesabat qiyməti.
Cədvəl 1; 2 və 3 də yem qarışığının dənəvərləşdirilməsi prosesinin riyazi modelinin şərtləri və hesabat nəticələri verilmişdir.

Cədvəl 1. Faktorların variasiya səviyyələri

| *N* | Faktorlar | $X_i$ | *G,%* | *ω, rad/san* | *p, Mpa* |
|---|---|---|---|---|---|
| 1 | Baza səviyyəsi | $X_{io}$ | 55,0 | 4,73 | 0,2 |
| 2 | Variasiya intervalı | $\Delta X_i$ | 15,0 | 1,1 | 0,05 |
| 3 | Yuxarı səviyyə +1 | $X_{i\,yux}$ | 70,0 | 5,83 | 0,25 |
| 4 | Aşağı səviyyə -1 | $X_{i\,aş}$ | 40,0 | 3,63 | 0,15 |
| 5 | Ulduz nöqtələr | +* | 85,0 | 7,05 | 0,31 |
| | | -* | 33,0 | 2,42 | 0,14 |

Boşaldıcı qurğunun iş tsikilləri arası soyuducunun dolma vaxtını minimuma endirmək və yaxud nizamlayıcı parametrlərin müxtəlif qiymətləri ilə maksimum məhsuldarlığa nail olmaq üçün avtomat axtarış rejimi tətbiq etmək lazımdır.

$$X_i = \frac{x_i - x_{io}}{\Delta x_i};\ G_{hes}=0,125;\ G_{cəd}=0,125;\ G_{cəd}=0,335;\ G_{hes}<G_{cəd}$$

$$F_{hes}=4,8;\ F_{cəd}=6,3;\ F_{hes}<F_{cəd}$$

$$T=162,46-1,42G-35,38\omega+0,0153G^2+12\omega^2-0,125G\omega$$

Cədvəl 2. Planlaşdırma matrisası

| *N* | *G* | *ω* | *P* |
|---|---|---|---|
| 1 | - | - | - |
| 2 | + | - | - |
| 3 | - | + | - |
| 4 | + | + | - |
| 5 | - | - | + |
| 6 | + | - | + |
| 7 | - | + | + |
| 8 | + | + | + |
| 9 | -* | 0 | 0 |
| 10 | +* | 0 | 0 |
| 11 | 0 | -* | 0 |
| 12 | 0 | +* | 0 |
| 13 | 0 | 0 | -* |
| 14 | 0 | 0 | +* |
| 15 | 0 | 0 | 0 |

Cədvəl 3. Hesabat nəticələri

| N | Nəticələr | | | | | Adekvatlıq | Reqressiya əmsallarının qiymətləri |
|---|---|---|---|---|---|---|---|
| | $T_1$ | $T_2$ | $T_3$ | $T_4$ | $T_5$ | $(\hat{T}-\bar{T})^2$ | |
| 1 | 34,0 | 37,0 | 38,5 | 36,5 | 5,25 | 6,76 | $b_0$=22,87 |
| 2 | 32,0 | 34,0 | 34,5 | 33,5 | 1,75 | 6,25 | $b_1$=-4,95 |
| 3 | 34,5 | 34,5 | 36,0 | 35,0 | 0,75 | 0,64 | $b_2$=-3,61 |
| 4 | 20,5 | 22,5 | 23,0 | 22,0 | 1,75 | 0,04 | $b_3$=-0,78 |
| 5 | 36,0 | 34,5 | 36,0 | 35,5 | 0,75 | 2,25 | $b_{11}$=3,45 |
| 6 | 29,0 | 32,5 | 33,0 | 31,5 | 4,75 | 0,25 | $b_{22}$=4,99 |
| 7 | 31,5 | 34,5 | 36,0 | 34,0 | 5,0 | 0,04 | $b_{33}$=0,18 |
| 8 | 21,0 | 25,0 | 24,5 | 23,5 | 4,75 | 13,69 | $b_{12}$=-2,06 |
| 9 | 36,5 | 40,5 | 37,0 | 38,0 | 4,75 | 14,44 | $b_{13}$=0,19 |
| 10 | 17,0 | 19,5 | 19,0 | 18,5 | 1,75 | 12,25 | $b_{23}$=0,44 |
| 11 | 36,5 | 38,5 | 37,5 | 37,5 | 1,0 | 4,0 | |
| 12 | 22,0 | 24,5 | 24,0 | 23,5 | 1,75 | 2,19 | |
| 13 | 24,5 | 26,0 | 27,5 | 26,0 | 2,25 | 3,5 | |
| 14 | 19,5 | 20,5 | 23,0 | 21,0 | 3,25 | 0,49 | |
| 15 | 22,0 | 23,5 | 20,5 | 22,0 | 2,25 | 0,81 | |

***Açar sözlər:*** Pres-qranulyator, şnekin fırlanma tezliyi, nizamlayıcı faktorlar, riyazi model, icra mexanizmləri, reqressiay əmsalları, dolma vaxtı

## Ədəbiyyat siyahısı:

1. Məmmədov M.İ. Informasiya-proqram təminatlı idarə olunan yem dənəvərləri hazırlanma prosesin identifikasiyası // ADAU-nun Elmi Əsərləri, 2012, №2, s.72-74

2.Обоснование конструктивно-кинематических параметров роторного пресса для получения кормовых брикетов http://www.dissercat.com/content/obosnovanie-konstruktivno-kinematicheskikh-parametrov-rotornogo-pressa-dlya-polucheniya-korm? openstat =cmVmZXJ1bi5jb207bm9kZTthZDE7/. 2007

3.Зайдель А.Н. Ошибки измерений физических величин. Л.: Наука, 1974, 106 с.

4.Крамаренко А.Н., Матвейкина Ж.В. Деформация кормовой смеси в процессе одностороннего прессования в камере // Совершенствование процессов и технических средств в АПК, Зерноград: 1999, с.32-37

5.Большев Л.Н., Смирнов Н.В. Таблицы математической статистики. М.: Наука, 1983. 416с

6.Мамедов М.И. Экспериментальное обоснование параметров матрицы гранулятора при

широком использовании местных кормовых ресурсов // Известия аграрной науки. Тбилиси: 2007, Том 5, ном. 2, с.66-71

7.Тамразов А.М. Планирование и анализ регрессионных экспериментов в технических исследованиях. Киев: Наук, 1987, 174 с.

## ИДЕНТИФИКАЦИЯ ПРОЦЕССА, УПРАВЛЯЕМОГО ИНФОРМАЦИОННО-ПРОГРАММНЫМ ОБЕСПЕЧЕНИЕМ

**проф Г.Б.Мамедов, магистр Э.Э.Мамедов**
**Азербайджанский Государственный Аграрный Университет**

**Резюме: В статье** описывается процесс гранулирования управляемого информационно-программным обеспечением. Идентификация процесса заключается в определении характера и состояния поверхности функции отклика, что обеспечивает оптимизацию процесса в соответствующей области режима работы пресса-гранулятора. Отмечается, что регулировать состояние парового регулятора возможно с микропроцессорами, оснащенными электронными счетчиками сигналов, и что скорость винта можно изменять, изменяя якорь двигателя постоянного тока. Были определены коэффициенты регрессии, восстановление процесса было определено в соответствии с критерием Кохрейна. Выбор уровня вариации факторов основан на условиях зоны, обеспечивающей безаварийную работу пресса-гранулятора, для построения математической модели был выбран центральный композиционный план. Коэффициенты регрессии определялись независимо друг от друга.

***Ключевые слова:*** пресс-гранулятор, скорость вращения шнека, регулирующие факторы, математическая модель, исполнительные механизмы, коэффициенты регрессии, время заполнения.

## IDENTIFICATION OF THE PROCESS CONTROLLED BY INFORMATION SOFTWARE

**Prof. G.B.Mamedov, master E.E.Mammadov**
**Azerbaijan State Agrarian University**

**Summary:** This article describes the information software-driven granulation process. Process identification consists in determining the nature and state of the surface of the response function, which ensures the optimization of the process in the corresponding mode of operation of the pellet press. It is noted that it is possible to regulate the state of the steam regulator with microprocessors equipped with electronic signal counters, and that the propeller speed can be changed by changing the armature of the DC motor. Regression coefficients were determined, process recovery was determined in accordance with the Cochrane criterion. The choice of the level of variation of the factors is based on the conditions of the zone ensuring the trouble-free operation of the press-granulator; for the construction of the mathematical model, the central compositional plan was chosen. Regression coefficients were determined independently of each other.

***Keywords:*** pellet press, screw rotation speed, control factors, mathematical model, actuators, regression coefficients, filling time.

# "MOBİL ŞANVARİ RABİTƏ" - NİN YARANMASI VƏ İNKİŞAFI

**K.A.Carçıyev**
**Azərbaycan Texnologiya Universiteti**
**kamaljarchiyeff@gmail.com**

Məlum olduğu kimi, XXI əsr informasiya texnologiyaları və bütövlükdə informasiyalaşdırma əsri kimi qiymətləndirilir, çünki cəmiyyətin bütövlükdə dinamiki inkişafı rabitə sahəsində yeni texnologiyaların işlənilməsi və tətbiqi olmadan təsəvvür edilə bilməz. Məhz buna görə həm dünyada, həm də Respublikamızda telekommunikasiya, radiotexnika və informasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirilir.

Elm və texnikanın inkişaf səviyyəsi mobil rabitə sistemlərinin də daimi olaraq təkmilləşdirilməsinə səbəb olur. Yaxın gələcəkdə şəbəkələrə istifadəçilərin kompüter və ya digər rabitə vasitələri ilə daxilolmaları necə olacaqdır sualını aydınlaşdırmağa diqqət yetirək. Bir məsələ şübhəsizdir ki, şəbəkələrə naqilsiz daxilolma üsulunu istifadə edənlərin sayı durmadan artacaqdır. İnsanların əksəriyyəti mobil olacaqdır.

Müasir laynerlərdə, yəni iri tutumlu təyyarələrdə şəbəkəyə məhdud sayda daxilolma təmin edilir, gələcək nəsil təyyarələrində sərnişinlər "İnternetə sərbəst daxil olmaq" imkanına malik olacaqlar. Bu zaman verilənlərin ötürülməsi üçün yeganə vasitə - Yer üzərində nəhəng sürətlə hərəkət edən mobil şəbəkə olacaqdır. İnternet şəbəkəsinə daxilolma imkanı olan avtomobili də təsəvvür etmək olar, milyardlarla prosessorlar quraşdırılmış olan fotokameralarla, mobil telefonlarla, kompakt-disk oxuducuları ilə, qulaq üçün stereoucadanışanlarla, klaviatura ilə, yol nişanları və ətraf mühitin hava şəraiti barədə informasiya almaq və s. kimi müxtəlif datçiklərlə əlaqələndirilmiş olacaqdır.

"**Mobil**" və "**naqilsiz**" anlayışlarının fərqli xüsusiyyətləri vardır. Mobilliyin iki müxtəlif növü mövcuddur:

- İstifadəçilərin mobilliyi;
- Qurğuların səyyar olması.

***İstifadəçilərin mobilliyi*** dedikdə, onun müxtəlif yerlərdəki telekommunikasiya xidmətlərindən istifadə edə bilməsi imkanı başa düşülməlidir, yəni o hərəkət edərək yerini dəyişərkən həmin xidmətlər bir növ onu izləmiş olur. Buna misal kimi, mobil telefonu və ya kompüterin işçi masasını göstərmək olar ki, bunların vasitəsilə rouminq yaratmaq olur (yəni istifadəçinin hansı şəbəkədən daxil olmasından asılı olmayaraq, işçi masa eyni görünüşə malik olur).

***Qurğuların səyyar olması*** rabitə vasitələrinin istifadəçi ilə birlikdə və yaxud onsuz yerini dəyişə bilməsi başa düşülməlidir. Bu halda şəbəkədə və rabitə qurğusunun daxilində elə mexanizmlər olmalıdır ki, yerdəyişmə zamanı rabitənin saxlanılmasını təmin edə bilsinlər. Məsələn, mobil telefon rabitəsində qurğunun, bir baza stansiyasındakı (BS) radiovericidən digərinə keçirilməsi prosesi avtomatik olaraq yerinə yetirilir.

***Naqilsiz anlayışı*** qurğular üçün tətbiq edilir və kabel istifadə etmədən şəbəkəyə və rabitənin digər təşkiledicilərinə daxil ola bilmək kimi başa düşülür. Bu halda kabeli, elektromaqnit dalğalarının fəzada yayılması əvəz etmiş olur. Beləliklə, rabitə qurğusu aşağıda göstərilən xarakteristikalara malik ola bilər:

***Kabelli stasionar qurğular.*** Buna ən sadə misal kimi ofislərdə quraşdırılan kompüterləri göstərmək olar;

***Kabelli mobil qurğular.*** Bu kateqoriyaya səyyar kompüterlər aid edilə bilər - istifadəçi onu özü ilə istədiyi yerə apara bilər və modemin köməyilə öz şirkətinin şəbəkəsinə və telefon şəbəkəsinə də qoşula bilər;

***Naqilsiz stasionar qurğular.*** Bu cür rejimdən - tarixi əhəmiyyət kəsb edən binalarda şəbəkələrin qurulması məqsədilə istifadə edilir ki, kabel qoyularkən binada yarana biləcək müxtəlif zədələnmələrin qarşısı alınmış olsun;

***Naqilsiz mobil qurğular.*** Ən cəlbedici variant hesab olunur. İstifadəçi, heç bir əlavə məhdudiyyət qoyulmadan bir naqilsiz şəbəkədən digərinə keçə bilir. Hal-hazırkı dövrdə mobil rabitə sistemlərinin sürətlə inkişafı göz qabağındadır. Yaxın gələcəkdə yeni-yeni mobil qurğular tətbiq tapacaqdır, nitq (danışıq) rabitəsi və verilənlərin ötürülməsi texnologiyalarının qovuşması, İnternetdən mobil və naqilsiz qurğularda da istifadə olunması halı geniş yayılacaqdır. Yeni mobil şəbəkələr, multimedia verilənlərin işlənilməsini kütləvi bazara çıxaracaqdır: radioqəbul qurğuları, elektron yaddaş kitabçaları, səyyar kompüterlər, mobil telefonlar vahid bir qurğuda birləşmiş olacaqdır və müxtəlif funksiyaları yerinə yetirə biləcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. İ.Ə.Məmmədov, E.B.Gözəlov, Ə.A.Məmmədov. Naqilsiz rabitə texnologiyaları. Dərslik. Bakı, ’’Təhsil” NPM, 2012. - 624 səh.
2.Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi: https://mincom.gov.az/az/

## ВОЗНИКНОВЕНИЕ И РАЗВИТИЕ «МОБИЛЬНОЙ СТАЦИОНАРНОЙ СВЯЗИ»

**К.А.Джарчиев**
**Азербайджанский технологический Университет**
**kamaljarchiyeff@gmail.com**

**Резюме:** В статье проанализированы возникновение, развитие технологий мобильной стационарной связи, их роль в обмене информацией и режимы работы.

## THE EMERGENCE AND DEVELOPMENT OF "MOBILE STATIONARY COMMUNICATIONS"

**Summary**

**K.A.Jarchiyev**
**Azerbaijan Technological University**
**kamaljarchiyeff@gmail.com**

**Summary:** The article analyzes the emergence, development of mobile stationary communication technologies, their role in the exchange of information and modes of operation.

# CİSCO SİSTEMİ, CİSCO PACKET TRACER PROQRAM SİMULYATORU

**k.f.d. C.M.Əliyeva, magistr R.H.Salehov, magistr S.R.Həsənova**
**Azərbaycan Texnologiya Universiteti**
**reshad.salehov@gmail.com**

Şəbəkə sistemlərinin mürəkkəbliyi artım istiqamətində inkişaf etməyə davam etdikcə, şəbəkə texnologiyası ilə bağlı tədrisi və öyrənməyi asanlaşdırmaq üçün yeni kurikulum sistemləri ilə paralel olaraq təhsil alətləri də yaranır. Cisco Şəbəkə Akademiyası proqramı təhsil müəssisələrinin məhdud resurslarını əhəmiyyətli dərəcədə tamamlayan virtual texnoloji dəstək və bu sahədə xüsusi imkanlar təqdim edir. Bu proqramı tələbələrə informasiya və kommunikasiya texnologiyalarının (İKT) mürəkkəbliyini anlamağa kömək etməklə yanaşı həm də innovativ təhsil alətləri təqdim edir. Bu isə şəbəkə sistemlərinin təkamülü ilə uzlaşmaq üçün nəzərdə tutulmuşdur. Bu yönümdən Cisco Packet Tracer elektron tədris proqramı tələbələrə sürətlə dəyişən mühitdə praktiki olaraq şəbəkə texnologiyası bacarıqlarını əldə etmək üçün hazırlanmışdır. İKT bacarıqlarına sahib olmaq istəyən tələbələr indi onlayn kurikulumların əlçatanlığından istifadə edərək bu sahədə digər tələbələrlə əməkdaşlıq və rəqabət üçün yeni imkanlardan yararlana bilərlər. Cisco Packet Tracer tələbələrə şəbəkələrin virtual olaraq qurulması ilə təcrübə keçirməyə imkan verən güclü şəbəkə simulyasiya proqramıdır.

Cisco Packet Tracer simulyatorundan istifadə edərək Cisco avadanlığı ilə praktiki təcrübə edə bilərik. Bunu etmək üçün ilkin olaraq kompüterdə proqram qurulmalıdır. Packet Tracer Cisco tərəfindən istehsal olunan və proqramı pulsuz olaraq istifadə etməyə imkan verən şəbəkə mühiti simulyatorudur ki, bu bizə virtual mühitdə şəbəkə modelləri yaratmağa, Cisco IOS əməliyyat sistemində işləyən marşrutlaşdırıcıları və kommutatorları konfiqurasiya etməyə, eləcədə birdən çox istifadəçi arasında qarşılıqlı əlaqə qurmağa imkan verir. Bundan əlavə komponentlər arasında DHCP, HTTP, TFTP, FTP, TIME serverləri, işçi stansiyaları, kompüterlər və marşrutlaşdırıcılar üçün müxtəlif modullar, Wi-Fi cihazları və müxtəlif növ rabitə xətləri bu proqramda öz əksini tapmaqdadır. Proqram tələbələrə demək olar ki, qeyri-məhdud sayda cihazla şəbəkə yaratmağa imkan verməklə həmçinin təcrübə, kəşf və problemlərin aradan qaldırılmasını təhlil etməklə sinifdəki fiziki avadanlıqları tamamlayır. Simulyasiyaya əsaslanan öyrənmə mühiti tələbələrə qərar qəbul etmə, yaradıcı və tənqidi düşünmə, problem həll etmə kimi bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Packet Tracer proqramı müəllimlərə mürəkkəb texniki konsepsiyaları və şəbəkə sistemlərinin dizaynını asanlıqla öyrətməyə və nümayiş etdirməyə imkan verir. Proqram şəbəkə anlayışı və protokollarını öyrənmək üçün effektiv, interaktiv mühit təklif edir. Ən əsası isə simulyator tələbələrə və müəllimlərə şəbəkə konsepsiyaları və texnologiyalarını araşdırmaq, sınaqdan keçirmək və izah etmək üçün öz virtual "şəbəkə dünyalarını" yaratmağa kömək edir.

Packet Tracer real avadanlığın əvəzedicisi olmasa da tələbələrə əmrlər sətri interfeysindən istifadə edərək təcrübə keçməyə imkan verir. Bu isə marşrutlaşdırıcıları və kommutatorları konfiqurasiya etməyi öyrənməyin əsas komponentidir. Simulyasiya imkanları dinamik olaraq məlumatların ötürülməsi və paketlərin genişləndirilməsi kimi daxili funksiyaların cədvəllər, diaqramlar və digər vizual təsvirlərlə öyrənmə prosesini sadələşdirə bilər. Simulyasiya rejimi həmçinin statik slaydları real vaxt görüntüləri ilə əvəz etməklə təlimatçının təqdimat vaxtını azaldır.

Packet Tracer proqramı müəllimlərə mürəkkəb şəbəkə anlayışlarını aşağıdakı üsullarla öyrətməyə kömək edir:

- Mürəkkəb texnologiyaların və konfiqurasiyaların əyani nümayişini təmin edir;
- Mühazirələr, fərdi və qrup laboratoriya fəaliyyətləri, ev tapşırıqları, qiymətləndirmələr, oyunlar, şəbəkə dizaynı, problemlərin aradan qaldırılması, modelləşdirmə tapşırıqları, araşdırma nümunələri və müsabiqələr kimi çoxsaylı öyrənmə fəaliyyətlərini asanlaşdırır;
- İzahat üçün vizuallaşdırmaya, animasiya və ətraflı modelləşdirməyə imkan verir;
- Tələbələrin sinifdən kənar fərdi olaraq öyrənməsinə dəstək olur;
- Əməkdaşlıq və rəqabəti təmin etməklə sosial öyrənmə proseslərini dəstəkləyir;

Tələbələr avadanlıqlarda konfiqurasiya və problemlərin aradan qaldırılması kimi tapşırıqlarla praktiki təcrübə qazandıqca öz qabiliyyətlərinə daha çox inamlı olurlar. Simulyasiya və interaktiv imkanlarla praktiki öyrənmə rejimində daha çox vaxt keçirən tələbələr real avadanlıqlardakı konfiqurasiyaların əsaslarını daha yaxşı mənimsəyəcəklər.

Cisco Packet Tracer məntiqi və fiziki olmaqla iki iş sahəsinə malikdir. Məntiqi iş sahəsi istifadəçilərə virtual şəbəkə cihazlarını yerləşdirmək, qoşmaq və qruplaşdırmaqla məntiqi şəbəkə topologiyaları yaratmağa imkan verir. Fiziki iş sahəsi isə məntiqi şəbəkənin qrafik fiziki ölçüsünü təmin edir, marşrutlaşdırıcılar, kommutatorlar və hostlar kimi şəbəkə cihazlarının real mühitdə necə görünəcəyinə dair miqyas və yerləşdirmə təsəvvürü yaradır. Fiziki görünüş həmçinin bir çox şəhərlər, binalar və işci sahələr daxil olmaqla şəbəkələrin coğrafi təsvirlərini təmin edir.

Cisco Packet Tracer şəbəkənin mühitini vizuallaşdırmaq üçün iki iş rejimi üzrə işləyir. Bunlar real vaxt və simulyasiya rejimləridir. Real vaxt rejimində virtual avdanlıqlar şəbəkədə real cihazlar kimi davranır və bütün şəbəkə fəaliyyətlərinə dərhal real vaxtda reaksiya verir. Real vaxt rejimi istifadəçilərə real avadanlıqlara uyğun alternativ verir və onlara real avadanlıqla işləməzdən əvvəl konfiqurasiya təcrübəsi əldə etmək üçün şərait yaradır. Simulyasiya rejimində isə istifadəçi vaxt intervallarını, məlumat ötürülməsi işini və məlumatların şəbəkə üzrə paylanmasını görə həmçinin idarə edə bilər. Bu istifadəçilərə şəbəkə əməliyyatlarının arxasında duran əsas anlayışları anlamağa, şəbəkənin qurulmasının əsaslarını öyrənməyi sürətləndirməyə kömək edə bilər.

Cisco Packet Tracer aşağıdakı protokolları dəstəkləyir:

| Səviyyələr (OSİ) | Cisco Packet Tracer tərəfindən dəstəklənən protokollar |
|---|---|
| Tətbiqi | FTP , SMTP, POP3, HTTP, TFTP, Telnet, SSH, DNS, DHCP, NTP, SNMP, AAA, ISR VOIP, SCCP konfiqurasiyası və ISR |
| Nəqliyyat | TCP and UDP, TCP Nagle Algorithm & IP bölünməsi, RTP |
| Şəbəkə | BGP, IPv4, ICMP, ARP, IPv6, ICMPv6, IPSec, RIPv1/ v2/ng, Multi-Area OSPF, EIGRP, Statik marşrutlama, marşrutlamanın yenidən təyini, L3 QoS, NAT, CBAL |
| İnterfeys | Ethernet (802.3), 802.11, HDLC, PPP, PPPoE, STP, RSTP, VTP, DTP, CDP, 802.1q, PAgP, L2 QoS, SLARP, Sadə WEP, WPA, EAP |

Cisco Packet Tracer simulyatoru beynəlxalq dilləri dəstəkləməklə Vista (Vista Basic, Vista Premium), Windows 7, Windows 10 və Linux (Ubuntu, Fedora) platformalarında qurula bilər.

Cisco Şəbəkə Akademiyası proqramı bütün dünyada olan təhsil müəssisələri və təşkilatlarla əməkdaşlıq edərək tələbələrə giriş səviyyəsində karyera imkanları yaradır. Akademiya həmçinin tələbələrin qlobal səviyyədə tanınan Cisco sertifikatları əldə etmələri üçün İKT bacarıqlarını inkişaf etdirməyə kömək etməklə şəbəkə sistemlərini hərtərəfli öyrənərək təcrübə əldə etmə imkanı yaradır.

**Система CISCO, Программный симулятор Cisco Packet Tracer**

**к.х.н. Д.М.Алиева, магистр Р.Х.Салехов, магистр С.Р.Гасанова**
**reshad.salehov@gmail.com**
**Азербайджанский технологический университет**

**Резюме:** Cisco Packet Tracer - это программа-симулятор. С помощью этой программы вы можете настроить и протестировать сети LAN с оборудованием Cisco, настроить коммутаторы и маршрутизаторы, а также заранее определить, как они будут работать и какие проблемы возникнут. Программа также помогает в виртуальном анализе сложных сетевых схем.

**CISCO system, Cisco Packet Tracer software simulator**

**p.h.d J.M.Alieva, master R.Kh.Salekhov, master S.R.Qasanova,**
**Azerbaijan Technological University**
**reshad.salehov@gmail.com**

**Summary:** Cisco Packet Tracer is a simulator program. With this program you can set up and test LAN networks with Cisco equipment, configure switches and routers, as well as determine in advance how they will work and what problems will arise. The software also helps in the virtual analysis of complex network schemes.

# CDMA STANDARTININ TƏTBİQİ, XÜSUSİYYƏTLƏRİ VƏ ÜSTÜNLÜKLƏRİ

**K.A.Carçıyev**
**Azərbaycan Texnologiya Universiteti**
**kamaljarchiyeff@gmail.com**

**CDMA (Code Division Multiple Access)** simsiz telefon rabitəsidir. CDMA texnologiyası adi şəhər nömrəsindən danışığın və səsin yüksək keyfiyyətlə ötürülməsini təmin edir. CDMA həm də çoxlu giriş nümunəsi kimi qeyd olunur, burada bir neçə ötürücü eyni vaxtda bir rabitə kanalı üzərindən məlumat göndərə bilər. Bu, bir neçə istifadəçiyə bir tezlik bandını paylaşmağa imkan verir. İstifadəçilər arasında lazımsız müdaxilə olmadan buna icazə vermək üçün CDMA yayılmış spektr texnologiyasından və xüsusi kodlaşdırma sxemindən istifadə edir (burada hər ötürücüyə kod verilir).

Mikroprosessorların sürətlə inkişafı sayəsində rəqəmli rabitə növlərinə keçilməsi prosesində xeyli irəliləyişlər əldə edilməkdədir. Bunlara əyani misal rəqəm küyəoxşar siqnallı rabitə texnologiyalarının və kanallarının koda görə ayrılması ilə çoxsaylı daxilolma metodundan istifadə edilməsidir. Bir çox mütəxəssislər hesab edir ki, CDMA şanvari rabitə texnologiyası yaxın illərdə NMT, AMPS və s. analoq texnologiyalarını sıxışdıracaq və GSM kimi rəqəm texnologiyası ilə ciddi rəqabət aparacaqdır.

CDMA standartının tətbiqinin əsas istiqamətləri aşağıdakılardır:

- yerüstü (stasionar) naqilsiz telefon şəbəkələri (standart CDMA one WLL);
- şanvari mobil rabitə sistemləri;
- peyk rabitə sistemləri.

**CDMA - standartı "Qualcomm" şirkəti tərəfindən, B CDMA standartı "Inter Digital" şirkəti, FH-CDMA standartı isə** ''Tadiran Telecommunications" şirkəti tərəfindən tətbiq olunur. Bu standartlar bir-birindən ilk növbədə kanallarda kodlama üsuluna görə və spektrin genişləndirilməsi metoduna görə xeyli fərqlənirlər.

CDMA metodunu istifadə edən sistemlərdə psevdotəsadüfi küy mənbəyinin sinxronlaşmasını dəyişməklə, tezlik zolağının eyni bir hissəsini, şəbəkənin bütün manqalarında istifadə etmək olar. Belə 100%-li istifadə sayəsində abonent tutumunu artırmaq olur, onun təşkili məsələsi asanlaşır.

Müasir və perspektivdə olan mobil radiorabitə, eyni vaxtda çoxlu sayda mobil abonentləri rabitə ilə təmin etməlidir. Bu zaman mobil abonentlərin müəyyən ərazidə yerləşməsi ixtiyari cür ola bilər. Ona görə də mobil radiorabitə sistemlərinin (MRRS) əksəriyyəti - **çoxsaylı daxilolma metodu** ilə qurulmuşdur.

Rabitə nəzəriyyəsində **çoxsaylı daxilolma (ÇD)** dedikdə, bir neçə mobil stansiyanın bir baza qəbuledici-verici stansiyasına (qısa olaraq - BS) və yaxud peyk retranslyatomna müraciət edilməsi imkanı başa düşülür ki, bu zaman sonuncular eyni vaxtda onunla informasiya ötürə və ala bilərlər.

ÇD metodunun effektivliyi, əsasən buraxma qabilliyəti (tutumu), çəldliyi, istifadə olunan tezlik ehtiyatları və rabitə sistemlərinin digər göstəriciləri ilə qiymətləndirilir. Bu halda istənilən sistemin **buraxma qabiliyyəti** dedikdə, müxtəlif kanalların - radiorabitə, telefon, televiziya, rəqəm verilənlərinin ötürülməsi və s. kanallann sayı başa düşülür, ya da ümumi halda rəqəm sistemləri üçün, bu şəbəkə ilə ötürülə bilən saniyədəki bitlərin sayı başa düşülür.

**Qeyd: Bit** - "binary digit" -ikilik rəqəm mənası verir. **Bayt** - "byte - heca" - 8 ikilik bitdən ( $2^8$ ) ibarətdir.

CDMA sistemi - koda görə ayrılma ilə çoxsaylı daxilolma metoduna (ingiliscə Code Division Multiple Acces - CDMA) əsaslanan sistemdir. Bu sistem genişzolaqlı və ya küyə oxşar siqnallar istifadə olunmasına əsaslanır.

CDMA standartlı mobil radiorabitə sistemlərində, tezlik və zamana görə kanalların ayrılması üsullarının bütün üstünlükləri istifadə edilir. Əvvəla, siqnal böyük davametmə müddətinə malik olur, zamana görə paylanmışdır və ona görə də şüalandırılan pik gücü, TDMA və FDMA - metodlarında olandan çox azdır (orta güc isə eynidir). İkincisi, böyük davametmə müddətli siqnallar

zamanı, şüalanma impulslarmın kəskin (dik) və güclü cəbhələri yoxdur. Üçüncü üstünlük - bu sistem (yəni CDMA) çoxlu sayda kod kombinasiyalarını daxil etməyə imkan verir, bununla da danışıqların ideal məxfiliyini və maneədavamlığını təmin etmək imkanı yaranır.

İnformasiya məlumatının spektri süni olaraq, kifayət qədər kiçik diskretli periodik psevdotəsadüfi impulslar ardıcıllığı ilə modulyasiyanın (kodlamanın) köməyilə genişləndirilir (Şəkildə qeyd olunub). 1 MHs-dən böyük olan spektri almaq üçün (bu şərt - çoxşüalı yayılmalar şəraitində normal işləyə bilmək üçün vacibdir) modullayıcı ardıcıllıq diskretinın davam-etmə müddəti 1 mikrosaniyədən az olmalıdır.

Göstərilən ümumi prinsiplər - spektrin fiziki kanalların koda görə ayrılması, psevdotəsadüfi ardıcıllığın modulyasiyası hesabına genişləndirilməsi – **CDMA**-nın üstünlüklərini müəyyənləşdirir:

- yüksək maneədavamlılıq;
- çoxşüalı yayılmalar şəraitində yaxşı uyğunlaşa bilmək xüsusiyyəti;
- sistemin yüksək tutuma malik olması.

**Ədəbiyyat siyahısı:**


1.İ.Ə.Məmmədov, E.B.Gözəlov, Ə.A.Məmmədov. Naqilsiz rabitə texnologiyaları. Dərslik. Bakı, ’’Təhsil” NPM, 2012. - 624 səh.

2.Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi: https://mincom.gov.az/az/

3.Wikipedianın rəsmi saytı: https://en.wikipedia.org/wiki/Code-division_multiple_access


## ПРИМЕНЕНИЕ, ОСОБЕННОСТИ И ПРЕИМУЩЕСТВА СТАНДАРТА CDMA


**К.А.Джарчиев**
**Азербайджанский технологический университет**
**kamaljarchiyeff@gmail.com**



**Резюме:** В статье анализируется применение, особенности и преимущества системы CDMA. Объясняется применение стандарта CDMA в технологиях мобильной сотовой связи.


## APPLICATION, FEATURES AND ADVANTAGES OF THE CDMA SYSTEM


**K.A.Jarchiyev**
**Azerbaijan Technological University**
**kamaljarchiyeff@gmail.com**



**Summary:** The article analyzes the application, features and advantages of the CDMA System. The application of the CDMA standard in mobile cellular technologies is explained.

# SUPERKOMPÜTERLƏR VƏ ONLARIN YARADILMA TEXNOLOGIYALARI

**S.S.Abdullayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**sahile-abdullayeva98@mail.ru**

Superkompüterlər – texniki parametrlərinə və hesablama sürətinə görə dünyada mövcud olan əksər kompüterlərdən xeyli üstün olan ixtisaslaşmış kompüterlərdir. Bu termin əsasən ən sürətli, yüksək məhsuldar sistemlərə tətbiq edilir. Belə kompüterlər ilk növbədə çox yüksək sürətli hesablamalar tələb edən mühəndislik yaxud elmi işlər üçün istifadə olunmuşdur. Superkompüterlər müəyyən fərqləndirici xüsusiyyətlərə malikdir. Adi kompüterlərdən fərqli olaraq, onlarda hesab və məntiq əməliyyatlarını yerinə yetirmək üçün birdən çox mərkəzi prosessor (CPU) olur. Ən əsası siqnal ötürülməsi, dövrə keçidi üçün əsas sürət həddini təşkil edir. Prosessorların son dərəcə yüksək hesablama sürətini dəstəkləmək üçün saxlanılan məlumatların və təlimatların sürətli axtarışı tələb olunur. Buna görə də, əksər superkompüterlər çox böyük yaddaş tutumuna və çox sürətli giriş-çıxış qabiliyyətinə malikdir. Superkompüterlər əvvəllər milli təhlükəsizliklə bağlı tətbiqlərdə, həmçinin nüvə silahlarının dizaynı və kriptoqrafiya sahəsində də istifadə edilmişdir. Müasir dövrümüzdə onlar aerokosmik, neft və avtomobil sənayesində də müntəzəm olaraq istifadə edilir. O cümlədən, bu kompüterlər hava proqnozunda unikal alətə çevriliblər. Məlum olduğu kimi proqnozlar ədədi modellərə əsaslanır.

Metalların və ərintilərin alınmasında (çuqunun, poladın ferroərintilərin, əlvan metalların ) və həmçinin metallara və ya odadavamlı məmulatlara tələb olunan mexaniki xüsusiyyətlər vermək üçün yüksək temperaturlu şərait metallurji sobalar vasitəsi ilə yerinə yetirilir. Metallurji müəssisələrdə yüksək temperaturlu sobalar əsas texnoloji avadanlıqlara aid edilir. Sobaların istilik işinin mahiyyəti sobada yaranan istiliyin materiallara ötürülməsi təşkil edir. Sobalarda yanacağın istilik texniki dəyərləndirilməsi və onun səmərəli istifadə edilməsini müəyyən etmək üçün istiliyin istifadə əmsalı İİƏ termini təklif olunmuşdur. İİƏ vasitəsilə sobanın ümumi istilik gücünün hansı miqdarının sobanın daxilində faydalı istifadə edilməsini və istilik itkilərinin miqdarının müəyyən etmək mümkündür.

İİƏ – nin $\eta_{u.u.}$ hesabat düsturu aşağıdakı kimi ifadə olunur:

$$\eta_{u.u.} = \frac{Q_a^i + Q_{f.h.} + Q_{f.y.} - Q_{T.q.} - Q_{k.n.}}{Q_a^i}$$

Burada $Q_a^i$ - yanacağın aşağı işçi yanma istiliyi;
$Q_{f.h.}$ - havanın fiziki istiliyi;
$Q_{f.y.}$ - yanacağın fiziki istiliyi;
$Q_{T.q.}$ - tüstü qazları ilə itən istilik;
$Q_{k.n.}$ - yanacağın kimyəvi natamam yanması ilə itən istilik.

Düsturdan göründüyü kimi $\eta_{u.u.}$ – nin qiymətinin artırılması üçün $Q_{T.q.}$ və $Q_{k.n.}$ parametrlərinin qiymətləri kifayət qədər aşağı olmalıdır.

Yanacağın tam yanması prosesi üçün qaz qorelkaların və forsunkaların konstruksiyaları yanacağın hava ilə mükəmməl qarışmasını təmin etməli və yanma üçün verilən havanın miqdarı kifayət qədər olmalıdır. Hava sərfinin optimal qiymətini yoxlamaq üçün tüstü qazlarının analizi ilə qazların tərkibinin hesabat qiymətləri müqayisə edilir. Bu halda tüstü qazlarının tərkibində oksigenin miqdarı 1 -2 % həddində və dəm qazı mövcud olmamadıqda, deməli tam yanma prosesi mövcuddur. Sobadan çıxan tüstü qazları ilə itən istiliyin azaldılması tüstü qazların həcminin az olması və yaxud temperaturun aşağı olması hesabına əldə edilir. Qaz yanacaqlarının tərkibindən ballast qazların azaldılması hesabına yanma istiliyini artırmaqla tüstü qazların həcmini azaltmaq mümkündür. Yanma məhsullarının həcminin azaldılması havada oksigenin zənginləşdirilməsi (21- 30% qədər) hesabına da əldə etmək mümkündür.

Tüstü qazlarının temperaturunu aşağı salınması üçün tüstü qazları ilə materiallar arasında əks axımlı hərəkət rejimi və istilikvermə prosesini intensivləşdirmək lazımdır. Həmçinin tüstü qazlarının istiliyini utilizasiya etməklə istiliyin istifadə əmsalının artırılmasına nail olmaq olar.

Beləliklə, müəyyən olunmuşdur ki, istiliyin istifadə əmsalının artırılması yanacağın tam yanma prosesinin əldə edilməsi, tüstü qazlarının həcminin və temperaturunun azaldılması hesabına mümkündür.

**Ədəbiyyat siyahısı:**

1. Губинский В.И. Металлургические печи: Учебное пособие. – Днепропетровск: НМеТАУ, 2006 – 85с.
2. Семикин И.Д., Аверин С.И., Радченко И.И. Топливо и топливное хозяйство металлургических заводов: Учебное пособие для Вузов- М.: Металлургия, 1965 – 391с.

## СПОСОБЫ ПОВЫШЕНИЯ КОЭФФИЦИЕНТА ИСПОЛЬЗОВАНИЯ ТЕПЛОТЫ В МЕТАЛЛУР-ГИЧЕСКИХ ПЕЧАХ

**М.Г.Джафаров, М.М.Алмаммедов**
**Азербайджанский Технологический Университет**
**dmh49@mail.ru**

**Резюме:** Увеличение коэффициента использования теплоты реализуется путем наладки процесса полного сжигания топлива, понижения объема и температуры уходящих газов.

## METHOD OF INCREASING COEFFICIENT USING WARMTH IN THE METALLURGICAL FLUEL FURNACE

**M.H.Jafarov, M.M.Almammedov**
**Azerbaijan Technological University**
**dmh49@mail.ru**

**Summary:** Increasing coefficient using warmth may be possible by the way of arrange of full burning fluel, falling volume and temperature leaving gases.

# POLİETİLENTEREFTALAT POLİMERİNİN İSTEHSALINDA ETİLEN OKSİDİN ROLU

**dos. Ə.N.Muradov, magistr İ.Nəsirli**
**Azərbaycan Texnologiya Universiteti**

Bu məqalədə qarşıya qoyulan məqsəd ondan ibarətdir ki, polietilentereftelat istehsalında tətbiq olunan etilen qlikolun istehsalında etilen oksiddən hansı məqsəd üçün istifadə edildiyini tədqiq etməkdir.

Turşuların və ikiatomlu spirtlərin qarşılıqlı təsiri nəticəsində alınan çox sayda müxtəlif cür xətti poliefirlər içərisində müxtəlif məmulatların istehsalı üçün polietilentereftelat çox böyük maraq kəsb edir. Polietilentereftelat lavsan, İngiltərədə terilen, ABŞ-da dakron adı altında buraxılır.

Polietilentereftelat üç üsulla:

1) eterifikasiyanın katalizatorunun iştirakı ilə tereftral turşusunun artıq miqdarda götürülmüş qlikolla:

2) qələvi katalizatorunun iştirakı ilə inert həlledici mühitində tereftral turşusunun xlorantihidridini etilenqlökolla;

3) pereeterifikasiya katalizatorunun iştirakı ilə tereftral turşusunun sadə efirlərinin artıq miqdarda götürülmüş qlikolla qarşılıqlı təsiri nəticəsində alına bilər.

Sənayedə sonuncu üsul ən geniş yayaılmışdır və adətən tereftral turşusunun sadə efirləri kimi dimetiltereftalatdan istifadə edirlər. Polietilentereftelat istehsalı üçün dimetiltereftalatdan və etilenqlükoldan istifadə edirlər.

Dimetiltereftalat ($CH_3OOC\text{-}C_6H_4\text{-}COOCH_3$) ərimə temperaturu 141-142°C olan ağ kristallar və yaxud pulcuq şəkilindədir. O dietil efirində yaxşı, etil spirtində və isti suda pis həll olur. Dimetiltereftalat turşusunun metil spirtində suspenziyasından HCL-un buraxılması və yaxud $H_2SO_4$-nün iştirakı ilətereftral turşusunun metil spirti ilə qızdırılması yolu ilə alınır.

Etilenqlikol ($HOCH_2\text{-}CH_2OH$) 197°C-də qaynayan, sıxlığı 1715 kq/m$^3$ olan rəngsiz mayedir. Onu etilen oksidinin hidratlaşması yolu ilə alırlar.

$$\underbrace{CH_2 - CH_2}_{O} + H_2O \rightarrow HOCH_2 - CH_2OH$$

Etilenqlikol hidroskopikdir, su və etil spirti ilə yaxşı qarışır.

Polietilentereftelatın alınma prosesi dimetiltereftalatın və etilen qlikolun pereeterifikası və daha sonra diqlikoltereftalatın polikondensləşməsindən ibarətdir.

## СОДЕРЖАНИЕ ОКСИДА ЭТИЛЕНА В ПРОЦЕССЕ ИСПОЛЬЗОВАНИЯ ПОЛИЭТИЛЕНТЕРЕФТАЛАТНОГО ПОЛИМЕРА

**А.Н.Мурадов, И.Насирли**
**Азербайджанский Технологический Университет**

**Резюме:** Целью данной статьи является исследование цели, для которой окись этилена используется в производстве этиленгликоля, применяемого к полиэтилентерефталату.

## ETHYLENE OXIDE CONTENT IN THE PROCESS OF USING POLYETHYLENE TEREPHTHALATE POLYMER

**A.N.Muradov, İ.Nasirli**
**Azerbaijan Technological University**

**Summary:** The purpose of this article is to investigate the use of ethylene oxide in the production of ethylene glycol applied to polyethylene terephthalate.

# VII BÖLMƏ

# İQTİSADİYYAT VƏ BİZNESİN İDARƏEDİLMƏSİ

## İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARDA SƏNAYE İSTEHSALININ İNKİŞAFININ STİMULLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

**X.F.Məmmədova, F.Ə.Məmmədov**
**Azərbaycan Texnologiya Universiteti**

Ölkə iqtisadiyyatının effektivliyinin yüksəldilməsi məsələsinin həlli rəqabət prinsiplərinin möhkəmləndirilməsi məsələsi ilə vəhdət təşkil edir ki, bu da ölkənin bütün təsərrüfat subyektləri üçün bazara giriş şəraitinin bərabərliyinin təmin edilməsini nəzərdə tutur. Buna görə də istehsalın inkişafının dövlət tərəfindən dəstəklənməsi və dövlət dəstəyi prinsiplərinin işlənməsi kifayət qədər ziddiyyətli və həlli mürəkkəb problemlər sırasına daxildir. Bununla belə istehsalın inkişafının dövlət tərəfindən stimullaşdırılması həm inkişaf etmiş, həmdə inkişaf etməkdə olan əksər ölkələrdə zaman-zaman dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri kimi çıxış etmişdir.

Problem həmçinin ona görə aktualdır ki, o dünyavi problem olan sənaye istehsalı malları ilə sıx əlaqədardır. Bunun üçün respublikamızda istehlak malarının iqtisadi mexanizminin formalaşması və inkişafının mahiyyətini, bu prosesdə mövcud konsepsiya və nəzəriyyələrin ümumiləşdirilməsi, həmçinin istehlak mallarının durumunu təhlil etmək, sənaye istehsalının inkişafının stimullaşdırılmasını elmi cəhətdən təhlil etmək, ümumi prosesin gedişi baxımdan konkret nəticə və təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Ərazimizin 20 faizinin erməni vandalları tərəfindən 30 ilə yaxın dövrdə işğalda saxlanılmasına baxmayaraq ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə uğurla həyata keçirilən regional inkişaf proqramları, habelə sənaye istehsalının inkişafı və sənaye malların satışı xammal bazasının tənzimlənməsi üzrə dövlət proqramlarının qəbulu, tənzimləmə tədbirləri, iqtisadi mexanizm elimentlərini çətin iqtisadi şərtləri və dəyişiklərin məqsədyönlü təbiətinə uyğunlaşdıraraq iqtisadiyyatın sənaye sahəsindəki vəziyyəti xeyli yaxşılaşdırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi" sözü gedən istiqamətlər üzrə strateji məqsəd və hədəfləri, nəzərdə tutulan tədbirlərin qiymətləndirmə və maliyyəşdirmə mexanizmlərini müəyyən edir.

Bu baxımdan sənaye istehsalının stimullaşdırılması məsələsi müasir dövrdə çox aktualdır və yüksək nəzəri və praktiki əhəmiyyətə malikdir. Məhz buna görə də tədqiq onunan mövzunun aktuallığına heç bir şübhə yeri qalmır.

Tədqiqat işində ölkədə sənaye istehsalının müasir vəziyyəti və inkişaf meylləri, sənayedə struktur dəyişikliklərinin həyata keçirilməsi zəruriliyi və eyni zamanda işğaldan azad olmuş torpaqlarda hansı sənaye sahəsinin perspektiv inkişafı məsələləri və onun təkmiləşdirilməsi problemləri geniş təhlil olunmuşdur. Qeyd olunur ki, əvvəllər Qarabağ iqtisadi rayonlarında yüngül və yeyinti sənayesi Respublikamızda aparıcı sahəyə çevrilmişdir. Hal-hazırda bu iki sənaye sahəsinin bölgənin iqtisadi inkişafında geniş təkan verəcəkdir. Tədqiqat işində istehsalın inkişafının stimulaşdırılmasının ölkənin davamlı inkişaf prioritetlərinə istiqamətləndirilməsi məsələləri, ölkə sənayesinin rəqabət qabiliyyətinin artırılmasının stimullaşdırılması istiqamətləri dünya maliyyə böhranı şəraitində sənaye istehsalının inkişafının stimullaşdırılmasına təkmiləşdirilməsi

istiqamətləri geniş təhlil edilmişdir. Nəticədə ölkəyə kapital axınlarından əlavə həm də xarici investisiyanou-hau və yeni texnologiyaların gəlişi sürətlənə bilər həm də Azərbaycan məhsullarının beynəlxalq keyfiyyət və təhlükəsizlik sistemlərinə çıxışını asanlaşdılar. Bu isə Azərbaycan məhsullarının beynəlxalq rəqabət qabililiyyətinin səmərəli dəstəklənməsinə gətirib çıxaracaqdır. Eyni zamanda qeyri-neft sənayesinin inkişafı üçün iri şəhərlərdəki, habelə rayonlardakı mövcud sənaye müəssisələrinə fəaliyyətinin bərpası və yenidən qurulması, yeni müəssisələrin yaradılması işləri sürətlənməlidir.

**Ədəbiyyat siyahısı:**


1.Əliyev H.Ə. Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlisi özəl sektorun inkişafından asılıdır B. “Nurlar”, 2002, 112s.

2.Texnologiyalar parkı haqqında Nümunəvi əsasmamənin tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli Fərman.


## ПРОБЛЕМЫ СТИМУЛИРОВАНИЯ РАЗВИТИЯ ПРОМЫШЛЕННОЙ ПРОИЗВОДИТЕЛЬНОСТИ ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИЙ ЗЕМЕЛЬ


**Х.Ф.Мамедова,**

**Ф.А.Мамедов**

**Азербайджанский Технологический Университет**



**Резюме:** Научная статья посвящена проблемам стимулирования производительности промышленных предприятий страны.В связи с этим проблемами для промышленных предприятий в освобожденных от оккупации земель представлены множество предложений и рекомендаций.


## PROBLEMS OF STIMULATING THE DEVELOPMENT OF INDUSTRIAL PRODUCTIVITY OF LANDS LIBERATED FROM OCCUPATION


**Kh.F.Mamedova,**

**F.A.Mamedov**

**Azerbaijan Technological University**



**Summary:** The scientific article is devoted to the problems of stimulating the productivity of industrial enterprises in the country. Many proposals and recommendations are presented in connection with these problems for industrial enterprises in the lands liberated from occupation.

# DÖVLƏT İDARƏÇİLİYİNİN NƏZƏRİ ƏSASLARI

**magistr K.A.Yahyayev, magistr Ş.S.Əlizadə, magistr A.M.Allahverdiyeva**
**Azərbaycan Texnologiya Universiteti**

Dünya təcrübəsi göstərir ki, hər bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. Dövlət çoxfunksiyalı sistem olmaqla vətəndaşlarla, təşkilatlarla cəmiyyətdə mövcud olanmüxtəlif qurumlar arasında münasibətlərin bütöv bir kompleksini özündə əks etdirir. Ərazi və əhali dövlətin yaranması və mövcudluğu üçün zəruri maddi şərtdir. Dövlət cəmiyyətin elə siyasi təşkilatıdır ki, o öz hakimiyyətini ölkənin bütün ərazisinə və əhalisinə şamil edir. Dövlətin xüsusi idarəetmə aparatı və mexanizmi vardır. İctimai fikir tarixində dövlət anlayışını digər ictimai təsirlərdən qorumaq, onun xarakterik xüsusiyyətlərini göstərmək üçün onu dürüst ifadə etməyə cəhdlər az olmamışdır. Müasir şəraitində dövlətin mövcudluğu prioritet məsələlərini həll edir, bura iqtisadi tsikllər, iqtisadiyyatın sahə, regional, təkrar istehsal və sosial strukturu, məşğulluq və kadırların hazırlanması, əhalinin gəlirləri və həyat səviyyəsi, sosial və əmək münasibətləri, əhalinin müdafiəsi mexanizmi, pul dövriyyəsi, qiymətlərin səviyyəsi və antiinflyasiya prosesləri, investisiya aktivliyi, elmi-tədqiqat və təcrübə-layihə işləri, rəqabət şəraiti və antiinhisar tədbirləri, tədiyyə balansı, ətraf mühit, xarici iqtisadi əlaqələr və s. aiddir. Bu baxımdan elmi məqalədə dövlətin əmələ gəlməsilə insanlar arasında münasibətlərin formalaşması aktual problem olaraq tədqiq edilmişdir. Siniflər arasındakı siyasi münasibətlər onların ümdə iqtisadi mənafeyini təmərküzləşmiş şəkildə vacib məsələlərdə sayılır. Tədqiqat apararkən hal-hazırki qarışıq iqtisadiyyatda dövlətin yeni funksiyalarını, təsir etmə mexanizmlərini, gələcək strateji proqramlarını geniş şəkildə araşdıraraq probləmləri öyrənilmiş və inkişaf istiqamətləri müəyyən edilmişdir.

Dövlət idarəçiliyinin təşkilati strukturları dövlətin xarici və daxili funksiyalarının reallaşdırmasında ifadə edilir. Təşkilati strukturu özündə dövlətin müxtəlif imkanlarını cəmləşdirir və elementlərin qarşılıqlı əlaqəsi, müəyyən tərkibi təşkil edir. O, cəmiyyətdə ictimai-siyasi təbiəti, sosial yönümlü funksional rolu, dövlət idarəçiliyinin məqsədini və məzmunu ilə şərtlənir, o cümlədən dövlətinin cəmiyyətdə baş verən proseslərin formalaşması və reallaşması idarəçilik təsirini təmin edir. Dövlət orqanları öz səlahiyyətləri daxilində müstəqildir və öz aralarında qarşılıqlı təsir edir, münasibətləri tarazlaşdırırlar. Onlar müvafiq idarəetmə qərarları qəbul edir və həyata keçirirlər.

Dövlət idarəçiliyi sahəsində informasiya texnologiyaları idarəetmənin təsirliliyini artmasının əsas amili hesab edilir. Dövlət idarəçiliyinin bütün funksiyalarının reallaşdırması, keyfiyyətlə yeni səviyyəsinə keçməyə icazə verərək hər şeydən əvvəl yoxlama, yığım və informasiyanın təhlili, təkmilləşdirmənin, qəbulun, reallaşdırmanın və idarəetmə qərarlarının effektivliyinin qiymətləndirilməsi informasiya-analitik təminatı sistemini formalaşdırır. İnformasiya texnologiyaları idarəetmə strukturlarıvə ictimaiyyət arasında operativ əks əlaqənin qurulmasına imkan yaradır. Bir tərəfdən dövlət orqanlarının fəaliyyəti ictimaiyyət üçün daha çox "şəffaf" - açıq olmalıdır, başqa səmtdən yanaşsaq informasiyaya ictimai rəyin və təsirin operativ hesablanması üçün ayrı-ayrı sosial qruplar üzrə zərurətdən meydana çıxır. Dövlətin informasiya texnologiyaları ölkənin ictimai-siyasi həyatında aparıcı mübadilə vasitəsi kimi çıxış edərək onların aktiv iştirakına əhalinin geniş təbəqələrində informasiya əldə etməsi üçün azad girişinə imkan verir.

İnformasiya təminatı - informasiyanın istifadəçilərinin informasiya ilə təminatı üçün nəzərdə tutulmuş konsepsiyaların, metodların və vasitələrin sistemidir.İnformasiya təminatı sistemi informasiya resurslarını özünə daxil edir, təşkilatı-funksional, funksional, proqram, texniki,

texnologiya, hüquqi, kadr və maliyyə təminatı özündə birləşdirir və istifadəçi üçün yığım, emal, saxlama və informasiyanın verilməsini nəzərdə tutur.

Dövlət idarəçiliyinin informasiya təminatı - bu istifadəçilərin informasiya ilə təminatı üçün nəzərdə tutulmuş konsepsiyaların, metodların və vasitələrinsistemidir. İqtisadi fəaliyyətin avtomatlaşdırılmış informasiya idarəetmə texnologiyalarının informasiya təminatı ücün süni intellekt sahəsində tətbirlər geniş marağa səbəb olmuşdur. Burada naliyyətlərə çatmaq üçün reallaşma formalarından biri ekspert sistemlərinin - xüsusi kompüter sistemlərinin yaradılması, ona sistem akkumlyasiyasında, zənginləşdirilməsində, təhlildə və yüksək ixtisas mütəxəssislərin biliklərinin qiymətləndirilməsində baza rolunu oynayır. İnformasiya xidmət funksiyalarının icrası üçün həmçinin, kommunikasiyaların vasitəsi kimi resurs formasında istifadə olunur, çünki müxtəlif məlumatların ötürülməsi prosesində həyata keçirilirlər. İnformasiya əsas predmeti vasitə və idarəetmə əməyinin məhsulu çıxış edir. Həqiqətən yalnız konkret idarəetmə vəziyyətində qeyri-müəyyənliyi azaldan informasiya qiymətlidir.

Dövlət ictimai həyatın təşkilinin elə bir formasıdır ki, o, ayrı-ayrı fərdlərin pərakəndə cəhdləri ilə yaradıla bilməz. Dövlət cəmiyyətin əsas hakim siyasi təşkilatıdır. Onun hakimiyyəti cəmiyyəti birləşdirən, təşkil edən və məcbur edən başlıca qüvvədir. Beləliklə, dövlət ölkə miqyasında yeganə, tam hakimiyyətli, cəmiyyətin inkişafının əsas istiqamətini müəyyən edən, bütün vətəndaşların mənafelərini nəzərə alan, ölkə daxilində və beynəlxalq aləmdə rəsmi tanınan təşkilatdır.

**Ədəbiyyat siyahısı:**

1. Menecment-K.A. Şahbazov, H.S.Həsənov, M.H.Məmmədov, Bakı. 2006

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

**магистр К.А.Яхьяев, магистр Ш.С.Ализаде, магистр А.М. Аллахвердиева**
**Азербайджанский Технологический Университет**

**Резюме:** В статье рассматриваются теоретические основы государства в Азербайджане, административное воздействие государственного управления, формирование государственного управления, обеспечение деятельности государственных органов, организационная структура, функции государственного управления в Азербайджане, совершенствование государственного управления, эффективность и аспекты государственного управления.

## THEORETICAL FUNDAMENTALS OF PUBLIC ADMINISTRATION

**magistr K.A.Yahyayev, Ş.S.Alizade, A.M.Allahverdiyeva**
**Azerbaijan Technological University**

**Summary:** The article examines the theoretical foundations of the state in Azerbaijan, the administrative impact of public administration, the formation of public administration, ensuring the activities of state bodies, organizational structure, functions of public administration in Azerbaijan, improving public administration, efficiency, aspects of public administration.

# AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ PLANLAŞDIRMANIN MÜASİR VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**i.f.d., dos M.Ş.Qarayev, magistr N.İ.Məmmədova**
**Azərbaycan Texnologiya Universitetı**
qarayev maarif@ yandex.ru

Təşkilatların fəaliyyətində strateji planlaşdırmanın təşkilinə xüsusi yer ayrılır. Düzgün strateji idarəetmə müəssisələri gələcəyə istiqamətləndirir, uzunmüddətli inkişaf tendensiyalarını və biznesin vəziyyətlərini müəyyən etməyə imkan verir. Tədqiqatın məqsədi iqtisadiyyatın müasir inkişaf mərhələsində müəssisələrin fəaliyyət strategiyalarını və strateji planlaşdırmanın müasir vəziyyətini öyrənməkdən ibarətdir.

Ümumu cəhətlərlə yanaşı hər bir müəssisənin özünün fəaliyyət strategiyası olmalıdır, belə ki, biznes heç də həmişə kursunu dəyişə bilməz, 100% çevik olmur və iqtisadi mühitdə təşkilati dəyişikliklərlə baş verməyinin planlaşdırılması baş verən dəyişikliklərə reaksiya vermək və adaptasiya olunmaq yolu ilə özünün gələcəyini yaratmaqdır [1].

Strategiyanın müasir anlayışları firmanın maksimal çevikliyini dəstəkləmək zərurətindən doğur ki, bu da mövcud resursların vəziyyəti və strukturu ilə uzlaşdırıldığından, dəyişikliklər qaçılmazdır. Strategiyanın təşkilati ifadəsi strateji planlaşdırmadır.

Çox zaman ədəbiyyatlarda uzunmüddətli planlaşdırma ilə strateji planlaşmaya eyni yanaşmalara təsadüf edilir. Strateji planlaşdırma müəssisənin marketinq sahəsində strateji məqsədlərinin idarə edilməsi prosesi olub, onun strateji imkanlarının dəstəklənməsini nəzərdə tutur.

Strateji planlaşdırma ilə uzunmüddətli planlaşdırma arasında mühüm fərq strateji planlaşdırmanın gələcək planlarında alternativ tendensiyaların aşkarlanmasındadır.

Fikrimizcə Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə əsas strateji məqsəd mövcud potensial və resurslar çərçivəsində dayanıqlı iqtisadi artım və yüksək sosial rifah olmalıdır.

Firmaların dayanıqlı inkişaf strategiyasını uğurla reallaşdırmaq üçün yerli resurslardan istifadə etmək vasitəsi ilə birgə müəssisələr yaratmaqla investisiyalara və vençur sahibkarlığına üstünlük verilməlidir. Azərbaycanda innovasiyaya yönəlmiş iqtisadiyyatda pozitiv dəyişikliklər etmək üçün rəqabət qabiliyyətli istehsal gücləri yaratmaq və öz investisiyalarını xeyli yaxşılaşdırmaq hesabına innovasiya fəaliyyətini genişləndirmək lazımdır.

**Ədəbiyyat siyahısı:**

1.Mintzberq.H.1994" The hal and Riseit. Planing" Havard Busines Revie, Yun- Feb 1994, pp.107-114.

## ОЦЕНКА СОВРЕМЕННОГО СОСТОЯНИЯ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ НА ПРЕДПРИЯТИЯХ В АЗЕРБАЙДЖАНЕ

**доц М.Ш.Гараев, магистр Н.И.Мамедова**
**Азербайджанский Технологический Университет**
qarayev maarif@ yandex.ru

**Резюме**: В данной статье рассматривается стратегия функционирования предприятий на современном этапе развития экономики, оценивается существующий уровень стратегического планирования на предприятиях, для реализации стратегии устойчивого развития фирмы предпочтение отдается инвестициям венчурного предпринимательства.

## ASSESSMENT OF THE CURRENT STATE OF STRATEGIC PLANNING AT AZERBAIJAN ENTERPRISES

**prof. M.Sh.Garayev, master N.İ.Mammedova**
**Azerbaijan Technological University**
qarayev maarif@ yandex.ru

**Summary:** In this article the strategy of functioning of enterprises at the present stage of economic development is considered, the existing level of strategic planning at enterprises is assessed, for realization of the strategy of sustainable development of the company, preference is given to investments of venture entrepreneurship.

# BİZNES STRATEGİYASININ HAZIRLANMASI XÜSUSİYYƏTLƏRİ.

**i.f.d., dos. M.Ş.Qarayev, magistr V.İ.Cəfərov**
**Azərbaycan Texnologiya Universiteti**
**qarayev maarif@ yandex.ru, vaqif_123@bk.ru**

Müasir dövrdə strateji infrastrukturu olmayan biznes fəaliyyətinin uğur qazanması və mövcudluluğunu təsəvvür etmək çətindir. Belə ki, bu zaman biznes təşkilatı ətraf mühitdə baş verən dəyişikliklərə adaptasiya oluna bilmir, nəticədə uğursuzluğa düçar olur. Ona görə də qlobal rəqabət mühitində gözləntilətə qarşı davamlı olmaq üçün strategiya işlənməli, sonda bu strategiya müəssisənin missiyasını əks etdirməli, məqsədlərə çatmağa kömək verməlidir.

Biznesin idarə edilməsi strategiyası təkcə rəqabətdə üstünlük əldə etməyin əsas deyil, həm də təşkilatların mövcud alma üsullarından biridir. Respublikamızın müəssisələrinin əksəriyyəti strategiyanın işlənib hazırlanması və reallaşdırılması üçün zəruri biliklərə malik olmadıqları üçün biznes idarə edilməsinin müasir texnologiyalardan geri qalırlar. Müəssisənin idarə edilməsi kompleks strategiyalar vasitəsi ilə deyil, ənənəvi planlarla həyata keçirilir. Menecerlər əsasən operativ və texniki məsələlərə üstünlük verirlər. Mövcud şəraitdə strateji idarəetmənin çevik fəaliyyəti mexanizminin yaradılması zərurətə çevrilir. Bu baxımdan biznes strategiyasının işlənib hazırlanması xüsusiyyətlərinin nəzərə alınmasına böyük ehtiyac duyulur.

Tədqiqatın məqsədi biznes təşkilatlarında strategiyaların hazırlanması xüsusiyyətlərini müəyyən etməkdən ibarətdir.

Strateji idarəetmə, təqdim olunan yanaşmaları xarakterizə edən yanlış satıcı nişanı və analitik sorğu-sualla işlədiyimizi vurğulamaq üçün kifayət deyil, təşkilatın inkişafına eyni diqqət yetirilməsini təmin etmir. Strateji inkişaf prosesinin mərkəzində taktiki, strateji qərarlara aparan bəzi təsəvvür olunan aspektlərin fərqli kateqoriyalarını formalaşdırmaq lazım deyil. Daha doğrusu, qərarın “strateji” olaraq vurğulanmasına gətirib çıxaran bir sıra xüsusiyyətlər var. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir.

- əhatə dairəsinin genişliyi və bu səbəbdən təşkilatın daxilində və xaricindəki təsirlər;
- qərar qəbul etmə kontekstinin mürəkkəbliyi və əlaqəliliyi, inteqrasiya olunmuş müdaxilə tələb etməsi;
- davamlı təsirlər dönməz xarakter daşıyır, əhatə dairəsi az və ya heç sınaq səhvi olmayan;
- zaman şkalası üzərində qeyri-müəyyənliyin artması ilə gecikmədən sonra edilən təsirlər.
- İnkişafın motivasiyası, istiqaməti və mahiyyəti barədə fikir qyrılığı;
- Strateji idarəetmənin atatus-kvoya meydan oxumaq, dəyişikliyin mübahisıli və səhvlərə səbəb olduğu bir siyasiləşmuş mühit yaratmaq xüsusiyyətləri.

Qeyd olunanlar strateji idarəetmənin ümumi idarəetmə xüsusiyyətlərini əhatə edir. Tədqiqat nəticəsində strateji idarəetmənin aşağıdakı fərqli xüsusiyyətləri müəyyən edilmişdir.

1. Strateji idarəetmə, işin uzun müddətli hədəfləri ilə əlaqədardır, müəyyən olunmuş müddətdə işin nə ilə nəticələnəyini və bu nəticəyə çatmaq üçün nələrin edilməsi lazım olduğunu düşünür.
2. Strateji idarəetmə, işin gələcəyinə aid oıduğu üçün ali səviyyə menecerlərinin məsuliyyətidir.
3. Strateji idarəetmə, işi bir birinə qarşılıqlı tısir göstərən və biri-birindən asılı olmayan hissələrdən ibarət olan sistem kimi görür, başqa sözlə desək müəssisələri açıq sistem kimi qəbul edir.

**ХАРАКТЕРИСТИКИ РАЗРАБОТКИ БИЗНЕС-СТРАТЕГИИ**

**доц М.Ш.Гараев, магистр В.И.Джафаров**
**Азербайджанский Технологический Университет**
qarayev maarif@ yandex.ru, vaqif_123@bk.ru

**Резюме:** В данной статье определяются некоторые отличительные особенности стратегического управления, обосновывается рассмотрения предприятий как открытая система.

**CHARACTERISTICS OF BUSINESS STRATEGY DEVELOPMENT**

**M.Sh.Qarayev, V.İ.Cafarov**
**Azerbaijan Technological University**
qarayev maarif@ yandex.ru, vaqif_123@bk.ru

**Summary:** In this article some distinctive featutes of strategic management are identified, it is justified the consideration of enterprises as an open system.

# MÜƏSSİSƏLƏRDƏ MARKETİNQİN TƏTBİQİNİN VƏ ƏMTƏƏ SİYASƏTİNİN TƏHLİLİ

**b.m Ş.N.Qarayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**Şehlaqarayeva@yandex.ru**

Bazar münasibətləri şəraitində istənilən müəssisənin fəaliyyətini marketinqsiz təsəvvür etmək mümkün deyil. Belə ki, hazırkı şəraitdə marketinq müəssisənin istehsal-satış fəaliyyətinin bazar yönümlü idarə edilməsi konsepsiyası kimi qəbul edilir və bunu fəaliyyətlərində tətbiq etmə Bazar münasibətləri şəraitində istənilən müəssisənin fəaliyyətini marketinqsiz təsəvvür etmək mümkün deyil. Belə ki, hazırkı şəraitdə marketinq müəssisənin istehsal-satış fəaliyyətinin bazar yönümlü idarə edilməsi konsepsiyası kimi qəbul edilir və bunu fəaliyyətlərində tətbiq etməyən subyektlərin uzunmüddətli dövrdə bazarda qalmaları çox çətindir. Bu, həm də ölkəmizin sənaye müəssisələrinə aiddir. Ona görə də sənaye müəssisələrində marketinqin tətbiqi zəruridir və bu konsepsiyanın tətbiqi menecerlərdən böyük məharət və yaradıcılıq tələb edir. Müəssisələrdə marketinq fəaliyyəti çoxsaylı idarəetmə qəraralarının qəbulunu tələb edir. Onlar istehsal ediləcək məhsullara, onların qiymətlərinə, bölüşdürülməsinə və satışına, satışın stimullaşdırılmasına və reklam fəaliyyətinə aid olmaqla hərtərəfli əsaslandırma tələb edir. İstehlakçıların ehtiyac və təlabatlarının ödənilməsi əslində marketinq kompleksinin sadalanan elementlərinin əlaqələndirilməsi vasitəsilə mümkün olur. Əks halda müəssisənin bazar fəaliyyətinin səmərəliliyinin təmin olunması mümkün deyil. Marketinq fəaliyyətinə dair qəbul edilən qərarların əhəmiyyətli hissəsi bu fəaliyyətin tərkib hissəsi kimi əmtəə siyasətinə aiddir. İstehsal ediləcək məhsulların dəqiqləşdirilməsi, məhsul çeşidinin formalaşdırılması, yeni məhsulların istehsalı, onların markalanması və qablaşdırılması üzrə qəbul edilən qərarlar marketinqdə əmtəə siyasəti üzrədir. Lakin bu fəaliyyət təkcə əmtəə siyasətindən ibarət deyil. Sözügedən fəaliyyət həm də qiymət, bölüşdürmə və satış, həmçinin kommunikasiya siyasətini də özünə daxil edir. Əslində fəaliyyət sferasından asılı olmayaraq, istənilən müəssisədə marketinqin idarə edilməsi sadalanan alt fəaliyyət növlərinə daxil olan tədbirlərin kompleks icrası sayəsində mümkün olur.

Hazırkı şəraitdə Azərbaycanın müəsisələrinin marketinq fəaliyyətinin səmərəliliyinin təmin olunması onlarda əmtəə siyasətinin formalaşdırılmasın bazarın tələbləri baxımından yanaşmağı tələb edir. Tədqiqatın məqsədi sənaye müəssisələrində əmtəə siyasətinin marketinq aspektlərinə dair elmi əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdur. Bu məqsədlə Azərbaycanın sənaye müəssisələrinin əmtəə siyasətinin bazarın tələbləri ilə uzlaşdırılması aspektində özünü göstərən problemlərin müəyyənləşdirilmiş və onların həlli üsulları təklif olunmuşdur. Konkret olaraq aşağıdakılar müəyyənləşdirilmişdir:

- sənaye müəssisələrində marketinqin tətbiqinin zəruriliyi, onun yeni idarəetmə metodu kimi müəssisələrə verdiyi üstünlüklər;
- sənaye müəssisələrində yeni məhsulun işlənib hazırlanmasının təkmilləşdirilməsinə dair təkliflər;
- sənaye müəssisələrində məhsulların markalanması strategiyaları və onların mahiyyəti.

Tədqiqat işində irəli sürülən təkliflərdən istifadə edilməsi sənaye müəssisələrinin bazar fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi ilə yanaşı, uzunmüddətli dövrdə bazar fəaliyyətinin davamlılığına gətirib çıxara bilər.

**ANALYSIS OF THE APPLICATION OF MARKETING AND PRODUCT STRATEGY IN ENTERPRISES**

**Sh.N.Garayeva**
**Azerbaijan Technological University**
**Şehlaqarayeva@yandex.ru**

**Summary:** The work is devoted to the marketing aspects of the formation of commodity policy at industrial enterprises. The current state of the marketing application is clarified and the product policy of these enterprises is analyzed.

**АНАЛИЗ ПРИМИНЕНИЯ МАРКЕТИНГА И ТОВАРНОЙ СТРАТЕГИИ НА ПРЕДПРИЯТИЯХ**

**Шахла Н.Гараева**
**Азербайджанский Технологический Университет**
**Şehlaqarayeva@yandex.ru**

**Резюме:** Работа посвящена маркетинговым аспектам формирования товарной политики на промышленных предприятиях. Выясняется текущее состояние применения маркетинга и анализируется товарная политика этих предприятий.

# İQTİSADİ RİSKLƏRİN İDARƏEDİLMƏSİ METODLARI VƏ ONLARIN TƏKMİLLƏŞDİRİLMƏSİ

**dos. X.M.Ağayeva, magistr G.Ş.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**
**gulnar.mammadova1189@gmail.com**

Müasir şəraitdə iqtisadi risk problemi xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, istehsal müəssisələrində, həmçinin biznes fəaliyyətində müsbət iqtisadi nəticələr fəaliyyətin strategiyasının düzgün və əsaslandırılmış şəkildə işlənməsindən asılıdır, yəni böhranlı situasiyaların ehtimalı nəzərə alınmalıdır.

İnvestisiya qoyuluşlarının və müəssisənin fəaliyyətinin idarəedilməsinin mühüm parametri olan risk nəzərə alınmadan gəlirin qiymətləndirilməsi məsələsi nəzərdən keçirilə bilməz. Risk dedikdə faktiki investisiya gəlirinin və ya müəssisənin fəaliyyətinin gəlirinin ölçüsünün gözlənilən ölçüdən kənarlaşması başa düşülür. Xarakterinə görə eyni risklər təsərrüfat fəaliyyətinin müxtəlif sahələrində yarana bilər.

Qeyri-müəyyənlik və risk – bazarda təsərrüfatçılığın ayrılmaz hissəsi və mütləq şərtidir.

Risklərin idarə edilməsi üzrə qərarların qəbul edilməsindən öncə onun elmi əsaslandırılmış təhlili aparılmalıdır və müəssisələr öz fəaliyyətinin gedişində risklərin səviyyəsinin tənzimlənməsi üzrə müxtəlif metodların səmərəliliyinin təhlili üzrə ilkin məlumatları nəzərə almalıdır.

Risklərin səviyyəsinin tənzimlənməsinin əsas metodlarından ən cox yayılan və tətbiq olunan metod - risklərdən yayınmadır. Risklərin monitorinqi göstərir ki, risklərin idarə edilməsində sığortalanma metodu ən səmərəlilərdən biri deyil. Azərbaycan Respublikasında sığortalama ilə məşğul olan broker şirkətlərinə edilən üzvlülük məbləği hesabına müəssisə daxilində sığorta fondları yaradıla bilər. Aparılmış monitorinq göstərir ki, respublikada risklərin idarə edilməsi üzrə ixtisaslaşmış müəssisə yoxdur. Bununla əlaqədar bu cür firmanın yaradılmasına dövlətin dəstəyi məqsədəuyğun sayılır və sənaye müəssisələrində idarəetmənin təkmilləşdirilməsinin prioritetli istiqamətlərindən birinə çevrilər.

**Açar sözlər:** risklər, strategiya, investisiya, sığorta, idarəetmə.

**Ədəbiyyat siyahısı:**

1. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Avropa nəşriyyatı, 2014, 560s
2. Kazımlı X., Quliyev İ. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Dərs vəsaiti. Bakı 2011, 187s
3. Кокурин Д.И. Инновационная деятельность. М: Экзамен,2001, 575с

## МЕТОДЫ УПРАВЛЕНИЯ ЭКОНОМИЧЕСКИМИ РИСКАМИ И ИХ СОВЕРШЕНСТВОВАНИЕ

**дос. Х.М.Агаева, маг. Г.Ш.Мамедова**
**Азербайджанский Технологический Университет**
**gulnar.mammadova1189@gmail.com**

**Резюме:** В статье выяснены понятия рисков как вероятность того, что произойдет нежелательные событие или какого-то ожидаемое события не произойдет. Риск - любое действие или бездействие, которое может иметь негативные последствия.

Существует множество видов рисков, с которыми компании могут столкнуться в любое время. Основной целью управления рисками является исследование и выявление их основных причин и факторов.

## ECONOMIC RISK MANAGEMENT AND IMPROVEMENT

**dos. K.M.Agayeva, mag. G.Sh.Mammadova**
**Azerbaijan Technological University**
**gulnar.mammadova1189@gmail.com**

**Summary:** The article clarifies the concept of risks as the probability that an undesirable event will happen or some expected event will not happen. A risk is any action or omission that can have negative consequences.

There are many types of risks that companies can face at any time. The main purpose of risk management is to research and identify their main causes and factors.

# MALİYYƏ EHTİYATLARININ VƏ ONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ

**M.Q.Qurbanzadə**
**Azərbaycan Texnologoya Universiteti**
**dagli.muzeffer@gmail.com**

Maliyyə ehtiyatlarının formalaşmasına əsaslı təsir göstərən amillərdən biri bazar konyunkturudur. Belə ki, bazar konyunkturunda baş verən hər hansı dəyişiklik nəticə etibarilə büdcənin gəlir hissəsində öz təsirini göstərir.

Dövlət maliyyə ehtiyyatları təsərrüfat subyektləri kimi öz xərclərini ödəmək üçün dövlətin, onun müəssisə, təşkilat və idarələrinin malik olduqları bütün pul vəsaitləri fondlarının və daxilolmalarının məcmusudur. Maliyyə ehtiyyatları mərkəzləşdirilmiş fondlara və qeyri mərkəzləşdirilmiş maliyyə ehtiyyatlarına bölünür. Hər birinin formalaşmasının da özünəməxsus xüsusiyyətləri var. Belə ki, maliyyə ehtiyatlarının həcminin müəyyən edilməsinin zəruriliyi istehsalatın optimal strukturunun müəyyən edilməsi ilə, maliyyə ehtiyatlarının kapital və maddi məsrəflərlə balanslaşdırılması ilə əlaqələndirilir. Dövlət maliyyə ehtiyyatlarının həcmi hər şeydən əvvəl onun yaradılması mənbələri ilə müəyyən edilir. Maliyyə ehtiyyatları Ümumi Daxili Məhsulun və milli gəlirin bölüşdürülməsi prosesində yaradılır. Ümumdövlət səviyyəsində (Makro səviyyədə) mərkəzləşdirilmiş maliyyə ehtiyyatlarının formalaşmasının birinci və asas mənbəyi milli gəlirdir. Maliyyə ehtiyyatlarının formalaşmasının II əsas əhəmiyyətli mənbəyi əsas istehsal fondlarının dəyə-rinin bir hissəsi hesabına formalaşan amortizasiya fondudur. Mərkəzləşdirilmiş maliyyə ehtiyyatları xalis gəlirin vergi, vergi olmayan ödənişlər vasitəsi ilə yenidən bölgüsünün nəticəsidir [1].

Müəssisələrdə maliyyə resurslarının təşkilinin ümumi prinsipləri aşağıdakılardır:

**I prinsip:** Müəssisədə maliyyə ehtiyyatları xüsusi vəsait, subsidiya və cəlb edilmiş vəsait hesabına formalaşır. Xüsusi maliyyə ehtiyyatlarının ilkin yaradılması müəssisənin (təşkilatın) təsis edildiyi anda, yəni nizamnamə fondu (nizamnamə kapitalı) yaradıldığı vaxt baş verir.

Müəssisənin təşkilati – hüquqi formasından asılı olaraq nizamnamə fondunun yaradılması aşağıdakılar ola bilər:

— Səhmdar kapitalı
— Üzvlərin pay haqları
— Sahə maliyyə ehtiyyatları
— Uzunmüddətli kredit
— Büdcə vəsaitləri

Aşağıda "Müəssisə və təşkilatların maliyyə ehtiyyatlarının mənbələri və strukturu" sxemi verilmişdir. Bu sxemi [2]-dəki dərsliyin nəzəri hissəsində istifadə edərək yaratmışam.



**II prinsip**: Müəssisənin qarşıdakı təsərüfat ilinə maliyyə fəaliyyəti, keçmiş ilin maliyyə fəaliyyətinin nəticələri və qarşıdakı dövrə olan proqnozlar nəzərə alınmaqla planlaşdırılır. Bir sıra iqtisadçılar hesab edirlər ki, bazar iqtisadiyyatı şəraitində maliyyə planını tərtib etmək vacib deyildir. Lakin, tam əminliklə demək olar ki, bazar iqtisadiyyatına keçidin müasir mərhələsində maliyyə planı hər şeydən əvvəl müəssisənin özü üçün zəruridir.

**III prinsip:** Xüsusi dövriyyə vəsaitlərinin qorunub saxlanılmasının təmin edilməsi. Dövriy-yə vəsaitləri tam şəkildə qorunub saxlanılması təmin edilməlidir. Əgər xüsusi dövriyyə vəsaitlərinin məbləği azalarsa, onda müəssisə maliyyə sabitliyini itirər və son nəticədə müflis ola bilər.

**Maliyyə ehtiyatlarının formalaşdırılmasında beynəlxalq təcrübə və Azərbaycanda ondan istifadə xüsusiyyətləri:** Dünya iqtisadiyyatında istər eyni iqtisadi ərazidə, istərsə də ayrı-ayrı iqtisadi ərazilərdə yerləşən ölkələrin iqtiqsadiyyatı, maliyyə sistemləri bir-birindən aslı vəziyyətdə olmuş, eləcə də daim bir-birinin təcrübə və planlarından istifadə olunmaqdadır. Belə ki, müasir şəraitdə iqtisadi sistemin inkişafı mahiyyətcə iqtisadi fəaliyyətin məqsədləri, istiqamətləri, formaları və üsullarında kəmiyyət, keyfiyyət dəyişmələri aparılması prosesidir.

İqtisadi sistemin transformasiyası dövründə dövlətin funksiyalarında köklü dəyişikliklər baş verir, iqtisadi əlaqələr dəyişir, genişlənir və bu və ya digər mənada ölkələrin yaxnlaşmasına zərurət yaranır. Bazar münasibətləri şəraitində yaşayan ölkələr, o cümlədən, Azərbaycan üçün də iqtisadiyyatında islahatlar aparılmasında başlıca məsələ makroiqtisadi səviyyədə məhsullar kapitalı cəlb etməklə, tarazlıqların makro və mikro səviyyələr arasındakı əlaqələrin tənzimlənməsinə nail olmaqdır. Bu işdə beynəlxalq təcrübənin əvəzsiz rolu var.

Ümumiyyətlə, maliyyə siyasətinin iqtisadi sistemə təsiri onun fəaliyyət göstərməsi və inkişafını tənzimləyən ən mühim amillərdən biridir. O, həmçinin ümumi daxili məhsulun xüsusi komponentlərinin dövranı və dövriyyəsi, onların strukturu və dinamikası ilə bağlı sosial – iqtisadi tənzimlənən vasitədir. Lakin, əsas məslə ölkədə yeridilən maliyyə siyasətinin səmərəli olmasıdır. Bu səmərəliliyin əsas meyarları aşağıdakılarla xarakterizə olunur [3]. Əvvəla, ölkənin sosial – iqtisadi durumu, yeridilən maliyyə siyasətinin səmərəliliyi üçün başlıca meyardır. Dövlətin strateji xəttinin başlıca istiqamətlərindən biri yeridilən maliyyə siyasətinin Azərbaycanın texniki – iqtisadi və intelektual potensialından, möcu idarə etmə formasından, bütün daxili imkanlarından səmərəli istifadə etmək və iqtisadi islahatları həyata keçirməkdir. Biz beynəlxalq təcrübənin təsirini rəqəmlərdə, daha doğrusu, əsas makroiqtisadi göstəricilər və onların proqnozlarında görə bilərik. Son dövrə Azərbaycanda həyata keçirilən uğurlu islahatlar onunla nəticələnib

Maliyyə ehtiyatlarının formalaşmasında dövlətin prioritet xarakterli vəzifələrindən biri pula tələbatı ödəməklə, əmtəə istehsalı artımını stimullaşdırmaq və artan pul kütləsinin əmtəə dövriyyəsinə xidmət etməsini təmin etməkdir. Fikrəmcə, emissiyanı məhdudlaşdırmaqla büdcə kəsirini azaltmaq əvəzinə, pul kütləsini müəyyən çərçivədə artırmaqla, əmtəə-pul tarazlığının yaradılmasına nail olmaq məqsədəuyğundur [4].

**Ədəbiyyat siyahısı:**


1. N.Novruzov, X.Hüseynov “Maliyyə” ali məktəblər üçün dərslik, Bakı 2007.
2. B.Ataşov, N.Novruzov, E.İbrahimov “Müəssisələrin maliyyəsi” Bakı 2014.
3. S.M.Məmmədov «Maliyyə» Bakı 1997.
4. Ələkbərov Ə.Ə. “Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu” Bakı 2005.


**ФИНАНСОВЫЕ РЕСУРСЫ И ИХ ВЛИЯНИЕ НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ**


**М.Г.Гурбанзаде**
**Азербайджанский Технологический Университет**
dagli.muzeffer@gmail.com



**Резюме:** В статье описано формирование финансовых ресурсов, экономических отношений. их роль в системе, научные и теоретические вопросы, а также были исследованы финансовые ресурсы, международный опыт его создания, основные аспекты использования в Азербайджане и их влияние на социально-экономическое развитие.


**FINANCIAL RESOURCES AND THEIR IMPACT ON SOCIO-ECONOMIC DEVELOPMENT**


**M.G.Gurbanzade.**
**Azerbaijan Technological University**
dagli.muzeffer@gmail.com



**Summary:** The article describes the formation of financial resources, economic relations, their role in the system, scientific and theoretical issues, as well as financial resources International experience in its creation, the main aspects of its use in Azerbaijan and their impact on socio-economic development has been investigated.

# COVID-19 PANDEMIYASININ KIÇIK VƏ ORTA SAHIBKARLIĞA TƏSIRI

**dos I.Y.Şahverdiyeva, G.M.Seyidova**
**Azərbaycan Texnologiya Universiteti**
guluseyid92@gmail.com

COVID-19 qlobal pandemiyası ilə əlaqədar dərin sarsıntı dövrünün rəsmi başlanğıcını simvolizə edir.Bir il sonra hələ də onun əlindəyik, amma sürətlə inkişaf etdirilən peyvəndlər sağalmağı düşünməyimizə imkan verdi. Pandemiya qlobal sistemimizdə əsas çatışmazlıqları, işin fəaliyyət modellərindəki zəif nöqtələri və dünyamızı irəliləməyə yönəldəcək çətinlikləri ortaya çıxardı. Bu çətinliklər iqtisadiyyatdan da yan keçmədi.

Koronavirus (COVID-19) pandemiyası dünya iqtisadiyyatında artımı təhdid etməklə biznes sektoru üçün ciddi qeyri-müəyyənliyə səbəb olub. Ayrı-ayrı ölkələr səviyyəsində həyata keçirilən sorğu nəticələrinə əsaslanaraq qeyd edə bilərik ki, Almaniyada kiçik və orta biznes subyektlərinin (KOS) 58%-i gəlirlərində orta hesabla 50%-lik azalma müşahidə etdiyi halda, Niderlandda KOS-ların 85%-i maliyyə çətinlikləri yaşayıb. Belçikadakı şirkətlərin 40%-i gəlirlərində 75%-dən artıq azalma olduğunu bildirib. Portuqaliyada isə müəssisələrin 37%-i istehsal həcminin 50%-dən çox aşağı düşdüyünü bildirib (European Cluster Collaboration Platform, 2020) BMT-nin İnkişaf proqramının (BMTİP) Türkiyədəki müəssisələr üçün keçirdiyi sorğuda da oxşar nəticələr təsbit edilib. Belə ki,sorğuda iştirak edənlərin 96%-i pandemiyanın biznes sektoru üçün ciddi təhlükə olduğunu bəyan edib (UNDP, 2020).

COVID-19 pandemiyası bütün sahibkarlıq firmalarına təsir etdi, lakin xüsusilə KOS-lar bir neçə səbəbə görə təsir edə bilmişdir: birincisi, onlar daha çox ölkələrdə üstünlük təşkil edirlər və bu sektorlarda tez böhrandan təsirlənir. İkincisi, KOS-lar eyni ölkə və sektorda olan daha böyük firmalara nisbətən pandemiyanın bəzi kanallarına qarşı daha həssas olduğundan  təsir göstərir. Nəticə etibarilə, KOS'ların müvəqqəti olaraq bağlanma ehtimalı yüzdə 8 daha çoxdur.

KOS-ların böhrana həssaslığı qismən onların daha çox böhrana məruz qalan ölkələrdə və sektorlarda yayılmasından asılıdır. Böhrana məruz qalmanın ölçülməsi çətindir, çünki ölkələr və sektorlar tələb və təklif təsirlərini artıra bilən ticarət əlaqələri vasitəsilə bir-birinə bağlıdır.Məsələn, fevral ayında Çinin əsas girişlərin kilidlənməsi bütün dünyada istehsal çatışmazlığına səbəb oldu və bununla avropalı istehlakçıların geyim tələbini sifarişə azaltması Asiya üzrə geyim təchizatçıları üçün sifariş ləğvlərinə və gecikmiş ödənişlərə səbəb oldu.

**Ədəbiyyat siyahısı:**

1. https://economics.com.az
2. https://worldbank.org
3. https://oecd-ilibrary.com
4. https://routledge.com
5. https://anl.az
6. https://apa.az

**ВЛИЯНИЕ ПАНДЕМИИ COVID-19 НА МАЛОЕ И СРЕДНЕЕ ПРЕДПРИНИМАТЕЛЬСТВО**

**доц И.Й. Шахвердиева, Г.М.Сеидова**
**Азербайджанский Технологический Университет**
guluseyid92@gmail.com

**Резюме:** Государственная поддержка предприятий, пострадавших от пандемии коронавируса (COVID-19), предоставляется напрямую через различные стимулы и инструменты помощи. В связи с этим Агентство развития малого и среднего бизнеса в соответствии с планомерной стратегией действий отслеживает, систематизирует проблемы, с которыми сталкивается бизнес, и реализует оптимальную реализацию превентивных механизмов. Одним из основных приложений в текущей ситуации является предоставление рекомендаций по антикризисным стратегиям для МСП, что является одним из приоритетов экономистов в текущей ситуации.

**EFFECT OF COVID-19 PANDEMIA ON SMALL AND MEDIUM ENTREPRENEURSHIP**

**dos I.Y.Shahverdiyeva, G.M.Seyidova**
**Azerbaijan Technological University**
guluseyid92@gmail.com

**Summary**: Government support for businesses affected by the coronavirus (COVID-19) pandemic is provided directly through various incentives and aid tools. In this regard, the Agency for the Development of Small and Medium Business, in accordance with a planned strategy of action, monitors, systematizes the problems faced by business, and implements the optimal implementation of preventive mechanisms. One of the main applications in the current situation is to provide recommendations on anti-crisis strategies for SMEs, which is one of the priorities of economists in the current situation.

# MOBİL MARKETİNQİN MÜASİR DÖVRDƏ ƏHƏMİYYƏTİ

**magistr O.V.Abdullayev**
**Azərbaycan Texnologiya Universiteti**
aevorxan.20@gmail.com

Amerikan Mobil Marketinq Təşkilatının (Mobile Marketing Association) verdiyi tərifə görə mobil marketinq bizneslərə öz hədəf kütlələri ilə mobil qurğular vasitəsilə uyğun və qarşılıqlı (interaktiv) formada əlaqə qurmağa şərait yaradan təcrübələr toplusudur. Mobil marketinq mobil cihazlar vasitəsilə müştəriləri cəlb etmək üçün rəqəmsal marketinq kanallarından istifadə edən istənilən reklam fəaliyyətidir. Mobil marketinqin əsas üstünlüklərindən biri daha geniş auditoriyaya çatmaq və onları seqmentləşdirmək imkanıdır. Kiminlə ünsiyyət qurmaq istədiyinizi özünüz seçirsiniz. Müştərinin profilini araşdırdıqdan sonra insanları maraqları, hobbiləri və davranışları ilə hədəfləyirsiniz, belə ki istifadəçilər vaxtlarının 89%-ni mobil tətbiqlərə sərf edərək mobil cihazları aparıcı ünsiyyət vasitəsi halına gətirirlər. Kiçik ölçülərə görə mobil cihazlarda ümumi görünüş və həcm sadələşdirilir. Mobil qurğular kompüterlərdən daha kiçik və yüngül olduğundan, istifadəçilər harada olursa olsun alış-veriş edə bilərlər. Smartfonlar alış -veriş müddətini 20% sürətləndirir. Ötən illə müqayisədə mobil istifadəçilərin 50%-i birbaşa smartfonlarından ani alış-verişə üstünlük verir. Telefon istifadəçilərinin 91%-i əlaqəli reklamlara baxdıqdan sonra müəyyən əşyalar almağı və ya almağı planlaşdırır. Smartfon istifadə edən müştərilərin 2/3 hissəsi, saytın tətbiqi və ya mobil versiyası olan və məzmununa görə uyğunlaşdırılmış bir şirkətdən satın alma ehtimalı daha çoxdur.Onlayn əməliyyatların 40%-i mobil cihazlarda həyata keçirilir.

Mobil marketinq çox formalarda həyata keçirilir. Bunlara mobil tətbiqlər, oyun içi reklam, Qr kodları, bluetooth marketinqi, səs marketinqi və sms marketinqi daxildir.

**Mobil tətbiqlər:** Şirkətlərə reklamları mobil tətbiq dizaynlarına daxil etməyə imkan verir. Mobil proqram, mobil telefonlar, planşetlər, smartfonlar və s. daxil olmaqla mobil cihazlarda işləmək üçün xüsusi olaraq hazırlanmış kompüterləşdirilmiş proqramdır. Bununla belə, nə qədər cazibədar olsa da, bir addım geri çəkilməli və biznesinizin mobil proqrama ehtiyacı olub-olmadığını diqqətlə düşünməlisiniz. Məsələn, internetdə əsasən müştərilərinizə məzmun təqdim edən vebsaytınız varsa, siz proqramdan çox mobil vebsayta daxil olmaq istəyə bilərsiniz. Bununla birlikdə, kamera tələb edən oyunlar və ya coğrafi yer məlumatlarından istifadə edən bir e-ticarət saytı kimi bəzi şirkətlər üçün bir mobil tətbiq çox faydalı ola bilər.

**Oyun içi reklam:** Açılışından başlayaraq oyun prosesi zamanı görünən mobil cihazlarda bütün reklamlara şamil edilir. Bu reklamlar, ekran yükləyərkən görünən tam ölçülü reklamlar, açılan bannerlər və ya video reklamlar kimi görünə bilər. İstifadəçilər pulsuz oyunları sevirlər. Tərtibatçılar oyunlar üçün müxtəlif monetizasiya strategiyalarından istifadə etməyə öyrəşiblər. Abunəliklərdən tutmuş tətbiqdaxili alışlara qədər, istifadəçilər daha səmərəli oynamaq üçün bəzi funksiyalar üçün pul ödədikdə ancaq statistika göstərir ki, mobil tətbiq istifadəçilərinin yalnız kiçik bir hissəsi ayda ən azı bir dəfə pul xərcləyir. Nəticədə, daha çox tərtibatçı gəlir əldə etmək üçün mobil reklamlara keçir.

**QR kodları:** QR kodları təkcə müştəri bazası yaratmağa kömək etmir, həm də biznesiniz üçün bir sıra əlavə üstünlüklərə malikdir. QR kodları ekoloji cəhətdən təmizdir, çünki daha az mətn daha az çap xərcləri deməkdir, beləliklə siz QR kodlarından istifadə edərək xərclərə və resurslara qənaət etmiş olacaqsınız. Onlar həmçinin istifadəçi dostudur. İstifadəçiləri birbaşa telefon nömrənizə, vebsaytınıza, tanıtımınıza və daha çoxuna göndərmək istehlakçıların ehtiyac duyduqları məlumatı tapmaq üçün daha az vaxt və daha çox məmnunluq sərf etməsi deməkdir. Digər şeylər arasında, QR kodlarından istifadənin effektivliyini analitikadan istifadə etməklə ölçmək asandır. Siz zamanla skanların sayı və kodlarınızın ən təsirli olduğu coğrafi ərazilər kimi məlumatları toplaya bilərsiniz. O, biznesinizə nəyin yaradığını və nəyin yaramadığını öyrənməyə kömək edə bilər və qazanc əldə etmək üçün düzgün istiqamətə sərmayə qoymağa imkan verir. Bu alətin populyarlığına baxmayaraq, onun daha geniş tətbiqinə mane olan əhəmiyyətli bir maneə hələ də mövcuddur. 2017-ci ilin sentyabr ayına qədər istifadəçilər üçüncü tərəfin barkodskan edən proqramlarını yükləməli və istifadə etməli idilər ki, bu da onun populyarlığına böyük təsir göstərdi. Bununla belə, Apple iOS 15-in buraxılması ilə QR kodları kameraya daxil edilib. Başqasözlə, QR kodu sizin iPhone və ya iPad-də skan etdikdən sonra link birbaşa Safari veb brauzerində açılacaq (iOS 15 də işləyəcək).

**Bluetooth marketinqi:** İstifadəçilərə cihazlarında Bluetooth vasitəsilə fərdilərdirilmiş və hədəflənmiş reklamlar təklif edir. “Bluetooth” texnologiyasından istifadə istifadəçilərin mobil telefonlarına müxtəlif media məzmununun – təkcə mətnin deyil, həm də animasiyanın, səslərin, videoların və s.-nin təhlükəsiz və son dərəcə sürətli (723 Kbps-ə qədər) çatdırılmasını təşkil etməyə imkan verir. Buna görə də, bu reklam kanalı televiziya reklamı və ya SMS mesajlarının çatdırılması kimi effektiv deyil,

lakin istifadəçinin prosesdə fəal iştirakını nəzərdə tutur ki, bu da daha seçici və buna görə də effektiv hərəkət etməyə imkan verir.

**Səs marketinqi:** Məhsul və ya xidmətlərini tanıtmaq üçün müəssisələrə kompüter və avtomatik zənglərdən istifadə etməyə icazə verən şəxsdir. Telefonu bağlamaq və ya telefon zənginə qulaq asmaq üçün müştəri özü qərar verir. Bizim ölkədə çox da hiss olunmasa da, ingilis dilli ölkələrdə səs ilə idarəetmə gündəlik həyatın bir parçasıdır. Telefonlarda Siri və ya Google Assistant, evlərdə Alexa – danışmağı sevənlər üçün həmişə hazır söhbət yoldaşıdır. Danışaraq anlaşmaq, məsləhət almaq, suala cavab tapmaq biz insanlar üçün ən təbii informasiya əldə etmək mənbəyidir. Whatsapp ilə göndərilən səsli mesajların bu qədər populyar olmasının da əsas səbəbi budur – insanlar tənbəldir və hər zaman rahat yol axtarır. Bill Qeyts demişkən: "Çətin tapşırığı hər zaman tənbəl adama verirəm, çünki o, ən asan yolunu tapacaqdır". Maşınların da danışmağa başlaması ilə gündəlik həyatımızın rahatlaşacağına heç bir şübhə yoxdur.

**SMS marketinqi:** Marketoloqlar müştərilərlə ünsiyyət qurmaq və öz brendlərini tanıtmaq üçün tez-tez SMS marketinqindən istifadə edirlər. Bu günə qədər sadiqlik proqramlarında bir müştəri ilə ünsiyyət vasitəsi olaraq SMS texnologiyasına ən çox ehtiyac duyulduğundan, SMS xidmətlərini sadiqlik proqramına inteqrasiya edərkən yadda saxlamalı olduğunuz ən vacib qaydalar bunlardır.

1. Müştərini, ilk növbədə razılaşdığı məlumatları göndərin bu məsələ sorğu -sual yolu ilə asanlıqla həll olunur. Həmişə bundan sonra promosyon məlumatları verin. Məsələn, loyallıq proqramı üzvünün hesabında toplanan xalların sayı ilə bağlı sorğusuna cavab olaraq aşağıdakı SMS-i göndərə bilərsiniz: "Hesabınızda 500 bonus var. Xüsusi bir təklifimiz var: Noyabr ayında hər hansı bir alış üçün hesabınıza üç dəfə bonus qazanırsınız! ". Mesaj əvvəlcə tələb olunan məlumatı göstərirsə və reklam mesajını izləyirsə, bu müştəridən narazılığa səbəb olmayacaq, üstəlik, mütləq xatırlanacaq.

2. Daha çox məlumatı haradan əldə edə biləcəyinizi söyləyin. SMS -in ölçüsü məhdud olduğundan müştəriyə ətraflı məlumatı necə əldə edə biləcəyi barədə məlumat vermək vacibdir. Bu şirkətin zəng mərkəzinin telefon nömrəsi və ya IVR nömrəsi (avtomatik səs portalı) və ya WAP saytına keçid ola bilər.

3. Müraciətə dərhal cavab verin. Müştərinin əlavə məlumat tələbinə dərhal cavab vermək çox vacibdir.

4. Mesajın gəldiyi telefon nömrəsini deyil, şirkətin adını daxil edin. Bu, müştəriyə hörmət nümayişidir.

5. Məlumatın təhlükəsizliyini təmin edin. Biz sizə müştərinin bütün şəxsi məlumatlarını saxlamağı məsləhət görürük. Onlara mübahisəli məsələləri, o cümlədən mobil operatorlarla bağlı məsələləri həll etmək üçün ehtiyacınız ola bilər.

6. Əlbəttə ki, müştəriyə istənilən vaxt SMS göndərilməsindən çıxmaq imkanı verin - bunu necə edəcəyini bilsin.

***Açar sözlər:*** Mobil marketinq, mobil tətbiq, QR kodlar, bluetooth marketinq, sms marketinq

**Ədəbiyyat siyahısı:**

1. Erdem, A. (2006). Tüketici Odaklı Bütünleşik Pazarlama İletişimi. Ankara: Nobel Yayınevi.
2. Kaplan, A. M., and Haenlein, M. (2010). Users of the world, unite! The challenges and opportunities of social media. Business Horizons,
3. Ryan, D., and Jones, C. (2009). Understanding digital marketing: marketing strategies for engaging the digital generation. London & Philadelphia: Kogan Page.
4. Yükselen, C. (2010). Pazarlama. Ankara: Detay Yayıncılık

## ВАЖНОСТЬ МОБИЛЬНОГО МАРКЕТИНГА В НАШЕ ВРЕМЯ

**магистр О.В.Абдуллаев**
**Азербайджанский Технологический Университет**
aevorxan.20@gmail.com

**Резюме:** В цифровом мире с развитием технологий поведение и привычки потребителей меняются параллельно с изменением сетей и каналов связи. В этой статье анализируется влияние современных технологий на мобильный маркетинг с течением времени.

**Ключевые слова:** Мобильный маркетинг, мобильное приложение, QR-коды, bluetooth-маркетинг, sms-маркетинг

## THE IMPORTANCE OF MOBILE MARKETING IN MODERN TIMES

**master A.O.Vilayaddin**
**Azerbaijan Technological University**
aevorxan.20@gmail.com

**Summary:** In a digital world with the development of technology, consumer behavior and habits are changing in parallel with changing of communication networks and channels. This article analyzes the impact of modern technology on mobile marketing over time.

**Keywords:** Mobile marketing, mobile application, QR codes, bluetooth marketing, sms marketing

# AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİNƏ VERGI DAXİLOLMA MƏNBƏLƏRİNİN TƏHLİLİ

**S.E.Tağıyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**semrahtagiyeva@gmail.com**

Rəqabət mübarizəsinin getdiyi müasir bazar iqtisadiyyatı şəraitində vergi siyasətinin əsas istiqamətlərinin düzgün müəyyən edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Büdcə gəlirlərinin formalaşmasında vergi siyasəti mühüm rol oynayır. Dünya ölkələrində olduğu kimi Azərbaycanda da vergi daxilolmaları büdcə gəlirlərinin əsas hissəsini təşkil edir. Deməli, daha çox vergi daxilolmaları daha çox büdcə gəlirləri deməkdir. Lakin nəzərə almaq lazımdır ki, vergilərin müəyyən həddən artıq yüksəlməsi mənfi hallar doğuraraq həm iqtisadi artıma, həm də biznes mühitinə mənfi təsir göstərə bilər.[4] Səmərəli vergi siyasəti sayəsində lazımi büdcə gəlirlərini təmin etməklə dayanıqlı, iqtisadi inkişafa nail olunur.

Dövlət maliyyələşməsində borcların artması iqtisadiyyat üçün artan yükə çevrilir. Bu problemin aradan qaldırılmasının yolu vergi sisteminin iqtisadiyyata mənfi təsir göstərmədən elə tənzimləməsidir ki, bu zaman tətbiq edilən vergi dərəcələri mümkün qədər daha çox dövlət gəlirlərini təmin etmiş olsun. Bu baxımdan gəlir vergilərinin səviyyəsi və onun səmərəliliyi həmişə elmi və sosial fazilərdə ən çox müzakirə olunan məsələlədir.Ona görə də respublikamızda büdcə-vergi siyasətinin nəzəri-metodoloji, praktiki və təşkilati cəhətləri bu nöqteyi-nəzərdən kompleks tədqiq edilməlidir.

Büdcə-vergi siyasətinin Azərbaycan modeli ölkə iqtisadiyyatının mövcud vəziyyətini, onun perspektiv inkişaf dinamikasını, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi əhatə etməklə təşkil olunmuşdur.[1,3]

Respublikamızda həyata keçirilən uğurlu iqtisadi siyasət sayəsində Azərbaycan Respublikası son 20 il ərzində yüksək sürətlə inkişaf etmişdir. Nəticədə dövlət büdcəsinin gəlirləri 2020-ci ildə 24.1 mlrd manat təşkil etmişdir ki, bu həmin ildə istehsal olunan ümümi daxili məhsulun 33.3%-nə bərabər olmuşdur. Bu göstərici 2018-ci ildəkinə nisbətən 1.975 mlrd manat və yaxud 8.92% çoxdur.

Dövlətin büdcə gəlirlərinin 7 mlrd 387.3 mln man və yaxud 28.3%-i, Vergilər Nazirliyinin xətti ilə daxilolmaların payına düşür ki, buda isə ÜDM-in 10.2%-nə bərabər olmuşdur.

2019-cu ilin sonundan bütün dünya ölkələrinə yayılmaya başlıyan Covid-19 virusunun yaratdığı pandemiya dünya, o cümlədən ölkəmizin iqtisadiyyatına göstərdiyi mənfi təsir nəticəsində vergi yığımlarında azalma baş vermişdir. Belə ki, 2020-ci ildə Vergilər Nazirliyi xətti ilə dövlət büdcəsinə daxilolmaların həcmi 2018-ci illə müqayisədə 268 mln man və yaxud 3.6% azalmışdır. Dövlət büdcəsinin 2020-ci ildə strukturunu gəlir ünsürləri üzrə təhlil etdikdə aydın olur ki, 24.1 mlrd manlıq ümumi həcmin 8.9 mlrd man-ı və ya 36.9%-i Azərbaycan Dövlət Neft Fondunun transfert ödəmələrinin, 4.6mlrd man-ı və ya 19.1%-i əlavə dəyər vergisinin, 2.3 mlrd man-ı və ya 9.5%-i hüquqi şəxslərdən alınan gəlir verginin, 1.1 mlrd man-ı və ya 4.6%-i fiziki şəxslərdən alınan gəlir verginin, 2.7mlrd man-ı və ya 12.9%-i Azərbaycan respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisinin, 936 mln man-ı və ya 3.9% -i aksizlərin, 910 mln man-ı və ya 3.8%-i gömrük rüsumlarının payına düşmüşdür. Göründüyü kimi Dövlət nef fondunun transfert ödəmələrinin dövlət büdcəsindəki xüsusi çəkisi çox yüksəkdir ki, bu da gələcək nəsillər üçün nəzərdə tutulan fondun artmasına mənfi təsir göstərir.[2]

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2020
2.Azərbaycan respublikasının 2020-ci il Dövlət Büdcəsi haqqında qanun.
3.Quluzadə.E "Azərbaycanın büdcə gəlirlərinin formalaşmasında səmərəli vergi siyasətinin rolu"- Azərbaycan Vergi jurnalı, 2019
4.Vəliyev Z. "Büdcə sistemi" Bakı, 2012
5.http://www.taxes.gov.az/

## АНАЛИЗ ИСТОЧНИКОВ ПОСТУПЛЕНИЯ НАЛОГОВ В ГОСУДАРСТВЕННЫЙ БЮДЖЕТ АЗЕРБАЙДЖАНА

**С.Э.Тагиева**
**Азербайджанский Технологический Университет**
**semrahtagiyeva@gmail.com**

**Резюме:** В статье указывается на важность государственного бюджета и правильной налоговой политики, исследуется их роль в экономическом развитии страны. Затем анализируются структурные компоненты доходной части государственного бюджета.

## ANALYSIS OF THE SOURCES OF TAX REVENUES TO THE STATE BUDGET OF AZERBAIJAN

**S.E.Tagiyeva**
**Azerbaijan Technological University**
**semrahtagiyeva@gmail.com**

**Summary:** In the article the importance of state budget and correct tax policy are indicated, their roles in the economic development of the country are explored. Afterwards the structural components of the revenue part of state budget are analyzed.

# SƏNAYENİN İNVESTİSİYA TƏMİNATININ NƏZƏRİ MƏSƏLƏLƏRİ

**G.C.Atakişiyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**gunel221998@gmail.com**

Ölkədə müasir sənaye sahələrinin yaradılması və sənayenin infrastruktur təminatının yaxşılaşdırılması üzrə çoxsaylı layihələrin icra edilməsi onun yeni inkişaf mərhələsinə keçməsinə imkan vermişdir.

Sənaye - cəmiyyətin məhsuldar qüvvələrinin təkmilləşdirilməsi və bunun sayəsində ictimai istehsalın miqyasca genişlənməsi və səmərəliliyinin yüksəldilməsində, cəmiyyət üzvlərinin maddi və mədəni tələbatlarının təmin edilməsində həlledici rola malik maddi istehsal sahəsidir.

Hazırda respublikamızda bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin yaradılması istiqamətində tədbirlər həyata keçirilir.

Mövcud sənaye müəssisələrində innovasiya yönümlü texnologiyaların tətbiqi, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciklərin yaradılması istiqamətində həyata keçirilən layihələr iqtisadi rayonlar üzrə sənaye şəhərciklərinin infrastrukturunun formalaşdırılmasına nail olmağa imkan verəcəkdir. Bu baxımdan, Abşeron və Gəncə-Qazax iqtisadi rayonlarında xüsusi iqtisadi zonalarının yaradılması və sənaye şəhərciklərinin (o cümlədən Sumqayıtda neft-kimya məhsul-larının emalı, Balaxanıda məişət tullantılarının emalı və Gəncədə metal (alüminium) məmulatların istehsalı üzrə sənaye şəhərcikləri) qurulması mühüm addımlardır.

Qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektro-texnika, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyətli yeni istehsal sahələrinin yaradılması sənayenin inkişafının əsas istiqamətləridir.

Milli iqtisadiyyatın dayanıqlı və tarazlı inkisafı ona daxil olan bütün sahələrinin inkisaf səviyyəsindən, səmərəli fəaliyyətindən və inkisaf tempindən asılıdır. Milli iqtisadiyyatda ayrı-ayrı sahələrin payı onun inkisaf səviyyəsini müəyyən edir. Belə ki, inkisaf etmis ölkələr aqrar inkisaf, sənayenin inkisafı və xidmət sahələrinin inkisafına əsaslanan postindustrial inkisaf mərhələlərini keçmişlər. Bununla belə, bu inkisaf mərhələləri əsasən ölkənin malik oldugu iqtisadi potensialın reallasma səviyyələri ilə müəyyən olunur. Çünki sənaye hesabına inkisaf imkanları məhdudlasdıqda xidmət sahələri hesabına inkisaf imkanları formalasır.

Sənayenin inkişaf etdirilməsi ölkənin müdafiə qabiliyyətinin artırılmasına şərait yaradır. Müstəqillik əldə etmiş Respublikamz üçün bu məsələnin düzgün təşkilinin milli təhlükəsizliyimiz üçün fövqəladə əhəmiyyəti vardır.

Hər bir ölkənin iqtisadi inkişafının təmin olunmasında əsas şərtlərdən biri də onun ərazisində mövcud olan təbii sərvətlərin son məhsulun istehsalina kimi ölkənin öz ərazisində emal edilməsi və hazır məhsulun faydalı ixrac olunmasını müəyyən etmək məsələləri düzgün həll olunmalı və bu sahə üzrə məqsədyönlü tədbirlər həyata keçirilməlidir.

*Sənaye siyasəti və qeyri-neft sektorunun inkişaf prioritetləri* - Ölkə iqtisadiyyatının dayanıqlığının və davamlılığının təmin olunması üçün onda əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişikliklərinin aparılması zəruridir.

Araşdırmalar göstərir ki, respublikada sənaye sektorunun inkişaf etdirilməsi üçün başlıca problemlərdən biri yeni investisiya konsepsiyasının hazırlanmasıdır. Bu konsepsiya sənaye sahəsinin dayanıqlı iqtisadi artımı və xammal istehsalı potensialı ilə emal sahəsi arasında iqtisadi tarazlığın təmin edilməsinə yönəldilməlidir.

Yeni investisiya konsepsiyasında başlıca olaraq mövcud olan disproporsiyaların aradan qaldırılması yolu ilə iqtisadi rayonların inkişafında səmərəli tarazlıqların yaradılması; bu sahədə kiçik emal zavodlarının təşkil edilməsi, emal məhsullarının artırılması üçün sahibkarlıq fəaliyyətinin formalaşdırılması və səmərəli stimullaşdırma mexanizmlərinin hazırlanması diqqət mərkəzində durmalıdır.

İstehsalın texniki səviyyəsinin aşağı olması ixracyönümlü emal məhsullarının istehsalına da mənfi təsir göstərir. İxracın strukturunda neft, qaz və neft məhsullarının xüsusi çəkisi 92%-dən

yuxarıdır. İdxalın strukturunda 26,7%-ni maşın, mexanizm, elektrik avadanlıqları və onların hissələri; 17,2%-ni - qara metal və onlardan hazırlanan məmulatlar; 10,6%-ni ərzaq məhsulları; 3,0%-ni əczaçılıq məhsulları və digər-mebel, sement, plastik kütlə, nəqliyyat vasitələri və onların hissələri - məhsullar təşkil edir.

Bütün bu faktlar qeyri-neft sənaye sektorunun investisiya təminatını əsaslı şəkildə yaxşılaşdırılmasını tələb edir.

Qeyri-neft sənaye sektorunun aparıcı sahələrindən olan sənayeyə yönəldiləcək investisiyalar aşağıdakıların icrasına yönəldilməlidir:

- istehsal avadanlığının yüksək mənəvi və fiziki aşınmasının aradan qaldırılması;
- sənayedə məhsulun rəqabətqabiliyyətliyinin və investisiya fəallığının artırılması;
- potensial satış bazarı olan və yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun sənaye müəssisələrinin fəaliyyətinin bərpası;
- müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların tətbiqinə keçidin sürətləndirilməsi;
- yeni obyektlərin yaradılması və müasir tələblərə uyğun quruləraq fəaliyyət sahələrinin, yaxud mövcud sexlərinin genişləndirilməsi;
- istehsalın texniki-iqtisadi səviyyəsini yüksəltməklə müəssisənin və ya ayrı-ayrı struktur bölmələrin, sexlərin texniki-texnoloji cəhətdən silahlandırılması;
- müəssisənin dövriyyə vəsaitlərinin investisiya təminatı;
- yeni və orijinal məhsulların istehsalı və mövcud məhsulların modernləşdirilməsi.
-

**Ədəbiyyat siyahısı:**


1. Abbasov, İ.M, Əliyev.T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, "Elm və Təhsil", 2017,501s.
2. Hümbətov, Y.Ə. "Sənayenin təşkil və idarə edilməsi" Dərs vəsaiti. Bakı, Avropa nəşriyyatı - 2018. 355 səh.
3. O.Məmmədli, M.İsmayılov, F.İsmayılov. "Milli iqtisadiyyatın tənzimlənməsi". Bakı 2008
4. Səmədzadə Azərbaycan İqtisadyyatı inkişafın yeni keyfiyyət mərhələsində Respublika elmi praktik konfransın materialları, Bakı, 2006
5. Y.Ə.Hümbətov. Məhsuldar Qüvvələrin yerləşdirilməsi. Bakı 2014 səh. 293


## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ИНВЕСТИЦИОННОГО ОБЕСПЕЧЕНИЯ ПРОМЫШЛЕННОСТИ

**Г.Ч.Атакишиева**
**Азербайджанский Технологический Университет**
gunel221998@gmail.com

**Резюме:** Исследования показывают, что одной из основных проблем развития промышленного сектора страны является разработка новой инвестиционной концепции. Эта концепция должна быть направлена на обеспечение устойчивого экономического роста отрасли и экономического баланса между потенциалом сырьевого производства и перерабатывающей промышленности.

На мой взгляд, реализация этих задач позволит в конечном итоге улучшить материально-техническую базу многих производств, создать условия для производства конкурентоспособной продукции, модернизировать инфраструктуру, удовлетворить спрос на промышленную продукцию за счет внутренних ресурсов.

## THEORETICAL ASPECTS OF INVESTMENT SUPPORT FOR INDUSTRY

**G.C.Atakishiyeva**
**Azerbaijan Technological University**
gunel221998@gmail.com

**Summary:** Researches show that one of the main problems in the development of the industrial sector of the country is the development of a new investment concept. This concept should be aimed at ensuring sustainable economic growth of the industry and an economic balance between the potential of raw material production and the processing industry.

In my opinion, the implementation of these issues would ultimately improve the material and technical base of many industries, create conditions for their production of competitive products, upgrade infrastructure, and meet the demand for industrial products through domestic resources.

# QİDA SƏNAYESİNİN RƏQABƏT POTENSİALININ FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

**C.C.Rəhimov**

**Azərbaycan Texnologiya Universiteti**

**ragimov_99@internet.ru**

Respublikamızda artıq qeyri-neft sahəsinin inkişafına, tarazlı regional və sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilməyə başlanılmışdır. Qida sənayesinin inkişaf strategiyası müxtəlif iqtisadi sistemlərdə iqtisadi subyektlərin inkişafının nəzəri və ümumi metodoloji əsaslarının hərtərəfli öyrənilməsinə əsaslanır. Qeyd etmək lazımdır ki, inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə təsərrüfat subyektlərinin iqtisadi sabitliyi ilə bağlı məsələlər geniş müzakirə mövzusudur. Sənaye müəssisələrinin iqtisadi sabitliyi ilk növbədə onların rəqabət qabiliyyəti və iflasdan yayınma imkanları ilə əlaqələndirilir.

Tədqiqat metodologiyası baxımından bölgə iqtisadiyyatının inkişafı prosesi bir tərəfdən ölkənin iqtisadi islahatlarının ümumi məzmunu ilə, digər tərəfdən bölgənin subyektiv iqtisadi reallığı ilə üzvi və obyektiv şəkildə əlaqələndirilir. Odur ki, inkişaf prosesinin həyata keçirilməsinin iqtisadi reallığa əsaslanmalı olduğunu, eyni zamanda bölgənin sosial-iqtisadi xüsusiyyətlərini nəzərə almalıyıq. Ölkə ərazisində bölgələrin iqtisadi və sosial inkişafının fərqliliyi ilə əlaqədar regional xüsusiyyətlərin nəzərə alınması son dərəcə vacibdir.

Müasir Azərbaycan üçün cəmiyyətin bütün üzvlərinin ölkənin milli sərvətlərini qorumaq və artırmaqda vahid bir dövlət çərçivəsində vahid iqtisadi məkanın səmərəli fəaliyyətində stimullaşdırma əsas vəzifələrdən biridir. Ancaq nəzərə almaq lazımdır ki, müxtəlif tip bölgələrin inkişafı üçün regional strategiyalar bir-birindən və bölgənin xüsusiyyətləri, inkişaf səviyyəsi və resurs təminatı nəzərə alınmaqla birləşdirilmiş milli strategiyanın orta xüsusiyyətlərindən çox fərqlənməlidir. Bu tələb inkişafın mahiyyətinə uyğundur - bəzi bölgələrin inkişafı başqalarının ziyanına həyata keçirilməməlidir.

Fikrimizcə, qida sənayesinin inkişafını yalnız zaman seriyalarının dəyişkənlik səviyyəsi ilə qiymətləndirmək mümkün deyil. Çünki nəzərə almaq lazımdır ki, yeyinti sənayesinin sabitliyi mövcud istehsalın tələbatını ödəməklə mütləq təmin edilmir. Müəssisənin maliyyə sabitliyi, bütün əhəmiyyətinə görə, iqtisadi sabitliyin yalnız bir hissəsi olduğunu iddia etmək üçün bütün əsaslar var. Həmçinin maliyyə sabitliyi, qida sənayesinin inkişafı üçün sosial və ekoloji nəticələr və təlimatları tam və hərtərəfli nəzəərə almağa imkan vermir. Sənaye müəssisələrinin inkişafının təmin olunması zamanı bəzən "Davamlı inkişaf" anlayışına rast gəlinir. Dar mənada davamlı inkişaf davamlılığın yalnız bir aspektini (əsasən maliyyə və ya ətraf mühit) nəzərdə tutur və geniş mənada - davamlılığın bütün növlərini (ekoloji, iqtisadi, texnoloji, demoqrafik, sosial) əhatə edir.

İqtisadiyyatın subyekti kimi qida sənayesinin inkişafının dayanıqlılığı ilə, xarici və daxili mühit qüvvələrinin təsiri altında müəyyən bir sabitlik zonasında texniki, texnoloji, təşkilati, ekoloji, sosial-iqtisadi göstəricilərdəki dəyişikliklərə zəruri meyl təmin etmək qabiliyyətini başa düşürük. Hal-hazırda, qida sənayesinin inkişafının trayektoriyasına daxil olmaq yalnız onun daxili ehtiyatları səfərbər edildikdə, istehsal səmərəliliyi artırılaraq müvafiq olaraq xammal bazası inkişaf etdirildikdə mümkündür. Hesab edirik ki, qida sənayesinin sabitliyi ekzogen və endogen amillərin təsiri altında onun fəaliyyətinin sosial-iqtisadi göstəricilərinin iqtisadi sabitliyin müəyyən bir bölgəsində dəyişməsi faktında özünü göstərir. Müəyyən bir ətraf mühitə təsiri (pozulması) olan bu dəyişikliklərin istiqamətindən və diapazonundan asılı olaraq qida sənayesinin sabit və qeyri-sabit vəziyyətini ayırmaq lazımdır. Qida sənayesinin inkişafı iqtisadiyyatın subyekti kimi daha dəqiq kəmiyyətcə şərh edilməsi, birincisi, dinamik, ikincisi, ehtimal olunan bir xüsusiyyət kimi nəzərə alınarsa mümkündür. Bu mənada N.V.Zubanov və C.B. Pestrikovun dayanıqlılıq konsepsiyası, ona görə təşkilatın fəaliyyətinin sabitliyi, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün hər hansı bir təşkilata xas olan əmlakını xarakterizə edir. Nəzərə almaq lazımdır ki, yaşamaq, mənfəəti maksimum dərəcədə artırmaq, bazarı saxlamaq və iqtisadiyyat subyektinin sabitliyini təmin etmək məqsədləri səviyyədə bərabər deyildir. Bunlardan birincisi məntiqi olaraq taktiki hədəflərə aiddirsə, davamlı

işləməyi təmin etmək iqtisadiyyat subyektinin strateji hədəfidir. Yaşamaq inkişaf üçün zəruri şərtdir, qazanc (iqtisadiyyatın hərəkətverici qüvvəsi kimi bütün əhəmiyyəti üçün) qida sənayesinin davamlı inkişafı üçün bir vasitədir.

**Ədəbiyyat siyahısı:**

1. Abbasov, İ.M, Əliyev.T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, "Elm və Təhsil", 2017, 501 s.
2. Azərbaycan Respublikasında 2014-cü il "Sənaye ili"elan edilməsi barədə 10 yanvar 2014-cü il tarixli Sərəncamı.
3. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020 – ci illər üçün Dövlət Proqramı Bakı, Elm, 2016.
4. Azərbaycan sənayesi DSK-ın məlumatları, Bakı2020, 164 səh
5. Əliyev T.N. Azərbaycanın qeyri-neft sənaye sektorunda innovasiya prosesinin investisiya təminatı. "İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər" mövzusunda BEPK-nın materialları. Sumqayıt, "DSK", 2016, s. 40-43.
6. Əliyev T.N, Həsənov Ə.H, Əsədov X.Ə. İnnovasiya sahibkarlığının əsas xüsusiyyətləri və təşkilinin səmərəliliyi. //AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası №2. Bakı, "Elm" , 2012, s. 5-12.

## НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ КОНКУРЕНТОСПОСОБНОГО ПОТЕНЦИАЛА ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

**С. С. Рагимов**
**Азербайджанский Технологический Университет**
**ragimov_99@internet.ru**

**Резюме:** С точки зрения методологии исследования, процесс регионального экономического развития органически и объективно связан с общим содержанием экономических реформ страны, с одной стороны, и субъективной экономической реальностью регионасдругой.Поэтому мы должны учитывать, что реализация процесса развития основана на экономической реальности, а также социально-экономических характеристиках региона. В связи с различиями в экономическом и социальном развитии регионов страны крайне важно учитывать региональную специфику.

## DIRECTIONS OF COMPETITIVE POTENTIAL FORMING OF THE FOOD INDUSTRY

**C.C.Rahimov**
**Azerbaijan Technological University**
**ragimov_99@internet.ru**

**Summary:** From the point of view of the research methodology, the process of regional economic development is organically and objectively related to the general content of the economic reforms of the country, on the one hand, and the subjective economic reality of the region, on the other.

Therefore, we must take into account that the implementation of the development process is based on the economic reality, as well as the socio-economic characteristics of the region. Due to the differences in the economic and social development of the regions of the country, it is extremely important to take into account regional specifics.

# PUL VƏSAİTLƏRİNİN MÜSBƏT VƏ MƏNFİ AXINI

**A.Ş.Məmmədov**
**Azərbaycan Texnologiya Universiteti**
**afiyddinmdov@gmail.com**

Qədim dövrlərdən başlayaraq pul insanların həyatında ən önəmli faktorlardan biri olub və cari dövrümüzdə də demək olar ki ən önəmli faktor olaraq qalır. İstər fərdi şəxs, istərsə də müəssisələrdə və həmçinin dövlətlərin özlərində də pul axını proqnozunu bir araya gətirdikdə, işinizin pul axınlarının vəziyyətinin gələcək aylarda necə olacağını daha dəqiq formada biləcəksiniz. Bu da planlaşdırma üçün çox vacibdir, belə ki həm işinizin böyüməsində, həm də düzgün qərarlar verməyə kömək edəcək. Müəssisə baxımından fəaliyyət sahəsini genişləndirmək, əlavə avadanlıq almaq və ya daha çox işçi cəlb etmək barədə düşündükdə, nağd pul baxımından nə vaxt təhlükəsis olacağını bilməlisiniz. Pul vəsaitlərinin proqnozu bunları sizə xəbər verəcəkdir. Pul axını proqnozunu oxuya və istifadə edə biləcəyiniz əsas şey, müsbət və mənfi pul axını və onun işinizə necə təsir etdiyini anlamaqdır. Pul vəsaitlərinin proqnozu iş idarəçiliyi üçün əvəzolunmaz bir vasitə halına gətirəcək və işinizin sağlam qalmasına kömək edəcək. Müsbət və mənfi pul axını müəssisənin ayrılmaz hissəsidir. Bir işlə məşğulsunuzsa, bu iki anlayış haqqında konkret biliklərə sahib olmalısınız. Əks təqdirdə, işinizdən gəlir əldə etmək çətin olacaq. Mövcud pandemiya dövründən danışsaq, insanlar onlayn əməliyyatlara üstünlük verirlər. Buna görə də, bu rəqabət şəraitində yaşamaq üçün işinizi internetə çevirməlisiniz. Onlayn işlərdə pul axınının qorunması sizin üçün olduqca asan olur, çünki bir çox təkmilləşdirilmiş ödəmə terminalları olacaq. Ancaq onlayn işlə əlaqəli vacib cəhətləri bilmirsinizsə, işinizin pul axınını artırmaq sizin üçün çətin olacaq. Bizneslə məşğul olanlar pul axınının necə hesablanacağını başa düşməlidirlər. Bunu sadə düstürla desək:

**Alınan Nağd Pul - Xərclənmiş Nağd Pul = Nağd Pul axını.**

Bir neçə ay ardıcıl olaraq pul axını müsbətdirsə demək, proqnozu düzgün oxumağı bacarmısınız və müsbət pul axını mövcud strategiya və planlaşdırmanızın daha da uğurlu və tam yerinə yetirməyinizə kömək edəcək. Hər bir müəssisə müsbət pul axınını qorumalıdır, hətta bu yöndə riskləri belə gözə almalıdır. Müsbət pul axınının qorunması maliyyə idarəçiliyinə bağlılığı əks etdirir və müəssisə üçün müxtəlif faydalar təqdim edir. Müsbət pul axınının olması işinizdə istifadə edə biləcəyiniz bir çox üstünlüklər yaradır*: 1. Xərclərinizi asanlıqla ödəmək; 2. Sonsuz fürsətlər yaranır; 3.Ən pis vaxtda sağ qalmaq mümkün olur; 4. İşçilərin əmək haqlarını vaxtında ödəmək üçün kifayət qədər nağd pulunuz olur; 5. Müəssisə üçün yeni avadanlıq almaq və ya mövcud bir xidməti təkmilləşdirmək imkanınız olur; 6.Müsbət pul axını işinizin necə inkişaf etdiyi və böyüdüyünə dair sizə daha çox azadlıq verir və s.* bunun kimi bir çox nüansları saymaq olar. Müsbət pul axını hər zaman olmur, əksinə olaraq mənfi pul axını o deməkdir ki, nəinki sizin heç bir şeyiniz qalmayıb, hətta borclarınızı ödəmək üçün kifayət qədər pulunuz yoxdur. Yaranmış boşluğu doldurmaq üçün başqa mənbələrdən pul çəkməyə məcbur qalırsınız. Bu şəxsi maliyyə, borc götürmək və ya müəssisənin səhm hissələrini satmaqla kapitalı artırmaq ola bilər. Mənfi pul axınının ümumi səbəblərinə düzgün olmayan maliyyə planlaşdırması və pul axını proqnozu, həddindən artıq xərləmə, planlaşdırılmadan həddindən artıq borc göürmə və əlavə xərclər və rəqabət, bazar dəyişikliyi, rəqabət və təbii fəlakətlər səbəb ola bilər. Mənfi pul axını, işinizin daxil olan pula nisbətən daha çox pul xərcləməsidir. Yalnız satışdan xərclərinizi ödəyə bilməzsiniz. Bunun əvəzinə, fərqi ödəmək üçün investisiyalardan və maliyyələşdirmədən pul lazımdır. Mənfi pul axını yeni müəssisələr üçün adi haldır. Ancaq uzunmüddətli mənfi pul axını olan bir işi davam etdirə bilməzsiniz. Xərcləri ödəmək üçün kifayət qədər qazanc əldə edə bilmirsinizsə, zaman keçdikcə vəsaitiniz tükənəcək. Uzun müddətli mənfi pul axını işinizin maliyyə vəziyyətinə

zərərlidir. Ancaq reallıq budur ki, hər ay qazanc əldə etmək çətindir. Hətta ən tanınmış və müvəffəqiyyətli şirkətlər belə hər ay pozitiv qalmaq üçün mübarizə aparırlar. Bəzi şirkətlər gələcəkdə daha yüksək gəlir əldə etmək üçün pul itirə və mənfi pul axınını təşviq edə bilər. Pul axınının idarə edilməsi gəlir və mənfəətin, həmçinin, xərc və zərərin nəzarəti qədər kritik və dərin olmalıdır. Onları ciddiyə almasanız mənfi pul axını işinizin müvəffəqiyyətini və davamlılığını təhlükəyə atacaqdır.

**Ədəbiyyat siyahısı:**


1. Economictimes.com
2. Ə.A.Sadıqov, T.Ə.Sadıqov, Ş.Ə.Cəfərova, C.Ə.Sadıqov – "Mühasibat uçotu" Bakı 2012
3. Mühasib.az
4. "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" adlı 7№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı
5. F3 – Mühasibat uçotu 2012


## ПОЛОЖИТЕЛЬНЫЙ И ОТРИЦАТЕЛЬНЫЙ ПОТОК ДЕНЕГ


**А.Ш.Мамедов**
**Азербайджанский Технологический Университет**
**afiyddinmdov@gmail.com**



**Резюме:** Основная цель этой статьи - обсудить преимущества и недостатки денежного потока для предприятия и причины возникновения этого денежного потока. Наличие денежного потока является одним из важных условий устойчивости предприятия, и этот денежный поток отражается в кассовом отчете. Можно сделать вывод, что одним из краеугольных камней предприятия является правильное, точное, полное, своевременное и бесперебойное ведение учета в отчете о движении денежных средств.


## POSITIVE AND NEGATIVE MONEY FLOW


**A.SH.Mammadov**
**Azerbaijan Technological University**
**afiyddinmdov@gmail.com**



**Summary:** The main purpose of this article is to discuss the advantages and disadvantages of a cash flow for an enterprise and the reasons for the cash flow. Cash flow is one of the important conditions for the sustainability of the enterprise and the cash flow is reflected in the Cash Report. It can be concluded that one of the cornerstones of the enterprise is the correct, accurate, complete, timely and uninterrupted accounting in the cash flow statement.

# İNNOVATİV YANAŞMA ƏSASINDA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MARKETİNQ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**dos R.Ş.Şükürov, Ü.C.İsmayılova**

**Azərbaycan Texnologiya Universiteti**

Müasir dövrdə əmtəə bazarlarında rəqabətin kəskinləşməsi şəraitində ölkələrin dünya iqtisadi sisteminə inteqrasiyası, milli bazarların beynəlxalq ticarət üçün açıqlığı güclənir, əmtəə bazarları iri kompaniyaların, maliyyə qruplarının əlində cəmləşir və belə bir şəraitdə sahibkarlıq subyektləri rəqabətqabiliyyətli olmaq, innovasiya strategiyalarından daha geniş istifadə etmək məcburiyyətində qalırlar. Sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətində marketinqin tətbiqi bütün fəaliyyət istiqamətləri üzrə yaradıcı yanaşma tətbiq olunmasını tələb edir, istehsal texnologiyasını təkmilləşdirmək və rəqabətqabiliyyətli məhsul istehsal etmək üçün daima yeni ideyalarin meydana gəlməsinə, onların praktikaya tətbiq olunmasına yönəldir. Müasir marketinq innovasiya fəaliyyətində ənənəvi yanaşmalarla yanaşı, kreativ yanaşmaların da tətbiqini və uzlaşmasını nəzərdə tutur, innovasiya fəaliyyətində daha səmərəli strategiyalar tətbiq etməklə həyata keçirilməsini təmin edir. Dünya iqtisadiyyatında baş verən mütərəqqi dəyişikliklər, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı, bununla əlaqədar qloballaşma proseslərinin güclənməsi milli iqtisadiyyatların formalaşması və inkişafında innovasiya strategiyalarından istifadənin əhəmiyyətini və rolunu xeyli artırır, müəssisələr tərəfindən innovasiya strategiyalarının tətbiqi zərurət təşkil edir, bu məsələ müəssisələrin qarşısında duran ən vacib məsələlərdən birinə çevrilmişdir. Əmtəə bazarlarında rəqabət şəraitindən asılı olaraq rəqabətin dörd tipini fərqləndirirlər: təkmil rəqabət, inhisarçı rəqabət, oliqapolik rəqabət və xalis inhisarçılıq". Hər bir rəqabət tipinin xarakterindən asılı olaraq müəssisələrin fərqli bazar davranışları formalaşır. Sahibkarlıq subyektlərinin rəqabət mühiti ətraf mühit amillərinin təsiri altında formalaşır Firmanın bazar müvəffəqiyyəti rəqabət mühitini düzgün müəyyənləşdirərək öyrənməkdən və ona uyğunlaşmaqdan asılıdır. Əmtəə bazarlarında rəqabətin mövcudluğu sahibkarlıq subyektləri tərəfindən innovativ inkişaf strategiyalarından istifadəni zərurətə çevirmişdir. Müəssisələr innovasiya fəaliyyətinin həyata keçirilməsində marketinq strategiyalarından daha geniş istifadə etməyə başlamışlar. Hər bir ölkənin iqtisadi inkişafı onun sahibkarlıq subyektlərinin, xüsusəndə sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyindən, innovativ inkişafı təmin etməsindən çox asılıdır. Azərbaycanın sənaye müəssisələrinin innovasiya fəaliyyəti onların innovasiya aktivliyinin zəif olması ilə xarakterizə olunur. Bunun da bir sıra səbəbləri mövcuddur. Azərbaycanda sahibkarlıq subyektlərinin innovasiya fəaliyyəti daha çox istehsal sferasında fəaliyyət göstərən müəssisələrlə xarakterizə olunur. Ölkənin sənaye müəssisələrinin innovativ inkişafının təmin edilməsi onların yüksək mənfəət əldə etmələrinə imkan yaradır, bu da öz növbəsində müəssisələrin və ümumilikdə ölkə iqtisadiyyatının inkişafını təmin edir. Bu baxımdan, istehsal müəssisələrinin, xüsusən də, sənaye müəssisələrinin innovasiya fəaliyyəti onların iqtisadi inkişafında vacib rol oynayır. Sahibkarlıq subyektlərinin innovativ inkişafının təmin edilməsində onların malik olduqları innovasiya potensialı və onun qiymətləndirilməsi, innovasiya fəaliyyətinin formalaşmasına təsir göstərən ətraf mühit amillərinin təhlil məsələləri olduqca mühüm əhəmiyyət kəsb edir. Bu zaman marketinq metodlarından istifadə olunması ən səmərəli yanaşma hesab olunur. etməsindən çox asılıdır. Azərbaycanın sənaye müəssisələrinin innovasiya fəaliyyəti onların innovasiya aktivliyinin zəif olması ilə xarakterizə olunur. Bunun da bir sıra səbəbləri mövcuddur. İlk növbədə yerli müəssisələr arasında rəqabətin zəif olmasını qeyd etmək olar. Ölkədə konkret məhsul istehsalı ilə demək olar ki, bir və ya iki müəssisə məşğul olur. Bu səbəbdən də yerli istehsalçı müəssisələr bir çox hallarda inhisarçı mövqeyə malik olurlar. Bunun nəticəsidir ki, həmin müəssisələr fəaliyyət göstərdikləri əmtəə bazarlarında rəqabət aparmaq məcburiyyətində qalmırlar və rəqabət aşağı səviyyədə formalaşır. Yerli sahibkarlıq subyektlərinə, xüsusən də, istehsalçı müəssisələrə dövlət yardımı məqsədilə bəzən onların istehsal etdikləri məhsulların idxalına məhdudiyyətlər qoyulur, bəzən isə idxal rüsumlarının dərəcələri artırılır. Belə tədbirlər yerli sahibkarlıq subyektlərini idxal olunan məhsulların təsirindən və rəqabətindən qoruyur. Bütün bunların nəticəsidir ki, ölkənin əmtəə bazarlarında rəqabət zəifləyir, Bazarlarda rəqabətin zəif olması isə öz növbəsində müəssisələrin innovasiya aktivliyinin aşağı

səviyyədə formalaşmasına səbəb olur. Hal-hazırda dünyada yeni bir iqtisadiyyat formalaşır, onun bir çox yeni xüsusiyyətləri meydana gəiir və belə xüsusiyyətlər kimi bazarların iri kompaniyaların əlində cəmləşməsini, rəqabətqabiliyyətli istehsalın yaranmasında maliyyə resurslarının təsirinin artmasını, müəssisələrin dayanıqlı və stabil inkişafında bankların və maliyyə təşkilatlarının rolunun yüksəldilməsini göstərmək olar. Beynəlxalq bazarlarda, informasiya və kommunikasiya sistemində baş verən ciddi dəyişikliklər, müəssisələrin innovasiya fəaliyyətində marketinqin rolunu xeyli artırır. Bazarda o müəssisələr daha çox uğur qazanırlar ki, onlar innovasiyadan, elmi texniki tərəqqinin son nailiyyətlərindən, idarəetmənin bazar konsepsiyası kimi marketinqin müasir prinsiplərindən və metodlarından daha geniş istifadə edirlər. Dünya iqtisadiyyatında baş verən mütərəqqi dəyişikliklər, sahibkarlıq subyektlərinin innovativ inkişafında marketinqin əhəmiyyətini və rolunu xeyli artırır, onun tətbiqinin daima təkmilləşdirilməsini tələb edir. Bununla əlaqədar olaraq sahibkarlıq subyektlərində innovasiya fəaliyyətinin idarə edilməsinin təşkilati-iqtisadi müxanizmlərinin təkmilləşdirilməsi zərurəti yaranır. Beləliklə, aparılan tədqiqat əsasında əldə edilən nəticələr aşağıdakı təklifləri söyləməyə əsas verir: - sahibkarlıq subyektləri tərəfindən innovativ inkişafın təmin edilməsində marketinq konsepsiyasından geniş istifadə edilməsi məqsədəuyğundur; - sahibkarlıq subyektlərinin innovativ inkişafında innovasiya potensialının qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir və bu səbəbdən də onun qiymətləndirilməsində marketinq metodlarından istifadənin ən səmərəli yanaşma kimi tətbiq edilməsi məqsədəuyğundur.

**Ədəbiyyat siyahısı:**

1.Atakişiyev M.C. , Süleymanov Q.S. İnnovasiya menecmenti, Bakı, 2004, 132 s.
2.Eminov N. İnnovasiya yönümlü iqtisadiyyat: formalaşması və inkişaf problemləri. Bakı "Elm" 2012, 328 s.
3."Müəssisələr haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı 1996.
4."Sahibkarliq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı 1996.
5.Yüksək Texnologiyalar Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı 05 noyabr 2012

## ОЦЕНКА МАРКЕТИНГОВОГО ПОТЕНЦИАЛА СУБЪЕКТОВ ПРЕДПРИНИМАТЕЛЬСТВ НА ОСНОВЕ ИННОВАЦИОННОГО ПОДХОДА

**Р.Ш.Шукуров, Ю.Ч.Исмаилова**
**Азербайджанский Технологический Университет**

**Резюме:** В данной работе исследованы экономические основы и рыночные принципы инновационного развития субъектов предпринимательства, отмечено место и роль маркетинга в их инновационной деятельности. Анализированы маркетинговые факторы, влияющие на инновационное развитие. Также в работе осуществлено исследование применение маркетинга инновационной деятельности субъектов предпринимательства в Азербайджане, подробно исследованы методы маркетинга при оценке инновационного потенциала предприятия. На основе маркетингового подхода изложены вопросы применения стратегий инновационного развития в деятельности субъектов предпринимательства и их постоянного совершенствования.

## ASSESSMENT OF BUSINESS ENTITIES MARKETING POTENTIAL ON THE INNOVATIVE APPROACH BASIS

**R.SH.Shukurov, U.C.İsmayılova**
**Azerbaijan Technological University**

**Summary:** In this research work studies the economic basics and market principles of the innovative development of the entrepreneurship units and notes the place and role of the marketing in their innovative activity and analyses the marketing factors affecting the innovative development. The work also carries out the research of the entrepreneurship units in Azerbaijan and studies in detail the marketing methods of the assessment of the innovative potential of the enterprise. It interprets the matters of the application of innovative development strategies in and constant improvement of the entrepreneurship units on the basis of marketing approach.

# SAHİBKARLIQ STRUKTURUNUN RƏQABƏTQABİLİYYƏTİ ANLAYIŞI

**magistr C.A.Allahverdi**
**Azərbaycan Texnologiya Universiteti**
**arzu.cavid@yahoo.com**

Bazar münasibətlərinin inkişafının indiki dövründə heç bir müəssisə həm bazardakı rəqabətçi mövqeyini, həm də məhsulların, malların və xidmətlərin rəqabət qabiliyyətini qiymətləndirmədən işləyə bilməz. Müxtəlif üsul və rəqabət formalarına baxmayaraq, hər bir müəssisə bazarda uğur qazanmaq üçün öz rəqabət strategiyasını, öz rəqabət üstünlüklərini inkişaf etdirməyə çalışır.

Rəqabət latınca «Konkurentia» sözündən əmələ gəlmiş və hər hansı bir fəaliyyət sahəsində kiminləsə üz-üzə gəlmək, toqquşmaq mənasını verir [3]. Rəqabət, müəssisələri məhsulların, malların və xidmətlərin keyfiyyətini artırmağa, istehsal xərclərini azaltmağa və əmək məhsuldarlığını artırmağa məcbur edən ən güclü qüvvə kimi çıxış edir.

İqtisadçılar və mütəxəssislər rəqabət anlayışına müxtəlif mövqelərdən və aspektlərdən yanaşmağa üstünlük verirlər. Bunlar içərisində məşhur amerika iqtisadçısı M.Porterin rəqabət nəzəriyyəsi beynəlxalq aləmdə daha geniş tanınmışdır. Onun fikrinə görə rəqabət strategiyası konkret sahənin strukturunun və onun strukturunda baş verən dəyişmə proseslərinin anlaşılmasına əsaslanmalıdır [1].

Rəqabətqabiliyyətinin təhlili bazarın öyrənilməsinin ən vacib komponentlərindən biridir, çünki bu, müəssisənin mövcudluğu üçün strategiya və taktikaların işlənib hazırlanmasında, həmçinin texnoloji səviyyənin və keyfiyyətin yüksəldilməsi üçün ən yaxşı yolun seçilməsində həlledici əhəmiyyətə malikdir.

Rəqabət nəzəriyyəsinin əsas meyarlarını öyrənməzdən əvvəl sahibkarlıq fəaliyyətinin subyektini müəyyən etmək lazımdır. Sahibkarlıq fəaliyyətinin əsas subyekti sahibkardır. Ədəbiyyatlarda olan sahibkarlıq haqqında müxtəlif fikirləri ümumiləşdirsək, belə nəticəyə gələ bilərik ki, sahibkarlıq bazar subyektləri tərəfindən həyata keçirilən müxtəlif fəaliyyət sahələrində azad iqtisadi idarəetmədir. Qanuna əməl edən bütün sahibkarlıq növlərinə icazə verilir. Mülkiyyət növündən və təşkilati-hüquqi bazasından asılı olmayaraq, bütün sahibkarlıq növləri bərabər hüquqlara malikdir.

Sahibkarlıq cəmiyyətin sosial-iqtisadi həyatının mərkəzi funksiyalarından biridir və onun fəaliyyətinin hərəkətverici motivi son nəticədə gəlir əldə etmək imkanıdır [2].

Bundan əlavə, Azərbaycan qanunvericiliyində sahibkar aşağıdakı kimi müəyyən edilir: - fərdi sahibkar - sahibkarlıq fəaliyyətini həyata keçirən və müəyyən edilmiş qaydada qeydiyyata alınmış bir şəxs; - təşkilat (hüquqi şəxs). Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi rəqabət şəraitində fəaliyyət göstərməyi nəzərdə tutur və sahibkarlıq subyektindən bazarın müəyyən etdiyi rəqabətqabiliyyətlilik səviyyəsini qorumağı tələb edir.

Rəqabətin müxtəlif növləri, formaları və səviyyələrinin təsnifatı bazarda istehsalçıların sayından və xüsusi çəkilərindən asılıdır. Müvafiq olaraq, mükəmməl (azad) və qeyri-mükəmməl olmayan rəqabətlər də fərqləndirilir [4].

Rəqabətqabiliyyəti nisbi anlayışdır və rəqiblərlə müqayisə edilməklə müəyyən olunur. Rəqabətlilik müxtəlif səviyyələrdə formalaşır: məhsul və ya xidmət, şirkət, sənaye, bölgə, ölkə.

Rəqabətqabiliyyətini iki yerə bölmək olar:

a) aktiv rəqabət qabiliyyəti;
b) passiv rəqabət qabiliyyəti.

Aktiv rəqabət qabiliyyəti firmaların xarici mühitə təsir göstərmələri, passiv rəqabət qabiliyyəti isə xarici mühitə uyğunlaşmaları deməkdir [3].

Müasir mütəxəssislər aşağıdakı rəqabət səviyyələrini fərqləndirirlər: makro səviyyə - bütün iqtisadi sistemin işləməsi üçün əsas şərtləri müəyyənləşdirir; mezo səviyyə - bir qrup müəssisəni əhatə edən bir sənayenin və ya şirkətin inkişaf perspektivlərini təşkil edir; mikro səviyyə - burada rəqabət qabiliyyəti, sanki malların qiyməti və keyfiyyəti nisbəti şəklində son formasını alır.

Ölkənin rəqabətqabiliyyətliliyi bir-biri ilə qarşılıqlı təsirdə və asılılıqda olan 4 əsas amillə müəyyən olunur:

- istesal amilləri şəraiti ilə; - tələb şəraiti ilə; - xidmət və ona yaxın olan sahələrin vəziyyəti; - konkret situasiyaya uyğun firmanın strategiyası ilə [1]:

Hər hansı bir sahibkarlıq strukturunun rəqabət qabiliyyətinə həmçinin daxili və xarici amillərin birləşməsi də təsir göstərir. Xarici amillər iki qrupa bölünür: birbaşa və dolayı təsir. Birbaşa xarici amillərə aşağıdakılar daxildir: səhmdarlar, rəqiblər, təchizatçılar, istehlakçılar, yerli və federal orqanlar. Dolayı təsirlərin xarici amilləri bunlardır: siyasət, texnologiya, hüquq, iqtisadiyyat, sosial-mədəni amillər, fiziki və coğrafi şərtlər.

Sahibkarlıq fəaliyyətinin təşkili sahəsində yalnız bir metodun tətbiqi, sahibkarlıq strukturunun vəziyyətini və potensial imkanlarını adekvat qiymətləndirmir. Daha dəqiq və obyektiv qiymətləndirmə üçün mövcud metodları birləşdirmək lazımdır. Analitik və qrafik metodların müxtəlif yanaşmaların üstünlükləri və çatışmazlıqları nəzərə alınmaqla birlikdə istifadəsi müəssisənin rəqabət məkanında həqiqi mövqeyini qiymətləndirməyə və rəqiblərə nisbətən dərəcələndirməyə imkan verir.

Bir qayda olaraq, rəqabətin metodları aşağıdakılar üzrə qruplaşdırılır:

1. Əmtəənin keyfiyyətinin yüksəldilməsi meyarı əsasında (qeyri qiymət rəqabəti metodları).
2. Əmtəə ilə əlaqədar servisin (xidmətin) keyfiyyətinin yüksəldilməsi əsasında.
3. Qiymətin endirilməsi əsasında (qiymət rəqabəti metodları).
4. Əmtəə istehlakçılarının istehlak - istismar xərclərinin aşağı salınması əsasında.
5. İdarəetmənin keyfiyyətinin yüksəldilməsi əsasında.
6. Obyekt və subyektin bütün rəqabət üstünlüklərindən istifadə edilməsi əsasında (rəqabətin inteqral metodları) [4].

**Açar sözlər:** rəqabət, rəqabətqabiliyyətlilik, sahibkarlıq, sahibkarlıq strukturu

**Ədəbiyyat siyahısı:**

1. "Competitive Strategy" Michael E.Porter. June-1998
2. "İri sahibkarlıq strukturları" H.S.Həsənov. Bakı, Azərnəşr, 2007, 276 səh.
3. "Marketinq" O.Q.Məmmədli, Ş.N.Xurşudov, F.İ.İsmayılov, R.R.İbrahimova, G.S.Turabova. Ali məktəblər üçün dərslik. Bakı, "Ecoprint", 2016, 400 səh.
4. «Маркетинг» (учебник) Н.Гаджиева. Баку, Издательство «Кооперация», 2014.
5. "Rəqabət və marketinq» (monoqrafiya) İ.M.Abbasov, Z.M.Məmmədova, E.N.Quliyev. Bakı Biznes Universitetinin nəşri, 2012, 157 səh.https://az.wikipedia.org

## КОНЦЕПЦИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ СТРУКТУРЫ

**мастер Д.А.Аллахверди**
**Азербайджанский Технологический Университет**
arzu.cavid@yahoo.com

**Резюме:** В статье рассматриваются теоретико-методологические критерии конкурентоспособности и эффективность бизнес-структуры, сущность и характеристика понятия «конкурентоспособность». В статье описаны виды, факторы и методы обеспечения конкурентоспособности.

**Ключевые слова:** конкуренция, конкурентоспособность, предпринимательство, бизнес-структура.

## THE CONCEPT OF COMPETITIVENESS OF THE ENTREPRENEURIAL STRUCTURE

**master J.A.Allahverdi**
**Azerbaijan Technological University**
arzu.cavid@yahoo.com

**Summary:** The article discusses the study of theoretical and methodological criteria of competitiveness and efficiency of business structure. The definition of the essence and characteristics of the concept of "competitiveness" is considered. The article describes the types, factors and methods of competitiveness.

**Keywords:** competition, competitiveness, entrepreneurship, business structure

# ŞƏBƏKƏ İNFRASTRUKTURUNUN QURULMASI, CİSCO SİSTEMİ

**k.f.d. C.M.Əliyeva, magistr R.H.Salehov, magistr S.R.Həsənova**
**Azərbaycan Texnologiya Universiteti**
**reshad.salehov@gmail.com**

Şəbəkə dedikdə ilkin olaraq dünya miqyasında internet infrastrukturunda və korporativ şəbəkələrdə istifadə olunan aktiv cihazların (switch (çevirici), router (marşrutlaşdırıcı), firewall (müdafiə divarı), İP telefon, İDS&IPS və b. cihazların istifadəsi nəzərdə tutulur ki, bu cihazların da 80%-dən çoxu CİSCO firması tərəfindən hazırlanmışdır.

Cisco Amerikanın Kaliforniya Ştatında San Jose-də mərkəzi olan şəbəkə avadanlıqlarını inkişaf etdirən və satışını həyata keçirən transmilli şəbəkə şirkətidir. Cisco, router-lər (marşrutlaşdırıcılar) - kompüter trafikini bir şəbəkədən digərinə yönləndirən cihazların dizaynını və satışını həyata keçirən ilk şirkət olmasa da, zamanla uğurlu və çox protokollu router yaratdı. Bu cihaz əvvəllər kompüterlərin fərqli şəbəkə protokollarından istifadə etmələrinə baxmayaraq bir-birləri ilə əlaqə qura bilməsinə imkan verirdi.

Sonrakı dövrlərdə Cisco IP telefonlar, korporativ IP ATS-lər və ümumi istifadəyə verilən telefon şəbəkəsi şlüzləri ilə IP telefoniya bazarına daxil oldu.

Hal-hazırda isə şirkət müştərilərinə şəbəkə avadanlıqlarının tam çeşidini təqdim etməklə bütün zəruri şəbəkə avadanlıqlarını yalnız Cisco Systems-dən almaq imkanı verir. Cisco Systems bu gün dünyanın ən böyük yüksək texnoloji şirkətlərindən biri olmaqla yanaşı həmçinin özünü "İnternet şəbəkəsində dünya lideri" adlandırır.

Cisco Systems kompüter şəbəkəsi mühəndisləri üçün çox yüksək səviyyəli bir sertifikatlaşdırma sistemi yaradıb. Bu sistemin imtahanları yalnız Cisco məhsulları ilə bağlı deyil, həm də şəbəkə texnologiyaları və protokolları haqda məlumatları da əhatə edir.

Məhz bu səbəbdən dünyanın bir çox təşkilat və şirkətlərində şəbəkə avadanlığı üzərindən işləyən mütəxəssislər Cisco peşəkar sertifikatlarının dəyərini yüksək qiymətləndirirlər.

İnternetə rahat bir şəkildə qoşulmaq üçün bir çox şəbəkə cihazlarina ehtiyac vardır. Cisco, bu cihazların hazırlanmasını təmin edir. Həmçinin Firewall (Təhlükəsizlik divarı) sistemi sayəsində internetdən gələ biləcək təhlükələrə qarşı müdafiə sistemi də yaradır.

Cisco Şəbəkə Akademiyası Proqramı, tələbələrə qlobal iqtisadiyyatda tələb olunan İnternet texnologiyaları biliklərini təqdim edən hərtərəfli bir elektron təhsil proqramıdır. Şəbəkə Akademiyası proqramına veb əsaslı materiallar, qiymətləndirmə vasitələri, praktik laboratoriyalar və sənayedə tanınmış peşəkar sertifikatlar üçün hazırlıq kursları daxildir.

Cisco Şəbəkə Akademiyası 1997-ci ilin oktyabrında ABŞ-da yeddi əyalətdəki 64 təhsil müəssisəsindən quruldu və hazırda dünyada 168-dən çox ölkəsində tədris olunur. Proqramın başlanğıcından bəri 1,6 milyondan çox tələbə məktəblərdə, texniki məktəblərdə, kolleclərdə, universitetlərdə və ictimai təşkilatlarda yerləşən 10 mindən çox akademiyada qeydiyyatdan keçmişdir.

Akademiyanın infrastrukturu dünyanın dörd bir tərəfindəki tələbələrə zəngin, interaktiv və fərdi tədris proqramı təqdim etməyə imkan verir. İnternetin öyrənmə və işləmə tərzimizi dəyişdirmə kimi bir potensialı vardır ki, Cisco Şəbəkə Akademiyası proqramı da bu məsələnin önündə olmaqla savadlı mütəxəssislərin əsaslı hazırlanmasına yönəlmişdir. Cisco Şəbəkə Akademiyaları İT sənayesi ilə təhsil müəssisələri arasında qarşılıqlı və faydalı əməkdaşlıq nümunəsidir. Cisco Şəbəkə Akademiyalarının tələbələri günü-gündən texnologiyaya bağlı olan bir iqtisadiyyatda işləmək üçün lazımi bilik və bacarıqları əldə edirlər.

Cisco insanların ünsiyyət və iş birliyini dəyişdirən şəbəkə sahəsində qlobal bir liderdir. Cisco Şəbəkə Akademiyası proqramı daim öyrənmə və məsafədən təhsil standartlarını artırır. Akademiyanın proqramı daim təhsilin müvəffəqiyyətini və tələbə nailiyyətlərini yaxşılaşdırmaq üçün təkmilləşdirilir. Akademiyanın infrastrukturu dünyanın dörd bir tərəfindəki tələbələrə zəngin, interaktiv və fərdi tədris proqramı təqdim etməyə imkan verir.

Cisco Şəbəkə Akademiyası proqramı təhsil müəssisələrinin məhdud resurslarını əhəmiyyətli dərəcədə tamamlayan virtual texnoloji dəstək və bu sahədə xüsusi imkanlar təqdim edir.

Cisco insanların ünsiyyət və iş birliyini dəyişdirən şəbəkə sahəsində qlobal bir liderdir.

Bu proqram ixtiyari topologiyalarda müxtəlif protokolların dəstəyi ilə, eləcə də müxtəlif avadanlıqlarla şəbəkələr qurmağa və təhlil etməyə imkan verir. Cisco Packet Tracer-in vizual rejim kimi bir xüsusiyyəti sayəsində istifadəçi məlumatların şəbəkə üzərindəki hərəkətini, məlumatların şəbəkə cihazlarından keçərkən IP paketlərinin görünüşünü və parametrlərinin dəyişməsini, IP paketlərinin sürətini və yollarını izləyə bilər.

Cisco Packet Tracer-də yeni bir şəbəkə layihəsi yaratmaq buna oxşar proqramlara nisbətdə xeyli az vaxt aparır və kompüterdə yüklənməsi sadədir.

Bir sözlə, Cisco Packet Tracer Cisco avadanlıqları haqqında praktik bilgilərə sahib olmaq üçün virtual laboratoriyadır.

**Açar sözlər:** şəbəkə avadanlıqları, router, elektron təhsil, internet texnologiyaları.

## ПОСТРОЕНИЕ СЕТЕВОЙ ИНФРАСТРУКТУРЫ, СИСТЕМА CISCO

**к.х.н. Д.М.Алиева, магистр Р.Х.Салехов, магистр С.Р.Гасанова**
**Азербайджанский Технологический Университет**
**reshad.salehov@gmail.com**

**Резюме:** Система Cisco позволяет строить и анализировать сети с поддержкой различных протоколов, а также различного оборудования. Создание нового сетевого проекта с помощью этой программы занимает очень мало времени и легко устанавливается на ваш компьютер.

## BUILDING A NETWORK INFRASTRUCTURE, CISCO SYSTEM

**P.h.d J.M.Alieva, master R.Kh.Salekhov, master S.R.Qasanova**
**Azerbaijan Technological University**
**reshad.salehov@gmail.com**

**Summary:** The Cisco system allows you to build and analyze networks with support for various protocols, as well as various equipment. Creation of a new network project with this program takes very little time and is easily installed on your computer.

# ƏMTƏƏNİN İRƏLİLƏDİLMƏSİNDƏ İNTERNET RESURSLARINDAN İSTİFADƏNİN ROLU

**dos. V.M.Ramazanov, C.R.Camalzadə**
**Azərbaycan Texnologiya Univeristetinin**
**Camilacamalzada@gmail.com**

Müasir dövrümüzdə əmtəə inkişafının əsas problemi məhsulun qıtlığı deyil, istehlakçı qıtlığıdır. Demək olar ki, bir çox şirkətlər istehsalçının almaq iqtidarında olduğundan çox məhsul istehsal edə bilir. Buna səbəbsə rəqib şirkətlərin məhsul satışlarını daha da artırmaq istəkləridir. Rəqib şirkətlər satış faizini artırmağa çalışarkən bazarın böyüməsi azalır və durğunluq yaranır. Durğunluğu aradan qaldırmaq üçünsə qiymətlər aşağı salınır.

Marketinqin bir çox prinsipləri dəyişilməz qalsada əmtəənin irəlilədilməsinə nail olmaq üçün istifadə olunan alətlər zaman keçdikcə çox dəyişir. Istehsalın gücləndiyi və istehlakçıların tələbatının artdığı bir dövürdə digər prinsplərdən istifadə mühimdir. Müasir dövürdə TV-də reklam, reklam plakatları, satışın sitimullaşdırılması öz mənasını itirməyib. Ancaq son illərdə yeni texnologiyalar, rəqəmsal cihazlar və sosial mediya marketinq biznesində böyük dəyişiliklər edir. Firma sahibləri təkcə tv,radio reklamlarıyla deyil sosial mediya və digər rəqəmsal marketinq vasitələriylə də öz auditoriyalarıyla online əlaqə qururlar. Son 2 ildə yaşadığımız Covid-19 pandemiya dövründə demək olar ki online aliş-veriş daha çox canlandı və rəqəmsal marketinq taktikası biznesin ayrılmaz bir hissəsinə çevrildi. Rəqəmsal marketinq təkcə alış-veriş üçün deyil, online təhsil, tədris xidmətlərində də ötürmə vasitəsinə çevrilib. Əvvəllər sosial media yeni insanların tanışlığı üçün bir platforma idisə indi həm də məhsul reklamı platforması halına gəlib.Cədvəldə rəqəmlərdən göründüyü kimi, internet resurslarından istifadə 2020-ci ilə nisbətən 2021-ci ildə 210000 min, sosial şəbəkədən istifadən müqayisə olunan illərdə 600000 min, internetin artım nüfuzu müqayisə olunan illərə 1.1% və sosial şəbək istifadəçilərinin ümumi əhalinin sayına nisbət faizi isə 5.2% olmuşdur. Deməli, müqayisə molunan illərdə artım dinamikası yüksələn şkalayla öz əksini tapmışdır.

**Azərbaycanda ayrı-ayrı illər üzrə internet və sosial şəbəkədən istifadə**

| | **2020** | **2021** |
|---|---|---|
| İnternet resurslarından istifadə | 8.05 milyon | 8.26 milyon |
| Sosial şəbəkədən istifadə | 3.70 milyon | 4.30 milyon |
| Internetin artım nüfuzu | 80% | 81.1% |
| Sosial şəbəkə istifadəçilərinin ümumi əhalinin sayına nisbət faizi | 37% | 42.2% |

Statistik rəqəmlərdən də görünür ki internetdən istifadə hər il daha da artır və internet üzərindən əmtəənin irəlilədilməsi daha çox işə yarayar.

Hazırki iqtisadiyyat ənənəvi və yeni iqtisadiyyatın hibridləridir. İnkişafa doğru irəliləməyə çalışan kompaniyalar keçmişdə özünü doğrultmuş biliklərlə yetinmir həmdə yeni biliklərə ehtiyac duyur. Hazırki bazar ənənəvi istehlakçılardan (internet alış-verişndən istifadə etməyənlər), kiberistehlakçılardan (əmtəələri internet vasitəsilə əldə edənlər) və hibrid istehlakçılardan (həm ənənvi həm də internet vasitəsindən istifadə edənlər) ibarətdir. Demək olar ki, istehlakçıların əksəriyyəti hibrit istehlakçılardır. Beləliklə rəqəmsal marketinq yeni texnologiyaların daxilində marketinq sahəsinin bir qoluna çevrilib deyə bilərik

Internet biznesi kompaniyalara daha tez və daha az məsrəflərlə əlçatan olmasına kömək edir. Belə ki,internet üzərindən reklam kompaniyaları daha az məsrəflə başa gəlir. Firmalar web-saytları əmtəə və xidmətlərin irəlilədilməsi,informasiyanın tez yayılması məqsədiylə yaradırlar. Microsoft

şirkətinin sahibi Bill Qeyts bildirir ki,onun kompaniyası demək olar ki,tamamilə elektronika vasitəsiylə fəaliyyət göstərir; kağızlardan istifadə çox az əhəmiyyətə malikdir, belə ki, istənilən sənədi kompüterin monitorunda görmək mümkündür.

İnternet biznesindən danışarkən nəzərdə tutulmalıdır ki,istehlakçılar təkcə əmtəənin istehlak etmirlər həm də əmtəə haqqında informasiyaları digər istehlakçılara göndərirlər.İstehlakçılar online “chat”-larda informasiya mübadiləsi edirlər və qaçılmazdır ki yaxşı kompaniyalar haqqında informasiya tez yayıldığı kimi pis kompaniyalar haqqındainformasiya ondan da tez yayılır.

Müasir istehlakçılar web-saytlarda və e-ticarət mağazalarında məhsul haqqında informasiya oxuyarkən cəlbedici istifadəçi interfeysi və istifadəçi təcrübəsi gözləyirlər. İstehlakşıların təlabatlarını təmin etmək məqsədiylə kompaniyalar istehlakçılar üçün dəyərə malik olan təkliflərlə çıxış etməlidir. İstehlakçılar üçün tələbatı ödəyən həm də faydalı olan təkliflər uğur qazanar. Bu günkü dövürdə müəyyən nüfuza sahib şirkətlər web-sayta ehtiyac duyurlar. Web-saytın hazırlanması üçün hansısa web dizaynerin dizayn işlərinə baxıb ona həvalə etməzdən öncə istifadəçilərin fikirlərini dinləmək və onların nə istədiklərini,nəyə ehtiyac duyduqlarını dəqiqləşdirmək lazımdır.

**Açar sözlər**: Əmtəə, Rəqəmsal marketinq, yeni texnologiya,Web-saytların qurulması, internet biznesi.

**Ədəbiyyat siyahısı:**


1. Filip.K. Marketinq menecment.Ekspress-kurs.2-ci nəşir. Bakı 2010
2. Filip K. A-dan Z-yə Marketinq. Bakı QANUN nəşriyyat 2018.
3. https://datareportal.com/digital-in-azerbaijan
4. https://mailchimp.com/marketing-glossary/digital-marketing/#What_is_digital_marketing%3F
5. https://online.maryville.edu/blog/8-types-of-digital-marketing-for-promoting-a-business/
6. https://w.revistaespacios.com/a19v40n38/a19v40n38p24.pdf


## РОЛЬ ИСПОЛЬЗОВАНИЯ ИНТЕРНЕТ-РЕСУРСОВ В ПРОДВИЖЕНИИ ТОВАРОВ

**В.М.Рамазанов, Д.Р.Джамалзаде**
**Азербайджанский Технологический Университет**
**Camilacamalzada@gmail.com**

**Резюме:** Основная проблема товарного развития современности - не дефицит продуктов, а недостаток потребителей. Можно сказать, что многие компании могут производить больше продукции, чем производитель может себе позволить. Это связано со стремлением компаний-конкурентов увеличить продажи продукции. По мере того как конкурирующие компании пытаются увеличить продажи, рост рынка замедляется и наступает стагнация. Снижают цены, чтобы преодолеть рецессию.

**Ключевые слова:** Товары, цифровой маркетинг, новые технологии, разработка веб-сайтов, интернет-бизнес.

## THE ROLE OF USING OF INTERNET RESOURCE IN PRODUCT PROMOTION

**V.M.Ramazanov, J.R.Jamalzade**
**Azerbaijan Technological University**
**Camilacamalzada@gmail.com**

**Summary:** The main problem of commodity development in our time is not a shortage of products, but a shortage of consumers. It can be said that many companies can produce more products than the manufacturer can afford. This is due to the desire of competing companies to increase product sales. As rival companies try to increase sales, market growth slows and stagnation occurs. Prices are being lowered to overcome the recession

**Keywords**: Commodity, Digital Marketing, New Technology, Website Development, Internet Business.

# DÖVLƏT İDARƏÇİLİYİNİN XÜSUSİYYƏTLƏRİ

**T.T.Abbasov, K.A.Yahyayev**
**Azərbaycan Texnologiya Universiteti**

Bütün idarəetmə formaları içərisində dövlət idarəçiliyi xüsusi yer tutur.Dövlət idarəçiliyi dedikdə dövlətin öz hakimiyyət qüvvəsinə əsaslanaraq insanların ictimai həyat fəaliyyətini onu qaydaya salmaq, qoruyub saxlamaq və ya yenidən qurmaq nəzərdə tutulur.Əlbəttə, bu təriflər şərti və nisbətən məhdud xarakter daşıya bilər. Amma dövlət idarəçiliyinin belə müəyyən edilməsinin əsas müsbət cəhəti ondadır ki, dövlət idarəçiliyinin tamlığını, sistemliliyini, geniş əhatə dairəsini əks etdirən üç cəhət nəzərə alınıb:

1. Dövlətin sistemli təşkil olunmuş idarəetmə subyekti olması;
2. İnsanların ictimai həyat fəaliyyətinin idarəetmə təsirinə məruz qalması və bu təsiri qarşılıqlı surətdə qəbul etməsi;
3. Qarşılıqlı idarəetmə təsirinin özünün dövlətlə cəmiyyət arasında aktiv qarşılıqlı əlaqə yaratması.

Bu tərif dövlət idarəetməsinin çoxtərəfli təzahürünün nəzəri əsaslarını verməklə onu düzgün başa düşmək və praktiki istifadə etməyə imkan verir.

Dövlət idarəçiliyi cəmiyyətin idarə olunmasının mühüm formalarından biridir. Dövlət idarəçiliyinin onu başqa idarəetmə formalarından fərqləndirən bir sıra özünəməxsus xüsusiyyətləri vardır:

Birincisi, cəmiyyətin idarə olunması sistemində dövlət idarəçiliyinin məqsədyönlü, təşkiledici və tənzimləyici təsiri müəyyənedici xarakter daşıyır və hakimiyyətin gücünə əsaslanır. Doğrudan da dövlət ona görə dövlətdir ki, onun əlində insanlara qarşı dövlət hakimiyyəti - məcburetmə hakimiyyəti var. Məhz bu hakimiyyətlə insanlar müxtəlif vasitələrlə (iqtisadi, siyasi, sosial, informasiya) məcbur edilirlər ki, dövlətin onlar haqqında məqsədli, təşkiletmə və tənzimləmə fəaliyyəti həyata keçsin, onlar könüllü surətdə və ya məcburiyyətlə dövlət iradəsinin üstünlüyünü, birinciliyini qəbul etsinlər.

Dövlət idarəçiliyinin  ikinci spesifik xüsusiyyəti onun genişliyi və bütün cəmiyyətə şamil olması və yayılması, hətta bəzən dövlətin sərhədlərindən kənara çıxması, onun yeritdiyi beynəlxalq siyasət çərçivəsində başqa ölkələri də əhatə etməsidir. Hətta tarixə nəzər salsaq sərt idarəetmə forması olan odövlətlərdə təşəbbüslər çox vaxt müsbət nəticə verməmişdir

Dövlət idarəçiliyinin mühüm bir xüsusiyəti onun sistemli xarakter daşımasıdır.Dövlət idarəçiliyində dövlət orqanları bir-biri ilə sıx əlaqədə olmalı və mütəşəkkil fəaliyyət göstərməlidir.Əgər bu strukturların hər biri müstəqil fəaliyyət göstərib, öz məqsəd və vəzifələrini ayrılıqda, müstəqil reallaşdırmağa çalışsa, dövlət idarəçiliyi baş tutmaz, cəmiyyətdə özbaşınalıq, hərc-mərclik hökmranlıq edər, ölkə böyük itkilərə məruz qalar.

Dövlət idarəçiliyi üçün sistemlilik prinsipial əhəmiyyət kəsb edir. Ancaq sistemlilik dövlət idarəçiliyinə onun müxtəlif həlqələri arasında zəruri razılaşdırma, koordinasiya, subardinasiya, müəyyən məqsədyönlülük, səmərəlilik xarakteri verir.

## ОСОБЕННОСТИ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

**Т.Т.Аббасов, К.А.Яхьяев**
**Азербайджанский Технологический Университет**

**Резюме:** Среди всех форм правления государственное управление занимает особое место. Государственное управление означает, что государство, опираясь на свою власть, регулирует, сохраняет или восстанавливает общественную жизнь людей. Конечно, эти определения могут быть условными и относительно ограниченными.

## FEATURES OF PUBLIC ADMINISTRATION

**T. T.Abbasov., K.A.Yahyayev**
**Azerbaijan Technological University**

**Summary:** Among all forms of government, public administration has a special place. Public administration refers to the state's ability to regulate, maintain or rebuild people's public life based on its own power. Of course, these definitions can be conditional and relatively limited.

# AZƏRBAYCAN BƏLƏDİYYƏLƏRİNİN TARİXİ

**Ə.Əlizadə, F.O.Qənbərova**
**Azərbaycan Texnologiya Universiteti**

Avropa Şurasına üzv olan Azərbaycanda bütün maneələrə baxmayaraq, digər demokratik islahatlarla yanaşı, dövlət strukturlarında da islahatların keçirilməsi vacib məsələ kimi qarşıda durur. Bu sahədə beynəlxalq təcrübədən istifadə etməklə yerli özünüidarələrin problemlərinin qısa zamanda həlli mümkündür. Vətəndaşların yerli özünüidarənin beynəlxalq təcrübəsini öyrənməklə yanaşı, ölkə daxilində də toplanmış təcrübə ilə yaxından tanış olması mühüm əhəmiyyətə malikdir. Buna görə də Azərbaycan tarixinin az tədqiq olunmuş sahəsi olan 134 illik yerli özünüidarə tarixinin öyrənilməsi böyük aktuallıq kəsb edir.

"Bələdiyyə"- ərəb sözü olub mənası şəhər idarəsi deməkdir ki,inkişaf etmiş ölkələrdə bu məhfum eyni məna daşıyan "munisipolitet"formasında işlədilir.

Azərbaycan dövlətçiliyi tarixində şəhərlərin özünüidarəsinə dair müəyyən təcrübə toplanıb. Təəssüf ki, tariximizin bu mühüm sahəsi lazımınca tədqiq olunmayıbvə buna görə də çoxlarında belə təsəvvür yaranıb ki, yerli özünüidarə Azərbaycan təzə bir qurumdur və ancaq 1999-cu il dekabrın 12–dən formalaşmağa başlayıb. Lakin Azərbaycan tarixi ilə yaxından tanış olduqda bunun tamamilə əksini görürük. Azərbaycanda bələdiyyələrin tarixinə aid müxtəlif məqalələrlə yanaşı bir neçə mövzu yazılması buna sübutdur.

Bütün xalqların,ocümlədən Azərbaycan xalqının tarixini yaxından araşdırdıqda hələ qədim zamanlardan yerli özünüidarənin ilkin formalarını görə bilərik. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalına qədər arxların, yolların çəkilişində və digər yerli problemlərin həllində əhali tərəfindən seçilmiş ağsaqqalların rəhbərliyi ilə işlərin görülməsinə aid çoxlu sayda faktlar göstərmək olar.

Çarizmin müstəmləkə siyasətinin törətdiyi maneələrə baxmayaraq,Rusiyanın mərkəzi quberniyalarından 7 il sonra, yəni 1877-ci ilin dekabrında Bakıda Duma seçkilərinin sayı xristianlardan 6 dəfə çox olmasına baxmayaraq hər iki tərəf bərabər sayda,yəni 36 deputat seçmək hüququna malik idi. 72 deputatdan ibarət Bakı duması sərəncamverici orqan funksiyasını yerinə yetirirdi,onun icraedici orqanı isə bələdiyyə sayılırdı .

Dumaya və bələdiyyəyə eyni şəxs-şəhər başçısı rəhbərlik edirdi. O və bələdiyyə üzvləri duma tərəfindən 4 illik müddətə seçilir, qubernator tərəfindən təsdiq olunurdu. Əgər şəhər başçısını qubernator təsdiq etməsəydi, onda o, daxili işlər naziri tərəfindən təyin edilirdi.

1896-1897-ci illərdə Bakıdan sonra Yelizavetpol və Şuşada şəhər əsasnaməsi tam təsdiq olundu.Şamaxıda, Qubada,Lənkəranda, Nuxada, Naxçıvanda,Ordubadda isə məhdud şəhər idarəsi yaradılmaqla özünüidarə orqanları fəaliyyətə başladı.

Azərbaycan Xalq Cümhuruyyəti dövründə ölkənin daxili və xarici vəziyyətinin gərgin olmasına baxmayaraq 1918-ci il iyunun 22-də Gəncədə, iyulun 30-da isə bir sıra digər şəhərlərdə özünüidarə orqanlarının fəaliyyətini bərpa etmək haqqında qərar qəbul olundu.

Bakı və onun ətrafı 1918-ci il sentyabrın 15-də işğaldan azad edildikdən sonra Bakı, Lənkəran, Quba, Şamaxı və Salyanda bələdiyyələr bərpa edildi. Hökumət təkcə 1918-ci ildə kömək məqsədilə şəhər bələdiyyələrinə 7 milyon manat borc verdi. 1919-cu il 7 avqustda Azərbaycan parlamenti şəhər dumaları haqqında yeni əsasnamə qəbul etdi. Yeni əsasnaməyə görə yeri idarəçilik qərb ölkələrindəki demokratik idarəçiliyə uyğun olaraq təkmilləşdirilməli idi. Lakin sovet Rusiyasının təcavüzü nəticəsində bu iş yarımçıq qaldı.

Sovet hakimiyyəti illərində mərkəzdə olduğu kimi yerlərdə də hakimiyyət kommunist partiyasının rəhbərlik etdiyi sovetlərə məxsus olub. Kommunist rejimi dövründə Azərbaycanda yerli özünüidarə olmasada, bunun ilkin formaları müxtəlif şəkillərdə özünü büruzə verib.Yerli sovetlərin və mənzil istismar idarələrinin tərkibində problemlərin həllinə kömək göstərmək üçün təşkil edilmiş müxtəlif komissiyaları bura aid etmək olar.

Yerli özünüidarəetmə orqanlarının və idarələrinin hüquqi və faktiki statusunun müxtəlif aspektləri dünya ölkələrinin hüquqşünaslarının həmişə diqqət mərkəzində olmuşdur. Özünüidarəetmənin əsas institutuna dair yekdil qərar yoxdur və əslində ola da bilməz. Amma yerli hakimiyyət orqanlarının və idarələrinin fəaliyyətinin vacib formalarına mürəkkəb sabit baxışlar da mövcuddur.

Yerli özünüidarəetmə orqanı bilavasitə vətəndaşlar tərəfindən seçilən orqandır.

Yerli özünüidarəetmə orqanının icra hakimiyyətindən əsas fərqi ondan ibarətdir ki, birinci xalq tərəfindən seçilir, ikinci isə təyin olunur. Amma ədalət naminə ona da bildirməliyik ki, seçki hüququnun olması yerli özünüidarəetmə orqanının yeganə xüsusiyyəti və keyfiyyəti deyil. Beləki, yerli özünüidarəetmə orqanı yalnız seçilmir, o, həm də müəyyən səlahiyyətlər kompleksi, sərbəstlik və sairə real hüquqlara malik olmalıdır.

## ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКИХ МУНИЦИПАЛИТЕТОВ

**А.Ализаде, Ф.О.Ганбарова**
**Азербайджанский Технологический Университет**

**Резюме:** Несмотря на все препятствия в Азербайджане, являющемся членом Совета Европы, наряду с другими демократическими реформами, реформы в государственных структурах по-прежнему остаются важным вопросом. Используя международный опыт в этой области, можно в короткие сроки решить проблемы органов местного самоуправления.

## LOCAL EXECUTIVE AUTHORITIES

**A.Alizadeh, F.O.Ganbarova**
**Azerbaijan Technological University**

**Summary:** Despite all the obstacles in Azerbaijan, which is a member of the Council of Europe, along with other democratic reforms, reforms in state structures remain an important issue. Using international experience in this area, it is possible to solve the problems of local self-government in a short period of time.

# AZƏRBAYCAN İQTİSADİYYATINDA VERGİLƏRİN MÜƏSSİSƏNİN İQTİSADİ VƏZİYƏTİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**F.İ.İsmayılov, magistr G.Ş.Aydınlı**
**Azərbaycan Texnologiya Universiteti**
**gulcinaydin1999@gmail.com**

Müasir dövrdə Azərbaycan Respublikasının sosial iqtisadi inkşaf proqramının əsas istiqamətlərindən və iqtisad elminin qarşısında duran ən prioritet istiqamətlərdən biri vergi sisteminin təkmilləşdirilməsi, onun vasitəsi ilə müəyyən iqtisadi proseslərin tənzimlənməsi və beynəlxalq standartlara uyğun Vergi Məcəlləsinin müasirləşdirilməsindən ibarətdir. Bu baxımdan Milli iqtisadiyyatın inkşafı, tənzimlənməsi və stimullaşdırılmasının,daxili bazarın xarici təsirlərdən qorunmasının və büdcə gəlirlərinin formalaşdırılmasının həyata keçirilməsi səmərəli vergi siyasəti ilə əlaqədardır. Lakin vergi siyasətinin məqsədi yalnız dövlət büdcəsini gəlirlərlə təmin etmək deyil,həmçinin sosial iqtisadi inkişaf proqramlarını həyata keçirməklə şərtləndirilməlidir. Bu isə həmin sahədə elmi tətqiqat işlərinin aparılmasını labüd edir. Tətqiqat işində vergi sisteminin səmərəliliyinin artırılmasında dolayı vergilərin tətbiqi fiskal funksiyasının nəzəri əsaslandırılmış və vergi sisteminin səmərəliliyinə dair müasir metodları tətqiq edilmişdir. Son illər bu sahədə bəzi elmi tətqiqat işləri aparılmışdır ki bunların da əksəriyyəti mütərrəqi vergi sisteminin qurulması və təkmilləşdirilməsi, səmərəli vergi siyasətinin həyata keçirilməsi vergilərin iqtisadi mahiyyətinin araşdırılması ilə əlaqədar olmuşdur.Vergilərin yaranma tarixi qədim dövrlərə gedib çıxır. Bir çox ölkələrdə iqtisadiyyatın əksər sahələrinin texniki geriliyi və idarəetmə sisteminin antidemokratikliyi vergitutma sistemində deformasiyalara gətirib çıxarır. Vergitutma sisteminin belə vəziyyəti, tədiyyəçi üçün ağır yük olmaqla invesistiya proseslərini ləngidir və uğursuzlula nəticələnir. Respublikamızın bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar hal hazırda iqtisadiyyatın tənzimlənməsinin vergi metodlarından geniş istifadə olunur.Qeyd edək ki, uzun müddət inzibati amirlik iqtisadiyyatı şəraitində vergilər iqtisadiyyatın tənzimlənməsində başlıca vasitə olmamış onlardan yalnız fiskal alət kimi istifadə edilmişdir. Halbuki vergi dərəcələri, vergi güzəştləri iqtisadiyyata güclü təsir vasitəsi olmaqla, bütövlükdə geniş təkraristehsal prosesinin tənzimlənməsində əhəmiyyətli rol oyanır.

**Ədəbiyyat siyahısı:**

1. AR Konsitutsiyası. Bakı. Qanun.2018
2. AR Vergi Məlləsi. Bakı 2017.
3.AR Büdcə Sistemi haqqında qanun Bakl-2020.
4. Bakı-2017.ergi siyasətinin iqtisadi problemləri.
5. Damət Bağırov "Vergi Nəzarəti" dərsliyi Bakı-2019.

## ОЦЕНКА ВЛИЯНИЯ НАЛОГОВ НА ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ ПРЕДПРИЯТИЯ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА

**Ф.И.Исмайлов, Г.Ш.Айдынлы**
**Азербайджанский Технологический Университет**
**gulcinaydin1999@gmail.com**

**Резюме:** Одной из наиболее актуальных проблем,стоящих перед страной,является совершенствования налоговой системы,регулирования определенных экономических процессов через нее и модернизация Налогового кодекса в соответствии с международными стандартами. Основным требованием современного времени является развитие и регулирование национальной экономики с стимуляция,защита внутреннего рынка от внешних воздействий и бюджетирования доходов.

## ASSESSMENT OF THE IMPACT OF TAXES ON THE ECONOMIC CONDITION OF THE ENTERPRISE IN THE ECONOMY OF AZERBAIJAN

**F.I.Ismayılov, G.SH.Aydınlı**
**Azerbaijan Technological University**
**gulcinaydin1999@gmail.com**

**Summary:** One of the most pressing promlems facing the counrty is improvement of the tax system, regulation of ceratin economic processes through it, and modernization of the Tax Code in accordance with international standards. The main demand of modern time is the development and regulation of the national economy and stimultion, protection of the internal market from external influences and budgeting income generation.

# MÜƏSSİSƏDƏ MARKETİNQ PLANLAŞDIRILMASININ SƏMƏRƏLİLİYƏTƏSİRİ

**dos. V.M.Ramazanov, A.Q.Abbaslı**
**Azərbaycan Texnologiya Universisteti**
**azer.abbasli.00@mail.ru**

Azərbaycanın iqtisadi sisteminin hazırkı inkişaf mərhələsi bazar münasibətlərinin inkişafı ilə xarakterizə olunur ki, bu da sosial-iqtisadi münasibətlər sahəsində köklü islahatların aparılmasını və ictimai fəaliyyətin bütün sahələrində struktur dəyişikliklərinin aparılmasını tələb edir. Davam edən transformasiyaların sənaye müəssisələrində, ilk növbədə, əvvəllər yaradılmış iqtisadi əlaqələrin pozulması ilə bağlı bir sıra böhranlı hadisələrə səbəb olması tamamilə təbiidir. Yerli bazarda çoxlu sayda xaricdən gətirilən malların görünməsi və yerli istehsalçılar tərəfindən istehlakçıların malların keyfiyyətinə artan tələblərini zəif nəzərə almaları səbəbindən istehsal olunan məhsulların satışı prosesi xeyli mürəkkəbləşib. Bu şəraitdə sənaye müəssisələrinin əsas vəzifəsi iqtisadi fəaliyyətin yeni formalarının axtarışı və idarəetmənin köklü şəkildə yenidən qurulması ehtiyacı idi, çünki yalnız bu halda ən az itki ilə yeni sosial-iqtisadi şəraitə uyğunlaşmaq olar. Buna görə də müasir şəraitdə marketinq konsepsiyasının bazar şəraitində müəssisənin idarə edilməsi konsepsiyası kimi öyrənilməsi və istifadəsi xüsusi əhəmiyyət kəsb edir. İqtisadi cəhətdən inkişaf etmiş xarici ölkələrin təcrübəsi göstərir ki, marketinqdən istifadə müəssisənin istehsal fəaliyyətinin səmərəliliyini artırır, məhsulun istehsalı və satışı üçün optimal proqramlar qurmağa imkan verir, bazarda baş verən dəyişikliklərə daha tez reaksiya verir, mümkün edir.

Aparılmış tədqiqatlar əsasında qeyd edə bilərik ki, marketinq elmi əsaslandırılmış idarəetmə konsepsiyasıdır, eyni zamanda iqtisadi sistemin dəyişən bazar mühitinə uyğunlaşmasına və inkişafına imkan verən tədbirlər sistemi və texnikalar toplusudur. Həmçinin, marketinq insan ehtiyaclarını minimum xərclə qarşılamaqda yüksək nəticələr əldə etmək üçün müəssisənin idarə olunmasının bütün elmidir. Marketinq fəaliyyətinin ən böyük təsiri budur. Müəssisə marketinqinin idarə edilməsinin əsas istiqamətlərindən biri səriştəli planlaşdırmadır. Planlaşdırma, idarə olunan obyektin inkişafı məqsədinin, ona nail olmaq üsullarının, üsullarının və vasitələrinin müəyyən edilməsi, proqramın hazırlanması, yaxın və gələcək perspektivlər üçün müxtəlif dərəcədə təfərrüatlı fəaliyyət planıdır.

Planlaşdırma, planın həyata keçirilməsi üçün gələcək ehtimal şərtləri haqqında fərziyyələrə əsaslanaraq, müəyyən bir müddət ərzində məqsədlərin, strategiyaların və onlara nail olmaq üçün tədbirlərin müəyyən edilməsi prosesidir. Strateji marketinq planlaması firmanın məqsədləri, potensial imkanları və marketinq imkanları arasında strateji uyğunluğun yaradılması və saxlanması üçün idarəetmə prosesidir. Strateji planlaşdırma, təşkilatın əsas missiyasına yönəlmiş və bazarda müəssisənin rəqabət mövqeyini gücləndirməyə yönəlmiş bir-biri ilə əlaqəli tədbirlər kompleksinin işlənib hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutan rəsmiləşdirilmiş bir prosesdir.

Təşkilatlara uzunmüddətli perspektivdə rəqabət aparmağa imkan verən strateji davranışın əhəmiyyəti son onilliklərdə artmışdır. Ətraf mühitdəki dəyişikliklərin sürətlənməsi, yeni tələblərin yaranması və istehlakçı mövqeyində dəyişikliklər, resurslar üçün rəqabətin artması, biznesin beynəlmiləlləşməsi, fəaliyyət göstərmək üçün yeni, çox vaxt tamamilə gözlənilməz imkanların yaranması, informasiyanın ildırım sürəti ilə yayılması və qəbulu mümkün olması, müasir texnologiyaların geniş imkanları, insan resurslarının rolunun dəyişməsi, eləcə də bir sıra digər amillər strateji idarəetmənin əhəmiyyətinin kəskin artmasına səbəb olmuşdur. Bazarda baş verən bütün dəyişiklikləri nəzərə alaraq, səriştəli rəqabət strategiyalarının hazırlanması həm öz aralarında, həm də xarici korporasiyalarla şiddətli rəqabətə girən milli müəssisələr üçün getdikcə daha çox əhəmiyyət kəsb edir.

Strateji planlaşdırmanın növbəti mərhələsində onun məqsədi müəssisənin missiyasına əsasən müəyyən edilir. Missiya ümumi deklarativ xarakter daşıdığından şirkətin strategiyasının işlənib hazırlanmasını və ona nail olmaq üçün tədbirlərini çətinləşdirir. Buna görə də missiya təfərrüatlıdır və konkret məqsədə (məqsədlərə) çevrilir. Müəssisənin məqsədi əsas (qlobal) məqsədə və bu məqsədə nail olmağı təmin edən və ya şirkətin müəyyən müddət ərzində nail olmaq istədiyi yerli (konkret) məqsədlərə bölünür. Məqsəd müəssisənin konkret inkişaf istiqamətini müəyyənləşdirir və onun nailiyyətlərini izləyə bilmək üçün kəmiyyət baxımından, yəni rəqəmlərlə ifadə edilməlidir. Məsələn, "şirkətin bazar payını 10%-dən 15%-ə qədər artırmaq və ya satışları 25% artırmaq və ya cəlb edilmiş kapitalın gəlirliliyinin 28%-ə çatmasını təmin etmək" və s. Marketinqin planlaşdırılması üç səviyyədə həyata keçirilir:

müəssisə, strateji biznes bölmələri və məhsul (məhsul çeşidi). Marketinqin planlaşdırılması strateji marketinq planlaması və illik marketinq planlaması (məhsul satışının planlaşdırılması) formasında həyata keçirilir. Marketinq planlaması yuxarıdan aşağıya, aşağıdan yuxarıya və yuxarıdan aşağıya hədəflərdən, aşağıdan yuxarıya planlaşdırmadan istifadə edir.

Müəssisənin marketinqə əsaslanan strategiyaları həm qlobal səviyyədə, həm də daxili bazarda baş verən dəyişiklikləri nəzərə almağa imkan verir. Vaxtında aparılan marketinq tədqiqatları bazardakı dalğalanmaları, istehlakçıların seçimlərindəki dəyişiklikləri, bazarda yeni rəqiblərin meydana çıxmasını, makromühit amillərinin dəyişməsini aşkar edə və müəyyən edilmiş amillərin təhlili əsasında müəssisənin inkişafı üçün rəqabət strategiyasını hazırlaya bilər.

Bu gün sənaye siyasəti onun yüksək səmərəli olmasına və ölkənin kənd təsərrüfatı məhsulları ilə təminatının etibarlılığının əhəmiyyətli dərəcədə artırılmasına, keyfiyyətinin yüksəldilməsinə yönəlmişdir. Sənaye kompleksinin tərkib hissəsi kimi heyvandarlıq ümumi kənd təsərrüfatı məhsullarının istehsalında mühüm paya malikdir. Buna görə də, onun inkişaf səviyyəsi daha çox dövlətin ərzaq müstəqilliyini və cəmiyyətin sosial-iqtisadi sabitliyini müəyyən edir. Bu sistemin öyrənilməsi və sənayenin inkişafı üçün marketinq strategiyasının formalaşdırılması tədqiqatın aktuallığını əvvəlcədən müəyyən edir.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan regionları. Statistik məcmuə. Bakı, 2015, səh. 836
2. Azərbaycanın Sənayesi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Statistik Məcmuəsi, 2014
3. Hacıyeva L.A. Sənaye marketinqi. Bakı, "Təhsil işçisi" MMC, 2012, səh. 324
4. Литовченко И.Л. Генезис и эволюция информационной концепции маркетинга: Монография. - К.: Наук.думка, 2011. - 200 с.
5. Smith, A. (2007). An inquiry into the nature and causes of the wealth of nations. New York: MetaLibri. 754 p.


## INFLUENCE OF ENTERPRISE MARKETING PLANNING ON EFFICIENCY

**V.M.Ramazanov, A.G.Abbaslı**
**Azərbaycan Texnologiya Universisteti**
**azer.abbasli.00@mail.ru**

**Summary:** The marketing literature takes a different approach to marketing planning. In one case, marketing management is the process of planning and implementing pricing, financing, distribution and sales activities aimed at the implementation of exchanges that meet consumer demand for products, ideas, services, and in another case, the creation of demand for products and services, production and sales planning, is treated as a management activity related to the organization and control. As can be seen, the marketing management process includes the analysis and planning of marketing activities, the implementation and control of plans, covers all products, ideas, services, all markets, and the needs of all parties involved in the exchange based on the exchange, serves to pay.

## ВЛИЯНИЕ МАРКЕТИНГОВОГО ПЛАНИРОВАНИЯ ПРЕДПРИЯТИЯ НА ЭФФЕКТИВНОСТЬ

**В.М.Рамазанов, А.К.Аббаслы**
**Азербайджанский Технологический Университет**
**azer.abbasli.00@mail.ru**

**Резюме:** В литературе по маркетингу используется другой подход к маркетинговому планированию. В одном случае управление маркетингом - это процесс планирования и реализации деятельности по ценообразованию, финансированию, распределению и продажам, направленный на осуществление обменов, которые удовлетворяют потребительский спрос на продукты, идеи, услуги, а в другом случае - создание спроса на продукты и услуги, производство и планирование продаж, это рассматривается как управленческая деятельность, связанная с организацией и контролем. Как видно, процесс управления маркетингом включает в себя анализ и планирование маркетинговой деятельности, реализацию и контроль планов, охватывает все продукты, идеи, услуги, все рынки и удовлетворяет потребности всех сторон, участвующих в обмене, на основе обмен, служит для оплаты.

# SIĞORTA MÜNASİBƏTLƏRİNİN İNKİŞAFININ MALİYYƏ MEXANİZMİNƏ TƏSİRİ

**dos R.M.Cəfərova, magistr A.E.Həsənli**
**Azərbaycan Texnologiya Universiteti**
**ceyhunmammadli96@gmail.com**

Sığorta insanların əldə etdiyi gəlirləri və mülkləri bədbəxt hadisələrdən qorumaq üçün, istifadə etdiyi bir müraciət formasıdır. Zamanla, bu proses dahada inkişaf etməyə başladı. Orta əsrlərdən başlayaraq, hüquqi statusa malik müqavilə formasında sazişlər bağlandı. Sazişlərin bağlanmasının əsas səbəbi yeni ərazilərin kəşfi idi. Həmin dövrlərdə beynəlxalq ticarət də inkişaf etdiyinə görə dəniz səfərləri zamanı yarana biləcək risklərin qarşısını almaq üçün sığorta böyük əhəmiyyət daşıyırdı. Orta əsrlərdə daha çox yayılan sığorta forması Bodmer sazişi əsasında bağlanan dəniz sığortası idi. Bodmerin əhəmiyyəti ondan ibarət idi ki, borc verən şəxs sığortalayan şəxsə sığorta haqqı verirdi. Səfər uğurlu nəticələndikdə bununla bərabər sığorta zərurəti olmadığı halda borc verən şəxsin avans olaraq təqdim etdiyi məbləğ və əlavə Bodmer sazişinə uyğun premiya ödənilirdi. Sazişə görə təyin olunan məbləğ 15-100% olub, böyük həcmə malik idi.

***Sığortanın fəaliyyət mexanizmi:*** Bazar iqtisadi münasibətləri çərçivəsində hökm sürən davamlı iqtisadi inkişaf müasir sığorta bazarı və onun səciyyəvi cəhətlərinin tədqiq edilməsini zəruri etmişdir. Sığorta bazarı mahiyyətcə tələb və təklifin formalaşdığı, alqı-satqı obyekti sığorta müdafiyyəsi olan,alıcıların və satıcıların  görüşdüyü mücərrəd məkan və ya pul münasibətlərinin xüsusi sosial-iqtisadi strukturunu ifadə edir. Sığorta kompaniyasının mövcudluğu sayəsində bu və ya digər iqtisadi münasibətlər formalaşır, sığorta fondunun təşəkkülü və istifadəsi prosesi yaranır, şəxsi və korporativ maraqlar bir birinə qarışır.

***Sığortaçı:***Yalniz sığorta və təkrar sığorta fəaliyyətini göstərmək məqsədi ilə yaradılmış qanunvericiliklə müəyyənləşdirilmiş qaydada xüsusi razılıq almış hüqusi şəxs olan sığorta təşkilatıdır.

***Sığortaçının maliyyə sabitliyini təyin edən əsas amillər:*** «Sığorta haqqında» Azərbaycan Respublikası Qanununun8.1 maddəsinə əsasən sığortaçının və təkrarsığortaçının minimum nizamnamə kapitalı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənedilir.Qanunun 8.2 maddəsinə əsasən isə sığortaçının nizamnamə kapitalı dövlət qeydiyyatına alınmazdan əvvəl tamamilə ödənilməlidir.Nizamnamə kapitalının tam ödənilməsi xüsusi razılıq(lisenziya) alındıqdan sonra fəaliyyətə başlamağa, sığorta müqavilələri bağlamaqla sığorta haqqlarını qəbul edib öhdəlik daşımağa imkan verir.

Nizamnamə kapitalının minimum məbləği xarici ölkələrdə də qanunvericiliklə müəyyən edilir. Bunun da əsasən iki səbəbi vardır. Birincisi, sığortaçı ilk əvvəl fəaliyyətə başlayandan sığorta müqavilələri bağlayır, öhdəliklər götürür. Lakin qısa müddət ərzində bağladığı sığorta müqavilələrin həm sayı az olur, həm də sığorta haqları yüksək olmur. Bu səbəbdən öhdəliklərə ilk əvvəl cavab vermək, yerinə yetirilməsi üçün nizamnamə kapitalı əsas rol oynayır, ikincisi, sığortaçının maliyyə sabitliyi, ödəniş qabiliyyətliyi müəyyən olunarkən başqa meyarlarla yanaşı iki meyar əsas götürülür:

a) Sığortaçının öz vəsaitinin sığorta haqqlarına olannisbəti.

b) Bir müqavilə üzrə sığortaçının qəbul etdiyi öhdəliyinmaksimum həcminin onun öz vəsaitinəolan nisbəti.

Göründüyü kimi, hər iki halda sığortaçının öz vəsaiti əsas rol oynayır. Sığortaçının öz vəsaitinin əsas və daimi hissəsini nizamnamə kapitalı təşkil edir.Öz vəsaitinə aid edilən əlavə kapital, ehtiyat

kapitalı, bölüşdürülməmiş mənfəət təsisçilərin razılığı ilədəyişdirilə və ya istifadə oluna bilər.Nizamnamə kapitalının məbləği isə qanunvericilikdə nəzərdə tutulmuş məbləğdən yalnız yuxarı müəyyən oluna bilər, aşağı salına bilməz.Bundan başqa nizamnamə kapitalının yüksək olması sığortaçıya sığorta bazarında daha inamlı fəaliyyət göstərməyə, iri əməliyyatları yerinə yetirməyə, bununla da rəqabətə tab gətirməyə imkan verərdi. Sığortalılardan alınan sığorta haqqları hesabına yaradılan sığorta ehtiyatlarının məhdud müddət üçün nəzərdətutulduğu halda sığorta təşkilatı qeyri-müəyyən müddətə, uzun müddət fəaliyyət üçün yaradılır. Bu səbəbdən sığorta təşkilatı yarandığı vaxt nizamnamə fondunun məbləği və strukturuna fikir verməк lazımdır. Başqa sözlə, sığortaçının maliyyə sabitliyinin əsası onun yarandığı vaxtdan qoyulur.

**Ədəbiyyat siyahısı:**

1.Sığorta təşkilatlarının fəaliyyətinin əsas göstəriciləri. Statistik bülleten. Bakı: 2018.
2.Xankişiyev B.A. Sığorta fəaliyyətinin əsasları. Bakı,“İqtisad Universiteti” nəşriyyatı, 2006. 274 s.

## ВЛИЯНИЕ РАЗВИТИЯ СТРАХОВЫХ ОТНОШЕНИЙ НА ФИНАНСОВЫЕ МЕХАНИЗМЫ

**Р.М.Джафарова,**
**А.Э.Гасанлы**
**Азербайджанский Технологический Университет**
**ceyhunmammadli96@gmail.com**

**Резюме**: В данной работе мы обсудим важность и сути страхования. Страхование - это форма приложения, которую люди используют для защиты своих доходов и имущества от несчастных случаев. Финансы, которые играют ключевую роль в страховании, - это собственные средства страховщика. Под активами страховщика понимаются его основные средства в виде рабочей силы

## IMPACT OF INSURANCE RELATIONSHIP DEVELOPMENT ON FINANCIAL MECHANISMS

**R.M.Jafarova,**
**A.E.Hasanlı**
**Azerbaijan Technological University**
**ceyhunmammadli96@gmail.com**

**Summary:** In this research, the importance and essence of insurance will be discussed here. Insurance is a form of application that people use to protect their income and property from accidents. The finances that play a key role in insurance are the insurer's own assets. Assets of the insurer mean its fixed assets in the form of labor.

# MİLLİ İNNOVASİYA SİSTEMİNİN ƏSAS STRATEJİ İSTİQAMƏTLƏRİ

**M.T.Qubatov**

**Azərbaycan Texnologiya Universiteti**

**mircefer.qubatov@azeristilik.gov.az**

Elm haqqında qanunda deyilir: Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94- cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edir.[1] İnnovasiya fəaliyyətinin tənzimlənməsi və yaxşılaşması baxımından bu sənəd xüsusi əhəmiyyətli qanunverici sənəd sayıla bilərdi. Milli innovasi yasistemi – ölkə hüdudunda elmi bilik və texnologiyaların istehsalı və kommersiya və ya qeyri-kommersiya əsasında reallaşdırılması ilə məşğul olan təşkilatların məcmusudur. [1] Sonradan çoxsaylı təkmilləşdirilmələr aparılan Azərbaycan Respublikası tərəfindən qəbul edilən qərarlarda da göstərildiyi kimi innovasiya proseslərinin sürətlənməsi özünün bu sənədlərdə çox əsaslı həlli əksini tapdı.Qaninvericiliyinin xüsusilə vergi qanunvericiliyinin innovasiya proseslərinin tənzimlənmə-sindəki çox mühüm bir rolu Vergi Məcəlləsinin X fəslində öz əksini tapır. Bu fəslin 113 və 114-cü maddələri bu baxımdan çox təkmil hüquqi əsaslaryaradır.113-cü maddəyə görə elmi-tədqiqat, layihə-axtarıs, təcrübə-konstruktur islərinəçəkilən xərclər (kapital xərclər istina olmaqla) gəlirdən çıxılır. [2] Vergi qanunverciliyi kredit sektoruna güzəst tətbiq etməklə, effektiv amortizasiya siyasətinə hüquqi baza yaratmaqla, mənfəət vergisi dərəcəsini 20% qədər azaltmaqla, sadələsdirilmis vergi üçün dövriyyə bazasını artırmaqla, faiz vədivident gəlirlərini vergidən azad etməklə çox əlverisli innovasiya–investisiya mühitinin formalasmasına köklü yardım edib.İnvestisiya-innovasiya fəallıgının tənzimlənməsində digər mühüm bir makroiqtisadi rıçaqın monetar siyasət olması məlumdur. Azərbaycan höküməti burıçaqdan da effektiv istifadə etməyi bacarıb. Belə ki, uzun müddət ərzində MərkəziBank məcburi ehtiyat normalarını 10% həddində saxlayırdı. Qlobal maliyyə böhranınölkə iqtisadiyyatına, xüsusilə invesitisiya fəallıgına müəyyən əsiri hiss olunanda Mərkəzi Bank məcburi ehtiyat normalarını əvvəl 6%, sonra 3% və nəhayət 0,5%-əqədər azaltdı. Əlavə likvidliyə, əlavə invesitisiyaresurslarının formalasmasına yol açıldı.Ölkədə innovasiya-investisiya fəaliyyətinin dinamizmi konkret və ünvanlı dövlət dəstəyi tədbirlərindən də asılı olur və Azərbaycan hökümətini bu istiqamətdəki fəaliyyəyi də yetərincə güclüdür. Konkret faktlar bu cəhəti daha aydın göstərir.Ayrı-ayrı ölkələrin timsalında dünya təcrübəsi göstərir ki,texnoloji zonalar iqtisadi inkisafda rol oynaya bilir. Lakin milli innovasiya sisteminin formalaşması daha effektli nəticələrə gətirə bilər. Texnoloji zonaları bu sistemin əsas elementi kimi özünü artıq təsdiqləmişdir. Təhlillər göstərirki, kiçik innovasiya müəssisələri vahid məkanda fəaliyyət zamanı daha effektli nəticələr əldə edirlər. Belə fəaliyyət formasında iqtisadi inkişafa daha çox töhfələr verə bilirlər. Təcrübə göstərirki, bu forma texnopark, aqropark və Dost mərkəzləridir və onun formalaşması üçün kompleks yanaşma prinsipi inkişafın əsas prinsiplərindən biridir. Bu baxımdan da dövlətfəaliyyətiqənaətbəxsdir. Milli innovasiya sisteminin 5 əsas mərhələsi aşağıdakılardır: İdeyanın formalaşdırılması və mobilizasiyası; ideyanın mühakiməsi; ideyanın təcrübədən keçirilməsi; ideyanın kommersiyalaşdırılması; ideyanın tətbiqi Müvəffəqiyyətli innovasiya layihələrinin aparılması özünü həm də Qarabağda və Şərqi Zəngəzurda inşa edilən müəssisələrin timsalında göstərir. Müvafiq dövlət proqramlarının və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə əlaqələndirilməsinin daha da təkmilləşdirilməsi, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş proqramların və tədbirlərin maliyyələşdirilməsi

gələcək dövrlər üçün də davam etdirilməsi nəzərdə tutulub. [3]Ölkədə innovasiya fəaliyyətinin sürətlənməsi və davamlı iqtisadi inkişafa nail olunması üçün bir sıra tədbirlərin görülməsi vacibdir ki, onlara da aşağıdakılar aid edilə bilər: milli rəqabət qabiliyyətli məhsul istehsalına yönəldilmiş innovasiya fəaliyyətinin stimullaşdırılması; insan kapitalının formalaşmasına təkan verən təhsil, ixtisas və peşə sahəsində müvafiq siyasətin aparılması; innovasiya fəaliyyəti ilə bağlı olan büdcə-vergi tənzimlənməsinin mütəmadi qaydada həyata keçirilməsi;innovasiya sferasının davamlı maliyyə təminatının həyata keçirilməsi və s. Bu istiqamətlərin hər birinin ayrı-ayrılıqda deyil, sistem şəklində həyata keçirilməsi innovasiyanın inkişafına, milli iqtisadiyyatın müvazinətli fəaliyyət göstərməsinə səbəb ola bilər. [4]

**Ədəbiyyat siyahısı:**

1.Elm haqqında AR qanunu Bakı şəhəri 2016.
2.Vergi Məcəlləsi haqda Azərbaycan Respublikasının qanunu(dəyişikliklərlə bir yerdə)Bakı 2021
3.Raminə Mustafayeva,Yeganə Abbasova, Raibə Cəfərova.İqtisad elminin müasir problemləri Bakı 2019
4.Qasımov F.H, Əliyev T.NMilli innovasiya sisteminin təşkili və idarə edilməsi Elm və Təhsil Bakı 2013

## ОСНОВНЫЕ СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИЯ НАЦИОНАЛЬНОЙ ИННОВАЦИОННОЙ СИСТЕМЫ

**М.Т.Губатов**
**Азербайджанский Технологический Университет**
**mircefer.qubatov@azeristilik.gov.az**

**Резюме:** Основные стратегические направления национальной инновационной системы Формирование национальной инновационной системы может привести к более эффективным результатам. Технологические зоны уже зарекомендовали себя как ключевой элемент этой системы. Анализ показывает, что малые инновационные предприятия достигают более эффективных результатов, работая в едином пространстве. 5 основных этапов национальной инновационной системы: формирование и мобилизация идеи, осмысление идеи, практика идеи, коммерциализация идеи, применение идеи.В этой форме деятельности они могут внести больший вклад в экономическое развитие.

## THE MAIN STRATEGIC DIRECTIONS OF THE NATIONAL INNOVATION SYSTEM

**M.T.Gubatov**
**Azerbaijan Technological University**
**mircefer.qubatov@azeristilik.gov.az**

**Summary:** The main strategic directions of the national innovation system. Formation of a national innovation system can lead to more effective results. Technological zones have already established themselves as a key element of this system. Analyzes show that small innovative enterprises achieve more effective results when operating in a single space. There are 5 main stages of the national innovation system: formation and mobilization of the idea, judgment of the idea, practice of the idea, commercialization of the idea, application of the idea. In this form of activity, they can make a greater contribution to economic development.

# MAKROİQTİSADİ TƏNZİMLƏNMƏNİN ROLU VƏ ƏSAS ÜSTÜNLÜKLƏRİ

**dos. R.Ş.Şükürov, magistr E.N.Daşdəmirov**
**Azərbaycan Texnologiya Universiteti**
**deshgin@list.ru**

Qloballaşma şəraitinin mövcud olduğu dövrlərdə bazarın fəaliyyəti və iş prinsipi həmişə dövlətin diqqət mərkəzində olmuşdur.Son dövrlərdə dünyanın bir çox ölkələrində maliyyə-iqtisadi böhranın baş verməsi makroiqtisadi tənzimləmələrin problemlərini ortaya çıxardı.Budövrlərdə digər Avropa dövlətləri ilə müqayisədə Azərbaycanda iqtisadi vəziyyət ürəkaçan idi.Statistik məlumatlara nəzər salsaq görərik ki,dövlət büdcəsinin 80%-ə qədərini neft-qaz sektoru təşkil edir.Bu isə “Holland sindromu” adlanan problemlə bizi qarşı-qarşıya qoyur.Bu baxımdan isə makroiqtisadiyyatda maliyyə mənbələrinin rolu nəzərə çarpacaq qədər böyükdür.

Müasir dövrdə iqtisadiyyatımızın qarşısında duran əsas məsələsəmərəli və dayanıqlı inkişafa nail olmaqdır.Belə olduqda isə,iqtisadiyyatın bütün amillərini nəzərə almaq əsas şərt hesab olunur.Həmçinin makroiqtisadi tənzimlənmənin həyata keçirilməsində forma və mexanizmlərin düzgün seçilməsi,tənzimlənmə prosesində yarana biləcək hər hansı bir mənfi yönümlü təsirlərin azalmasına səbəb olur.Makroiqtisadi tənzimləmənin yerinin və ya rolunun müəyyən edilməsi,dünyanın bir sıra aparcı ölkələrinin əsas tədqiqat mövzusu olaraq qalır.Qloballaşma prosesini nəzərə alaraq onu da qeyd edə bilərəm ki,ölkələr iqtisadi artıma nail olmaq üçün ilk növbədə iqtisadi,qanunvericilik və bütün resurs imkanlarından yetərincə istifadə etməlidirlər.Bu odan irəli gəlir ki,bazar sistemi bütün problemləri həll etmək iqtidarında deyil bura ancaq dövlətin müdaxiləsi olmalıdır.

Tədqiqatın əsas məqsədi makroiqtisadi tənzimlənmənin mövcud vəziyyətini təhlil edərək,maliyyə mənbələrinin səmərli istifadəsinə dair təkliflər və göstərişlər verməkdən ibarətdir.Tədqiqatın məqsədinə uyğun olaraq isə aşağıda göstərilən məsələlərin həlli nəzərdə tutulmuşdur:

-İqtisadi fəaliyyətin həyata keçirilməsinə dair yeni göstəricilər sisteminin işlənib hazırlanması;

-Azərbaycanda makroiqtisadi sabitliyin təmin olunması imkanları;

-İqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi;

-Makroiqtisadi tənzimlənmənin həyata keçirilməsində maliyyə alətlərinin təkmilləşdirilməsi yollarının müəyyən edilməsi;

Tədqiqatın oybektini Azərbaycan Respublikasının milli iqtisadiyyatının sahələri təşkil edir. Tədqiqatın predmetini isə milli iqtisadiyyatın maliyyə alətləri və mənbələrindən istifadə prosesi təşkil edir.

## Ədəbiyyat siyahısı:

1.Abbasov A.H. - Azərbaycanda maliyyə bazarının formalaşması və bazar iqtisadiyyatında maliyyə-kredit sisteminin problemləri, 2003

2.Bayramov Ə.İ. - Qloballaşan dünyanın yeni iqtisadi düzəni, 2009

3.Kəlbiyev Y.A. - Milli iqtisadiyyatın tənzimlənməsi problemləri, 2005

4.Namazov A.Ə. - Müasir iqtisadi inkişaf və makroiqtisadi tənzimlənmə problemləri. “Koorperasiya”jurnalı, 2013

5.Nuriyev Ə.X. - Azərbaycanda iqtisadi inkişaf və mdernləşmə siyasətinin konseptual əsasları, 2013

## THE ROLE AND MAIN ADVANTAGES OF MACROECONOMIC REGULATION

**E.N.Dashdamirov, R.Sh.Shukurov**
**Azerbaijan Technological University**
deshgin@list.ru

**Summary**: In the era of globalization, the operation and working principle of the market have always been in the focus of the state. The recent financial and economic crisis in many countries has created problems for macroeconomic regulation. If we look, we can see that up to 80% of the state budget is the oil and gas sector. This confronts us with the so-called "Dutch syndrome". In this regard, the role of financial sources in the macroeconomy is quite large.

The main task facing our economy in modern times is to achieve efficient and sustainable development. In this case, it is important to take into account all the factors of the economy. Determining the place or role of macroeconomic regulation remains a major research topic in a number of leading countries around the world. This is due to the fact that the market system is not able to solve all the problems, but only government intervention.

The main purpose of the study is to analyze the current state of macroeconomic regulation and make suggestions and recommendations on the efficient use of financial resources.

## РОЛЬ И ОСНОВНЫЕ ПРЕИМУЩЕСТВА МАКРОЭКОНОМИЧЕСКОГО РЕГУЛИРОВАНИЯ

**Э.Н.Дашдамиров, Р.Ш.Шукуров**
**Азербайджанский Технологический Университет**
deshgin@list.ru

**Резюме**: В эпоху глобализации функционирование и принцип работы рынка всегда находились в центре внимания государства. Недавний финансово-экономический кризис во многих странах создал проблемы для макроэкономического регулирования. Если мы посмотрим, то увидим это вверх. До 80% государственного бюджета приходится на нефтегазовый сектор. Это ставит нас перед так называемым «голландским синдромом». В связи с этим роль финансовых источников в макроэкономике достаточно велика.

Основная задача, стоящая перед нашей экономикой в наше время, - добиться эффективного и устойчивого развития. В этом случае важно учитывать все факторы экономики. Определение места или роли макроэкономического регулирования остается основной темой исследований в число ведущих стран мира.Это связано с тем, что рыночная система способна решить не все проблемы, а только вмешательство государства.

Основная цель исследования - проанализировать текущее состояние макроэкономического регулирования и дать предложения и рекомендации по эффективному использованию финансовых ресурсов.

# SATIŞ SİYASƏTİ, STRATEGİYASI VƏ PRAKTİKASI HAQQINDA MARKETİNQ ARAŞDIRMALARI

**T.S.Yusifov**
**Azərbaycan Texnologiya Universiteti**
**teymuryusif.51@gmail.com**

Şirkətlərin satış strategiyalarını formalaşdırması üçün bazar araşdırmaları aparmalı, bazar məlumatları, bazar münasibətləri, hədəf bazardakı alıcılar, təchizatçılar, qiymətlər, ticarət qaydaları və ticarət qanunvericiliyi haqqında biliklərini artırmaları lazımdır. Bazar araşdırmaları ilə şirkətlər potensial bazarlar haqqında sistematik və obyektiv məlumatlar toplamaq və ənənəvi bazarlarda bazar paylarını artırmaq məqsədi daşıyır. Satış siyasəti və strategiyasını düzgün quraraq müəssisənin bazarda rəqabət qabiliyyətini artırır.

**Satış araştırılması prosesi:** Araşdırma dizaynı və xərcləri göstərən araşdırma təklifi hazırlamaq;

- Kəşfiyyat tədqiqatı aparılır;
- Sual kağızı hazırlanır;
- Nümunəni seçin;
- Tədqiqat metodunun seçilməsi;
- Dataların toplanması və təhlili;
- Hesabat hazırlanır.

- Kotler və Armstrong'a görə satış araşdırmalarının mərhələləri belədir:

Problemin və tədqiqat məqsədlərinin müəyyənləşdirilməsi marketinq araşdırması prosesinin ən çətin mərhələlərindən biridir.Müdir müəyyən səbəblər görünməsə də, bir şeyin səhv olub-olmadığını bilməlidir. Bazar potensialı, bazar payı, müəssisə və ya məhsul imici, bazar xüsusiyyətləri, satış təhlili. Seqmentasiya, məhsul, qiymət, təşviq məsələləri.

**Satış araşdırmalarının mövzuları:**

- Məhsulun imici
- Marka məlumatlılığı
- Brendə münasibət
- Paylama kanalları
- Reklam
- Satış təşviqi
- Qiymətqoyma
- Qablaşdırma
- Satış sonrası xidmətlər
- Yeni məhsulun təkmilləşdirilməsi
- İstehlakçı seçimi

Bunu da unutmayaq ki, marketinq araşdırması uğurlu nəticənin qarantisini verə bilməz. Qərar verməndəki çətinlikləri və riskləri azaldaraq qərar verməni asanlaşdırar.

**Bazar Tədqiqat Metodları:**

- *Sənaye tədqiqatları:* Bu tədqiqatlar sənayenin istehsal və inkişaf planlarını əhatə edir. Bu tədqiqatlarda respondentlər isə təşkilatlar, sənaye müəssisələri və investorlar olacaqdır.
- *Biznes araşdırmaları:* Bunlara isə ticarət təşkilatlarını aid etmək olar. Şirkətin rəqiblərə nəzərən mövqeyi müəyyən edilir və beləliklə gələcək bazar şərtləri proqnozlaşdırılır. Analizlər nəticəsində şirkətlərin bazar potensialı və bazar payları öyrənilməyə çalışılır.
- *İstehlakçı araşdırması:* İstehlakçının şüur, davranış və davranış səviyyəsini təsir edən faktorları ortaya qoymaq üçün aparılan bir araşdırmadır.
- *Xarici bazar araşdırmaları:* Xarici bazar araşdırmaları dil, mədəniyyət və sosial zövqlər baxımından fərqlənən bir bazar mühitində dataların toplanması və təhlilidir. Həmçinin, hər hansı bir xarici bazarda müəyyən bir məhsulun marketinqi zamanı qərarların alınmasına kömək edəcək datalar toplanılır.

- *Qiymət Araşdırması:* Qiymətlər araşdırılaraq, müxtəlif qiymət səviyyələrində tələb ediləcək miqdar və onların xərcləri barədə məlumat toplanır. Beləliklə, daha dəqiq və uğurlu bir qiymət müəyyən edilə bilər.

Marketinq araşdırmasına nə vaxt ehtiyac duyulur?

- Vaxt məhdudluğu
- Dataların toplanma imkanı olduqda
- Tədqiqat lazımi məlumatları verə biləcəkmi?
- Veriləcək qərarın mahiyyəti
- Strateji və taktiki olaraq veriləcək qərar nə qədər vacibdir?
- Xərclərlə müqayisədə araşdırmadan əldə edilən məlumatın dəyəri
- Geri dönüş bu xərclərə dəyərmi?
- Əldə edilən məlumatlar xərcləri əsaslandıracaq dərəcədə qərar qəbul etməyi asanlaşdıracaqmı?
- Təklif olunan tədqiqat xərcləri mövcud vəsaitlərdən istifadə etmək üçün ən yaxşı alternativdirmi?

**Açar sözlər**: satış, satış siyasəti, marketinq araşdırmaları

## Ədəbiyyat siyahısı:

1. Инновационный маркетинг: учебник для бакалавриата и магистратуры / под. Общ. ред. С.В. Карповой. – М.: Издательство Юрайт, 2016 – 457 с.
2. Котлер Ф. (Гари Армстронг, Вероника Вонг, Джон Сондерс) - Основы маркетинга, 5-е европейское издание. ИД Вильямс 2014 – 496 с
3. Манн И. Маркетинг на 100% - М.: МИФ, 2011

## ОЦЕНКА ВЛИЯНИЯ НАЛОГОВ НА ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ ПРЕДПРИЯТИЯ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА

**Т.С.Юсифов**
**Азербайджанский Технологический Университет**
**teymuryusif.51@gmail.com**

**Резюме**: Статья посвящена маркетинговым исследованиям политики, стратегии и практики продаж

## ASSESSMENT OF THE IMPACT OF TAXES ON THE ECONOMIC SITUATION OF THE ENTERPRISE IN THE ECONOMY OF AZERBAIJAN

**T.S.Yusifov**
**Azerbaijan Technological University**
**teymuryusif.51@gmail.com**

**Summary:** The article is devoted to marketing research on sales policy, strategy and practice.

# BEYNƏLXALQ TƏCRÜBƏYƏ ƏSASLANAN ELEKTRON HÖKÜMƏTİN YARADILMASI, PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI

**E.C.Cəfərov, magistr E.C.Rəhimov**
**Azərbaycan Texnologiya Universiteti**

Dünyada əhalinin internetdən geniş istifadəsi onların dövlət qurumları qarşısında gözləntilərini artırırır. Həmçinin, dövlətlərin fiskal tələblərinin artması, eləcə də dövlətlərin qloballaşma prosesi ilə əlaqədar daha çox aktorlarla təmasa keçməsi də onların yükünü artırır. Məhz bu və digər səbəblər ucbatından dövlətlər informasiya və kommunikasiya texnologiyaları (İKT) vasitələrinin verdiyi imkanlardan faydalanaraq öz ənənəvi xidmətlərini elektron mühitdə göstərməyə başlamışlar. Artıq elektron hökumət quruculuğu müasir dünyada dövlət siyasətinin əsas meyllərindən birinə çevrilmişdir.

Beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, e-dövlət konsepsiyasının ümumi qəbul edilmiş tərifi yoxdur. Kifayət qədər müxtəlif nüansları əhatə etmək üçün aşağıda bəzi təriflər verilmişdir:

E-dövlət elektron vasitələrdən istifadə etməklə dövlət, onun müştəriləri (müəssisələr, digər dövlətlər və vətəndaşlar) və təchizatçıları (yenə də, müəssisələr, digər dövlətlər və vətəndaşlar) arasında münasibətlər kimi müəyyən edilir. E-dövlət əvəzinə "rəqəmsal dövlət" və ya "virtual dövlət" anlayışlarına üstünlük verilmişdir.

E-dövlət anlayışı ilk dəfə 1990-cı illərin ortalarında Veb-in tətbiqi ilə dövlət idarəçiliyində aparılan islahatlara İT-in tətbiqi nəticəsində yaranmışdır. Ümumilikdə qeyd etmək lazımdır ki, e-dövlət anlayışı bu dövrdə ortaya çıxsa da kompüterin idarəetmədə tətbiqi ilk kompüterin tarixinə qədər gedib çıxır. Əvvəllər İT-nin idarəetmədə tətbiqi dedikdə dövlət strukturlarının kompüterləşməsi nəzərdə tutulurdusa, hazırda istifadə edilən e-dövlət anlayışı bilavasitə dövlətin əhaliyəgöstərdiyi e-xidmətləri nəzərdə tutur. Əhalinin kommunal ödəmələrini, sənədləşmə prosedurlarını, qeydiyyatlarını,seçkilərdə iştirakını, ərizə və müraciətlərini elektron platforma üzərindən həyata keçirmələrini e-xidmətlərə nümunə göstərmək olar [1].

Azərbaycanda "elektron hökumət" ideyası isə ilk dəfə «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003- 2012-ci illər)» sənədində öz əksini tapmışdır.16 Strategiyanın həyata keçirilməsi üçün 2004-cü ildə Rabitə və Yüksək Texnologiyaları Nazirliyi təsis edilmişdir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi sözügedən strategiyanın reallaşdırılması istiqamətində 2005-2008-ci illər və 2010-2012-ci illər üçün "Elektron Azərbaycan" Dövlət Proqramları həyata keçirmişdir. 1-ci proqram daha çox informasiya cəmiyyətinin əsaslarını hazırlamağa yönəlsə də, sonuncu proqram birbaşa elektron hökumətə keçidi sürətləndirməyə istiqamətlənmişdir.

Dövlət orqanlarında müasir İKT-nin tətbiqi ilə idarəçiliyin metod və mexanizmlərinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması, hesabatlılığın və şəffaflığın təmin edilməsi, təqdim olunan elektron xidmətlərin keyfiyyətinin və istifadəsinin artırılması, vətəndaşların dövlət idarəçiliyində iştirakı üçün münasib şəraitin yaradılması bu istiqamətin əsas məqsədlərindəndir.

Elektron xidmətlərinə müraciət edərkən xidmət istifadəçilərinin şəxsiməlumatlarının və hüquqi sənədlərinin etibarlı şəkildə qorunması və təhlükəsiz mühitdə dövlət orqanları ilə vətəndaşlar arasında informasiya mübadiləsinin aparılması məqsədilə e-imza sertifikatlarından istifadə edilir. Elektron imza informasiya təhlükəsizliyinin təmin edilməsi, konfidensial və fərdi məlumatların qorunması baxımından olduqca əhəmiyyətlidir və elektron imzadan istifadənin təmin edilməsi məqsədilə ölkədə Açıq Açar İnfrastrukturu qurulmuşdur.

Hal-hazırda "Elektron hökumət" portalında təsdiq edilmiş xidmətlərin sayı 453-dür və bunlardan 331-i portala inteqrasiya edilmişdir və beləliklə, dövlət saytlarında olan xidmətlərin sayı 490, portalda olan xidmətlərin sayı isə 422-dir. Elektron xidmətlərdən yalnız vətəndaşlar deyil, eyni zamanda müxtəlif dövlət qurumları, bank və kredit təşkilatları da yararlanır. Ümumilikdə "Elektron hökumət" portalına 87 qurum inteqrasiya olumuşdur ki, bunlardan 41-i mərkəzi icra hakimiyyəti orqanları, 27-si bank və kredit təşkilatlarıdır.

İstifadəçi dairəsini genişləndirmək məqsədilə Elekron hökumət portalının "Android" və "İOS" əməliyyat sistemləri üzərindən fəalliyyət göstərən mobil tətbiqi istifadəyə verilmişdir. Belə ki, elektron hökumətin mobil versiyası vətəndaşlara onlayn şəkildə smartfon, planşet, həmçinin ənənəvi mobil telefon vasitəsilə elektron xidmətlərdən faydalanmaq imkanı yaradır. Mobil əlavənin tətbiqi zamanı müxtəlif növ elektron xidmətlərə olan tələbat nəzərə alınmış və social tələbatın üstünlük təşkil etdiyi elektron arayışların mobil versiyası hazırlanmışdır. Şəxsiyyət vəsiqəsi məlumatları üzrə, yaşayış yeri

haqqında, diplom haqqında, ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında elektron arayış, o cümlədən vətəndaş haqqında "tələbə məzun" dövlət elektron məlumat sistemindən çıxarış və rabitə xidmətlərinə görə borcun olmamasına dair arayışların mobil versiyası mövcuddur. Vətəndaşlara mobil telefonlarından istifadə edərək sadalanan elektron arayışları əldə edib lazimi quruma ünvanlaya bilərlər.

2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2019-cu ilin icra vəziyyətinə dair hesabatın təhlili göstərir ki, əksər tədbirlər üzrə dolğun məlumat təqdim edilmişdir. Emal edilən məlumatlar icraçılar tərəfindən görülmüş işlərin, tədbirlərin mahiyyətinə uyğunluq səviyyəsini əksər hallarda təsəvvür yaratmağa imkan verir. Planlaşdırılmış tədbirlərin 50%-nin icrası yekunlaşmış, 2%-i qismən icra edilmiş, 48%-i isə icra olunmamış hesab edilir [2].

Elektron xidmətlərin maliyyə təminatı sahəsində qeyri-müəyyənlik qalmaqdadır. Hər bir dövlət qurumu öz inzibati xərcləri hesabına infromasiya sistemlərinin inkişafını maliyyələşdirir. Bu da özünü-maliyyələşdirmə mexanizmləri olan qurumlar üçün əl versə də, digər "kasıb" qurumlarda yüksək keyfiyyətli elekton xidmətlər mümkünsüz olur. Tövsiyə edirik ki, dövlət büdcəsindən dövlət qurumlarına maliyyə verilərkən elektron xidmətlərin inkişafı ilə bağlı qrafa da öz yerini tapsın. Bundan başqa, dövlət qurumlarına tövsiyə edirik ki, informasiya sistemlərinin yaradılması və inkişafı istiqamətində beynəlxalq donorlar ilə əməkdaşlıq etsinlər. İnformasiya sistemləri və ehtiyatlarının inkişafında baryerlər qalmaqdadır. İnformasya sistemlərinin yaradılması və inkişafı maliyyə və kadr resursları tələb edilir. Bununla əlaqədar, tövsiyə edirik ki, prioritet informasiya sistemləri və ehtiyatlarının siyahısının formalaşdırılması və dövlət büdcəsinin prioritet informasiya sistemlərinin yaradılmasına diqqət ayrılsın. Bu baxımdan tövsiyə edirik ki, elektron xidmətlər üçün daşınmaz əmlak və torpaq kadastrı, eləcə də ünvan reyestr informasiya sistemləri tamamlanmalıdır. Bununla bərabər dövlət arxivi, məhkəmələr, daşınar əmlak, tibbi məlumatların elektronlaşması da unudulmamalıdır.

Elektron xidmətlərin inkişafı ilə bağlı strateji, konseptual plan hələ də tamformalaşmamışdır. Bununla əlaqədar tövsiyə edirik ki, Elektron hökumətin 2020-ci ilə kimi inkişafı iləbağlı aydın, mərhələli, nailiyyətləri ölçülə biləcək konseptual inkişaf planı hazırlansın. Bundan başqa, elektron xidmətlərin inkişafı üzrə hazırlanmış Dövlət proqramının layihəsi təsdiq edilsin. Habelə, ölkədə bütün dövlət qurumları tərəfindən göstərilən xidmətlərin (həm oflayn, həm də elektron xidmətlərin siyahısı) elektron reyestri tamamlansın.

**Ədəbiyyat siyahısı:**


1. Alıquliyev R., Niftəliyeva G. E-dövlətin analizi texnologiyaları:text mining və sosial şəbəkələr. Bakı.2016
2. Əlizadə M.N., Musayev İ.K., Əliyev E.B. Müasir informasiya sistemlərinin idarə edilməsi. Bakı 2016


## СОЗДАНИЕ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА НА ОСНОВЕ МЕЖДУНАРОДНОГО ОПЫТА, ПРОБЛЕМЫ И РЕШЕНИЯ

**E.C.Cəfərov, E.C.Rəhimov**

**Азербайджанский Технологический Университет**

**Резюме:** Одна из основных целей данного направления - совершенствование методов и механизмов управления с применением современных ИКТ в государственных органах, повышение эффективности, обеспечение подотчетности и прозрачности, повышение качества и использования электронных услуг, создание благоприятных условий для граждан участие в государственном управлении. В связи с этим рекомендуем обратить внимание на формирование перечня приоритетных информационных систем и ресурсов и создание приоритетных информационных систем государственного бюджета.

## ELECTRONIC GOVERNMENT ESTABLISHMENT BASED ON INTERNATIONAL EXPERIENCE, PROBLEMS AND SOLUTIONS

**E.C.Cafarov, E.C.Rahimov**

**Azerbaijan Technological University**

**Summary:** One of the main goals of this direction is to improve the methods and mechanisms of management with the application of modern ICT in government agencies, increase efficiency, ensure accountability and transparency, increase the quality and use of e-services, create favorable conditions for citizens' participation in public administration. In this regard, we recommend that attention be paid to the formation of a list of priority information systems and resources and the creation of priority information systems of the state budget.

# ELEKTRON HÖKÜMƏTDƏ SƏNƏD DÖVRİYYƏSİNİN ƏHƏMİYYƏTİ

**E.S.Cəfərov, magistr S.İ.Kərimova**
**Azərbaycan Texnologiya Universiteti**

Elektron hökumət - ən son informasiya texnologiyalarından səmərəli istifadənin tətbiqinə əsaslanmış şəkildə bir sıra seçilmiş dövlət qurumları vasitəsilə təsdiqlənən, Azərbaycan Respublikasının ərazisində hal-hazırda yaşayan bütün vətəndaş statusu olan şəxslərə, hüquqi, fiziki statusa malik şəxslərə və xarici vətəndaşlara,eyni zamanda vətəndaşlıq statusu olmayan kəslərə informasiya xidmətlərinin və bununla yanaşı e-xidmətlərin göstərilməsinə yardım göstərir. Elektron sənəd idarəetmə sistemlərinin tətbiq edilmə proseduru elektron hökumət konsepsiyası prosesləri ilə yaxından bağlıdır. İndiki dövrdə, bir sıra ölkələr hökumətin səmərəliliyini artıran, geniş elektron xidmətlərin tətbiqinə imkan verən, vətəndaşların və digər şəxslərin iştirakının mümkünlüyünə imkan verən effektiv elektron sənəd idarəetmə sisteminin yaradılması üçün əhəmiyyətli səylər göstərirlər. Elektron sənəd idarəetməsi dövlət orqanları, dövlət və yerli idarəetmə, dövlət və vətəndaşlar arasında elektron texnologiyaların tətbiqi ilə qarşılıqlı əlaqənin sadələşdirilməsinə xidmət etməlidir. Ancaq xarici təcrübənin ilkin təhlili bu nəticəni verir ki, bu məqsədlər həmişə əldə edilmir. Elektron sənəd idarəetməsi elektron sənədlərin yaranması, işlənməsi, ötürülməsi, qəbul edilməsi, saxlanması və məhv edilməsi proseslərinin məcmusunu əhatə edir, bunlar yoxlanılması və bütövlüyü, etibarlılığı, həmçinin zəruri hallarda bu sənədlərin alınması faktının təsdiqlənməsi ilə aparılmalıdır. Bu, təkcə mürəkkəb texnoloji problemlərin deyil, həm də təşkilati,hüquqi problemlərin yaranmasına gətirib çıxardır ki, bu hallar da bir çox dövlətlərdə uzun müddət ərzində mərhələlərlə həll edilir. Bundan başqa, məlumat saxlama təhlükəsizliyinin təmin olunması, onun təsadüfən itirilməsi və ya bilərəkdən sızması ehtimalını gözə alaraq belə halların həll edilməsi üçün xüsusi çətinliklər yaranır. Aparat və proqram təminatının hazırkı 4 inkişaf səviyyəsi hələ məlumatların elektron şəkildə saxlanması və ötürülməsinin mütləq etibarlılığına zəmanət vermir. Müvafiq iş üçün, o cümlədən məlumatların qorunması sistemləri ilə bağlı xüsusi bilik və bacarıqlar tələb olunur. Bu proseslərin hüquqi təminatı sahəsində daha az mürəkkəb problemlər mövcuddur. 21-ci əsrin ən əsas zərurəti hesab edilən e-hökumət proqramı bir çox dövlətlər tərəfindən tətbiq olunur. Dünyadakı ölkələrin 98 faizinin e-hökumət portalı olması bunu sübut edir. Hazırda, portal üzərindən 500-ə yaxın xidmətdən ictimaiyyət istifadə edilməkdədir.EH portalının rəsmi olan Facebook səhifəsinə maraq gündəngünə artır. Hazırda, səhifənin minlərlə izləyicisi var.Səhifədə EH portalının e-xidmətlərdən yararlanmaq istəyən istifadəçi şəxslər öz düşüncələrini bildirir və tələb,təklifərini irəli sürürlər. Elektron hökumət layihəsi üzrə Azərbaycan MDB məkanında 4-cü sırada durur. Azərbaycanda elektron hökümətin tətbiqi Elektron Azərbaycan proqramı çərçivəsində aparılır və bununla yanaşı dövlət idarəçiliyinin keyfiyyətinin maksimumlaşdırılmasına yönəldilmişdir.

Dünyanın bütün ölkələrindən - Rusiya,ABŞ,Türkiyə,İngiltərə, Ruminiya, Almaniya, Danimarka, Ukrayna və s. ölkələrdə yaşayan istifadəçi şəxslərin portala müraciətinə əsasən deyə bilərik ki, bu e-portal Dünya azərbaycanlılarının vahidşəkilli bir informasiya məkanına çevrilmişdir. Belə qərara gəlmək olur ki, e-gov.az vətəndaş münasibətlərində və həmçinin dövlət münasibətlərində kifayət qədər vacib yerdədir. İnformasiya cəmiyyətin formalaşdırılmasında öndə olan məqsəd dövlət müəssisələri, vətəndaşlar və biznes qurumları arasında məhsuldar əlaqənin qurulmasından ibarətdir. Əsas xidmətlərin, misal olaraq, müxtəlif cür sertifikatlar,personal sənədlər,gəlir vergiləri, məşğulluqla əlaqədar xidmətlər və ya şirkətlərin qeydiyyatdan keçirilməsi, vergi,təminatla bağlı müxtəlif cür xidmətlərin 5 biznes qurumlara online təqdim edilməsi,sosial və s. xidmətlər -

vətəndaşların informasiya ilə qarşılıqlı əlaqəsinin yetərli olduğunun bariz nümunəsidir. Elektron imza texnologiyalarının tətbiq olunması vaxta qənaət, tanınma, məxfilik,rahatlıq, bütünlük, inkaredilməzlik (cari məsuliyyətdən yayınmanın mümkün olmaması), işgüzar münasibət və əlaqələrin elektron formalara keçirilməsi qədər çox böyük avantajlara sahibdir. E-xidmətlər, uyğun olaraq həyata keçirildiyi zaman, informasiya sistemlərinin istifadəsilə xidmət göstərmə proseduruna sərf olunan vaxtı müəyyən qədər azaldır.Həmçinin bu da idarəetmə orqanları və müəssisələri üçün açıq və aydın səmərəlidir. (daxili səmərəlilik məhz budur). İş yükünün azaldılması məqsədilə özünə peşəkar xidmət həlləri və inteqrasiya sxemləri qurmaq məqsədli hesab olunur. Bununla belə, e-xidmətlər vətəndaşların dövlət orqanlarına və müəssisələrinə əməliyyat aparmağa sərf edilən zaman müddətinin maksimum azalmasına zəmin yaradır.Bu hal iki tərəf üçün də çox səmərəli hesab olunur (xarici səmərəlilik). Online məlumat əldə olunma imkanı və interaktiv formanı düzgün doldurmaq, bir çox istifadəçinin vaxtına kifayət qədər qənaət edə bilər, ancaq bu mütləq deyildir. Əgər məlumat əldə edilmə məqsədilə yaxşı informasiya sistemi və axtarış operatorları mövcud deyilsə, istifadəçinin e-xidmətləri bir vaxt aparan alət kimi qəbul etmə ehtimalı vardır. Yuxarıda qeyd olunanlara nəzərən deyə bilərik ki, tədqiqat işinin mövzusu kifayət qədər aktual və bu sahənin tədqiqi məsələyə kompleks yanaşmanın mümkünlüyünü tələb edir.

Elektron hökumət və Elektron dövlət anlayışları bu sahənin mütəxəssisləri tərəfindən, o cümlədən da M.Janssen, H.J.Scholl, O.Glassey,P.Parycek , E. Tambouris, E. Kalampokis, Загорулько Ю.Ф., S.Virka, Кононенко С.И., Костов Ю.В. və digərləri tərəfindən öyrənilmişdir. Respublikamızda isə bu sahənin tədqiq olunmasında Fətəliyev T.X., İmamverdiyev Y.N., Əliquliyev R.M., və digərləri iştirak etsə də bu sahədə yetərincə boşluqların mövcud olması danılmaz faktdır. Ofis işinin bir istiqaməti olaraq sənəd idarəetmə avtomatlaşdırılması istənilən şirkətin fəaliyyətini müşayiət edən rəsmi sənədlərin sayının artmasının nəticəsidir. Avtomatlaşdırma sistemi və yaxud e-sənəd idarəetmə sistemi (EDMS) idarəetmə proseslərinə dəstək verir, sənədlərlə işi avtomatlaşdırmağa imkan yaradır. İstənilən növ materialdan gündəlik işlərin minimuma endirilməsi və əl işlərinin həcminin azaldılması üçün yalnız bir keçidlə icazə verilir; vahid elektron sənəd sənədlərinin formalaşması və rahat bir axtarış sisteminin yaradılması; kağız medianın azaldılması və tamamilə aradan qaldırılması; texnoloji proseslərə uyğun sənədlərin keçməsi üçün alqoritmlərin işlənməsi; inzibati proseslərə dəstək; işçilər və şöbələr arasında daxili sənədlərin sürətli mübadiləsi; təlimat və əmrlərin formalaşdırılmasını sürətləndirmək, habelə onların reallaşmasına nəzarət etmək; iş vaxtının paylanmasını planlaşdırmaq, işçilərin fəaliyyətini izləmək; xidmət sənədlərinin xarici sistemlər vasitəsilə ötürülməsi texnologiyasının inkişafı; sənədlərin işləmə sxeminin vahid bir alqoritmə endirilməsi;

mərkəzi obyekti olaraq ehökumət konsepsiyası çərçivəsində elektron sənəd dövriyyəsi eləcə də dövlət orqanlarında e-sənəddən istifadə mexanizmi seçilmişdir. Tədqiqat işinin predmetinin əsasında elektron hökumətdə elektron sənəd dövriyyəsi konsepsiyasının mahiyyətinin və gündəlik fəaliyyət sferasında əhəmiyyətinin təhlili dayanır.

Elektron hökumət konsepsiyası çərçivəsində elektron sənəd dövriyyəsinin istifadə mexanizmini müəyyən etməkdir 7 və onun təkminləşdirilməsi üzrə təkliflər verməkdir. Bu məqsədlə aşağıdakı əsas vəzifələrin icra olunması gərəkdir: Elektron hökumət və bununla yanaşı elektron dövlət anlayışlarının mahiyyəti əhatəli təhlil olunmalı; Elektron kökumət konsepsiyası çərçivəsində elektron sənədin dövriyyəsi mexanizmi hərtərəfli araşdırılmalı; Elektron hökumətdə sənəd dövriyyəsi və onun qurulması modelləri təhlil olunmalı; Azərbaycanda elektron hökumətdə sənəd dövriyyəsinin təkminləşdirilməsi üzrə təkliflər işlənilməlidir.

Tədqiqat işinin informativ bazasının əsasında e-hökumət, e-dövlət, e-sənəd və e-imza dövriyyəsi sahəsində yerli və xarici ədəbiyyatlar, jurnallar, elmi məqalələr, o cümlədən də internet informasiya ehtiyatlarının resursları durur.

Tədqiat işinin tədqiqində analiz və sintez metedologiyasından istifadə edilib. Xüsusilə vurğulaya bilərik ki, analiz metodu olaraq mövzu tam olaraq götürülmüş və daha sonra ayr-ayrı fəsillərə bölünərək hissə-hissə təhlil edilmişdir.

İşin elmi prizmadan yeniliyini aşağıdakılar təşkil edir: Elektron hökumətdə sənəd dövriyyəsinin mövcud problemləri müəyyən olunmuş və bu problemlərdən çıxış mexanizmləri araşdırılmışdır. Elektron hökumətin sənəd mübadiləsinin keyfiyyətlərinin artırılması istiqamətləri müəyyən edilmişdir. 8 Elektron hökumətdə sənəd dövriyyəsinin təkamülü mərhələləri müəyyən olunmuşdur.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Respublikasının inkişaf etməsi üçün İKT aid Milli strategiya (2004-2012)
2.Əlizadə M.N., Musayev İ.K., Əliyev E.B. "Müasir informasiya sistemlərinin idarəedilməsi", Bakı 2016, "MSV NƏŞR" nəşriyyatı, Dərslik, 248 s.

## ВАЖНОСТЬ ДОКУМЕНТООБОРОТА В ЭЛЕКТРОННОМ ПРАВИТЕЛЬСТВЕ

**Э.С.Джафаров, Мастер С.И.Каримова**
**Азербайджанский Технологический Университет**

**Резюме: Электронное правительство - это предоставление информационных услуг всем** гражданам, юридическим лицам, физическим лицам и иностранным гражданам, а также лицам без гражданства, проживающим в настоящее время на территории Азербайджанской Республики, одобренное рядом выбранных государственных органов на основе эффективного использования новейших информационных технологий и вто же время способствует предоставлению электронных услуг. Процедура внедрения систем электронного документооборота тесно связана с концептуальными процессами электронного правительства.

## THE IMPORTANCE OF DOCUMENT CIRCULATION IN E-GOVERNMENT

**E.S.Cafarov, master S.İ.Karımova**
**Azerbaijan Technological University**

**Summary:** E-government is the provision of information services to all citizens, legal entities, individuals and foreign citizens, as well as stateless persons currently living in the territory of the Republic of Azerbaijan, approved by a number of selected government agencies based on the effective use of the latest information technologies. At the same time facilitates the provision of e-services. The procedure for implementing e-document management systems is closely related to the e-government concept processes.

# MALİYYƏ TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN FORMALAŞMASI

**T.M.Zeynalov**
**Azərbaycan Texnologiya Universisteti**
**teymur_z@mail.ru**

Dünya təcrübəsi göstərir ki, istənilən iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. Bu baxımdan dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbətinin və hədlərinin müəyyən edilməsinin müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin əsas probleminə çevriləcəyi gözlənilir. Bütün iqtisadi sistemlərdə dövlət iqtisadiyyata müdaxilə edir və bu müdaxilə adətən bazarın natamamlıqlarını aradan qaldırmağa yönəlir.

Aparılan araşdırma zamanı, məlum olub ki, bazar iqtisadiyyatı ümumən özünütənzimləmə sistemi kimi fəaliyyət göstərməsinə baxmayaraq, sırf bazar iqtisadiyyatı mövcud deyil və hal-hazırda milli iqtisadiyyatlar daha cox qarışıq bazar iqtisadiyyatı kimi fəaliyyət göstərir. Iqtisadiyyatın dövlət tənzimlənməsi sistemində dövlət, dövlət orqanlarının simasında iqtisadi obyektivə, proseslərə, onlarda iştirak edənlərə təsir göstərməklə, onları özünütəşkil və idarəolunan etməklə müvafiq olan qanunlarına riayət olunmasını, dövlət və ictimai maraqların qorunmasını təmin etməyə çalışır. Tədqiqat zamanı qarşıya qoyulan məsələlər aşağıdakıları əhatə etmişdir: Maliyyə mexanizminin formalaşmasının nəzəri və praktiki məsələləri və iqtisadiyyatın dövlət tənzimlənməsinin maliyyə mexanizminin həyata keçirilməsi. Maliyyə tənzimlənməsi mexanizminin formalaşması və həyata keçirilməsi nəzərə alınmalıdır daxili iqtisadiyyatın xüsusiyyətləri və strukturu, qloballaşmanın dərinliyi və maliyyə institutlarının inkişaf dərəcəsi. Maliyyə idarəetmə mexanizminin istiqaməti mövcud problemlərin həlli üçün sistem konsentrasiyanı, bölüşdürülməsini, maliyyə və iqtisadi resursların yenidən bölüşdürülməsi, iqtisadiyyatın innovasiyaya yönləndirilməsi inkişaf modelləri və ölkənin tarazlı sosial-iqtisadi inkişafının əldə edilməsi, əhalinin ödəmə qabiliyyəti səviyyəsinin yüksəldilməsi. Maliyyə siyasətinin təkmilləşdirilməsi dövlət maliyyə maliyyə mühitinin səviyyəsinin yaxşılaşması ilə müşayiət olunmalıdır iqtisadi artım mexanizmi.

Məqsəd maliyyə mexanizminin mahiyyətini əsaslandırmaqdır iqtisadiyyatın dövlət tənzimlənməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin əsaslandırmaq və iqtisadi transformasiya şərtləri. İqtisadiyyatın dövlət tənzimlənməsində istifadə olunan metodların təsnifləşdirilməsi mürəkkəb prosesdir. Təkmilləşdirilməsi ilə bağlı məsələlərin həlli yollarının araşdırılması davam edir.

**Ədəbiyyat siyahısı:**

1. Allahverdiyev H.B, Qafarov K.S, Əhmədov Ə.M «Milli iqtisadiyyatın dövlət tənzimlənməsi», Bakı, 2007.
2. Əliyev A.A., Şəkərəliyev A.Ş Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti. Bakı, Az. DİU, 2002.
3. Həsənov R.T. AzərbaycanRespublikasınınsosial-iqdisadiinkişafının bazar modelininkonseptu-aləsasları. Bakı, 1998.
4. Lisyak L.V. Sosial-iqtisadi sahənin dövlət tənzimlənməsi sistemində büdcə siyasəti./ Lisyak L.V. - K.: Akad. fin. Upr., 2009 .
5. Qafarov Ş.S. Müasiriqtisadisistemvəqloballaşma. Bakı.2005

# ФОРМИРОВАНИЕ МЕХАНИЗМА ФИНАНСОВОГО РЕГУЛИРОВАНИЯ

**Т.М.Зейналов**
**Азербайджанский Технологический Университет**
**teymur_z@mail.ru**

**Резюме**: Мировой опыт показывает, что государство играет решающую роль в обеспечении нормального функционирования любой экономической системы. С этой точки зрения ожидается, что определение взаимодействия между государством и экономикой, оптимального соотношения и пределов государственного вмешательства в экономику станет основной

проблемой совершенствования государственного регулирования экономики в наше время. Во всех экономических системах государство вмешивается в экономику, и это вмешательство обычно направлено на преодоление недостатков рынка.

Исследование показало что, хотя рыночная экономика обычно функционирует как система саморегулирования, чисто рыночной экономики не существует, и в настоящее время национальные экономики функционируют в большей степени как смешанная рыночная экономика. В системе государственного регулирования экономики государство в лице государственных органов стремится обеспечить соблюдение соответствующих законов, защиту государственных и общественных интересов, воздействуя на экономический объект, процессы и их участников, делая их самими собой. -организованный и самоуправляемый. В ходе исследования были подняты следующие вопросы: Теоретические и практические вопросы формирования финансового механизма и реализации финансового механизма государственного регулирования экономики. Формирование и реализация механизма финансового регулирования должны учитывать особенности и структуру отечественной экономики, глубину глобализации и степень развития финансовых институтов. Направление механизма финансового управления - системная концентрация, распределение, перераспределение финансовых и экономических ресурсов для решения существующих проблем, инновационно-ориентированных моделей развития экономики и достижения сбалансированного социально-экономического развития страны, повышения платежеспособности населения. Совершенствование фискальной политики должно сопровождаться улучшением уровня механизма экономического роста государственной финансовой среды.

## FORMATION OF FINANCIAL REGULATORY MECHANISMS

**T.M.Zeynalov**
**Azerbaijan Technological University**
**teymur_z@mail.ru**

**Summary**: World experience shows that the state plays a decisive role in ensuring the normal functioning of any economic system. From this point of view, determining the interaction between the state and the economy, the optimal ratio and limits of state intervention in the economy, is expected to be the main problem of improving state regulation of the economy in modern times. In all economic systems, the state interferes in the economy, and this intervention is usually aimed at overcoming the shortcomings of the market.

The research showed that although the market economy generally operates as a system of self-regulation, there is no purely market economy, and currently national economies operate more as a mixed market economy. In the system of state regulation of the economy, the state, in the form of state bodies, seeks to ensure compliance with the relevant laws, protection of state and public interests by influencing the economic object, processes and their participants, making them self-organized and self-governing. The issues raised during the research covered the following: Theoretical and practical issues of the formation of the financial mechanism and the implementation of the financial mechanism of state regulation of the economy. The formation and implementation of the mechanism of financial regulation should take into account the characteristics and structure of the domestic economy, the depth of globalization and the degree of development of financial institutions. The direction of the financial management mechanism is systemic concentration, distribution, redistribution of financial and economic resources to solve existing problems, innovation-oriented development models of the economy and achieving balanced socio-economic development of the country, increasing the solvency of the population. Improvement of fiscal policy should be accompanied by an improvement in the level of public financial environment economic growth mechanism.

# MÜƏSSİSƏLƏRDƏ MARKETİNQİN TƏTBİQİNİN VƏ ƏMTƏƏ SİYASƏTİNİNTƏHLİLİ

**b.m Ş.N.Qarayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**Şehlaqarayeva@yandex.ru**

Bazar münasibətləri şəraitində istənilən müəssisənin fəaliyyətini marketinqsiz təsəvvür etmək mümkün deyil. Belə ki, hazırkı şəraitdə marketinq müəssisənin istehsal-satış fəaliyyətinin bazar yönümlü idarə edilməsi konsepsiyası kimi qəbul edilir və bunu fəaliyyətlərində tətbiq etmə Bazar münasibətləri şəraitində istənilən müəssisənin fəaliyyətini marketinqsiz təsəvvür etmək mümkün deyil. Belə ki, hazırkı şəraitdə marketinq müəssisənin istehsal-satış fəaliyyətinin bazar yönümlü idarə edilməsi konsepsiyası kimi qəbul edilir və bunu fəaliyyətlərində tətbiq etməyən subyektlərin uzunmüddətli dövrdə bazarda qalmaları çox çətindir. Bu, həm də ölkəmizin sənaye müəssisələrinə aiddir. Ona görə də sənaye müəssisələrində marketinqin tətbiqi zəruridir və bu konsepsiyanın tətbiqi menecerlərdən böyük məharət və yaradıcılıq tələb edir. Müəssisələrdə marketinq fəaliyyəti çoxsaylı idarəetmə qəraralarının qəbulunu tələb edir. Onlar istehsal ediləcək məhsullara, onların qiymətlərinə, bölüşdürülməsinə və satışına, satışın stimullaşdırılmasına və reklam fəaliyyətinə aid olmaqla hərtərəfli əsaslandırma tələb edir [2]. İstehlakçıların ehtiyac və .tələbatlarının ödənilməsi əslində marketinq kompleksinin sadalanan elementlərinin əlaqələndirilməsi vasitəsilə mümkün olur [1]. Əks halda müəssisənin bazar fəaliyyətinin səmərəliliyinin təmin olunması mümkün deyil. Marketinq fəaliyyətinə dair qəbul edilən qərarların əhəmiyyətli hissəsi bu fəaliyyətin tərkib hissəsi kimi əmtəə siyasətinə aiddir. İstehsal ediləcək məhsulların dəqiqləşdirilməsi, məhsul çeşidinin formalaşdırılması, yeni məhsulların istehsalı, onların markalanması və qablaşdırılması üzrə qəbul edilən qərarlar marketinqdə əmtəə siyasəti üzrədir. Lakin bu fəaliyyət təkcə əmtəə siyasətindən ibarət deyil. Sözügedən fəaliyyət həm də qiymət, bölüşdürmə və satış, həmçinin kommunikasiya siyasətini də özünə daxil edir. Əslində fəaliyyət sferasından asılı olmayaraq, istənilən müəssisədə marketinqin idarə edilməsi sadalanan alt fəaliyyət növlərinə daxil olan tədbirlərin kompleks icrası sayəsində mümkün olur.

Hazırkı şəraitdə Azərbaycanın müəsisələrinin marketinq fəaliyyətinin səmərəliliyinin təmin olunması onlarda əmtəə siyasətinin formalaşdırılmasın bazarın tələbləri baxımından yanaşmağı tələb edir.Tədqiqatın məqsədi sənaye müəssisələrində əmtəə siyasətinin marketinq aspektlərinə dair elmi əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdur.Bu məqsədləAzərbaycanın sənaye müəssisələrinin əmtəə siyasətinin bazarın tələbləri ilə uzlaşdırılması aspektində özünü göstərən problemlərin müəyyənləşdirilmiş və onların həlli üsulları təklif olunmuşdur. Konkret olaraq aşağıdakılar müəyyənləşdirilmişdir:

- sənaye müəssisələrində marketinqin tətbiqinin zəruriliyi, onun yeni idarəetmə metodu kimi müəssisələrə verdiyi üstünlüklər;
- sənaye müəssisələrində yeni məhsulun işlənib hazırlanmasının təkmilləşdirilməsinə
- sənaye müəssisələrində məhsulların markalanması strategiyaları və onların mahiyyəti.

Tədqiqatişində irəli sürülən təkliflərdən istifadə edilməsi sənaye müəssisələrinin bazar fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi iləyanaşı, uzunmüddətli dövrdə bazar fəaliyyətinin davamlılığına gətirib çıxara bilər.

**Ədəbiyyat siyahısı:**

1. Курс МВА по маркетингу Чарльз Д. Шив, Александр У. Хайем.- М.. Альпина Бизнес курс,208- 283:
2. Комлер Филип, Гари Амстронг, Вераника Вонг, Джон Сендерс . Основы маркетинга 15-ое Европейскоеиздание.М: «Вильямс», 2012

**АНАЛИЗ ПРИМИНЕНИЯ МАРКЕТИНГА И ТОВАРНОЙ СТРАТЕГИИ НА ПРЕДПРИЯТИЯХ**

**Ш.Н.Гараева**
**Азербиджанский Технологический Университет**
**Şehlaqarayeva@yandex.ru**

**Резюме:** Работа посвящена маркетинговым аспектам формирования товарной политики на промышленных предприятиях. Выясняется текущее состояние применения маркетинга и анализируется товарная политика этих предприятий.

**ANALYSIS OF THE APPLICATION OF MARKETING AND PRODUCT STRATEGY IN ENTERPRISES**

**S.N.Garayeva**
**Azerbaijan Technological University**
**Şehlaqarayeva@yandex.ru**

**Summary:** The work is devoted to the marketing aspects of the formation of commodity policy at industrial enterprises. The current state of the marketing application is clarified and the product policy of these enterprises is analyzed.

# ELEKTRON MARKETINQIN ISTEHLAKÇILARIN SATINALMA DAVRANIŞLARINA TƏSIRI

**O.V.Abdullayev**
**Azərbaycan Texnologiya Universiteti**
**aevorxan.20@gmail.com**

Texnologiyanın inkişafı biznes-istehlakçı münasibətlərini fərqli bir ölçüyə aparmışdır. İnformasiyacəmiyyəti ilə birlikdə gələn yeni marketinq yanaşmasında istehlakçılar mühüm mövqeyə gələrək müxtəlif üstünlüklər qazanmışdırlar. Bu gün istehlakçılar satın almaq istədikləriməhsullar haqqında ətraflı məlumatı asanlıqla və pulsuz əldə edə bilirlər. İstehlakçıların daha çox alternativ axtarışı içində olması və satınalmaq istədikləri məhsullar haqqında soruşulacaq sual və cavabların sayının artması istehkalçılara yeni bir reallıq qazandırmışdır. Kommunikasiya texnologiyalarında irəliləyişlər istehlakçıların satınalma formaları və istehlak vərdişlərində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Fərdiləşdirilmiş, zaman və məkan məhdudiyyəti olmadan ən qısa zamanda və istədiyi vaxtda tələblərinin qarşılanmasını gözləyən, fərqlilik və yaradıcılıq axtaran, marka asıllığı güclü olmayan, fərdiləşdirilmiş istehsala əhəmiyyət verən yeni istehlakçı növüortaya çıxmışdır.

Texnologiyanın sürətli inkişafı nəticəsində cəmiyyətin bir çox təbəqələri tərəfindən istifadəsi, insanların həyatları ilə yanaşı istehlak anlayışlarını da dəyişdirdi. Yeni bazar strukturları və satınalma üsulları meydana çıxdı. İstehlak bazarında rəqabət dominantığını ələ keçirərək uğur qazanmaq istəyən müəssisələr insanların istehlak vərdişlərini nəzərə almağa məcburdurlar. Elektron marketlərdə alış-veriş istehlakçılara bir çox üstünlüklər verir. İstehlakçılar elektron marketlərdə alış-veriş vaxtı daha müstəqil və sərbəst davranış nümayiş etdirirlər. Çünki, alış-verişlərdə mağazada olmağın istehlakçılar üzərindəki təzyiqi elektron alış-verişlərdə mövcud deyil.

Elektron marketinq müəssisələrə, istehlakçıların şəxsi istək, ehtiyyac və tələblərinə uyğun xidmət göstərmək imkanını təmin etməklə; mal və xidmətlərin daha az qiymətə və çox az qısa müddətdə müştərilərə çatdırılmasını asanlaşdırır. Buna görə də müəssisələr istehlakçıların elektron marketlərdə alış-veriş etmək və ya etməmək səbəblərini öyrənməsi, bu xidmətlərin inkişafı və daha geniş auditoriyalara müraciət edər hala gətirməsi baxımından böyük bir əhəmiyyətə malikdir.

Bu gün sosial media da istehlakçı davranışına təsir edən psixoloji faktora çevrilmişdir. İstehlakçıların bir-birinə təsir etməsi və bir-birindən təsirlənməsi yeni bir alt faktor mənasında sosial medianın istehlakçı davranışına təsirini izah edir.İstehlakçısosiallaşma nəzəriyyəsinə, istehlakçılar arasında ünsiyyətin koqnitiv, həssas və davranış münasibətlərinə təsir edəcəyini proqnozlaşdırır.

İstehlakçılar məhsul və ya xidməti satın almazdan əvvəl ən aşağı qiymətə və ən yüksək faydaya malik olan məhsul və ya xidmətə üstünlük verirlər. İstehlakçıların satınalma qərarı beş mərhələdə baş verir. Birincisi, bir istək və yaehtiyac yaranır, ona görə dəistehlakçının alış prosesi başlayır. Sonra məlumatlartoplanır və alternativlər müəyyən edilir. Üçüncü mərhələdə alternativlər qiymətləndirilir və ən çox uyğun olanı seçilir. Dördüncü mərhələdə alış baş verir. Son mərhələ isə satın alınan məhsul və ya xidmətin qiymətləndirilməsi ilə başa çatır.

Qısacası, istehlakçının satınalma qərarı vermə prosesi; problemi müəyyən etmək, məlumat axtarmaq və variantları tapmaq, variantları qiymətləndirmək, satınalma qərarı və satınalmadan sonrakı qiymətləndirmə mərhələsindən ibarətdir.İstehlakçılar bir ehtiyac hiss etdikdə, xüsusilə internet və sosial media alətləri vasitəsilə daha çox məlumat əldə edirlər. Bu platformalar və tətbiqlərlə həm markaları, həm də məhsul və xidmətləri müqayisə etmək imkanı əldə edirlər.

Sosial medianın istehlakçıların satın alma davranışı və prosesi ilə bağlı üstünlüklərindən biri də müştərilərin dünya üzrə müəssisələrə aid məhsul və xidmətləri yoxlaya bilməsi, seçə bilməsi və satınala bilməsi; müəssisələrin də dünya üzrə bir müştəri auditoriyasına çatdırmasını təmin etməsidir. Xüsusilə yeni bir istehlakçı sosiallaşma forması olan sosial media vasitəsilə qərarların qəbuluna və marketinq strategiyalarına dərindən təsir edir. Sosial media istehlakçılarla müəssisələri dərhal, sərfəli və interaktiv şəkildə bir araya gətirən və əlaqələrin inkişafı üçün zəmin qoyan platformadır.

Müəssisələrin sosial mediada hədəf auditoriyanın zövqləri, istəkləri və yenitendensiyalar üzərində işləməsimarketinq fəaliyyəti baxımından əhəmiyyətlidir. Xüsusilə sosial şəbəkələr istehlakçılar tərəfindən ən çox istifadə edilən və buna görə də ən çox təsirlənən vasitə olduğundan,

müəssisələr bütün xəbərlərini, reklam və təqdimatlarınısosial şəbəkələrdən istifadə edərək etməlidir. Bunların hər birini reallaşdırılarkən sosial medianın dinamik quruluşu unutmaq olmaz. Bu kimi müəssisələrfenomenlər vasitəsilə etdikləri reklamlar sayəsindəistehlakçıları manipulyasiya edərək satış rəqəmlərini artırmağa çalışırlar. Eyni zamanda, müəssisələr istehlakçıların internet və sosial media asılılığından istifadə edərək, həm də onlara psixoloji təsir göstərirlər.

Sosial media satınalma davranışına birbaşa təsir edən brend münasibətləri yarada bilər.Güclü və yaxşı brend imicinin olmağı istehlakçının satınalma davranışına səbəb ola bilər. İstehlakçının sosial mediadakı əlaqələri və ya dostları bir məhsul rəyini paylaşdıqda və ya məsləhət gördükdə,bu həmin şəxsin brendə münasibətinə və qərar vermə proseslərinə də təsir edir. Sosialmedia üzərindən satınalmanın; sürət, rahatlıq, informasiyanın müxtəlifliyi, informasiyaya asan çıxış,qarşılıqlı əlaqə və vaxta qənaət kimi xüsusiyyətləri istehlakçı davranışına təsir göstərir.Müəssisələr indi rəqəmsal istehlakçılar üçün daim rəqəmsal marketinq strategiyaları yaradaraq, davamlılıq və təqibi əldən buraxmadan rəqibləri arasında fərq yarada və üstünlük qazana biləcəklər.

**Açarsözlər:** Elektron marketinq, elektron marketinq kompleksi, istehlakçı davranışı

**Ədəbiyyat siyahısı:**

1. Aksoy, R. (2006). İnternet Ortamından Pazarlama (Birinci Baskı). Ankara: Seçkin yayıncılık, 49, 85, 110.
2. Chaffey, D. (2009). E-business and e-commerce management: strategy, implementation and practice (Fourth Edition), Pearson Education, 515
3. Çakır, S.Y. (Editör). (2010). Teknolojinin Pazarlama İletişimine Etkileri (Birinci Baskı). İstanbul: Nobel yayın, 4-5.
4. Çoroğlu, C. (2002). Modern İşletmelerde Pazarlama ve Satış Yönetimi, İstanbul: Alfa Yayınları Yönetim Dizisi, 139
5. Dominici, G. (2009). From Marketing Mix to E-Marketing Mix: a Literature Overview and Classification, International Journal of Business and Management, Italy, 4, 9.

## ВЛИЯНИЕ ЭЛЕКТРОННОГО МАРКЕТИНГА НА ПОКУПАТЕЛЬСКОЕ ПОВЕДЕНИЕ ПОТРЕБИТЕЛЕЙ

**О.В.Абдуллаев**
**Азербайджанский Технологический Университет**
**aevorxan.20@gmail.com**

**Резюме**: Быстрое развитие новейших продуктовых технологий привело к увеличению использования Интернета во всем мире. Однако возник новый феномен покупок, который определил это понятие в маркетинговых инструментах и методах. В данной статье анализируется регрессионная модель, которая влияет на поведение потребителей электроэнергии в результате предотвращения воздействия на электронные рынки и электронные возможности.

**Ключевые слова:** Электронный маркетинг, комплекс электронного маркетинга, поведение потребителей

## THE IMPACT OF E-MARKETING ON CONSUMER PURCHASING BEHAVIOR

• xalis elektron kommersiya (üçüncü səviyyəli elektron kommersiya) – malların və xidmətlərin elektron formasında olması və onların elektron bazar məkanında çatdırılmasının elektron formasından istifadə olunması.

İnternet-biznes son zamanlar yeni imkanlar yaradır. Lakin digər tərəfdən elektron bazar hələ ki ənənəvi bazarlarla müqayisədə zəifdir. Elektron kommersiyanın potensialının tam reallaşdırılması üçün bir sıra problemlər həll olunmalıdır.

**Açar sözlər:** elektron kommersiya, internet, elektron bazar, elektron ödənişlər.

## ПОНЯТИЕ ЭЛЕКТРОННОЙ КОММЕРЦИИ И ВЛИЯНИЕ ЕЕ РАЗВИТИЯ НА ЭКОНОМИКУ

**Н.А.Гаджиева, мастер В.Б.Мамедли**
**Азербайджанский Технологический Университет**

**Резюме:** Сегодня термин «электронная коммерция» относится в первую очередь к предоставлению товаров и услуг через глобальную информационную сеть.

Началом этапа электронной коммерции можно считать 1960 год, когда American Airlines и IBM начали создавать автоматизированную систему бронирования и резервирования билетов на рейсы - SABER (Semi-Automatic Business Research Environment). В 1964 году система могла резервировать места для 26 000 пассажиров в день. Телефонные терминалы SABRE American Airlines работают более чем в 150 городах.

## THE CONCEPT OF E-COMMERCE AND THE IMPACT OF ITS DEVELOPMENT ON THE ECONOMY

**N.A.Hajiyeva, V.B.Mammadli**
**Azerbaijan Technological University**

**Summary:** Today, the term "e-commerce" refers primarily to the provision of goods and services through a global information network.

The 1960s can be considered the beginning of the e-commerce phase, when American Airlines and IBM began to create an automated system for booking and reserving tickets for flights - SABRE (Semi-Automatic Business Research Environment). In 1964, the system was able to reserve seats for 26,000 passengers a day. American Airlines SABRE telephone terminals operated in more than 150 cities.

# COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ İSTEHLAKÇI DAVRANIŞI

**S.D.Məmmədov, dos. V.İsmayılov**

**Azərbaycan Texnologiya Universiteti**

COVID-19 pandemiyası sadəcə sağlamlıq böhranı deyil: o, bütün həyat tərzimizi gözlənilmədən dəyişdi. Satışlarla bağlı iqtisadi məlumatların təhlilinin təklif etdiyi kimi, bu dramatik ssenari insanların xərcləmə səviyyələrinə də böyük təsir göstərmişdir. Bu dəyişiklikləri daha yaxşı başa düşmək üçün bu araşdırma istehlakçı davranışına və onun psixoloji öncüllərinə diqqət yetirmişdir. Əvvəlki tədqiqatlar göstərdi ki, böhranlar insanların zəruri və qeyri-zəruri ehtiyac məhsulları almaq istəyinə fərqli təsir göstərir. Buna görə də, xərcləmə səviyyələrindəki dəyişikliklərin istehlakçı davranışındakı dəyişikliklərlə əlaqəli olub-olmadığını araşdırarkən biz zərurətlər və qeyri-zərurətlər arasında fərqi nəzərə almışıq.

Koronavirus xəstəliyi 2019 (COVID-19) aşağı tənəffüs yollarının [1,2] infeksiyasına (SARS-CoV-2) aiddir və ilk dəfə 2019-cu ilin dekabr ayının sonlarında Vuhanda (Çin) aşkar edilmişdir. O vaxtdan bəri, COVID-19-un yoluxma halları qlobal miqyasda hər gün artır [3]. 2020-ci ilin mart ayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19 epidemiyasını qlobal pandemiya elan etdi [4]. Sonradan, bir neçə milli hökumət virusun yayılmasını azaltmaq üçün uzunmüddətli tam və ya qismən qapanma tədbirləri həyata keçirdi.

Əslində, COVID-19 pandemiyası cəmiyyətlərə və iqtisadiyyatlara çox təsir etdiyi üçün sadəcə sağlamlıq böhranından daha çox şey kimi müəyyən edilə bilər. COVID-19 epidemiyası, bu onillikdə baş verən hər hansı digər hadisələrdən daha çox işləməyimiz, ünsiyyətimiz və alış-verişimizi gözlənilməz şəkildə dəyişdi [6]. Hazırkı araşdırmanın nəticələri vurğuladı ki, COVID-19 pandemiyasının istehlakçı davranışına əhəmiyyətli dərəcədə təsiri var. Nümunəmizdə bu təsir həm zəruri, həm də qeyri-zəruri məhsulların alınması üçün psixoloji ehtiyacın artması ilə müşayiət olunan xərc səviyyələrinin artması ilə nəticələndi. Bundan əlavə, tədqiqat nəticəsi bir neçə psixoloji faktorun istehlakçı davranışında bu dəyişiklikləri proqnozlaşdırdığını nümayiş etdirdi. Xüsusilə, zərurət və qeyri-zərurətlərə qarşı istehlakçı davranışı bəzi psixoloji proqnozlaşdırıcılara görə fərqlənirdi. Beləliklə, COVID-19 pandemiyası ilə əlaqədar olaraq, nəticələrimizi istehlakçı davranışının qeyri-funksional aspektlərinin araşdırmaları ilə birləşdirmək maraqlı olardı. Bundan əlavə, bu misli görünməmiş dövrdə psixoloji amilləri və istehlakçı davranışını öyrənmək üçün unikal imkan yarandığından, biz COVID-19 pandemiyası zamanı istehlakçı davranışına dair ilk icmallardan birini əldə edərək, bir neçə psixoloji faktorun təsirini bir anda nəzərdən keçirmək üçün inteqrativ yanaşma tətbiq etdik. Bununla belə, bütün bu psixoloji amillərin birləşməsi istehlakçı davranışına təsir edən fərdi amillərin hər birinin spesifik rollarını gizlədə bilən aqreqasiya meylinə[93] gətirib çıxara bilərdi. Buna görə də, gələcək tədqiqatlar hər bir amilin rolunu ayırmaq üçün daha incə yanaşma tətbiq edə bilər. Beləliklə, gələcək tədqiqatlar pandemiyanın inkişafı ilə əlaqədar istehlakçı davranışlarının təkamülünü araşdırmalıdır. Həqiqətən də, çox güman ki, "təcililik hissi" və fövqəladə vəziyyətə mənfi təsiredici reaksiya azaldıqda, alış və satınalma üstünlükləri də dəyişəcək. Bu araşdırmada biz istehlakçı davranışına təsir edə biləcək fərdi daxili amillərə diqqət yetirdik. Bununla birlikdə, digər xarici amillər, o cümlədən mağazaların bağlanması kimi məhdudiyyətləri, şübhəsiz ki, istehlakçı davranışına əlavə təsir göstərdi. Bu məhdudiyyətlərə baxmayaraq, bu tədqiqat COVID-19 pandemiyası zamanı istehlakçı davranışındakı dəyişiklikləri davranış iqtisadi nöqteyi-nəzərindən araşdırmaq üçün ilk cəhdlərdən biridir. Nəticə etibarı ilə, hazırkı tədqiqat pandemiya ilə əlaqədar insanların davranışlarında baş verən dəyişikliklərə yeni işıq salmaqla, gələcək sağlamlıq fövqəladə halları qarşısında iqtisadi və psixoloji hazırlığı artırmağa kömək edən tədqiqat kimi əhəmiyyətlidir.

**Açar sözlər:** Covid 19, istehlakçı davranışı, psixoloji faktor, xərclər

**Ədəbiyyat siyahısı:**

1. Ashour HM, Elkhatib WF, Rahman MM, Elshabrawy HA. Insights into the Recent 2019 Novel Coronavirus (SARS-CoV-2) in Light of Past Human Coronavirus Outbreaks. Pathogens. 2020; 9: 186. https://doi.org/10.3390/pathogens9030186 PMID: 32143502
2. Wo¨lfel R, Corman VM, Guggemos W, Seilmaier M, Zange S, Mu¨ller MA, et al. Virological assessment
of hospitalized patients with COVID-2019. Nature. 2020; 1–10. https://doi.org/10.1038/s41586-020-2196-x PMID: 32235945
3. John Hopkins University. Coronavirus COVID-19 Global Cases by the Center for System Science and Engineering (CSSE). In: Johns Hopkins Coronavirus Resource Center [Internet]. 2020 [cited 20 Jul 2020]. Available: https://coronavirus.jhu.edu/map.html
4. Mahase E. China coronavirus: WHO declares international emergency as death toll exceeds 200. BMJ. 2020; 368: m408. https://doi.org/10.1136/bmj.m408 PMID: 32005727
5. Chohan UW. A Post-Coronavirus World: 7 Points of Discussion for a New Political Economy. SSRN Journal. 2020 [cited 20 Apr 2020]. https://doi.org/10.2139/ssrn.3557738

## ПОТРЕБИТЕЛЬСКОЕ ПОВЕДЕНИЕ ВО ВРЕМЯ ПАНДЕМИИ COVID-19

**С.Д.Мамедов,**
**В.Исмайлов**
**Азербайджанский Технологический Университет**

**Резюме:** Пандемия COVID-19 - это гораздо больше, чем кризис здоровья: она непредсказуемо изменила весь наш образ жизни. Как показывает анализ экономических данных о продажах, этот драматический сценарий также сильно повлиял на уровень расходов физических лиц. Чтобы лучше понять эти изменения, настоящее исследование сосредоточено на поведении потребителей и его психологических предпосылках. Предыдущие исследования показали, что кризисы по-разному влияют на готовность людей покупать товары первой необходимости (например, утилитарные покупки) и товары, не являющиеся предметом первой необходимости.

**Ключевые слова**: Covid 19, поведение потребителей, психологический фактор, затраты

## CONSUMER BEHAVIOR DURING THE COVID-19 PANDEMY

**S.D.Mammadov,**
**V.Ismayılov**
**Azerbaijan Technological University**

**Summary:** The COVID-19 pandemic is far more than a health crisis: it has unpredictably changed our whole way of life. As suggested by the analysis of economic data on sales, this dramatic scenario also greatly impacted individuals' spending levels. To better understand these changes, the present study focused on consumer behavior and its psychological antecedents. Previous studies found that crises differently affect people's willingness to buy necessities products (i.e., utilitarian shopping) and non-necessities products (i.e., hedonic shopping). Therefore, in examining whether changes in spending levels were associated with changes in consumer behavior, we adopted a fine-grained approach disentangling between necessities and non-necessities.

**Key words**: Covid 19, consumer behavior, psychological factor, costs

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ İNTENSİVLƏŞMƏNİN NƏZƏRİ ASPEKTLƏRİ

**magistr A.F.Hacıyeva**
**Azərbaycan Dövlət Aqrar Universteti**
**almaz.haciyeva.96@gmail.com**

Kənd təsərrüfatının səmərəli fəaliyyət göstərməsi əvvəlki şəraitdə kifayət qədər texniki təchizat olmamasına, maşın və alətlərin aşağı məhsuldarlığına, ekstensiv üsullardan istifadəyə əsaslana bilməz. Bu baxımdan aqrar sektorun fəaliyyətinin səmərəliliyinin artırılmasının əsas vasitəsi və istiqamətləri kimi intensivləşdirmə proseslərinin daha da aktivləşdirilməsi aktuallaşır. Bu prosesin əsas məqsədi əhalinin artan tələbatını daha yaxşı ödəmək üçün məhsulların istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsidir. Son vaxtlara qədər aqrar sahədə iqtisadiyyatın inkişafı əsasən ekstensiv metodlardan istifadə ilə bağlı idi. Eyni zamanda kənd təsərrüfatının kifayət qədər texniki təchiz olunmaması, maşın və alətlərin aşağı məhsuldarlığı və s. əvvəlki kimi effektiv fəaliyyət göstərməsi üçün əsas şərtlər deyil. Odur ki, aqrar sektorun fəaliyyətinin səmərəliliyinin artırılmasının əsas vasitəsi və istiqamətləri kimi intensivləşdirmə proseslərinin daha da aktivləşdirilməsi aktuallıq kəsb edir.

K.Marksın əsərlərində intensivləşmənin nəzəri məsələlərinə geniş yer verilir. K.Marks intensivləşmə anlayışını və çoxalmanın ekstensiv və intensiv formaları arasındakı fərqlərin mahiyyətini müəyyən etmiş, torpağın münbitliyinin elmi konsepsiyasını vermiş, diferensial rentanın mahiyyətini və hərəkətini tədqiq etmişdir. Kapitalist təsərrüfat sisteminə münasibətdə kənd təsərrüfatının intensiv inkişafının əsas qanunauyğunluqları üzə çıxarıldı, o cümlədən intensivləşdirmənin əsas göstəriciləri və tədqiqat üsulları müəyyən edildi, intensivləşmə ilə elmi-texniki tərəqqi arasında əlaqə quruldu.

İqtisadi ədəbiyyatda kənd təsərrüfatının intensivləşdirilməsi probleminə çox diqqət yetirilir. Tədqiqatlar göstərmişdir ki, bir çox müəlliflər istehsalın intensivləşdirilməsini iqtisadiyyatın intensiv xarakterinin gücləndirilməsi meyarı əmək məhsuldarlığının artımı olduğu konsepsiyaya endirirlər. Bu nöqteyi-nəzərin tərəfdarları təkrar istehsal növlərinin təsnifatını şəxsi amillə əlaqələndirirlər və işləyənlərin sayında artımın və ya onların əməyinin məhsuldarlığının yüksəlməsindən asılı olaraq istehsalı əsasən ekstensiv və ya intensiv növünə aid edirlər.

V.V.Miloserdovanın fikrincə, intensivləşmə maddi nemətlərin istehsalı amillərinin (canlı əmək, əmək alətləri və vasitələri, material, yanacaq, enerji) təsirinin güclənməsi, təbiətin qüvvə və xassələrindən, ictimai əməyin potensialından daha yaxşı istifadə olunmasıdır. İntensifikasiyanın obyekti ümumilikdə istehsal deyil, istehsal amilləridir. İntensivləşmə prosesi mahiyyət etibarı ilə bu amillərin fəaliyyətinin gücləndirilməsindən, istifadəsinin gücləndirilməsindən ibarətdir. Bu zaman istehsal amillərini intensivləşdirmənin özünün amillərindən fərqləndirmək lazımdır. Sonuncular elmi-texniki tərəqqi, istehsal fondlarından istifadənin təkmilləşdirilməsi, təşkili və idarəetmə sisteminin təkmilləşdirilməsi,istehsalat, struktur dəyişiklikləri, kadrların ixtisasının və işçi qüvvəsinin səriştəlilik səviyyəsinin yüksəldilməsi, rasional yerləşdirmə və ixtisaslaşmasıdır. İntensiv və ekstensiv istehsal növlərinin bölüşdürülməsinin müəyyən şərti ondan da xəbər verir ki, zaman keçdikcə əvvəllər heç şübhəsiz istehsalın intensivləşdirilməsinə aid edilməli olan şey indi artıq ekstensiv amillərə aid edilir. İqtisadi məzmununa görə müasir alimləri V.Q. Qusakova, E.I. Dereza, A.P. Svyatoqora və başqaları, kənd təsərrüfatı istehsalının intensivləşməsi torpaq sahəsinin vahidinə və ya mal-qaranın, quşların başına düşən maddi və maliyyə resurslarının və əmək sərfinin artmasında özünü göstərir. İstehsalın intensivləşdirilməsi elmi-texniki tərəqqi ilə sıx bağlıdır. Yeni texnologiya əsasında istehsalın inkişafı onun intensivləşdirilməsinin əsasını, ən mühüm vasitəsini təşkil edir, lakin o, sonuncuya endirilmir, çünki istehsal daha intensiv və eyni texnologiya ilə işləyə bilər. Eyni zamanda, istehsalın daha da intensivləşdirilməsi çərçivəsində innovasiyaların tətbiqi ən aktual mövzu olur. İnnovativ inkişaf yoluna keçid innovasiyaların getdikcə daha çox olması ilə xarakterizə olunur.

İqtisadiyyatın sürətli inkişafını təmin etməyə qadir olan milli innovasiya sisteminin formalaşdırılması ilə təkcə ayrı-ayrı təsərrüfat subyektləri tərəfindən deyil, həm də bütün xalq təsərrüfat kompleksi tərəfindən tələbata çevrilir. Bu şəraitdə intensivləşmə daxili və xarici bazarlara

çatdırılmaq üçün təkcə elm tutumlu və rəqabətqabiliyyətli məhsulların müəyyən hissəsinin əldə edilməsini deyil, həm də bütün aparıcı sənaye və müəssisələrin ən son texniki avadanlıqlarla tam texniki və texnoloji cəhətdən yenidən təchiz edilməsini nəzərdə tutur deməkdir.

Beləliklə, resursdan istifadədə kəmiyyət artımının olub-olmamasından və ya məhsul vahidinə düşən resurslara qənaətin olub-olmamasından asılı olmayaraq, intensivləşdirmə istifadə olunan resursların məcmusuna qənaətlə nəticələnən tədbirlərin həyata keçirilməsi kimi müəyyən edilə bilər. Eyni zamanda, kənd təsərrüfatında konkret şəraitin nəzərə alınması, yüksək keyfiyyətli rəqabətqabiliyyətli məhsulların istehsal proseslərində elmi-texniki tərəqqinin nailiyyətlərindən və innovativ texnologiyaların tətbiqindən tam istifadə etmək lazımdır.

**Ədəbiyyat siyahısı:**

1. Гусаков, В. Какой должна быть инфраструктура и стратегия инновационной экономики / В. Гусаков // Наука и инновации. – 2006. – № 7. – С. 38–42..
2. Гусаков, В.Г. Аграрная экономика: термины и понятия: энциклопедический справочник / В.Г. Гусаков, Е.И. Дереза. – Минск: Белорус. наука, 2008. – 576 с. – С. 162–163, 339–352.
3. Гусаков, В.Г. Сущность, средства и факторы интенсификации сельского хозяйства / В.Г. Гусаков, А.П. Святогор // Изв. Нац. акад. наук Беларуси. Сер. аграр. наук. 2005. – № 2. – С. 5–15.
4. Лыч, Г. Инновационная экономика: реальность или миф? / Г. Лыч // Директор. – 2006. – № 2. – С. 24–27.
5. Павлов, К.В. Интенсификация экономики в условиях неопределнности рыночной среды / К.В. Павлов. – М.: Магистр, 2007. – 270 с. – С. 11–20, 28–35.

## THEORETICAL ASPECTS OF INTENSIFICATION IN MODERN ECONOMIC CONDITIONS.

**A.F.Hajiyeva**
**Azerbaijan State Agricultural University**
**almaz.haciyeva.96@gmail.com**

**Summary**: Effective functioning of agriculture cannot be based on former conditions insufficient technical equipment, low car productivity and tools and use of extensive methods. In this connection there is a further activation of intensification processes as basic means and direction of efficiency increase of functioning of agrarian branch. An overall objective of the given process is the increase in production and improvement of its quality for fuller satisfaction of growing requirements of the population.

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ИНТЕНСИФИКАЦИИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ ХОЗЯЙСТВОВАНИЯ

**А.Ф.Гаджиева**
**Азербайджанский Государственный Аграрный Университет**
**almaz.haciyeva.96@gmail.com**

**Резюме:** Эффективное функционирование сельского хозяйства не может основываться на прежних условиях – недостаточной технической оснащенности, низкой производительности машин и орудий и использовании экстенсивных методов. В связи с этим актуальной становится дальнейшая активизация процессов интенсификации как основного средства и направления повышения эффективности функционирования аграрной отрасли. Главной целью данного процесса является увеличение производства продукции и улучшение ее качества для более полного удовлетворения растущих потребностей населения.

# HAZIR MƏHSUL SATIŞININ UÇOTUNUN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**dos. X.Mehdiyev, magistr V.Y.Əliyev**
**Azərbaycan Texnologiya Universiteti**

Son dövrlərdə respublikamızda bazar münasibətlərinin daha da inkişafı ilə əlaqədar olaraq idarəetmə mexanizminin tərkib hissəsi olan mühasibat uçotunun da beynəlxalq standartlara uyğun yenidən qurulması və təşkili tələb edilir. Bu, müəssisələrin uçot sistemində ən mühüm və məsuliyyətli sahələrindən biri olan məhsul istehsalı və satışı uçotuna da aiddir.

Bazar münasibətlərinin dərinləşməsi və azad sahibkarlığın inkişafı ilə əlaqədar olaraq təsərrüfat subyektlərinin istehsal etdikləri məhsullar ilə dünya bazarına sərbəst çıxması, məhsul, iş və xidmətlərin satışından valyuta əldə edilməsi, əmtəə mübadiləsinin həyata keçirilməsi, yeni hesablaşma formalarının yaradılması, onların həyata keçirilməsi qaydasının müəyyən edilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması nəzərdə tutulur. Ona görə də hazır məhsul istehsalı və onun satışı formalarının uçotu elə təşkil edilməlidir ki, yeni mülkiyyət münasibətlərinin inkişafına, azad sahibkarlığın formalaşmasına əlverişli şərait yarada bilsin.

Təsərrüfat hesabı prinsipi əsasında öz fəaliyyətini quran müəssisələrdə məhsul satışından, yerinə yetirilən işlərdən və göstərilən xidmətlərdən əldə edilən gəlirlər istehsalın genişləndirilməsi və modernləşdirilməsi, davamlı məhsul istehsalında əsas maliyyə mənbəyi hesab edilir. Lakin müəssisələr arasında baş verən iqtisadi münasibətlər zamanı məhsul istehsalının və onun satışının düzgün təşkil edilməməsi müəssisələrin maliyyə vəziyyətini pisləşdirir, dövriyyə vəsaitinin dövr sürətinə və nəticədə onların həcminin azalmasına gətirib çıxarır ki, bu da son nəticədə müəssisələrin qarşısında duran əsas vəzifələrin həllini çətinləşdirir, onların mənfəətini azaldır.

Hər bir müəssisənin fəaliyyətinin son mərhələsi onun istehsal etdiyi hazır məhsul, gördüyü işlər və yerinə yetirilən xidmətlərlə müəyyən olunur. Hazır məhsullar o məhsullar hesab olunur ki, onlar mövcud olan standart və texniki şərtlərə, keyfiyyət göstəricilərinə uyğun olaraq tam şəkildə bütün istehsal əməliyyatlarından keçmiş, müəssisə anbarına və ya sifarişçiyə təhvil verilmiş olsunlar.

Hazır məhsullar müəssisənin məhsulunun əsas hissəsini təşkil edir. Bundan başqa hazır məhsula istehsal olunan və kənara satılan yarımfabrikatlar, yerinə yetirilmiş sənaye xarakterli işlər və xidmətlər də daxildir. Hazır məhsullar əsasən kənara satılmaq üçün istehsal olunur, lakin onun müəyyən hissəsi müəssisə daxilində də istifadə oluna bilər.

Hesabat ayında o məhsullar hazır məhsullara daxil edilir ki, onlar qəbul-təhvil sənədləri əsasında müəssisə anbarına təhvil verilmiş və ya ayın son gününün 24 saatı ərzində alıcı müəssisəyə yüklənmişdir.

Hazır məhsul - satış üçün nəzərdə tutulmuş material ehtiyatlarının bir hissəsidir və istehsal prosesinin son nəticəsidir. Bu məhsullar komplektləşdirilmiş, anbara təhvil verilmiş və kənara göndərilımək üçün nəzərdə tutulmuş hazır məhsullardır.

Hazır məhsulun dəyəri onun istehsalı ilə müəyyən edilmiş bütün istehsal məsrəflərini (birbaşa və dolayı məsrəfləri daxil olmaqla) əhatə edir. Bu məsrəflərə aid edilə bilər:

- Materiallar məsrəfləri (istehsalda istifadə edilmiş xammal və materiallar);
- İstehsal avadanlığının amortizasiyası;
- İstehsal işçilərinin əmək haqqısı və əmək haqqından sosial-sığorta ödənişləri;
- Hazır məhsula aid edilə bilən dolayı xərclərin payı.

Hazır məhsul 204 №li "Hazır məhsul" hesabında uçota alınır.

İstehsalı başa çatmış hazır məhsullar bu məhsullar üçün nəzərdə tutulmuş anbarlara təhvil verilir. Bu zaman istehsal sahəsinin məsul şəxsi (sex rəisi və ya müavini) tərəfindən istehsal olunmuş hazır məhsullar “Hazır məhsulların təhvil-qəbul aktı” ilə anbarın məsul şəxsinə təhvil verilir.

Hazır məhsulun anbara gəbul edilməsi ilə eyni zamanda müəssisənin müvafiq bölməsinin məsrəfləri silinir. Silinmə üçün əsas "Hazır məhsulların təhvil-qəbul aktı", "İstehsal cədvəlləri" olur.

Hazır məhsul 204 N-li hesabda aşağıdakı üsullardan biri ilə uçota alınır:

-faktiki istehsal maya dəyəri ilə;

-uçot qiymətləri ilə (normativ maya dəyəri)

Seçilən hazır məhsulun uçot qaydası müəssisənin "Uçot siyasətində" əks olunmalıdır.

Əgər istehsal edilmiş hazır məhsul müəssisənin daxilində istifadə üçün nəzərdə tutulubsa, o zaman, hazır məhsul 201 "Material ehtiyatları" hesabına silinir.

Hazır məhsulun satışı zamanı onun dəyəri 204 -cü hesabının kreditindən 701 "Satışın maya dəyəri üzrə xərclər" hesabının debetinə silinir.

Hazır məhsul uçot qiymətləri ilə uçota alındıqda normativ maya dəyəri istifadə edilir.

Normativ maya dəyəri müəssisədə gəbul edilən normativlər əsasında müəyyən edilir.

Hazır məhsul uçot qiymətləri ilə uçota alındıqda normativ və faktiki maya dəyərləri arasında yaranan fərq dövrün sonunda silinməlidir.

Müəssisənin uçot siyasətinə görə hazır məhsul uçot qiymətləri (normativ maya dəyəri) ilə uçota alınır.

Hazır məhsulun satışı əsasən istehlakçılar ilə bağlanılan müqavilələr əsasında təşkil edilir. Bağlanmış müqavilə şərtlərindən asılı olaraq satılan məhsul həmin məhsulun yüklənməsindən sonra və ya alıcı müəssisə tərəfindən qəbul olunub dəyərinin malsatanın hesablaşma hesabına ödənilməsindən sonra satış həcminə daxil olunur. Eyni zamanda, müqavilənin şərtlərinə görə mühasibatlıqda hesab-faktura tərtib edilir.

Lakin buna baxmayaraq bu işin təşkili səviyyəsi qənaətləndirici deyiuldir. Hazır məhsulun istehlakçılara göndərilməsi vaxtına riayət edilmir, müqavilə şərtlərinin pozulması hallarına yol verilir, göndərilən məhsulların keyfiyyəti istehlakçıları qane etmir və s. Müqavilə öhdəliklərinin yerinə yetirilməsinə mane olan və müəssisədən asılı olmayan səbəblərdən biri də müəssisələrin nəqliyyat vasitələri ilə təmin edilməməsidir. Hazır məhsulun vaxtında göndərilməsi və istehlakçılara çatdırılmasında nəqliyyat təşkilatlarının dəqiq işi vacibdir. Lakin müəssisələr üçün nəqliyyat vasitələrinin kifayət qədər ayrılmaması və vaxtında daxil olmaması ilə əlaqədar normativdən yuxarı hazır məhsul ehtiyatları qalığına yol verilir. Bütün bu kimi halların aradan qaldırılması müəssisələrdə məhsul satışı uçotunun təşkili səviyyəsinin xeyli yaxşılaşdırılmasına kömək edəcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. Abbasov Q.Ə. “Mühasibat uçotu” Dərslik və metodiki vəsait. Bakı, “Təknur” nəşriyyatı, 2017
2. Kərimov A.R. Mühasibat uçotu, vergilər. Bakı, 2010
3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004
4. Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. “Mühasibat uçotu". dərslik, Bakı,Təhsil işçisi mətbəəsi” MMC, 2012

## ОРГАНИЗАЦИЯ УЧЕТА ПРОДАЖ ГОТОВОЙ ПРОДУКЦИИ

**Х.Мехдиев,**
**В.Алиев**
**Азербайджанский Технологический Университет**

**Резюме:** В статье выясняется сущность и роль учета готовой продукции, указывается его оценка, рассматриваются вопросы организации учета сбыта готовой продукции, отмечаются существующие недостатки и мероприятие их устранения.

## ORGANIZATION OF ACCOUNTING FOR SALE OF FINISHED PRODUCTS

**Kh.Mehdiyev**
**V.Y.Aliyev**
**Azerbaijan Technological University**

**Summary:** The article clarifies the relevance and role of accounting for finished products, indicates its assessment, discusses the organization of accounting for the sale of finished products, notes the existing shortcomings in this work and measures to eliminate them.

# DAXİLİ AUDİTİN MÖVCUD VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

**E.B.Rəhimov**
**Azərbaycan Texnologiya Universiteti**
**elsadrehimov019@gmail.com**

Azərbaycan Respublikasında audit xidməti 1990-cı illərin ortalarına təsadüf edir.Audit xidmətinin zəruriliyini nəzə alaraq Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsində öz bariz nümunəsini göstərmişdir. Bu sahənin inkişafı ilə əlaqədar olaraq ölkəmizdə kifayət qədər qərarlar və qətnamələr qəbul edilmişdir. 1996-cı ilin aprel ayından fəaliyyət göstərən auditorlar palatası Milli Məclisin 1995-ci il 19-sentyabr tarıxində təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar palatası haqqında” əsasnamə ilə fəaliyyət göstərir və tənzimlənir.Palatanın əsas vəzifəsi mühasibat uçotunun və təsərrüfat subyektlərinin maliyyə nəticələrinə düzgün nəzarətin aparılması məqsədi ilə,ölkədə müvafiq qanunlara uyğun olaraq auditin inkişafı və onun fəaliyyətinin düzgün həyata keçirilməsi əsas şərtlərdəndir.Beləliklə Azərbaycan Respublikasında auditin xidməti bilavasitə sərbəst auditorlar həyata keçirilir.

Ölkəmizdə Auditorlar Palatası mühasibat uçotu və maliyyə sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə hal-hazırda böyük diqqət yetirir və bu prosesin düzgün reallaşması üzrə müəyyən işlər görürlər.Azərbaycan Respublikasında auditor fəaliyyəti ilə məşğul olmaq üçün sertifikat almış fiziki və hüquqi şəxslərin sayının inkişaf dinamikasına nəzər yetirsək görərik ki, təhlil olunan ayrı-ayrı illərdə sertifikat almış fiziki və ya hüquqi şəxslərin say tərkibində ümumi dinamika artan şkala üzrə öz əksini tapmışdır. Sertifikat almış fiziki və hüquqi şəxslərin əksər hissəsini yerli auditor təşkilatları təşkil edir. Müqayisə olunan ayrı-ayrı illər üzrə auditor təşkilatlarının və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan sərbəst auditorların sayında kifayət qədər azalmalar müşahidə olunur.

Azərbaycan Respublikasında aparılan islahatlar bu sahənin inkişaf üçün əlverişli şərait yaradır.Bu islahatın aparılması beynəlxalq təcrübələrə istinad etsək görərik ki, Azərbaycan Respublikasında daxili auditin ayrı-ayrı sahələr üzrə genişlənməsinə imkan verəcəkdir. Ölkəmizdə auditor xidmətinin tənzimlənməsi 3 amil üzrə reallaşdırılır.

1. Sahibkarlıq fəaliyyəti ilə məşğul olub,auditor xidməti göstərən sərbəst auditorlar;
2. Yerli auditor qurumları;
3. Xarici auditor qurumlarının nümayəndəlikləri.

Azərbaycan Respublikasında bazar münasibətlərinin inkişafı auditor xidməti növlərinin inkişafı ilə üst-üstə düşür. Belə ki, respublika ərazisində fəaliyyət göstərən təsərrüfat subyektləri müxtəlif yönümlü auditor xidmətlərindən bəhrələnir, bu xidmətlər əsasında öz maliyyə -təsərrüfat fəaliyyətlərini, maliyyə-nəzarət sistemlərini təkmilləşdirirlər.

Daxili audit müəssisədə idarəetmə, nəzarət-sisteminin ayrılmaz hissəsi kimi çıxış edir. Onun məqsədi müəssisənin idarəetmə sisteminin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsini, xərclər smetasının icrasını, əmlakın qorunmasını təmin edən struktur kimi,müəssisədə yaradılmış xüsusi struktur bölmədir. Daxili audit vasitəsi ilə nəzarət prosesi ilə bərabər, habelə istehsalın təşkili müxtəlif bölmələri qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi mümkünləşir.

Azərbaycan Respublikasında təsərrüfat subyektlərinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədilə daxili audit xidmətinin təşkilinin və həyata keçirilməsinin hüquqi əsaslarını, daxili auditorların hüquq və vəzifələrini müəyyən edən “Daxili audit haqqında” Azərbaycan Respublikasının 332- III Q nömrəli Qanunu 2007-ci ilin 22 may tarixində qəbul edilmişdir.Həmin Qanuna əsasən:

Daxili audit – təsərrüfat subyektlərinin fəaliyyətinin inkişafına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş risklərin idarə olunması, nəzarət və idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşmaqla, təsərrüfat subyektinə öz məqsədlərinə nail olmaqda köməklik edən obyektiv, təminatverici və məsləhətverici fəaliyyətdir.

Daxili audit xidməti – təsərrüfat subyektlərində daxili audit fəaliyyətini həyata keçirən struktur bölmədir.

Müəssisədə daxili audit bölməsinin yaranma mexanizmi təsis sənədlərində öz əksini tapmalıdır. Ümumilikdə, müəsisələrin daxili audit bölməsinin hüquqlarında müəyyən öxşarlıqlar vardır. Daxili audit bölməsinin hüquqlarını aşağıdakı şəkildə təsnifləşdirmək mümkündür.

- daxili auditin funksiya və vəzifələrinin həyata keçirilməsini təşkil etmək məqsədi ilə müəssisənin müdriyyətindən, menecerindən, funksional idarəetmə orqanlarının rəhbərliyindən informasiyalar, zəruri sənədlər almaq, sorğular keçirmək;
- müəssisənin təsərrüfat fəaliyyətinin genişləndirilməsi məqsədilə daxili auditin səlahiyyətləri çərçivəsində digər müəssisə və təşkilatlarla əlaqələr saxlamaq;
- maliyyə təsərrüfat fəaliyyətinin mövcud qanunvericilikdən, normativ–hüquqi sənədlərdən, norma və standartlardan kənarlaşmasına səbəb olmuş şəxsləri müəyyən etmək, onların qeyri-qanuni və qeyri-peşəkar fəaliyyətini sübutlarla əsaslandıraraq, bu haqda rəhbərliyə, təsisçilərə, mülkiyyətçilərə məlumat vermək.

Beləliklə daxili audit haqqında mövcud olan əsas məsələlər şərh edilmiş və lazimi formada izah edilmişdir. Deməli müəssisələrdə daxili auditin aparılması həm müəssisənin ştatında olan, həm də ştat bölmələri hesab olunan şəxslərin gücü ilə həyata keçirilməsi mümkündür.

Daxili audit xidmətinin əsas məqsədi müəssisənin maliyyə təsərrüfat fəaliyyətinə nəzarətin bir formasıdır. Daxili audit xidmətinin yaraıldmasının əsas məqsədi idarəetmə vəzifələrinin yerinə yetirilməsinə, mühasibat uçotunun vzəiyyətinə və ayrı-ayrı işçilərinin fəaliyyətinə nəzarət etməkdir. Daxili audit formasında təşkil edilən yoxlamanın əsas məqsədi müəssisənin səmərəli fəaliyyətinə imkan yaratmaq, kənarlaşmaları aşkar etməkdən ibarətdir.

**Açar sözlər:** audit, iqtisadi təhlil, idarəetmə, sahibkarlıq, qiymət, risk və s.

**Ədəbiyyat siyahısı:**

1. Abbasov İ.M. "Audit dərslik". Bakı 2013.
2. Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında qanunu". Bakı 2004.
3. Azərbaycan Respublikasının "Auditorlar palatası haqqında" əsasnamə. Baki 1995.
4. V.T.Novruzov, R.T.Qənizadə və başqaları. "Daxili audit". Bakı 2002.
5. V.T.Novruzov. "Daxili audit" dərs vəsaiti. Bakı 2008.

## ТЕКУЩЕЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ ВНУТРЕННЕГО АУДИТА

**Е.Б. Рагимов**
**Азербайджанский Технологический Университет**
**elsadrehimov019@gmail.com**

**Резюме:** Внутренний аудит - объективная, поддерживающая и консультативная деятельность, помогающая хозяйствующему субъекту в достижении поставленных целей, систематические подходы к управлению рисками, оценка и повышение эффективности контроля и управления, направленные на развитие и эффективность хозяйствующих субъектов.

Служба внутреннего аудита - структурное подразделение, осуществляющее внутренний аудит хозяйствующих субъектов.

**Ключевые слова:** аудит, экономический анализ, управление, предпринимательство, цена, риск и др.

## CURRENT STATE AND PROSPECTS OF INTERNAL AUDIT

**E.B.Rahimov**
**Azerbaijan Technological University**
**elsadrehimov019@gmail.com**

**Summary:** Internal audit is an objective, supportive and advisory activity that helps the business entity to achieve its goals, systematic approaches to risk management, assessment and development of control and management efficiency aimed at the development and efficiency of business entities.

Internal audit service is a structural unit that performs internal audit activities in business entities.

**Keywords:** audit, economic analysis, management, entrepreneurship, price, risk, etc.

# TƏŞKİLATDA SƏMƏRƏLİ İDARƏETMƏNİN TƏMİN EDİLMƏSİNDƏ MOTİVASİYANIN ROLU

**N.E.Xəlilova**
**Azərbaycan Turizm və Menecment Universiteti**

Müasir iqtisadi şəraitdə, xarici mühitin dinamizmi təşkilatın səmərəli idarə edilməsini təmin etmək üçün müəssisədən vaxtında və perspektivli qərarlar tələb etdikdə, kadrlar şirkətin mühüm resursuna çevrilir. Firmanın uğuru şirkət işçilərinin işinin nə dərəcədə effektiv olacağından asılıdır. Menecerlərin qərarları nə qədər güclü olsa da, onlardan təsir yalnız işçilər tərəfindən konkret hərəkətlərdə təcəssüm olunarsa əldə edilə bilər. Bu, işçilər işlərinin müsbət nəticəsi üçün həvəsləndirildikdə baş verə bilər.

Məqalədə təşkilatın səmərəli idarə olunmasının təmin edilməsində təhlil zamanı aşkar edilmiş motivasiyanın rolunu nəzəri ümumiləşdirmək üçün sistem təhlili və sintezindən istifadə edilmişdir.

**Tədqiqat nəticələri.** Ənənəvi olaraq, idarəetmə prosesində təşkilatın idarə edilməsinin bu cür funksiyaları aşağıdakı kimi fərqlənir: planlaşdırma, təşkilat, motivasiya və nəzarət. Eyni zamanda, bu funksiyaların hər birinin müəssisənin səmərəli idarə edilməsinin təmin edilməsində rolu məsələsi mübahisəli olaraq qalır. A.Fayol, A.İlyin, M.Buxalkov, İ.Qrinçik kimi alimlər planlaşdırma və nəzarət funksiyalarına üstünlük verir, qeyd edirdilər ki, müəssisənin səmərəli idarə edilməsi yalnız dəqiq müəyyən edilmiş məqsədlər və onlara uyğun hazırlanmış planlar olduqda mümkündür.

Bununla belə, eyni zamanda, S.Şapiro, L.Vıqodski, A.Leontyev və B.Lomov göstərirlər ki, qarşıya qoyulmuş məqsədə uyğun və işlənib hazırlanmış plana uyğun idarəetmə, ilk növbədə, ifaçılardan və onların marağından asılıdır. Bu fərziyyə müəssisənin effektiv idarə olunmasının təmin edilməsində motivasiyanın prioritet rolunu müəyyən edir. Hal-hazırda, bu konsepsiyanın təbiəti ilə əlaqəli olan motivasiyanın vahid tərifi yoxdur, buna görə də motivasiya işəgötürən tərəfindən və işçi tərəfindən nəzərə alınmalıdır.

İşəgötürən tərəfindən motivasiya seçilmiş inkişaf strategiyasına uyğun olaraq müəssisənin məqsədlərinə nail olmaq üçün təsərrüfat subyektinin fəaliyyət göstərməsi üçün xarici və ya daxili stimuldur. Eyni zamanda, işçinin motivasiyası onun ehtiyaclarını iş vasitəsilə ödəmək (müəyyən fayda əldə etmək) istəyidir.

R.Ouen və A.Smitə görə, motivasiya funksiyası yalnız pul mükafatından ibarətdir. Onların təfsirinə görə, "insanlar yemək, geyim, sığınacaq və s. almaq üçün lazım olan vəsaiti əldə etməyə çalışan sırf iqtisadi varlıqlardır".

Bununla belə, müəllif hesab edir ki, bu yanaşmanın idarəetmə praktikasında tətbiqi idarəetmə prosesində çətinliklər yaradır, bunların arasında aşağıdakıları ayırd edə bilərik:

- menecerlərin müasir motivasiya üsullarını səmərəli və ardıcıl tətbiq edə bilməməsi;
- təşkilatda işçilərin motivasiyasının əsas strateji istiqamətlərinin nəzəri cəhətdən zəif inkişaf etdirilməsi;
- işçilərin potensialının özünü həyata keçirməsi üçün şəraitin olmaması;
- qeyri-qənaətbəxş mənəvi-psixoloji iqlim;
- özünə hörmət və iş məmnunluğunu artırmaq imkanı deyil.

Təsvir edilən yanaşmanın məhdudiyyətləri, tərəfdarları A.Maslou və D.Makkleland olan ikinci istiqamətin yaranmasına səbəb oldu. Onlar vurğulayırlar ki, motivasiya funksiyası gücə, uğura nail olmaq və şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırmaqdır, eyni zamanda əsas ehtiyacları da istisna etmir. Müəllifin fikrincə, bu istiqamət nəinki ən mühüm idarəetmə vəzifələrindən birini - optimal

əmək haqqı sisteminin seçilməsini nəzərə alır, həm də ən yüksək gəlirlə işləmək üçün qeyri-maddi stimullardan istifadə edir. Beləliklə, müəssisələrin rəhbərliyi əməyin həvəsləndirilməsinin müasir üsullarının geniş spektrindən istifadə edə bilər, məsələn:

- karyera yüksəlişi;
- işçinin nailiyyətlərinin ictimai qiymətləndirilməsi;
- işçilərin mənəviyyatının yüksəldilməsi;
- komandada rahat sosial-psixoloji ab-havanın yaradılması.

Kadrların motivlərinin dəyişə biləcəyinə görə, orada motivasiya strategiyasının müəyyənləşdirilməsi ilə bir motivasiya proqramı hazırlamaq lazımdır. Eyni zamanda, əməyin motivasiyası proqramının həyata keçirilməsi gözlənilən effektlə müqayisə olunmalı olan müəyyən xərclər tələb edir.

Qeyd etmək lazımdır ki, idarəetmə funksiyaları bir-biri ilə sıx bağlıdır, buna görə də motivasiyanın tətbiqinin effektivliyi əsasən planlaşdırmanın, təşkilatın və nəzarətin həyata keçirilməsindən asılıdır. Aydın plana malik olan menecer iş prosesini qarşıya qoyulan məqsədə uyğun təşkil edə və nəticəni təhlil edə bilər. Bununla belə, planın tapşırıqlarının keyfiyyətli, vaxtında yerinə yetirilməsi işçilərin onların həyata keçirilməsində marağından asılıdır, çünki təşkilatın əsas resursu olan işçilərdir və onların işinin nəticələri onun effektivliyini müəyyənləşdirir.

## РОЛЬ МОТИВАЦИИ В ОБЕСПЕЧЕНИИ ЭФФЕКТИВНОГО УПРАВЛЕНИЯ В ОРГАНИЗАЦИИ

**Н.Э.Халилова**
**Азербайджанский Университет Туризма и Менеджмента**

**Резюме:** В статье использован системный анализ и синтез для теоретического обобщения выявленной в ходе анализа роли мотивации в обеспечении эффективного управления организацией.

## THE ROLE OF MOTIVATION IN PROVIDING EFFECTIVE MANAGEMENT IN THE ORGANIZATION

**N.E.Xalılova**
**Azerbaijan Tourism and Management University**

**Summary:** In this article system analysis and synthesis is used to theoretically summarize the role of motivation in providing effective management of the organization.

# AZƏRBAYCANDA SISTEMLİ YANAŞMA ƏSASINDA QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ TƏNZİMLƏNMƏSİ

**tex.e.d., prof. Z.Y.Aslanov, dos. A.Ə.Hüseynov**
**Azərbaycan Dövlət İqtisad Universitetinin**

Milli iqtisadiyyatın artımında baş verən zəifləmə, ixracın həcminin artmasına şərait yaradan mənbələrin azlığı, neft sektorunun ixrac potensialının faktiki imkanlarından istifadənin ən yüksək həddə çatdığı amilləri nəzərə alınmaqla, respublikada qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsi məsələlərinin həllinə sistemli yanaşmanın tətbiqinin və oxşar tədbirlərin həyata keçirilməsinin aktuallığını zəruri etmişdir.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir sıra dövlət səviyyəli tədbirlər reallaşdırılmışdır. Xüsusilə, regionların inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalçılarının dəstəklənməsi məqsədilə iri infrastruktur layihələri həyata keçirilmiş, lizinq yolu ilə texniki təminat təşkil edilmiş, gübrələrlə təchizat sistemi yaradılmış, anbarlar istifadəyə verilmiş, yollar çəkilmiş, müasir müəssisələr istismara verilmiş, biznes layihələri üzrə güzəştli kreditlər ayrılmış və s. stimullaşdırıcı tədbirlər görülmüşdür. Lakin, qeyri-neft sektoru hələ də tam olaraq davamlı və yüksək artım səviyyəsinə malik ola bilməmiş, ölkənin neftdən asılılığının lazımınca azaldılmasını mümkünləşdirməmiş və rəqabətqabiliyyətlilik çərçivəsində mövcud problemləri həll edə bilməmişdir.

Ölkənin qarşısında duran ən mühüm və strateji vəzifələrindən biri də xarici ticarət dövriyyəsinin genişləndirilməsidir. Ölkədə ixrac məqsədilə istehsal olunan rəqabət qabiliyyətli məhsulların çeşidindəki məhdudluq özü də ciddi problemlər yaradır. Bir çox sənaye məhsullarının o cümlədən, kimya, neft və neft-kimya maşınqayırması, metallurgiya və s. ixrac potensialından cüzi miqdarda istifadə olunur. Bir sıra aqrosektor məhsulları var ki, onlar bilavasitə güclü ixrac potensialına və bu sahədə beynəlxalq müqayisəli üstünlük göstəricilərinə malikdirlər. Belə məhsullara bitki yağları, üzüm şərabı, meyvələr, təzə tərəvəz və s. aid etmək olarki, onların da ixrac potensialının cüzi bir hissəsi dövriyyədədir. Hələki ölkənin qeyri-neft sektorunun ixrac potensialının vəziyyəti ilə onun faktiki potensialı arasında xeyli fərq qalmaqdadır. Aqrar sahənin inkişafı ilə bağlı dövlət tərəfindən görülən yüksək səviyyəli işlərə baxmayaraq gözlənilən səmərəliliyi əldə etmək mümkün olmamışdır. Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özü diversifikasiyalaşdırılmalı, modernləşdirilməli və innovasiyalaşdırılmalıdır. Digər tərəfdən, qeyri-neft sektoru ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməlidir. Bu hər şeydən əvvəl müasir dövrdə Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının dərin təhlilinin aparılmasına, adekvat meyarlar çərçivəsində bu sahənin imkanlarının müəyyənləşdirilməsinə, ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin aşkar edilməsinə geniş imkanlar açmış olar. Milli iqtisadiyyatın inkişafının sürətləndirilməsi, onun ayrı-ayrı sahələrinin modernləşdirilməsi, ixrac yönümlü iqtisadiyyat sahələrinin potensialının obyektiv qiymətləndirilməsi, Azərbaycanın qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsi üzrə bir çox problemlərin daha dərindən öyrənilməsi, lazımı təhlillərin aparılması məqsədəuyğundur. Belə ki, dünya təsərrüfat sisteminin qloballaşması şəraitində beynəlxalq əmək bölgüsünün dərinləşməsi prosesləri intensivləşməkdədir. Belə bir şəraitdə milli iqtisadiyyatın inkişaf etdirilməsinin optimal modelləşdirilməsi, milli iqtisadi maraqların qorunması, ümumilikdə milli iqtisadiyyatın xammal və təbii resurslardan asılılıq amillərinin məhdudlaşdırılması kimi prioritet vəzifələr ortaya çıxır. Bu məsələlərdə dövlətin iqtisadi siyasətinin formalaşdırılması prosesləri mühüm əhəmiyyət kəsb edir.

Belə ki, qloballaşmanın hər bir sahədə dərinləşdiyi hazırki şəraitdə baş verən tendensiyalara uyğun olan dövlət modelinin formalaşdırılması, dövlət tərəfindən hazırlanması və tətbiq edilməsi nəzərdə tutulan tənzimləmə mexanizmlərinin, alətlərin kəsərli olması vacibdir.

Milli iqtisadiyyatların inkişafında qeyri-neft sektorunun ixrac potensialının rolunun artması dünya ticarətində ixracın əhəmiyyətinin yüksəlməsi ilə bilavasitə bağlıdır. Odurki, bu məqsədlə ölkə iqtisadiyyatının inkişaf tendensiyaları və diversifikasiyalaşdırılması problemləri dayanmadan

araşdırılır, çoxillik statistik məlumatlar əsasında qeyri-neft sektorunun mövcud vəziyyəti və əsas göstəriciləri təhlil edilir, Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialı durmadan qiymətləndirilir.

Ölkə iqtisadiyyatının inkişafında mühüm tendensiyalardan biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca istiqamətlərindən biri iqtisadiyyatın və onun ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır. Emal sənayesinin müasir iqtisadi və texniki durumu diversifikasiya meylinin hər vasitə ilə gücləndirilməsini tələb edir.

Son illər qeyri-neft sektoru sahələrinin ixrac potensialını artırmaq iqtidarında olan mal qruplarının əksəriyyəti üzrə ixracın həcmi artmışdır. Ölkə ixracının əsas həcmini təşkil edən mineral məhsulların ixracı isə əksinə 2,2 dəfə azalmışdır. Bu isə o deməkdir ki, ümumilikdə ölkə iqtisadiyyatının ixrac potensialı hələ də mineral xammal resursları ixracından asılı vəziyyətdədir.

Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün onun tənzimlənməsinin qanunvericilik bazası və təkmilləşdirilməsi məsələlərinə baxılmalı, qloballaşma şəraitində qeyri-neft sektorunun ixrac potensialından istifadənin yüksəldilməsi yolları və həmin sektorda ixrac potensialının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilməlidir.

Odurki, qeyri-neft sektorunun inkişafında xarici investisiyaların cəlb edilməsi və bununla bağlı qanunvericilik bazasının formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Beləki, ölkəyə xarici investisiyaların cəlb edilməsi, investorların ölkə iqtisadiyyatına böyük həcmli kapital yatırmaları üçün qanunvericilik əsasları yaradılmış, sahibkarlığın və biznes mühitinin inkişafı üçün iri miqyaslı işlər görülmüşdür. Belə işlərə misal kimi "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" ölkə qanunlarının qəbul edilməsini göstərmək olar.

İnvestisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin təkmilləşdirilməsi və qanunvericilik bazasının gücləndirilməsi ölkənin mineral və xammal resurslarından daha səmərəli istifadə olunmasına şərait yaradır. Bu isə öz növbəsində, yeni rəqabət qabiliyyətli ixrac təyinatlı mal və məhsulların çeşidinin artırılmasına, ixracın stimullaşdırılmasına, hazır sənaye məhsullarının ixracının genişləndirilməsinə gətirib çıxarır. Ümumilikdə götürəndə ölkədə investisiya fəaliyyətinin gücləndirilməsinə, qeyri neft sektorunun inkişafının sürətləndirilməsinə və onun ixrac potensialının əhəmiyyətli səviyyədə artırılmasına geniş imkanlar açılır.

Qeyri-neft sektorunun ixrac potensialının təhlili və tənzimlənməsi məsələlərinin öyrənilməsi ölkə iqtisadiyyatının qlobal təsirlərdən etibarlı qorunmasının təşkili üçün ilk növbədə ixrac yönümlü istehsal sahələrinin genişləndirilməsi, ixracın stimullaşdırılması, sistemli yanaşmanın təmin olunması, bu sahədə sahibkarlıq subyektlərinin fəallığının artırılması, ayrı-ayrı qeyri-neft sektoru sahələrinin investisiya cəlbediciliyinin yüksəldilməsi vacib meyarlar kimi çıxış edir. Qloballaşma şəraitində qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli təşkili və yüksəldilməsi yollarından mühümlüyü ilə seçilən prioritetlərdən biri də Azərbaycanın valyuta ehtiyatlarından səmərəli istifadənin təmin olunması, xarici kapitalın ölkəyə gətirilməsi və investisiyaların cəlbi proseslərində müasir iqtisadi tendensiyalara uyğun olan iqtisadi siyasət mexanizmlərinin dövriyyəyə buraxılması, ölkənin xaricə kapital ixrac etmək imkanlarının uzaq perspektivlər nəzərə alınmaqla və milli iqtisadi maraqlar qorunmaqla optimal modelləşdirilməsidir.

Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi yollarının çoxşaxəliliyi istiqamətində bir sıra əlverişli istiqamətlər formalaşmaqdadır. Belə ki, Azərbaycanın qlobal maliyyə və investisiya mühiti şəraitində beynəlxalq inteqrasiya kanallarına daha fəal çıxması ixracın qeyri-neft sektorları, o cümlədən xidmət sahələri üzrə diversifikasiyalaşdırılmasına əlavə imkanlar yaradır. Eyni zamanda fəal surətdə beynəlxalq iqtisadi əməkdaşlıq, təsərrüfat və kooperasiya əlaqələrinə qoşulan milli şirkətlərin ixrac potensialında rolunun yüksəldilməsinin stimullaşdırıması proseslərində yeni əlverişli imkanlar formalaşdırılır. Bu və ya digər formada xarici ticarət fəaliyyətinin fəallaşması ilk növbədə ixrac potensialının yüksəlməsinə gətirib çıxaracaqdır, çünki qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi dövlətin xarici ticarət iqtisadi siyasətinin ana xəttini təşkil edir və s.

Qeyd etmək lazımdır ki, yaxın perspektivdə ölkə banklarının kredit resurslarının əhəmiyyətli hissəsinin ixracyönümlü mal və məhsulların istehsal sahələrinin yaradılması istiqamətinə yönəldilməsinin hüquqi və praktiki mexanizmlərinin təkmilləşdirilməsi gözlənilir. Bu istiqamətdə görüləcək tədbirlərin səmərəliliyi yüksək olarsa, ölkənin qeyri-neft ixracının potensialının yüksəldilməsində yeni bir güclü potensiala malik qarşılıqlı fəaliyyət və əməkdaşlıq modelinin – "kommersiya banklarının kredit resursları - ixrac yönümlü istehsal sahələri - rəqabətqabiliyyətli ixrac məhsulları - valyuta resurslarının ölkəyə gətirilməsi mənbələrinin şaxələndirilməsi - valyuta ehtiyatlarının artması" kimi effektivli və məhsuldar fəaliyyət sxeminin reallaşdırılmasında əhəmiyyətli nəticələrin əldə ediləcəyinə inam artmaqdadır. Bu çoxgedişli bank kapitalı-istehsal-ixrac potensialının artması sxemi ölkənin ilk növbədə qeyri-neft ixracının diversifika-siyalaşdırılması, coğrafiyasının genişləndirilməsi, bu istiqamətdə perspektivli fəaliyyət sahələrinin inkişafının davamlılığının təmin edilməsində əhəmiyyətli amil kimi çıxış etmək iqtidarındadır.

Azərbaycanın hazırkı iqtisadi inkişaf tendensiyaları və strateji hədəfləri ölkə iqtisadiyyatının coğrafiyasının daha da genişləndirilməsini və modernləşdirilməsini şərtləndirir. Odur ki, milli iqtisadiyyatın bundan sonrakı inkişaf proseslərinin daha səmərəli və optimal təşkili üçün bu proseslərin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, həyata keçirilməsi tədbirləri də vacibdir. Bunun üçün müasir texnologiyalara, idarəetmə metodlarına və əsaslı innovasiyalaşdırılmış iqtisadi inkişaf modelinə keçid başa çatdırılmalı, yeni və məhsuldar, eləcə də rəqabətqabiliyyətli ixracyönümlü müəssisələr təşkil olunmalıdır. Neft-qaz amilindən və bu sektorun gəlirlərindən istifadə edərək ölkənin qeyri-neft sektorunun inkişafının intensivləş-dirilməsini əhəmiyyətli səviyyədə artırılmaq lazımdır. Digər tərəfdən qeyri-neft sektorunda ixrac potensialının tənzimlənməsinin müasir vəziyyətinin baza elementlərinin dünya qlobal inkişafı proseslərinə uyğun səviyyədə təkmilləşdirilməsinin aparılması məqsədə uyğundur. Ümumiyyətlə, ölkənin qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi məqsədilə daha müasir və ünvanlı xarakter daşıyan xarici investisiyaların cəlb edilməsi üzrə dövlət siyasəti formalaşdırılmalı, bu investisiyaların cəlbi, yönəldilməsi və səmərəli istifadəsi proseslərinin optimal idarəedilməsi mexanizmləri işlənib hazırlanmalıdır.

## РЕГУЛИРОВАНИЕ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА НЕНЕФТЯНОГО СЕКТОРА НА ОСНОВЕ СИСТЕМНОГО ПОДХОДА В АЗЕРБАЙДЖАНЕ

**З.Ю.Асланов,**
**А.А.Гусейнов**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме:** С целью повышения экспортного потенциала не нефтяного сектора страны необходимо сформировать государственную политику по привлечению более современных и целевых иностранных инвестиций, а также разработаны механизмы для оптимального управления процессами привлечения, направления и эффективного использования этих инвестиций.

## THE REGULATION OF THE EXPORT POTENTIAL OF THE NON-OIL SECTOR BASED ON A SYSTEMATIC APPROACH IN AZERBAIJAN

**Z.Y.Aslanov,**
**A.A.Huseynov**
**Azerbaijan State Economic University**

**Summary:** In order to increase the export potential of the non-oil sector of the country, it is necessary to form a state policy to attract more modern and targeted foreign investments, as well as to develop mechanisms for optimal management of the processes of attraction, direction and effective use of these investments

# UYĞUNLUĞUN QİYMƏTLƏNDİRLİMƏSİ VƏ TƏSDİQ EDİLMƏSİ

**magistr M.A.Abbasov, magistr İ.T.Ağalarov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

***Uyğunluğun təsdiq edilməsi*** – məhsulun və ya digər obyektlərin, istehsal proseslərinin, istismarının, saxlanmasının, daşınmasının, realizə və utilizə edilməsinin, işlərin yerinə yetirilməsi və ya xidmətlərin göstərilməsinin texniki reqlamentlərə, standartların tələblərinə və ya müqavilə şərtlərinə uyğunluğunun təsdiq edilməsi uyğunluğun qiymətləndirilməsinin bir hissəsidir.

Uyğunluğun bəyan edilməsi – məhsulun texniki reqlamentlərin tələblərinə uyğunluğunun təsdiq edilməsi formasıdır. Bəyan edilmə texniki tənzimlənmə haqqında Qanuna müvafiq olaraq müəyyən edilmiş təşkilat standartları da daxil olmaqla normativ və texniki sənədlərə uyğunluq üzrə aparıla bilər.

Müəyyən məhsul növlərinə aid uyğunluğun məcburi təsdiqinin forma və sxemlərinin siyahısı müvafiq texniki reqlamentdə müəyyən edilir.

Bütövlükdə texniki tənzimləmə haqqında Qanunun tələbləri məhsulun keyfiyyət xarakteristikaları da daxil olmaqla uyğun olaraq texniki standartlar və texniki reqlamentlər arasında bölüşdürülür və özündə məhsulun uyğunluğunun ancaq texniki reqlamentin tələblərinə müvafiq olaraq sertifikatlaşdırma və ya bəyan edilmə formasında məcburiliyini ehtiva edir.

Texniki tənzimləmə haqqında Qanunda texniki tənzimləmə obyektlərinə dövlət statusu və tövsiyə (müqavilə) xarakterli sənədlərlə uyğunluğun məcburi və könüllü təsdiq edilməsi prinsipi qorunur.

***Uyğunluğun qiymətləndirilməsi*** – obyektə verilən tələblərə əməl olunmasının bilavasitə və ya birbaşa müəyyən edilməsi.

Təqdim olunmuş tərif Qanunun bütün mətninə uyğundur və İSO/МЭК 17000:2004 beynəlxalq standartın tərifi ilə ziddiyyət yaratmır. Uyğunluğun qiymətləndirilməsi uyğunluğun təsdiqi ilə müşayiət olunur. Uyğunluğun təsdiq edilməsi - məhsulun və ya digər obyektlərin, istehsal proseslərinin, istismarının, saxlanmasının, daşınmasının, realizə və utilizə edilməsinin, işlərin yerinə yetirilməsi və ya xidmətlərin göstərilməsinin texniki reqlamentlərə, standartların tələblərinə və ya müqavilə şərtlərinə uyğunluğunun sənədlə təsdiq edilməsidir.

Uyğunluğun təsdiq edilməsi Rusiya və beynəlxalq bazarlarda məhsulların, işlərin, xidmətlərin rəqabət qabiliyyətliliyinin faktiki olaraq qaldırılmasına şərait yaradan əsas sənədlərdən biridir. Texniki tənzimləmə haqqında Qanunun 4-cü bölməsi ölkə daxilində əmtəələrin sərbəst hərəkətinə və realizəsinə və həmçinin beynəlxalq ticarətin aparılması üçün şəraitin yaradılmasını stimullaşdırır.

Üçüncü tərəfin həyata keçirdiyi fəaliyyət kimi sertifikatlaşdırmadan təhlükəsizliyə daha ümumi nəzarətə - uyğunluğun təsdiq edilməsinə keçidin hədəf seçilməsi çox vacib məsələdir. Məcburi sertifikatlaşdırmanın "ifratlılığının aradan qaldırılması" təklif edilir. Uyğunluğun təsdiq edilməsinin tərifindən belə aydın olur ki, onun əsas məqsədi – məhsulun, işlərin və ya xidmətlərin texniki reqlamentlərin tələblərinə, standartların göstərişlərinə və ya müqavilə şərtlərinə uyğunluğunun sənədlə təsdiqidir. Sənədlə təsdiq edilmədən başqa milli standartlara cavab verən məhsul *uyğunluq nişanı* ilə markalanır, texniki reqlamentə uyğun məhsul isə *bazara çıxarılma nişanı* ilə markalanır. Bu iki xüsusi nişan istehlakçıya məhsul, iş, xidmətin seçilməsinin, yəni məhsulun istehsalının və xidmətin göstərilməsinin əsas məqsədinə nail olmaq imkanını müəyyən edir. Uyğunluğun təsdiq edilməsinin qeyd edilən məqsədlərinin son nəticədə - məhsulun, işin və xidmətin istehsalçının, satıcının və ya icraçının göstərdiyi müvafiq sənədlərinin gös-təricilərinə uyğunluğuna əminlik yaratmaq kimi vahid istiqaməti vardır.

## ОЦЕНКА И ПОДТВЕРЖДЕНИЕ СООТВЕТСТВИЯ

**М.А.Аббасов, И.Т.Агаларов**

**Азербайджанский Государственный Экономический Университет**

**Резюме:** Указанные цели подтверждения соответствия имеют единое направление - создание гарантии соответствия продукции, работ и услуг установленным производителем, продавцом или исполнителем требованиям соответствующих документов.

## CONFORMITY ASSESSMENT AND ATTESTATION

**M.A.Abbasov, İ.T.Agalarov**

**Azerbaijan State Economic University**

**Summary:** These purposes of confirmation of conformity have a single direction - to create a guarantee of conformity of products, works and services established by the manufacturer, seller or performer of the requirements of the relevant documents.

# AZƏRBAYCANDA BALIQÇILIQ SƏNAYESININ ÜMUMI XARAKTERISTIKASI

**L.R.Eyyubova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

Hazırda respublikamızın istehlak bazarında bir sıra xarici ölkələrdən idxal olunan müxtəlif çeşiddə ərzaq məhsulları, o cümlədən balıq və balıq məhsulları realizə olunur. Balıqçılıq sənayesi Azərbaycanın milli iqtisadiyyatının ən qədim sahələrindən biridir və ümumi gəlirdə neft sənayesindən sonra 2-ci yeri tutur. Azərbaycanın müstəqil dövlət kimi gələcək inkişafının əsas istiqamətlərindən biri ərzaq bolluğunu yaratmaq, əhalinin balıq və balıq məhsullarına olan tələbatının il boyu ödəmək və bu məhsulların bioloji dəyərliliyini yüksəltməkdən ibarətdir. Belə ki, balıq ovu 2018-ci ildə 9443, 2019-cu ildə 19153, 2020-19122 min ton, ixrac isə müvafiq olaraq 24;21,1;20,2 min ton olmuşdur. Nərə balığı ailəsinin balıq və balıq məhsulları həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda ən qiymətlidir.

Yeyinti məhsulları içərisində balıq məhsulları böyük əhəmiyyət kəsb edir. Balıq əti dadlı və şirəli olmaqla bərabər orqanizmdə çox tez həzm olunur (96-97%). Balıq və balıq məhsulları digər heyvan mənşəli zülallı məhsullara nisbətən iqtisadi cəhətdən daha sərfəlidir. 1 kq treska zülali eyni miqdarda toyuq zülalından 6 dəfə, inək və qoyun zülalından 3 dəfə ucuzdur. Balıqda olan zülali maddələrin əsas yeyinti dəyəri ondan ibarətdirki, onların tərkibində insan orqanizminə lazım olan bütün əvəzedilməz aminturşularıarginin, histidin, izoleysin, leysin, lizin, metionin, fenilalanin, treonin, triptofan və s vardır. Yeyinti məhsulları içərisində balıq əhəmiyyətli yerlərdən birini tutur. Balıq əti dadlı və şirəli olmaqla bərabər, həm də insan orqanizmi tərəfindən asan həzm olunur. Nərə balıqları dənizdə yaşayan və çay sularında kürü tökən anadrom balıqların kommersiya, tədqiqat və ölkə təsərrüfat əhəmiyyəti olan ən qədim növlərindən biridir. Nərə balıqlarının ətinin zərif və şirəli dadına görə konservləşdirilir, soyudulur, dondurulur, hisə verilir, onlardan kürü hazırlanır, həmçinin yapışqan, viziq, hətta dəri və dərman istehsalı üçün xammal kimi də xidmət edir. Nərə balıqlarının qida dəyəri, ilk növbədə, onların yüksək həzm olunmasındadır. Məsələn, orqanizm soyutma balığı 1,5 saatdan, yumurta, süd, ağ çörək, qızardılmış kartofu 2-3,5 saatdan, dana ətini 4 saatdan, inək ətini 5 saatdan, qızardılmış ördək ətini isə 7 saatdan sonra həzm edir. Qidada amin turşuların olmaması və ya az olması müxtəlif xəstəliklər törədir. Insan orqanizmində balıq yağının təqribən 96,7%-i həzm olunur. Balıq yağının 20-30 %-i doymuş, 70-80% -i isə doymamış yağ turşularından ibarətdir. Doymamış yağ turşularından linol,linolen və araxidon çox böyük bioloji və müalicə qabiliyyətinə malikdir. Onların bərk yağlara nisbətən qidalılıq dəyəri daha yüksəkdir. Balıq yağının fizioloji və bioloji əhəmiyyətindən başqa energetik cəhətdəndə çox qiymətli yeyinti məhsuludur. 1 qram balıq yağı insan orqanizmində oksidləşərkən 9,5 kkal və ya 39,71 kC istilik əmələ gətirir. Təzə və yaxud soyudulmuş, dondurulmuş balıqdan ev şəraitində, ictimai yeməkxanalarda (aşxana, restoran və s) lazimi kulinariya məmulatı hazırlamaq olur. Təzə, soyudulmuş və dondurulmuş balıqdan hazırlanan yeməklər yüksək keyfiyyətli olmaqla bərabər həm də insan orqanizmi tərəfindən tez həzm olunur. Buna görə də adambaşına düşən balıq və balıq məhsulları normasının 80%-i təzə, soyudulmuş və dondurulmuş balığın payına düşür.

## ОБЩАЯ ХАРАКТЕРИСТИКА РЫБНОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

**Л.Р.Эйюбова**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме:** Из свежей или охлажденной, замороженной рыбы можно приготовить необходимые кулинарные изделия в домашних условиях, в общественных столовых (столовых, ресторанах и т.д.). Блюда из свежей, охлажденной и замороженной рыбы отличаются высоким качеством, а также быстро усваиваются организмом человека. Поэтому 80% от нормы рыбы и рыбопродуктов на душу населения приходится на свежую, охлажденную и замороженную рыбу.

## GENERAL CHARACTERISTICS OF THE FISH INDUSTRY IN AZERBAIJAN

**L.R.Eyyubova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Summary:** From fresh or chilled, frozen fish you can prepare the necessary culinary products at home, in public canteens (canteens, restaurants, etc.). Dishes made of fresh, chilled and frozen fish are of high quality and are quickly assimilated by the human body. Therefore, 80% of the norm of fish and fish products per capita are fresh, chilled and frozen fish.

# YERLİ İCRA HAKİMİYYƏTİ ORQANLARI

**G.Abdullayev, F.E. Əliyeva**
**Azərbaycan Texnologiya Universiteti**

Azərbaycan Respublikasının Konstitutsiyasının 124-cü maddəsinə uyğun olaraq "Yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər".

Yerli icra hakimiyyətlərinin səlahiyyətləri Azərbaycan Respublikasının Prezidentinin "Yerli icra hakimiyyəti haqqında" 16 iyun 1999-cu il tarixli 138 nömrəli Əsasnaməsi ilə müəyyən edilmişdir.

Yerli icra hakimiyyəti başçısının fəaliyyəti aşağıdakı prinsiplərə əsasən həyata keçirilir:

- vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi ;
- müvafiq ərazinin əhalisinin rifahının yaxşılaşdırılması naminə iqtisadiyyatın, sosial və mədəni sahələrin inkişafının təmin edilməsi.
- qanunçuluq;
- dövlət mənafelərinin və yerli mənafelərin uzlaşdırılması;
- aşkarlıq və ictimaiyyətin fikrinin nəzərə alınması.

İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

İcra hakimiyyəti başçıları öz işlərinə görə Azərbaycan Respublikasının Prezidenti qarşısında məsuliyyət daşıyırlar.

İcra hakimiyyəti başçısının ikili vətəndaşlığına, başqa dövlətlər qarşısında öhdəliyinə yol verilmir, habelə o, din xadimi ola bilməz.

İcra hakimiyyətlərinin başçıları eyni zamanda heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər. Elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

"Yerli icra hakimiyyəti haqqında" Əsasnamədə icra hakimiyyəti başçılarının vəzifə və səlahiyyətləri göstərilir.

Yerli icra hakimiyyəti başçılarının səlahiyyətləri aşağıdakı sahələr üzrə müəyyən edilir:

- planlaşdırma, büdcə, maliyyə və uçot sahəsində;
- sərəncam verilmiş əmlak və ərazisində yerləşən müəssisə, idarə və təşkilatlarla münasibətdə səlahiyyətləri;
- memarlıq fəaliyyəti, tarix və memarlıq abidələrinin qorunması sahəsində;
- kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə və təbiəti mühafizə sahələrində;
- qaçqınlar və məcburi köçkünlərə münasibətdə səlahiyyətləri;
- yaşayış məntəqələrində küçə və meydanlara ad verilməsi sahəsində səlahiyyətləri;
- tikinti, nəqliyyat və rabitə sahələrində səlahiyyətləri;
- mənzil –kommunal təsərrüfatı, ticarət və əhali üçün digər xidmətlərin təşkil edilməsi sahələrində səlahiyyətləri;
- əhaliyyə sosial – mədəni xidmətlərin göstərilməsi sahəsində səlahiyyətləri;
- əhalinin sosial müdafiəsi sahəsində səlahiyyətləri;
- qanunçuluğun təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahələrində səlahiyyətləri.

İcra hakimiyyəti başçısı öz yanında rayonun, şəhərin və şəhər rayonunun iqtisadi, sosial – mədəni və digər yerli məsələlərinin baxılması (müzakirəsi )və onların həllinə dair təkliflərin hazırlanması məqsədi ilə daimi məşvərətçi orqan olan Şura yaradır. Şuranın tərkibi 15 nəfərdən ibarət ola bilər.

**МЕСТНЫЕ ИСПОЛНИТЕЛЬНЫЕ ОРГАНЫ**

**Г.Абдуллаев, Ф. Алиева**
**Азербайджанский Технологический Университет**

**Резюме:** В соответствии со статьей 124 Конституции Азербайджанской Республики «Местную исполнительную власть осуществляют главы местных исполнительных органов».

**LOCAL EXECUTIVE AUTHORITIES**

**G.Abdullayev, F.Aliyeva**
**Azerbaijan Technological University**

**Summary:** In accordance with article 124 of the Constitution of the Republic of Azerbaijan, "Local executive power is exercised by the heads of local executive bodies".

# AZƏRBAYCANDA VERGİ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**X.V.Qurbanova**
**E.T.Abdullayev**
**Azərbaycan Texnologiya Universiteti**
**Xatira-leyli @mail.ru**
**abdullayev.elgün@gmail.ru**

Azərbaycan hökumətinin bu sahənin inkişafı və təkmilləşdirilməsi üzrə qəbul etdikləri Dövlət Proqramları və Milli Məclisin qəbul etdiyi qanunvericilik aktları, o cümlədən Vergi Məcəlləsi, Vergilər Nazirliyinin hazırladığı Əsasnamə, Təlimatlar və digər normativ aktlar təşkil edir. Vergi inzibatçılığının nəzəri və praktiki məsələlərinə dair yanaşmaların ümumiləşdirilməsi, onun vergilərin yğılma səviyyəsinin və səmərəlilik göstəricilərinin yüksəlməsinə dair təhlil və qiymətləndirmələr əsasında hazırlanan təkliflərdə ifadə olunur. Əldə olunan nəticələrin və qoyulan vəzifələrin həlli üçün təklif edilən tövsiyyələrin elmi arqumentlərlə əsaslandırılması, istifadə edilən çıxış və statistik materialların həqiqiliyi və düzgünlüyü tədqiqatda irəli sürülən bir sıra əhəmiyyətli tövsiyyələrin mötəbərliyinə dəlalət edir. Azərbaycan respublikasının vergi sistemində son dövrlərdə məqsədyönlü islahatlar aparılır. İslahatlar vergi ödəyicilərinin fəaliyyətində, bütövlüklə vergi sisteminin strukturunda, idarəetmə sistemində, normativ hüquqi kadr təminatında və s. istiqamətlərdə yeniləşmələrin həyata keçirilməsi yolu ilə aparılır.

Vergi sisteminin, o cümlədən vergi inzibatçılığının modernləşmə prosesinin sürətləndirilməsi təkcə iqtisadi subyektlərdən vergi tutulma səviyyəsinin artması ilə deyil, həm də vergi sisteminin özünün idarə olunmasına xərclərin səviyyəsi ilə ölçülür. Vergi inzibatçılığının səviyyəsinin yüksəldilməsi vicdanlı və nizam-intizamlı vergi ödəyiciləri üçün bərabər rəqabət rejiminin təmin olunması, onlara vergi yükünün ardıcıl olaraq aşağı salınması üçün də potensial ehtiyat mənbəyidir.

K.S.Belskinin fikrincə,vergi sistemi - vergitutma sferasında müəyyən prinsiplərə əsaslanan qarşılıqlı əlaqədar hissələrin (elementlərin): vətəndaşların vergiödəmə qabiliyyətinin, vergi və yığımların qanunla müəyyən edilmiş sisteminin, vergi inzibatçılığının və dövlət tərəfibdən tətbiq edilən vergitutma metodlarının məcmusudur [57, s. 55].

M.V.Karaseva vergi sistemi dedikdə, dövlətdə vergitutma sferasında yaranan və iqtisadi, siyasi, təşkilati və hüquqi xarakterə malik olan bütün mövcud ictimai 11 münasibətlərin məcmusunu başa düşür [160, s.324].

Müəlliflərin bir çoxu vergi sistemi anlayışını vergilərin, onların qurulması, hesablanması və tutulması üzrə metod və prinsiplərin məcmusu kimi qəbul edirlər. Buna baxmayaraq vergi sisteminin də aid olduğu iqtisadi və sosial sistemləri təbiət ekosistemlərindən fərqlənərək öz-özünə nizamlanan, öz-özünə təşkil edilənkimi adlandırılırlar. Ümumi sistemlər nəzəriyyəsində öz-özünə nizamlanmayan sistemlər sistem daxilindənizamlayıcı elementin, yəni, idarəetmə obyektinin, institutunun mövcud olması tələb olunur.

Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsi birinci növbədə dövlətlə biznesin optimal münasibətlərinin qorunmasına yönəldilməlidir. Bu daha çox Vergilər Nazirliyinin inzibatçılığı vasitəsilə vergi ödəyiciləri ilə apardığı işlərin nəticəsindən asılıdır. Burada ən əhəmiyyətli məsələlərdən biri dövlət büdcəsinin 80%-i təmin edən iri vergi ödəyiciləri ilə işlərin təşkilindən asılıdır. Bu sahədə son illərdə müsbət dinamikanın müşahidə olunması iri vergi ödəyiciləri ilə müstəqil vergi inzibatçılığının – iri vergi ödəyiciləri Departamentinin fəaliyyəti ilə bağlıdır. Iqtisadi ədəbiyyatda vergi ödəyicilərinin belə müstəqil və fərqli inzibatçılıq vahidlərin tərəfindən idarə olunmasına istər vergi ödəyiciləri, istər dövlət quruluşu baxımından məqsədəuyğunluğuna münasibət birmənalı deyildir.

Hazırda iri vergi ödəyicilərinə inzibatçılıq Azərbaycan Respublikasının Vergi Məcəlləsinin ümumi müddəaları əsasında həyata keçirilir və əslində belə vergi ödəyicilərinin fərqli xüsusiyyətləri haqqında müvafiq bəndlər və ya istinadlar yoxdur. İri vergi ödəyicilərinə inzibatçılığının bütün nüansları Vergilər Nazirliyinin müvafiq Əsasnamə və Təlimatları yaxud Metodik göstərişləri ilə tənzimlənir.

Halbuki vergi ödəyicilərinin bu kateqoriyası bütün parametrlərinə görə - vergi inzibatçılığının və idarəetmənin müxtəlif pillələrində iştirak etməsi formalarına, vergi inzibatçılığının ayrı-ayrı mərhələlərinin həyata keçirilmə metodlarına, vergi inzibatçılğının səmərəliliyinin qiymətləndirilməsinə, iri vergi ödəyicilərinin ayrı-ayrı qruplarının uçota alınmasının sahəvi xüsusiyyətlərinə görə kifayət qədər fərqlənirlər və bu məsələlər də iqtisadi ədəbiyyatda daimi diskusiya obyekti olan problemlərdir.

Azərbaycan iqtisadiyyatının vergilərlə tənzimlənmə sisteminin, həmçinin vergi inzibatçılığının təkmilləşdirilməsi ölkə iqtisadiyyatında aparılan əsaslı islahatların uğurla aparılmasının başlıca şərti kimi bu gün daha çox diqqət mərkəzindədir. Bundan başqa Azərbaycanın vergi orqanlarının modernləşməsi üzrə Dövlət Proqramında nəzərdə tutulan tədbirlər sisteminin yerinə yetirilməsi də başa çatmaq mərhələsindədir.

Bu gün respublikamızda fəaliyyət göstərən vergi inzibatçılığı həm onun təşkilati-iqtisadi mexanizmlərinin və funksiyalarının dəqiqləşdirilməsi və təkmilləşdirilməsi baxımından, həm də Azərbaycan iqtisadiyyatının posneft dövründə innovativ modernləşməsi reallaşması baxımından aktual olduğu qədər də əhəmiyyətlidir.

Müasir şəraitdə vergilər sistemində əsaslı struktur islahatları ardıçıl surətdə həyata keçirilir və bu öz müsbət xüsusiyyətlərini göstərir. Eyni zamanda vergi xidməti orqanlarında həyata keçirilən kadr islahatlarının həyata keçirilməsi mühüm iqtisadi və sosial əhəmiyyət daşıyır. Nəticədə ölkənin bütün sahələrində iqtisadi inkişaf nəzərə çarpır və bu istiqamətdə aparılan islahatlar daha əhatəli və real xüsusiyyətlərə malik olmalıdır.

Vergilər Nazirliyi riayətetmə səviyyəsinin yaxşılaşdırmaq üçün ümumi strategiya işləyib hazırlamalı, ilk addım olaraq vergi sistemindəki boşluqlar müəyyənləşdirilməlidir. İctimaiyyətin vergi inzibatçılığını necə qəbul etdiyi müəyyən edilməli və ölçülməli, bu proses mütamadi olaraq izlənilməlidir.

**Ədəbiyyat siyahısı:**

1.Qasımov Sərhəd. Vergitutma prosesinə sistemli yanaşmanın bəzi metodoloji məsələləri : problemin fəlsəfi - iqtisadi mahiyyəti // Azərbaycanın Vergi xəbərləri.- 2010.- N 1.- S. 55-60; 2010.- N 3.- S. 28-36.

2. Məmmədov F.Ə. və başqaları. Vergilər və vergitutma, Bakı: CBS, 2010. 512 səh.

3. Məmmədov F.Ə., Musayev A.F., Sadiqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. - "Vergilər və vergitutma", Bakı 2010

4. Məmmədov Fazil. Azərbaycanın vergi sistemi ölkə iqtisadiyyatının inkişafına xidmət edir //İqtisadiyyat və audit.- 2010.- N 1/2.- C. 3-8.

5. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr. B., "Təfəkkür" NPM, 2002, 324 s.

6. Müstəqil Azərbaycan Respublikasının vergi sistemi. 20 il 1991-2011, AR Vergilər Nazirliyi 2011, 180 s.

## УЛУЧШЕНИЕ НАЛОГОВОГО КОНТРОЛЯ В АЗЕРБАЙДЖАНЕ

**Х.В.Курбанова, Э.Т.Абдуллаев**
**Азербайджанский Технологический Университет**
**Xatira-leyli @mail.ru, abdullayev.elgün@gmail.ru**

**Резюме:** Изучение улучшения налогового администрирования и налогового контроля в Азербайджане отражается как важный элемент в повышении уровня соблюдения налоговых обязательств.

## IMPROVING TAX CONTROL IN AZERBAIJAN

**X.V.Gurbanova, E.T.Abdullayev**
**Azerbaijan Technological University**
**Xatira-leyli @mail.ru, abdullayev.elgün@gmail.ru**

**Summary**: The research of improving tax administration and tax control in Azerbaijan is reflected as an important element in improving the level of compliance with tax obligations.

## VIII BÖLMƏ
## DAVAMLI İNKİŞAF VƏ TƏHSİL TEXNOLOGİYALARI

# MƏZUNLARIN MƏŞĞULLUĞUNUN ARTIRILMASINDA "BACARIQLAR CÜZDANI" SISTEMININ TƏTBIQI

**Ü.Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**
**ulviyya.m@uteca.edu.az**

Dünyadakı sürətli iqtisadi inkişafın fonunda hər bir dövlət öz rəqabətqabiliyyətliyini qoruyub saxlamaqla yanaşı innovativ inkişafa da nail olmağa çalışır. Bunun üçün hər bir hökumət müasir dövrün tələblərinə uyğun olaraq öz davamlı inkişafını təmin etməlidir. Bu baxımdan, tədqiqatın əsas məqsədi təhsil proqramını sistemli perspektivdə təhlil etmək və proqramın inkişaf planını təklif etməkdir.

Bir millətin milli gücünü inkişaf etdirməyə və gücləndirməyə davam etməsi və buna uyğun olaraq ölkənin davamlı inkişafına nail olması, yüksək ixtisaslı insan resurslarının qabiliyyətlərini və potensial güclərini inkişaf etdirmək və kadr ehtiyatlarını təmin etməklə onlardan ən yaxşı şəkildə istifadə etməklə sıx bağlıdır. Mükəmməl kadrlara sahib olan hökumət, dünyadakı sürətli dəyişikliklərə cavab olaraq aktiv şəkildə müvafiq siyasət hazırlaya və həyata keçirə bilər.

Bu gün təhsil proqramında yeni bir paradiqma var. Bu, mühitin dəyişməsindən irəli gəlir. Xüsusilə İT texnologiyasının yenilikçi inkişafı və müvafiq kompetensiyalara olan ehtiyac bu dəyişiklikləri təşviq edir. Hər bir təhsil müəssisəsinin tədris proqramı öz məzunlarının məşğulluğunu artırmaq üçün bu cür bilik və bacarıqları əhatə etməlidir. Bunun üçün tədris proqramlarının məzmunu tərtib edilərkən əmək bazarının tələblərinin öyrənilməsinə ehtiyac var. Hazırda bu məqsədlə bir çox layihələr həyata keçirilir. Həmin layihələrdən biri də Avropa Birliyinin maliyyələşdirdiyi CRENG layihəsidir. Layihənin əsas məqsədi Risk və böhran şəraitində nəqliyyatın idarəedilməsi proqramı üzrə magistratura hazırlığının həyata keçirilməsidir. Bu məqsədlə, proqramın tərtibi zamanı əmək bazarının tələblərinin öyrənilməsinə xüsusi əhəmiyyət verilmişdir.

Aparılan araşdırma nəticəsində müvafiq sektorda tələb olunan bilik, bacarıq və kompetensiyalar müəyyənləşdirilmiş və "Bacarıqlar cüzdanı (Skills Wallet)" formalaşdırılmışdır. Bacarıqlar cüzdanı nəzəri biliklərdən əlavə əmək bazarının tələb etdiyi səriştə və kompetensiyaların əks olunduğu bir sistemdir. Bu sistem əmək bazarı nümayəndələri arasında keçirilən sorğunun nəticəsində müəyyənləşdirilir və tədris planına əlavə edilir. Bacarıqlar cüzdanının əhatə edildiyi tədris proqramını bitirən məzunlar əmək bazarında özlərinə daha asan yer tapırlar.

Bu sistem dünya təcrübəsində sınaqdan keçirilmiş və məzunların əmək bazarında rəqabətqabiliyyətliliyinin artmasında əhəmiyyətli dərəcədə rol oynamışdır.

Mükəmməl kadrlara sahib olan hökumət, bu dəyişikliklərə cavab olaraq aktiv şəkildə müvafiq siyasət hazırlaya və həyata keçirə bilər. (Kang, Gi Chang 2000) Beləliklə, "Bacarıqlar cüzdanı"nın əks olunduğu təlim proqramı çox vacibdir. Bu tədqiqat işi məzunların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qloballaşma, yaradıcılıq və ixtisaslaşma kimi yeni dövr dəyişikliklərini nəzərə alaraq keyfiyyət və bacarıqlarının artırılması baxımından əhəmiyyət kəsb edir. Məzunlar sürətlə dəyişən inzibati mühitdə ölkənin inkişafında mühüm rol oynayırlar. Buna görə məzunların keyfiyyətləri və imkanları iş sektorunun məhsuldarlığına və rəqabət qabiliyyətinə böyük təsir göstərən əsas dəyişənlərdir. Buna görə ali təhsil müəssisələri öz tələbələrinin təhsili, səriştəsi və savadlılığını davamlı inkişaf etdirməyi hədəfləməlidir.

Bu tədqiqatın əsas məqsədi təhsil proqramını sistemli perspektivdə təhlil etmək və proqramın inkişaf planını təklif etməkdir. Təhlil nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir.

Birincisi, təhsil proqramının yenilənməsi insan resursları, maddi ehtiyatlar, informasiya sistemi kimi bir çox amillərin işığında həyata keçirilməlidir. İkincisi, təhsil proqramı sistemi müəssisə, idarəetmə və təhsil metodu baxımından dəyişdirilə bilər. Üçüncüsü, performansın maksimuma

çatdırılması, insan əməyinin inkişafı, mənəviyyat və məmnuniyyətin yaxşılaşdırılması kimi bir çox təhsil proqramları da ola bilər. Bu məqamlarla təhsil proqramı sistemi mühitdəki dəyişikliklərin öhdəsindən gəlməlidir.

**Açar sözlər:** innovativ inkişaf, rəqabətqabiliyyətlilik, davamlı inkişaf, CRENG, tədris planı, əmək bazarı

**Ədəbiyyat siyahısı:**

1. Choi, Moo Hyun. (2015). "How to Deal with Training on Public Service Value?", Public HRD, Vol. 70: 48~51.
2. Choi, Yu Sung. (2000). "Ways to Improve Public Officials Training System", Korea Institute of Public Administration.
3. Kang, Gi Chang. (2000). "Ways to Connect Public Officials Training and Personnel Management," Research on Korea's Administration, 9 (3): 158~192.
4. Kim, Pan Suk. (1999). "Ways to Enhance Competitiveness in Training," Education/Training Information, Vol. 37. 32~56.
5. Kim, Young Pyeong. (1997). "Ways to Develop Public Officials Training in the 21st Century - with a Focus on New Training Paradigm," Seminar on Development of Public Officials Training, COTI.
6. CRENG project official website: www.creng.eu

## APPLICATION OF THE "SKILLS WALLET" SYSTEM IN INCREASING THE EMPLOYMENT OF GRADUATES

**U.Mammadova**
**Azerbaijan Technological University**
**ulviyya.m@uteca.edu.az**

**Summary:** Against the background of rapid economic development in the world, each state strives to achieve innovative development while maintaining its competitiveness. To do this, each government must ensure its sustainable development in accordance with the requirements of modern times. In this regard, the main purpose of the study is to analyze the educational program from a systematic perspective and propose a program development plan.

**Keywords:** innovative development, competitiveness, sustainable development, CRENG, curriculum, labor market

## ПРИМЕНЕНИЕ СИСТЕМЫ «SKILLS WALLET» ДЛЯ УВЕЛИЧЕНИЯ ТРУДОУСТРОЙСТВА ВЫПУСКНИКОВ

**У.Мамедова**
**Азербайджанский Технологический Университет**
**ulviyya.m@uteca.edu.az**

**Резюме:** На фоне стремительного экономического развития в мире каждое государство стремится к инновационному развитию при сохранении своей конкурентоспособности. Для этого каждое правительство должно обеспечить свое устойчивое развитие в соответствии с требованиями современности. В связи с этим основной целью исследования является систематический анализ образовательной программы и предложение плана развития программы.

**Ключевые слова**: инновационное развитие, конкурентоспособность, устойчивое развитие, CRENG, учебная программа, рынок труда.

# ÖLKƏNIN ƏRZAQ TƏHLÜKƏSIZLIYI VƏ ONUN MÖHKƏMLƏNDIRILMƏSI YOLLARI

**Ə.F.Babazadə, magistr T.B.Muradova, magistr F.O.Qənbərova**
**Azərbaycan Texnologiya Universiteti**

Ölkənin ərzaq təhlükəsizliyinin təminatı dövlət qarşısında duran ən vacib məsələlərdən biridir. Bu problemi dövlət, xarici və daxili təhlükələri aradan qaldıraraq həll edir. Müxtəlif mənbələrdə ərzaq təhlükəsi probleminin fərqli variantları təklif olunur. Belə ki, ərzaq təhlükəsini şərtləndirən amillər kimi əsas ərzaq məhsullarının istehsalının həcminin azalmasını, ərzaq məhsullarının idxalının həcminin artması, aqrar sənaye kompleksinin istehsal potensialının azalmasını, strateji rezervlər, operativ və sığorta ehtiyatlarının çatışmazlığı göstərilmişdir.

Ərzaq təminatı sahəsində təhlükəsizlik ölkəyə qida məhsullarının idxalının tamamilə dayandırılmasına nail olmaq demək deyil. Bu, absurd fikirdir. O mənada ki, dünyanın heç bir ölkəsi yerli istehsal hesabına özünü ərzaqla 100 % təmin edə bilməz. İdxalsız keçinmək mümkün olmadığı kimi, xaricdən bu və ya digər növ qida məhsulları gətirmədən daxili bazarı bütün növ yeyinti ilə təmin etmək də əsla, real deyil. Bunun üçün inkişaf etmiş, həmçinin ən çox ərzaq məhsullarının ixracı üzrə ixtisaslaşmış ölkələrin bazarlarına nəzər salmaq kifayətdir. Söhbət, ABŞ, Avropa Birliyinin bəzi, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalı üçün tələb olunan təbii şəraiti və texnoloji imkanları geniş olan ölkələrdən gedir [1].

Azərbaycan isə bu gün elə növ ərzaq məhsulları idxal edir ki, bunları özümüz də tam istehsal edə bilərik. Ərzaq təhlükəsizliyi əslində məhz, buna xidmət etməlidir.Ərzaq təhlükəsizliyi - ərzaq sahəsində dövlət maraqlarına cavab verən həyati əhəmiyyətli kompleks daxili və xarici amillərdən asılıdır. Bu amillərin aşkar edilməsi ərzaq təhlükəsizliyinin təmin olunmasında dövlətin taktika və strategiyasını müəyyənləşdirir [2].

Dövlətin əsas məqsədi bu təhlükələri minimuma endirməkdir. Hər bir qrup üzrə dövlətin tədbirlər paketi var ki, onların köməyi ilə ərzaqla bağlı problemləri bu və ya digər dərəcədə həll etmək mümkün olur. Ölkənin ərzaq təhlükəsizliyinin əsas şərti - özünü təmin etmədir. Özünütəminetmə dedikdə ərzaq məhsullarına olan tələbatın daxili istehsal hesabına ödənilməsi başa düşülür. Azərbaycanda adambaşına 0,55 ha kənd təsərrüfatına yararlı torpaq sahəsi düşür.Bu baxımdan dövlətin kənd təsərrüfatının dəstəkləməsi (dotasiya və subsidiyalar şəklində) çox vacibdir. Bu dəstəyin genişləndirilməsi və ünvanlı şəkildə yönəldilməsi, bu vəsaitlər üzərində ciddi nəzarət (müəyyən proqramlar daxilində) ölkənin ərzaq təhlükəsizliyi probleminin həllində öz müsbət təsirini göstərə bilər. Sual yaranır ki, bəs, ərzaq sarıdan təhlükəsizliyi təmin etmək üçün nə lazımdır?

Ərzaq təhlükəsizliyi insanların istənilən vaxt aktiv və sağlam həyat tərzi sürmək üçün kifayət qədər keyfiyyətli qida məhsullarına fiziki və iqtisadi çıxış imkanlarına malik olması deməkdir.Son 10 ildə qeyri-neft ixracının 4,7, meyvə-tərəvəzin emal məhsullarının ixracının 2,5, ixrac olunan qeyri-neft məhsulları çeşidinin 1,7 dəfə, ixrac ölkələrinin sayının isə 20 vahid artdığı deyilir. Real olaraq, ixrac edilən əsas kənd təsərrüfatı və qida məhsullarına meyvə-tərəvəz, şəkər, bitki yağı, spirtli və spirtsiz içkilər daxildir ki, şəkər və ondan hazırlanan məhsullar sarıdan daha çox imkana sahibik.Bu məhsulların sayını artırmaq üçün isə daxili bazarı rəqabət qabiliyyətli məhsullarla təmin etməyə ehtiyac vardır ki, aqrar sektorda məhsuldarlıq sırf ixraca xidmət edə bilsin. Ona görə ki, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsulları daxili bazardan xarici analoqlarını sıxışdırıb çıxarmalıdır.

Yuxarıda inkişaf etmiş və ərzaq məhsullarının ixracı üzrə ixtisaslaşmış ölkələri misal çəkdik. Ümumiyyətlə, götürdükdə isə hətta keçmiş Sovet İttifaqı da idxalsız yaşaya bilmədiyindən bəzi məhsulları kənardan gətirirdi. Birləşmiş Ştatlarda isə bu gün üzərində “Made in China” yazılmış mallar olmadan keçinmək mümkün deyil. Dünyada bir nömrəli iqtisadi güc sayılan ABŞ-da ərzaq da daxil olmaqla avtomobildən tutmuş, pərakəndə satış şəbəkələrində satılan bütün növ istehlak malları başqa ölkələrə məxsusdur: avtomobillər Yaponiya və Cənubi Koreya istehsalına aiddirsə, geyim və digər qeyri-ərzaq, həmçinin ərzaq malları Çin, Hindistan, Pakistan, Tayvan, İndoneziya, Banqladeş, Latın Amerikası ölkələrinin istehsalıdır.Ancaq bir cəhət var ki, bunlar keyfiyyətlidirlər.

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasında məqsəd bilavasitə buna yönəldilməlidir. Daxili tələbatı yerli istehsal hesabına 80 % öz istehsalımız hesabına təmin etsək kifayətdir və bu, böyük nəticədir. Ona görə ki, söhbət ərzaqdan getdiyi təqdirdə iqlim şəraiti və digər bu kimi amillər mütləq nəzərə alınmalı və heç bir halda hətta ən zəruri ərzaq məhsulları ilə də olsa belə, özümüzü 100 % daxili istehsalla təmin edə bilməyəcəyimiz qabaqcadan əsas götürülməlidir.

Bunu taxıl sarıdan da sübut etmək çətin deyil. Düz, 5 ildən çoxdur ki, bu sahədə qarşıya konkret və dəqiq məqsəd qoyulsa da ərzaq buğdasının təxminən 20 %-ini Rusiya ilə Qazaxıstandan, Ukraynadan gətiririk. Odur ki, ərzaq təhlükəsizliyinə nail olmaq üçün məsələn, bu sahədə 100 % nəticəyə deyil, 20 % çatışmayan hissəni dünya bazarlarında ehtiyac duyulan başqa növ məhsulları daxildə istehsal edərək ixrac etməklə əvəz etməyi qarşıya məqsəd qoymaq lazımdır.Təhlükəsiz, müxtəlif çeşidli, qidalı ərzağın qeyri-adekvat mövcudluğu və əldə edilməsinə imkan yaradılmalı, təmiz su, sanitariya və səhiyyə xidmətlərinə çıxışın çatışmazlığının qarşısının alınması, uşaqların və böyüklərin düzgün qidalandırılması, eləcə də düzgün qidalanma seçimlərinin müəyyən edilməsinə köməklik göstərilməsi məqsədə uyğun hesab edilir.

**Ədəbiyyat siyahısı:**

1. Şəkərəliyev, A.Ş. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999.
2. Əliyev, R. Aqrar bazar və ərzaq təhlükəsizliyi məsələləri, Bakı, 2005

## ПРОДОВОЛЬСТВЕННАЯ БЕЗОПАСНОСТЬ СТРАНЫ И ПУТИ ЕЕ УКРЕПЛЕНИЯ

**А.Ф.Бабазаде, Т.Б.Мурадова, Ф.О.Канбарова**
**Азербайджанский Технологический Университет**

**Резюме:** Научная статья посвящена решению проблемы продовольственной безопасности страны и путям ее укрепления.

## THE COUNTRY'S FOOD SECURITY AND WAYS TO STRENGTHEN IT

**A.F.Babazadeh, T.B.Muradova, F.O.Qanbarova**
**Azerbaijan Technological University**

**Summary:** The scientific article is devoted to solving the problem of food security of the country and ways to strengthen it. In this regard, several proposals have been put forward.

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN NƏZƏRİ ƏSASLARI

**A.İbrahimova**
**Azərbaycan Texnologiya Universiteti**
**Ibrahimovaaybeniz1@gmail.com**

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində də iqtisadi təhlükəsizliyin digər mühüm aspektinin - ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün vacib olan hədəflər, məqsədlər və tədbirlər nəzərdə tutulub.

Bu tədbirlərin həyata keçirilməsindən əsas gözləntilər ondan ibarətdir ki, qida təhlükəsizliyinə nəzarət sahəsində təkrarlanmalar aradan qaldırılaraq, qida təhlükəsizliyi üzrə koordinasiya gücləndiriləcəkdir. Respublikamızda qida təhlükəsizliyi sistemi yaradılması, bitkilərin sağlamlığı və pestisidlərə nəzarət üzrə monitorinq və müşahidə prosesləri genişləndirilərək, heyvanların sağlamlığı və xəstəliklərə nəzarət üzrə monitorinq və müşahidə prosesləri təkmilləşdirilməsi ilə yeyinti məhsullarının istehsalının təşkili əsas məsələlərdən biridir. Hər bir ölkənin əhalisinin ərzaq problemi bütün dövrlərdə aktuallıq kəsb etməklə bəşəriyyətin inkişaf tarixində heç bir zaman öz əhəmiyyətini itirməmişdir. Başlıca ərzaq məhsulları ilə əhalinin təmin edilməsi bütün dövrlərdə özünü biruzə verməkdədir, bu gün dünya səviyyəsində bu problem öz əhəmiyyətini saxlamaqdadır.

Bu problemin həlli bilavasitə onunla şərtlənir ki, cəmiyyət üzvlərinin, hər bir fərdin fiziki mövcudluğu onun zəruri qida məhsullarına olan tələbatının ödənilməsindən bilavasitə asılıdır. Bu mühüm, zəruri tələbatın ödənilməsi isə istehlakın maddi əsasını təşkil edən kənd təsərrüfatı, ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması ilə bağlıdır.

Azərbaycan Respublikası regionlarının əhalisinin mühüm ərzaq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması digər maddi və qeyri - maddi istehsal və xidmət sahələrinin də üzvi sürətdə inkişafını səbəbləndirir və ölkənin iqtisadi təhlükəsizlik problemləri həll olunur. Ümumiyyətlə, bu problemin həlli əhalinin həyat tərzini, onun hansı iqtisadi səviyyəyə uyğun yaşamasını, həyat tərzlərinin hansı keyfiyyət ölçülərində mövcudluğunu göstərir.

Məlum olduğu kimi, ərzaq məhsullarına olan tələbatın ödənilməsi regional səviyyədə əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument, göstərici olmaqla, cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç bir zaman istehlakı dayandıra bilməz. Ərzaq məhsullarının istehlakının dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir.

Əhalinin ərzaq məhsulları itehsalı ilə təminatının yaxşılaşdırılması cəmiyyətin mühüm iqtisadi - sosial vəzifələrindəndir. Məhz bu baxımdan, bəşəriyyətin bütün tarixi ərzində ərzaq təminatının yaxşılaşdırılması beynəlxalq miqyas almaqla, ölkənin milli iqtisadi təhlükəsizliyində də öz aktuallığını saxlamışdır. Hazırki şəraitdə dünya miqyasında ərzaq ehtiyatlarının qıtlığından təqribən 1 mlrd. insan əziyyət çəkir.

Ərzaq qıtlığını aradan qaldırmaq məqsədilə dünya dövlətlərinin səyləri birləşdirilərək "Ümumdünya ərzaq təhlükəsizliyi haqqında Roma deklarasiyası" qəbul edilmiş 2020-ci ilə qədər dünyada doyunca qidalanmayan əhalinin sayının 2 dəfəyə qədər azalması və cəmiyyət üzvlərinin ərzaq təminatının yaxşılaşdırılması vəzifəsi qarşıya qoyulmuşdur.

Problemin əsaslı sürətdə həll edilməsi məqsədi ilə aşağıdakıların yerinə yetirilməsi məqsədəuyğun hesab edilməlidir:

-əhalinin konkret ərzaq məhsullarına olan tələbatlarının öyrənilməsi və perspektiv dövr üçün onun həcminin artırılması istiqamətində bazarların monitorinqi;

-bölgələrin əhalisi üçün əlavə ərzaq ehtiyatlarının yaradılması;

-həmin bölgə daxilində bəzi yaşayış məntəqələrində çatışmayan ərzaq məhsullarına olan tələbatın ödənilməsi üçün digər yerlərdən ərzaq köməkliyinin göstərilməsi;

-bölgələrin digər iqtisadi regionlar ilə əlaqələrinin daha da genişləndirilməsi və ümumiyyətlə investisiya, innovasiya siyasəti genişlənməsi, yüksək texnologiyaların tətbiqi genişləndirilməlidir.

Dünya əhalisinin durmadan artması, insanların istehlak həcminin yüksəlməsi hələ yaxın gələcəkdə ərzaqla bağlı qlobal problemlərin aradan qalxacağına şübhə yaradır. Digər tərəfdən ekoloji problemlər, içməli suya olan tələbat da genişlənir. Beləliklə, dünyada həllini gözləyən əsas problemlər dolayısı ilə ərzaq problemini daha da kəskinləşdirməkdədir.

**Ədəbiyyat siyahısı:**

1. “Azərbaycan Respublikasında əhalinin 2008-2015-ci illərdə ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”. Bakı, 2008.
2. Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı, Səda, 2010.
3. “Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası”.
4. “Azərbaycan Respublikasının Ekoloji təmiz kənd təsərrüfatı haqqında qanunu”. 13 iyun 2008-ci il. Bakı, 2008.
5. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı, “Tərəqqi” MMC, 2007, 602 s.

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ

**А.И.Ибрагимова**
**Азербайджанский Технологический Университет**
**Ibrahimovaaybeniz1@gmail.com**

**Резюме:** Устойчивое снабжение продовольствием, доступ к продовольствию для всех и его безопасность - одна из важных обязанностей каждого государства в социальной сфере. В экономике на протяжении веков ведутся различные дискуссии о продовольственной безопасности. Целями программы продовольственной безопасности являются: 1) реализация мер, направленных на увеличение производства местной сельскохозяйственной продукции и поддержание цен на продукты питания на приемлемом уровне; 2) создание системы предотвращения острой нехватки продовольствия.

## Theoretical Foundations of Food Security

**A.İ.İbragimova**
**Azerbaijan Technological University**
**Ibrahimovaaybeniz1@gmail.com**

**Summary:** A sustainable food supply, access to food for all and its security, is one of the important social responsibilities of every state. There have been various debates about food security in economics for centuries. The goals of a food security program are: 1) implementing measures to increase local agricultural production and keep food prices at an acceptable level; 2) creating a system to prevent severe food shortages.

# IMPACT ANALYSIS OF “EQAC” PROJECT AT AZERBAIJAN

**Assoc. prof. V.Ismayılov, I.Gurbanova**
**Azerbaijan Technological University**
**v.ismayilov@uteca.edu.az , i.gurbanova@uteca.edu.az**

As the beginning of project activities a survey was conducted among the administrative and academic staff of UTECA in order to clarify the current situation on Quality Assurance. Thus, before the project not everyone was familiar with the quality policy, not everyone took on responsibility in terms of quality issues, not every structure had awareness about their job descriptions and their own structure’s work plan, in some specialties the opinions of internal and external stakeholders were not fully considered, to some extent, intended learning outcomes were not taken into consideration during the assessment process, there was resistance to student-centered education system, the assessment did not fully allow students to demonstrate the extent to which the intended learning outcomes have been achieved, average age for academic staff was more than 60 years; usage of ICT tools during lecture process was very poor, all learning resources such as lecture materials, study programs and syllabus were not available at university’s official website, etc.

Then, Quality Assurance Department has been established at UTECA within the framework of “Establishing Quality Assurance Centers at Higher Education Institutions” (EQAC) project. The Quality Assurance department is subordinated to the Rector of the University, that is why all the steps taken are reported at the annual Scientific Council to the Rector. At the same time, a quality control commission has been established at the University.

Quality assurance department chose marketing specialty as a pilot program within ERASMUS+EQAC Project. Additionally, pilot subjects were selected with the approval of rector by considering teachers’ language skills. Students were involved to the survey online and 200 students were participated. More than 30 teachers including pilot teachers were participated and at the end of sessions, current challenges and the ways to overcome them were discussed. Participant lists were prepared and participants who participated all sessions were provided with certificates. 9 syllabi (Microeconomics, Macroeconomics, Statistics, Accounting, Informatics, English 1,2, Marketing, Management) were updated by taking ESG, Azerbaijan National Qualification Framework, Official State Standards and other quality related issues which were taught in trainings. Then, 5 syllabi (Microeconomics, Macroeconomics, Statistics, English, Marketing) were reviewed again to write tasks by considering learning outcomes. 5 teachers were involved to updating process who are aware of modern requirements. QA department held regular dissemination trainings regarding ESG standards among the teaching and administrative staff as well as students. Thus, 70-80% of teaching and administrative staff were participated in the trainings of QA department regarding ESG standards.

Currently, Student Union, Student Scientific Union, Student Sport Union enroll in university activities. Heads of these Unions have to report their yearlong activities at the University Scientific Council. The faculty administration considers student complaints about teaching and examination procedure. However, a routine survey of student satisfaction is implemented within the university.

The meanwhile, staff satisfaction is evaluated through faculty meetings. Individual faculty member applications for betterment, complaints and open discussion meetings are main methods for measuring staff performance. At the end of each semester every faculty selects 5 Teachers of the semester based on student inquiries, whose lessons are the best ones according to the evaluation criteria of the education quality control commission. Selected teaching staffs are awarded a letter of appreciation or a differentiated salary.

EQAC project had a great role in the quality improvement of our university. UTECA established its Quality Assurance Department (QAD) during the EQAC project. Thus, the Quality Assurance department is responsible for Assurance of the Quality in general, but all the faculties and departments in turn, also liable for establishing and monitoring the quality of their departments. The Quality Assurance policy was prepared by the QAD and approved by the Rector of the university at the beginning of the EQAC project. In addition, it has been updated afterwards. Besides that, QA strategy, Statue of QA Center, QA Staff Job Description, Stakeholder Mapping, QA Action Plan, QA

reports, Business Sustainability Plan have been developed within the framework of the project and were uploaded on our official website.

The meanwhile, we have developed a database which includes information of our current students as well as graduates as a result of EQAC project. A database is also being developed on the Higher Education Information System (ATİS) portal, which envisages the creation of a single and centralized database in HEIs. Thus, there is a consistent data management system led by Quality Assurance Department to monitor teaching, research and learning across the whole institution.

At the end of each year, every department and faculty conducts meetings, discussions and prepares their self-evaluation reports, which become mandatory after the EQAC project. All of the departments send reports to the Quality Assurance department. The QA department analyzes report and gives feedback to them.

Besides that, the level of collaboration, network and communication among Higher Education Institutions and other stakeholders was limited and inadequate. UTECA signed Memorandum of Understandings (MoUs) with numerous Universities throughout the country within the framework of the project, such as Baku Biznes University, Odlar Yurdu University, Nakhchivan University, etc. in order to carry out joint successful cooperation. After pandemic situation we are planning to carry out academic staff and student mobility, joint scientific projects and events.

The meanwhile, UTECA has recently merged audit and quality assurance departments to ensure a more centralized monitoring and periodic review of their QA actions across the whole institution. University has administrative staff with international experience and up-to-date knowledge and skills. UTECA managed to build strong cooperation with industries.

**Ədəbiyyat siyahısı:**

1. Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG).(2015). Brussels, Belgium.
2. The ISO 9001:2015 implementation handbook: using the process approach to build a quality management system. Milton Dentch - Asq Quality Press – 2017
3. http://www.erasmusplus.it/wp-content/uploads/2018/05/bologna_internet_reduced.pdf
4. https://www.nvao.net/nl/publicaties
5. Self Evaluation Report (SER) developed by university management and assessment report submitted by EU expert after the conduction of the final monitoring of the project at UTECA, 2021

## UTECA-DA "EQAC" LAYIHƏSI NƏTICƏLƏRININ DAVAMLI TƏSIRI

**prof. V.İsmayılov, İ.Qurbanova**
**Azərbaycan Texnologiya Universiteti**
v.ismayilov@uteca.edu.az . i.gurbanova@uteca.edu.az

**Xülasə:** Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Bakı Biznes Universitetinin koordinatorluğu ilə həyata keçirilən "Ali Təhsil Müəssisələrində Keyfiyyətin Təminatı Mərkəzlərinin yaradılması" (EQAC) layihəsi çərçivəsində UTECA-da Keyfiyyət Təminatı şöbəsi yaradılıb. Adı çəkilən layihə 11 Azərbaycan Universitetində Aİ standartlarına uyğun olaraq Daxili Keyfiyyət Təminatının tətbiqi və saxlanılması baxımından Azərbaycanda ilk genişmiqyaslı və uğurlu layihə hesab olunur. Beləliklə, tezis UTECA-da Keyfiyyət Təminatı Sisteminin mövcud vəziyyəti, layihənin əhəmiyyətli nəticələri, nailiyyətləri və təsir təhlilini əhatə edir.

## АНАЛИЗ ВОЗДЕЙСТВИЯ ПРОЕКТА "EQAC" В АЗЕРБАЙДЖАНСКОМ ТЕХНОЛОГИЧИСКОМ УНИВЕРСИТЕТЕ (UTECA)

**В.Исмайлов, И. Курбанова**
**Азербайджанский Технологический Университет**
v.ismayilov@uteca.edu.az . i.gurbanova@uteca.edu.az

**Резюме:** В UTECA в рамках финансируемого ЕС проекта «Создание центров обеспечения качества в высших учебных заведениях» (EQAC) при координации Бакинского университета бизнеса был создан отдел обеспечения качества. Проект является первым крупномасштабным и успешным проектом в Азербайджане с точки зрения применения и поддержания внутреннего контроля качества в соответствии со стандартами ЕС в 11 университетах Азербайджана. Таким образом, тезис охватывает текущее состояние системы обеспечения качества в UTECA, важные результаты проекта, достижения и анализ воздействия.

# RESPUBLIKAMIZDA SƏNAYENİN İNKİŞAFININ NƏZƏRİ MƏSƏLƏLƏRİ

**Ə.Ş.Ələsgərov**
**Azərbaycan Texnologiya Universiteti**
**Elesger007@mail.ru**

Son illərdə dünya iqtisadiyyatında sənayenin rolu yenidən artmaqdadır. Bu artım həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrə şamil edilir. Ümumiyyətlə, qeyd olunmalıdır ki, iqtisadi sektorlar arasında sənaye öz strukturunun mürəkkəbliyi ilə fərqlənir. Sənayenin dünya iqtisadiyyatında payı təqribən 30 faizdir, bu sahədə işləyənlərin sayı BMT - nin Sənaye İnkişafı Təşkilatının hesablamalarına əsasən sənaye emalında məşğul iqtisadi əhalinin təxminən 12% olduğunu göstərir.

Sənaye - təbiətdən aldığı mineral və habelə kənd təsərrüfat xammalını mexaniki, termiki, kimyəvi və s. təsirlərə əsaslanan və istehsal - texniki təyinatlı məhsulları istehsalı üçün fəaliyyət növüdür.

Bu gün Respublikamızda sənaye öz daxili strukturuna və miqyasına maddi istehsalın ən zəngin və geniş sahələrindəndir. Sənayenin digər istehsal sahələrindən fərqləndirici bir sıra xüsusiyyətləri vardır:

- elmi - texniki tərəqqi əsasında öz istehsal həcmini başqa maddi istehsal sahələrinə nisbətən sürətlə artıra bilməsi;
- əmək bölgüsünün təsiri ilə onun sahə quruluşunun dəyişməsindəki dinamizm;
- digər istehsal sahələri ilə müqayisədə daha yüksək əmək məhsuldarlığına nail olmaq imkanlarının geniş olması.

Yuxarıda sadalanları müqayisə və mülahizə etməklə, belə nəticəyə gəlmək olar ki, sənaye istehsal sahələri arasında yüksək reytinqə malik olmaqla yanaşı, həm də əhalinin işlə təmin olunmasında öz xüsusi çəkisinə görə fərqlənməklə, cəmiyyət üzvlərinin sosial rifahının həlledici dərəcədə təmin edə bilən maddi istehsal və insanların mühüm fəaliyyət sahəsidir.

Respublikamızda sənaye müəssisələrinin yaradılması və onların ən son texnologiyalarla təmin olunması və idarə etmənin təkmilləşdirilməsi məsələləri həmişə ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bu siyasətin həyata keçirilməsinin təzahür forması, 2004 - 2008-ci,

2009 - 2013-cü illərdə regionların sosial - iqtisadi inkişaf proqramlarında regionlarda xeyli sayda sənaye müəssisələrinin işə salınmasıdır.

Ölkə prezidenti İlham Əliyev cənablarının apardığı uğurlu iqtisadi islahatların davamı olan 26 Dekabr 2014-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015 - 2020-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə sənayeləşmə prosesinin sürətlənməsinə böyük təkan vermişdir.

Müasir şəraitdə sənayenin bütün sahələri üzrə qabaqcıl informasiya - kommunikasiya texnologiyaları bazasında fəaliyyət göstərən idarəetmə sistemləri geniş tətbiq edilir və sənayedə infrastrukturların avtomatlaşdırma və intellektuallaşdırma səviyyəsi yüksəlir. Məlumatların və göstəricilərin avtomatik olaraq ötürülməsi, istehsalda yeni texnologiyalardan istifadə edilməsi nəticəsində bu gün ölkəmizdə beynəlxalq standartlara uyğun sənaye sahələri yaradılmışdır.

Müasir bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın qarşısında duran əsas məsələlərdən biri də qeyri - neft sektorunun dayanıqlı inkişafını formalaşdırmaq, qeyd edilən sahə üzrə rəqabət qabiliyyətini yüksəltmək, eləcə də onun innovasiyalı inkişafını həyata keçirmək və s. hesab olunur.

Son dövrlər ölkəmizdə həyata keçirilən davamlı iqtisadi siyasət nəticəsində sənayeləşmə prosesi daha da genişlənmişdir. Düzgün neft - qaz siyasətinin həyata keçirilməsi ölkənin mövcud sənaye potensialından səmərəli istifadə imkanlarının genişləndirilməsinə səbəb olmuşdur. Məsələn, son on ildə sənaye istehsal təqribən 2,7 dəfə, o cümlədən tikinti məmulatlarının istehsalı 2,5 dəfə, elektrik avadanlıqlarının istehsalı 2,1 dəfə, metallurgiya sənayesi üzrə istehsal həcmi 2,2 dəfə, geyim istehsalı 2,5 dəfə yüksəldilmişdir ki, bunlar da kifayət qədər yüksək göstəricilər hesab olunurlar. Davamlı olaraq həyata keçirilən sənayeləşmə tədbirləri istiqamətində qabaqcıl hasilat sahələrində əldə edilmiş uğurlarla yanaşı, sənayenin şaxələndirilməsi prosesi genişləndirilmiş, müasir innovativ proseslərə əsaslanan müasir müəssisələr təşkil olunmuşdur. Son dövrlər ərzində Sumqayıt texnologiyalar parkının, Alüminium və Polad istehsalı kompleksinin eləcə də, paytaxtımızda Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, dağlıq rayonlarımızda qızıl - mis emalı zavodlarının təşkili, neft - kimya sənayesində yenilənmə işlərinə start verilməsi və Karbomid Zavodunun inşası, Qaradağda Sement Zavodunun istehsal gücünün yüksəldilməsi və yeni zavodun inşası, Qazaxda, Naxçıvanda yeni sement zavodlarının tikilib istifadəyə verilməsi mühüm tədbirlərdən hesab olunur.

Eyni zamanda, Naxçıvanda avtomobil, Mingəçevirdə elektron avadanlıqlar, paytaxtı ətrafında günəş panelləri istehsalı müəssisələri təşkil olunmuşdur. Artıq güclü müdafiə sənayesinin təşkili istiqamətində də mühüm layihələr reallaşdırılmış, qısa müddətdə bu sahədə 45-ə yaxın yeni istehsal sahəsi yaradılmış və onlar tərəfindən hərbi və mülki təyinatı məhsulların da istehsalı təşkil olunmuşdur. Nəticədə onların istehsal həcmi son illərdə təqribən 2 dəfə artırılmışdır.

Bakıda və regionlar üzrə geyim istehsalı, dəri məmulatları və ayaqqabı istehsalı, kağız və karton istehsalı, mebel istehsalı və digər qeyri - neft emal sənayesi sahələrində fəaliyyət göstərən yeni müəssisələr tikilib istismara verilmişdir. Bundan başqa infrastruktur təminatının yaxşılaşdırılması müasir ərzaq məhsullarının istehsalı sahəsində yeni müəssisələrin yaradılmasını da ilk öncə təmin etmişdir. Məsələn, paytaxt ətrafında yeni Duz Zavodu, Sumqayıtda Bitki Yağları Emal Zavodu, Oğuzda Qarğıdalı Emalı və Qlükoza İstehsalı Zavodu, müxtəlif bölgələrdə süd kombinatları və müxtəlif məhsulları istehsalı müəssisələri formalaşdırılmışdır.

Azərbaycanda regionlar üzrə müxtəlif sənaye parklarının yaradılması müasir dövrdə iqtisadi baxımdan mühüm rol oynayır. Məsələn, Sumqayıt şəhəri üzrə Texnologiyalar parkı və Kimya sənaye parkı, Balaxanı sənaye və Yüksək texnologiyalar parkı regionda ən qabaqcıl parklardan hesab olunur. Müasir, sənaye siyasətinin mühüm istiqamətlərindən biri də sənaye sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilmiş tədbirlərin reallaşdırılması hesab olunur .

Qeyri - neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiylar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün əlverişli şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq istiqamətində Sumqayıt texnologiyalar parkının, Sumqayıt kimya sənaye və Balaxanı sənaye parklarının, Yüksək texnologiyalar parkının yaradılması və s. çox böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat siyahısı:**

1. Abbasov, İ.M, Əliyev.T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, "Elm və Təhsil", 2017, 501 s.
2.Azərbaycan Respublikasında 2014-cü il “Sənaye ili” elan edilməsi barədə 10 yanvar 2014-cü il tarixli Sərəncamı.
3. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020 – ci illər üçün Dövlət Proqramı Bakı, Elm, 2016.
4. Azərbaycan sənayesi DSK-ın məlumatları

## ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ РАЗВИТИЯ ПРОМЫШЛЕННОСТИ В НАШЕЙ РЕСПУБЛИКЕ

**А.С. Алескеров**
**Азербайджанский Технологический Университет**
Elesger007@mail.ru

**Резюме:** Если мы посмотрим на теоретические вопросы, связанные с развитием промышленности в промышленно развитых странах, то увидим, что они используют разные методы. К ним относятся, например, эффективная тарифная политика для повышения конкурентоспособности отраслей, благоприятный налоговый и таможенный режим, применение гибкой курсовой политики, а также расширение возможностей для привлечения местных и иностранных инвестиций в различные отрасли, доступ к льготным кредитам и лизингу может увеличиваться. На мой взгляд, применение вышеперечисленных методов, популярных в мировой практике, может сыграть большую роль в развитии промышленности в нашей стране.

## THEORETICAL ISSUES OF INDUSTRIAL DEVELOPMENT IN OUR REPUBLIC

**A.SH.Alasgarov**
**Azerbaijan Technological University**
Elesger007@mail.ru

**Summary:** If we look at the theoretical issues related to the development of industry in industrialized countries, we can see that they use different methods. These include, for example, an effective tariff policy to increase the competitiveness of industries, a favorable tax and customs regime, the application of a flexible exchange rate policy, as well as the expansion of opportunities to attract local and foreign investment in various industries, access to soft loans and leasing. can be shown to increase. In my opinion, the application of the above methods, which are popular in world practice, can play a major role in the development of industry in our country.

# TANIMA MƏSƏLƏLƏRİNDƏ ADEKVATLIQ

**E.N.İsrafilova, R.A.Mustafayev**
**Mingəçevir Dövlət Universiteti**
mustafayevrensani@gmail.com

Hazırda insan identifikasiyasının biometrik sistemləri getdikcə daha geniş vüsət alır. Ənənəvi identifikasiya sistemlərindən fərqli olaraq, biometrik sistemlər insanın unikal bioloji xarakteristikalarına əsaslanır. Həmin xarakteristikaların saxtalaşdırılması çətindir və onlar konkret insanı birmənalı təyin edir. İnsanın sifətinin təsvirinə görə tanınması digər biometrik sistemlərdən fərqlidir: xüsusi bahalı avadanlıq tələb etmir; insanın cihazlarla fiziki əlaqəsi yoxdur. Sifətin təsvirinə görə insanın tanınmasının çatışmayan cəhəti identifikasiyanın etibarlılığın 100% təşkil etməməsidir. Yüksək etibarlılıq tələb olunan sahələrdə bir neçə biometrik üsulun birləşməsi tələb olunur.

İnsanın sifətinin tanınması probleminə həsr olunan işlərin sayının çox olmasına baxmayaraq, bu problem həll olunmaqdan çox uzaqdır. Əsas çətinliklər şəxsin təsvirinin çəkilişi zamanı rakursun və işıqlanma şəraitinin dəyişməsindən, yaşla bağlı müxtəlif dəyişikliklərdən, saç düzümündən asılı olmayaraq insanın tanımasından ibarətdir.

Neyroşəbəkə üsulları obrazların tanınması məsələsinin həllinə fərqli yanaşma təklif edir. Neyroşəbəkələrin arxitekturası və fəaliyyəti bioloji prinsiplərə əsaslanır. Neyron şəbəkənin öyrənməsi öyrədici nümunələr dəstinə görə aparılır. Neyron şəbəkənin öyrədilməsi prosesində əsas əlamətlərin avtomatik çıxarılması, onların əhəmiyyətinin müəyyən edilməsi və onlar arasında qarşılıqlı əlaqələrin qurulması baş verir. Öyrədilmiş şəbəkənin öyrənmə prosesində əldə etdiyi təcrübənin düzgün ümumiləşdirmə bacarığı hesabına naməlum obrazlara uğurla tətbiq edə bilər [2].

Bir sıra amildən asılı olaraq, məsələn, bir çox tanıma sistemləri haqqında məlumatların qapalı olması, həmin sistemlərin kompüter modelləri haqqında açıq mətbuatda dərc edilən məlumatlar çox vaxt ümumi xarakter daşıyır. Bununla yanaşı, tanınmış nəşrlərdə yeni sistemlərin layihələndirilməsi üçün lazım olan kompüter modelləşdirilməsinin ümumi metodologiyasının, eləcə də bu metodologiyanın bir sıra mühüm tərkib hissələrinin şərhi yoxdur. Məsələn, tanıma məsələlərinin adekvatlığının qiymətləndirilməsi üsulları, demək olar ki, yoxdur. Bu səbəbdən tədqiqat işinin məqsədi istənilən kompüter modellərində adekvatlığın ümumi müddəalarının araşdırılmasıdır.

Tətqiqatlar zamanı orijinal obyektin təsir altına salınması mümkün olmadığı və ya məqsədəuyğun olmadığı halda, onun modelindən istifadə olunur. Lakin orijinal obyektin model ilə əvəz edilməsi ancaq modelin kifayət qədər oxşar və ya adekvat olduğu halda mümkündür. Adekvatlıq – modelin modelləşdirilən obyektə (orijinala) və ya prosesə uyğunluğudur. Müəyyən mənada adekvatlıq şərti bir anlayışdır, belə ki, modelin real obyektə tam uyğun gəlməsi mümkün deyil, əks halda bu model deyil, obyektin özü olardı. Modelləşdirmə zamanı adekvatlıq ümumi şəkildə yox, modelin tədqiqatı üçün əhəmiyyətli sayılan xüsusiyyətlərinə görə nəzərə alınır [1].

Modelin interpretasiyası zamanı onun orijinala yüksək dərəcədə oxşar "portret"inin yarandılması, orijinala adekvatlığı haqqında bəhs edilməsinə imkan verir. Modelin tədqiq olunan sistemi düzgün əks etdirməsi məsələsi həll olunmayana qədər, modelin dəyəri sıfırdır!

Göründüyü kimi, "adekvatlıq" anlayışı qeyri-müəyyən məna daşıyır. Aydındır ki, istifadə olunan modelləşdirmə proseduru ilə bağlı bənzərlik ideyasını dəqiqləşdirən müəyyən nəzəriyyəni orijinal obyekt tətbiq edə bildiyi halda modelin qurulması və nəticələrin modeldən sistemə köçürülməsi zamanı modelləşdirmənin nəticəviliyi xeyli artacaqdır.

Təəssüflə qeyd etmək lazımdır ki, fiziki təbiətə malik hadisələrin bənzərliyini təyin edən yaxşı işlənmiş nəzəriyyəsindən fərqli olaraq, riyazi modelin və modelləşdirilən sistemin adekvatlığını qiymətləndirməyə imkan verən nəzəriyyələr yoxdur.

Adekvatlığın yoxlanması modelin qurulmasının bütün mərhələlərində həyata keçirilir. Əgər sistemin təsviri real sistemə kifayət qədər adekvat tərtib olunmasa, onda sistemin təsvirini nə qədər dəqiq əks etdirməsinə baxmayaraq, orijinal obyektə adekvat olmayacaqdır. Ümumiyyətlə, reallıqda mövcud olan prosesləri tam dəqiq əks etdirən riyazi modellər yoxdur. Sistemin tədqiqi keyfiyyətli aparılıb və konseptual model real vəziyyəti kifayət qədər dəqiq əks etdirdiyi halda, tədqiqatçının qarşısında ancaq bir təsvirin digərinə ekvivalent çevrilməsi problemi durur.

Aşağıdakı şərtlər ödənildiyi halda modelin və orijinal obyektin adekvatlığı barədə danışmaq olar: hər hansı bir mərhələdə yaradılmış davranışın təsviri eyni vəziyyətlərdə modelləşdirilən sistemin davranışı ilə kifayət qədər dəqiq üst-üstə düşür; modelin köməyi ilə proqnozlaşdırılmalı olan sistemin xüsusiyyətlərinə görə təsvir inandırıcı görünür.

Modelin ilkin variantı aşağıdakı yoxlamalara məruz qalır: bütün əsas parametrlərin modelə daxil olunması; modeldə əhəmiyyətsiz parametrlərin olmaması; parametrlər arasında funksional əlaqələrin düzgün əks olunması; parametrlərin qiymətlərinə qoyulan məhdudiyyətlərin dəqiq verilməsi; parametrlər sərhəd qiymətlərini qəbul etdikdə modelin mənasız nəticələrin verməsi.

Modelin adekvatlığı haqqında yekun qərar yalnız təcrübə əsasında (yəni obyekt və model üzərində aparılan eksperimentlərə görə) qəbul edilir. Model və obyekt eyni təsirlərə məruz qalır və onların reaksiyaları müqayisə edilir. Əgər mümkün dəqiqlik çərçivəsində reaksiyalar eynidirsə, onda model orijinala adekvat olduğu haqqında nəticə hasil edilir.

Neyron şəbəkədə öyrənmə mühitini yaradarkən yadda saxlamaq lazımdır ki, öyrənmə üçün nəzərdə tutulmuş verilənlər dəsti göstəricilərinin yaxşı olması, modelin yeni verilənlərə yaxşı uyğunlaşması demək deyil. İstənilən maşın öyrənmə modelinin əsas məqsədi yeni, naməlum verilənlərə aid etibarlı proqnozların verilməsidir. Maşın öyrənməsinin mənası nümunələrə və öyrəndiyi digər amillərə əsaslanan obyektlərin proqnozlaşdırılmasıdır [3]. Maşın öyrənməsi ənənəvi proqramlaşdırmadan daha asandır. Proqramlaşdırma zamanı ilkin verilənlərin hər bir halı nəzərə alınmalı, proqramın məntiqi və qaydaları ona görə uyğunlaşdırılmalıdır. Maşın öyrənməsindən istifadə etdikdə isə, əslində, verilən nümunələr əsasında kompüterə qaydaların tapılması öyrədilir.

Adekvat nəticələrin əldə edilməsi şərti ilə neyron şəbəkənin optimallığı arxitekturanın sadəliyi, öyrətmə dövrlərinin sayının kifayət qədər minimal olması və nəticə kimi, tələb olunan hesablamaların həcminin minimal olması ilə təyin olunur. Şəbəkənin deyil, məsələnin mürəkkəb olması vacibdir. Bununla yanaşı cəld işləməyə də xüsusi diqqət yetirilməlidir.

Beləliklə, öyrətmə nəticələrinin bir və ya çox yaxın olan qiymətə gətirilməsi – çıxış və giriş verilənləri arasında neyron şəbəkəsi tərəfindən həyata keçirilən hər hansı bir qanunauyğunluğun olmasını bildirən zəruri şərtdir. Neyron şəbəkəsinin yoxlanmasının səmərəli üsulu məsələnin nəticələrini məsələnin klassik həllinin (bu cür həll mövcuddursa) nəticələri ilə müqayisə edilməsindən ibarətdir. Modelin adekvatlığının kafi şərti – öyrənməyə daxil edilməyən verilənləri də əlavə etməklə, bütün verilənlər çoxluğu intervalında nəticələrin proqnozlaşdırılmasıdır.

**Ədəbiyyat siyahısı:**

1.Боев В.Д. Имитационное моделирование систем. М.: Юрайт, 2017, 253 с

2.Брилюк Д.В., Старовойтов В.В. Распознавание человека по изображению лица нейросетевыми методами [Elektron resurs] // https://www.researchgate.net

3.https://api-2d3d-cad.com

## АДЕКВАТНОСТЬ В ЗАДАЧАХ РАСПОЗНАВАНИЯ

**Э.Н.Исрафилова, Р.А.Мустафаев**
**Азербайджанский Технологический Университет**
mustafayevrensani@gmail.com

**Резюме:** В настоящее время все большее распространение получают биометрические системы идентификации личности. Но эта проблема далека от решения. В зависимости от ряда факторов информация, публикуемая в открытой печати, часто носит общий характер. Так, например, методов оценки адекватности в задачах распознавания очень мало. По этой причине целью данной работы является исследование общих положений адекватности в компьютерных моделях.

## ADEQUACY IN RECOGNITION ISSUES

**E.N.Israphilova, R.A.Mustafayev**
**Azerbaijan Technological University**
mustafayevrensani@gmail.com

**Summary:** Currently, human identification biometrics systems are widely used. Depending on a number of factors, the information published in the open press is often of a general nature. So, for example, there are very few methods for assessing adequacy in recognition issues. For this reason, the purpose of this work is to study the general provisions of adequacy in computer models.

# İŞĞALDAN AZAD EDILMIŞ ƏRAZILƏRDƏ "AĞILLI ŞƏHƏR" VƏ "AĞILLI KƏND" KONSEPSIYASININ TƏTBIQI ISTIQAMƏTLƏRI

**S.Y.Məmmədov**

**Mingəçevir Dövlət Universiteti**

**Mammadovsaqib92@gmail.com**

Artıq indidən proqnozlaşdırmaq olar ki, yaxın gələcəkdə "ağıllı şəhər" və "ağıllı kənd" fenomen kimi hər yerdə özünü göstərəcək. Buna görədir ki, dünyada "ağıllı kənd" layihəsi sürətlə populyarlıq qazanır, bir sıra ölkələrdə belə layihələr artıq reallığa da çevrilmişdir.

"Ağıllı kənd"in əsas xüsusiyyətlərindən biri odur ki, insan evindən çıxmadan uzaq məsafədən idarə edə biləcəyi geniş texniki imkanlara malik olur. Belə ki, kənd sakini vahid mərkəzdən informasiya sistemlərini idarə etmək, məlumat əldə etmək, iş və digər əməliyyatlar aparmaq, kommunikativ xidmətlər (onlayn danışıqlar aparmaq bacarığı) həyata keçirmək imkanı qazanır. Beləliklə, "ağıllı kənd" sakinləri layihənin formalaşdırdığı avtomatlaşdırılmış mərkəzi sistem sayəsində ciddi vəsait və vaxt sərf etmədən cari məişət problemlərini həll edə bilərlər. [3] Azərbaycanda "ağıllı şəhər" konsepsiyasının tətbiqi ilə bağlı araşdırma aparılması və pilot layihə həyata keçirilməsi imkanlarının müəyyən edilməsi Prezident İlham Əliyevin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapıb. [1] Prezident İlham Əliyev çıxışlarından birində: "Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumunda iştirakım zamanı onlarla şirkətlə görüşlərim olur, onların böyük əksəriyyəti texnoloji şirkətlərdir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var, hansı müsbət inkişaf var və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir", - deyə bəyan edib.[3] "Ağıllı şəhər" konseptinin əsas məqsədlərindən biri – şəhərlərin idarəçiliyi səviyyələrinin birləşdirilməsidir və bunu edərək vahid "Data"nın, yəni məlumatlar bazalarının birgə işləməsinin təmin edilməsidir. Daha dəqiq desək, məlumat bazaları müxtəlif istiqamətli fəaliyyətlər nəticəsində formalaşan datadır.

2021-ci il aprelin 19-da isə Azərbaycan Prezidenti "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" Sərəncam imzalayıb. [2]

Xatırladaq ki, azad edilmiş ərazilərdə "yaşıl enerji" zonası yaradılacaq və həmin ərazilərdə "ağıllı" istehlak sistemlərinin tətbiqi Qarabağda yeni həyat standartının formalaşmasına imkan verəcək. Bununla yanaşı, "ağıllı kənd"lərdə su ehtiyatlarına qənaət edilməsi məsələsi də diqqət mərkəzində olacaq. İşğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin reallaşdırılması istər şəhər, istərsə də kənd əhalisinin qarşılaşdığı əsas problemlərin həllinə və xüsusilə də kənd ərazilərində yeni iqtisadi imkanların yaradılmasına öz müsbət təsirini göstərəcək. Xüsusilə də "ağıllı kənd" layihəsi kəndlə ətraf bölgələr arasında yeni əməkdaşlıq formatının formalaşmasına da öz müsbət töhfəsini verəcək.

İlk mərhələdə Ağalı kəndində həyata keçiriləcək layihənin icrası 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələrini əhatə edəcək. "Ağıllı kənd" layihəsi gələcəkdə onun regionun digər ərazilərində də uğurla tətbiq edilməsinə zəmin yaradacaq.

Layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək.Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar

ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. Burada “Ağıllı idarəetmə sistemi” data və təhlil mərkəzindən həyata keçiriləcək.

“Ağıllı kənd” layihəsi bərpa olunacaq kəndlərimizə qayıdacaq insanların həyat şəraitinin yaxşılaşmasında, aqrar sahə ilə məşğul olacaq fermerlərimizin “ağıllı kənd təsərrüfatı” sisteminə inteqrasiyasında mühüm rol oynayacaq. [4]

**Açar sözlər:** Ağıllı şəhər, ağıllı kənd, SMART idarəçilik, yaşıl enerji

### Ədəbiyyat siyahısı:

1. “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentini Sərəncamı
2. “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
3. E.Əliyev. “4-cü Sənaye İnqilabına Qarabağ baxışı: İşğaldan azad olunmuş ərazilərdə Ağıllı şəhərlər”. Report.az. 07 yanvar 2021-ci il
4. S.Məmmədov. “Ağıllı kənd” lahiyəsi bizə nə vəd verir”. Xalqəzeti.com, 25 fevral 2021-ci il

## НАПРАВЛЕНИЯ ПРИМЕНЕНИЯ КОНЦЕПЦИИ «УМНЫЙ ГОРОД» И «УМНАЯ ДЕРЕВНЯ» НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ.

**С.М.Яшар**
**Мингечаурский Государственный Университет**
**Mammadovsaqib92@gmail.com**

**Резюме:** В наше время информационные и коммуникационные технологии стали одним из основных факторов, влияющих на развитие общества. Комплексное использование этих технологий и анализа данных позволяет принимать более разумные и эффективные решения в городской и сельской местности. Наблюдаемые темпы, особенно в мегаполисах, диктуют особые требования к повышению качества жизни горожан. Все это заставляет применять систему управления SMART, в основе которой лежат понятия «умный город» и «умная деревня», что актуально в наше время.

**Ключевые слова:** Умный город, умная деревня, умный менеджмент, зеленая энергия

## DIRECTIONS OF APPLICATION OF THE CONCEPT OF "SMART CITY" AND "SMART VILLAGE" IN THE LIBERATED TERRITORIES

**S.Y.Mammadov**
**Mingachevir State University**
**Mammadovsaqib92@gmail.com**

**Summary:** In modern times, information and communication technologies have become one of the main factors influencing the development of society. The integrated use of these technologies and data analysis allows for smarter and more efficient decisions in urban and rural environments. The pace observed, especially in megacities, dictates special requirements for improving the quality of life of urban residents. All this makes it necessary to apply the SMART management system, which is based on the concept of "smart city" and "smart village", which is a topical issue in modern times.

**Key words:** Smart city, smart village, SMART management, green energy

# TƏHSİLDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTİNDƏ İKT ROLU

**G.A.Nəcəfova**
**Mingəçevir Dövlət Universiteti**
**gunel.necefova.35@mail.ru**

Vaxt bir orbit üzrə gələcəyə doğru hərəkət edir. Uşaq kimi doğulub ahıl bir şəxs kimi həyatımızı tamamlayırıq. Zaman axınında bizi nələrin gözlədiyini təbii ki, bilmirik. Yüz illər boyunca insanlar öz həyatlarını standartlara uyğunlaşdırmağa çalışıblar. İnsanlar daim gələcəyə böyük maraq göstəriblər. Hadisələrin tez-tez dəyişməsi, problemlərin yaranması sürətli inkişaf əslində dünyanın nə qədər sirli bir məkan olmasından xəbər verir.

Həyatlarını davam etdirmək, maddi tələbatların ödənilməsi kimi öhdəliklər insanların üzərinə düşən çətin vəzifələrdir. İnsanlar həyatlarını yaxşılaşdırmaq üçün müxtəlif resurslardan, alətlərdən istifadə edirlər. Alətlərin hazırlanması isə yüksək bilik tələb edən prosesdir. Təkmilləşən alətlər həyatımıza texnologiya adı ilə daxil olmağa başladı. Təbii ki, buda tərəqqi ilə nəticələnir.

Keçmişə nəzər yetirdikdə görə bilirik ki, tarixi inkişaf zamanı üç mühüm qlobal sosial-texniki tərəqqi qeyd olunur.

1. Aqrar dəyişiklik
2. sənaye inqilabı
3. informasiya inqilabı

Sənaye inqilabı informasiya inqilabı üçün təkan rolunu oynadı. İnformasiya inqilabının digər adı "bilik cəmiyyəti"dir.Sənaye cəmiyyətindəki maddi sərmayənin yerini bilik cəmiyyətində bilik və insan sərmayəsi tutur. Sənayə cəmiyyətində qol gücünün yerinə bilik cəmiyyətində beyin gücü alternativdir.[3, s.254]Sonuncu inqilab müasir informasiya texnologiyalarının tətbiqi ilə sosial həyatın informasiyalaşdırılması prosesi kimi reallaşır və günümüz ən aktual prosesindən birinə çevrilmişdir. Elm və texnologiya arasında qırılmaz bağlılıq var. Yüksək texnologiya elmdən aslıdır. Elm isə biliyə əsaslanır. Bilik dünyanın məhsulu, təcrübəsidir. Bilik daim sıçrayışa doğru gedir. Elmlə bilik birləşib yeni istehsal forması yaradır. XX əsrin ikinci yarsında fərdi kompüterlər istehsal olunsada ictimai məkanda sıx istifadə olunmamışdır. Buna səbəb yeni kəşfin insanların həyatına sürətli daxil olmasına və mütəmadi istifadə imkanın aşağı olmasına qarşı ümüdsizlik idi. Bu sahədə araşdırmalar aparan elmi işçilər isə belə qənaətə gəlirlər ki, "İnformasiya Kommunikasiya Texnologiyası" sahəsindəki baş verən dəyişiklik hələ bu inqilabın başlanğıcıdır. Bunun üstünlükləri təkcə cəmiyyətin deyil həmdə bəşəriyyətin ən dəyərlisi olan insanın özünüdə dəyişəcək. Bu zaman təkcə maddi deyil mənəvi ehtiyacların ödənilməsində İKT inanılmaz bir seçim olacaq. Gələcəyimizin potensial qüvvəsi olan gənclər həm öyrənməyə daha çox meyilli həmdə kənar təsirlərə daha çox aludə olan qüvvələrdir. Çağdaş şəxsiyyətin yeniliyə açıq olması təqdirə layiq bir haldır. Yeniliklər heç şübhəsiz ki, səhvlərsiz ötüşmür. Son illərdə insanlar həyat tərzinə çevrilmiş internet məhz belə yeniliklərdəndir. İnternet insanların bütünlükdə cəmiyyətin həyatına möcüzə kimi daxil olan informasiya kommunikasiya texnologiyasıdır. İstədiyimiz anda dünyadakı yenilikləri izləyə, operativ şəkildə istədiyimiz informasiyaları əldə əldə edə bilərik. Ehtiyacımız olan bütün informasiyaları anında kompüterimiz, mobil smartfonlarımızda tapa bilir, hansı yerdə və şərtlər daxilində olur-olsun rahatlıqla istifadə edilməkdədir. Artıq günlərcə, aylarca poçtalyon yolu gözləməyə gərək yoxdur. E-poçt, sosial internetdən istifadə edərək anında xəbərləşmək İKT həyatımıza gətirdiyi əvəzedilməz asanlıqlardan biridir.Dəyişən texnologiyaların inanılmaz bir templə inkişaf etdiyi və üstün zəka sayəsində insan əli dəymədən idarə olunan robot sistemləri ilə qarşılaşdığımız zamanda uzaqdan təhsillə yanaşı online psixoloji söhbətlərdə populyar bir sahədir. Kompüter vasitəsi ilə online psixoloji testlər 1970-ci ildən etibarən ABŞ-da istifadə olunmağa başlanmışdır.Kütləvi informasiya vasitələri zəncirinə sosial media da daxil olmuşdur. Bu gün böyük bir kütlə məlumatları burdan alır, dünyada baş verən yenilikləri burdan izləyirlər. Əslində sosial media virtual alətdir, internetə əsaslanan tətbiq etmədir. Aparıcı dövlətlər bu gün "İnformasiya Dünyası" adı altında elmi müzakirələr, tədbirlər keçirirlər. Təşkil edilən tədbirlərin ana xəttini informasiya texnologiyaları təşkil edir. Yeni nəslin informasiya cəmiyyətinə uyğun formalaşması təhsil sisteminin qarşısına vəzifə kimi qoyulur. Təsadüfü deyildir ki, informasiya cəmiyyəti üzrə ümum dünya sammitlərində (Cenevrə, 2003-cü il və Tunis, 2005-ci il) qəbul edilmiş sənədlərdə ölkələr qarşısında bir sıra vəzifələr müəyyənləşdirilmişdir. Həmin vəzifələr sırasında təhsilə də xüsusi diqqət yetirilmişdir. [1, s.163] Bu konfrans sübut etdiki bu işdə təkcə yüksələn dövlətlər deyil eyni zamanda biznes və vətəndaş cəmiyyətinin nümayəndələri, yüksəlməyə doğru gedən dövlətlərdə maraqlıdı və onlar vahid fikir ətrafında birləşib eyni tərəfdən çıxış etmək istəyirlər. Tunis öhdəlikləri sənədində qeyd olunduğu kimi hər il "17 may Ümumi Dünya İnfor-

masiya Cəmiyyəti Günü" kimi qeyd olunmağa başladı. Bu öhdəliklərə üzv olmuş dövlətlər qarşıya çıxa biləcək problemlərin anında həlli üçün bütün güclərini səfərbər etməli idilər..

2013-cü il ölkəmizdə İKT ili elan olunmuşdur. Ölkənin birinci peyki "AzərSpace" orbitə buraxılmışdır. İKT ili çərçivəsində həmçinin 2013-cü ildə "ASAN Xidmət" mərkəzi fəaliyyətə başlamışdır. Hal-hazırda şəbəkənin 19 xidmət mərkəzi vardır. Mərkəz İKT yeniliklərini tətbiq etməklə əhalinin sosial tələblərinin ödənilməsi işini asanlaşdırır. Mərkəzdə 25-dən artıq xidmət sahəsi vardır ki, bunlar sayəsində vətəndaşın problemləri yerində tez bir zamanda həllini tapır.

Elektron hökumət portalı daxilində "ASAN Ödəniş, Viza, Finans" xidmətləri mövcudd "ASAN Ödəniş" www.asanpay.az ödəniş portalı və terminallar vasitəsi ilə daxil olunur. Əhali qısa zamanda cərimə, kredit, rüsum, icarə haqqını ödəyə bilir. "ASAN Viza" www.evisa.gov.az portalı vasitəsi ilə xidmət göstərir. Xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə tez bir zamanda viza verilməsini təmin edir. "ASAN Finans" məqsədi e-bank, e-maliyyə, sistemlərə elektron çıxışın yaradılmışdır.

Elektron hökumət portalında dövlət-vətəndaş (G2C), dövlət-biznes (G2B), dövlət-dövlət (G2G) xidmətləri həyata keçirilir. İKT nüfuz etdiyi sahələrdən biri təhsildir. Təhsilalanın vətəndaşlıq mövqeyi tutmaqda, biliklərin sistemləşdirilməsində, proqramlaşdırılmasında İKT rolu böyükdür. Bu gün bütün aparıc ölkələrin təhsil sistemində nəzərə çarpan bir yenilik vardır. Bu isə çox şaxəli qurluşa malik olan "Vahid İnformasiya Təhsil Məkanının" qurulmasıdır. Bu isə olduqca dəyişkən bir prosesdir. İlk olaraq bu uzun sürən prosesə universitetlərdən başlanılır. Uzun sürən işdə ilk addım toplanmış məlumatların resurs halına salınması, proqramların tərtibi, pedaqoji vasitələrin təmin olunmasıdır. Nəzərə alınması vacib məsələlərdən biri "Elektron resurs mərkəzinin yaradılmasıdır." Layihənin məqsədi Universitetin tədris prosesində istifadəsi üçün kağız daşıyıcıları üzərində olan mövcud tədris metodik materiallar mühazirə mətnlərinin həmçinin, internetdə olan tədris əhəmiyyətli resursların yeni elektron kitab və virtual nəşirlərin seçilib xüsusi serverdə yerləşdirilməsi, tələbələrin müstəqil işinin təşkilində onların imtahan və zaçotlara hazırlaşmasında bu resurslardan istifadə imkanları yaradılmasıdır. Bu layihənin icrası gələcəkdə universitetin tədris-elektron kitabxanasının yaradılmasına, Universitetdə vahid informasiya təhsil məkanın formalaşmasına təkan ola bilər. [ 2, s.63]

**Ədəbiyyat siyahısı:**

1. Mərdanov M. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı:Çaşıoğlu. 2009. 526 s.
2.Təhsildə qloballaşma və İKT mövzusunda beynəlxalq konfransın materialları., 17-19 may, Bakı, 2008.
3. Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri. Bakı: Mütərcim, 2015. 450 s.
4. Veysova Z. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.156 s.

## РОЛЬ ИКТ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБРАЗОВАНИЯ.

**Г. А. Наджафова**
**Мингячевирский Государственный Университет**
gunel.necefova.35@mail.ru

**Резюме:** В эпоху стремительной интеграции инноваций и глобализации использование информационного изобилия, информационных коммуникаций и современных педагогических технологий играет особую роль в повышении качества и эффективности образования. Поскольку современное образование - это непрерывное образование, используются новые средства обучения, учитывающие индивидуальные возможности обучающегося. ИКТ занимают особое место в этом процессе, так как главное условие - чтобы образование шло в ногу со временем. Эти средства коммуникации помогают учащимся достичь лучших результатов в обучении, устраняют временные ограничения и облегчают получения информации.

**Ключевые слова:** учебные материалы, образование, средства ИКТ, современные проблемы.

## The role of ICT in improving the quality of education

**G.A.Nəcəfova**
**Mingachevir State University**
gunel.necefova.35@mail.ru

**Summary:** In the era of rapid integration of innovations and globalization, the use of information abundance, information communications and modern pedagogical technologies play a special role in improving the quality and efficiency of education. As modern education is a continuous education, new learning tools are used, taking into account the individual capabilities of the learner. ICT has a special place in this process, as the main condition is that education keeps pace with the times. These means of communication help students to achieve better learning outcomes, eliminate time constraints, and facilitate the delivery of information.

Key words: teaching materials, education, ICT tools, modern problems

# İES-lərin ƏTRAF MÜHİTƏ TƏSİRİ

**S.Mamedov**
**Azərbaycan Texnologiya Universiteti**
**seftersim@gmail.com**

İstilik elektrik stansiyasının tüstü borularından atmosferə aşağıdakı maddələr buraxılır: tam yanma məhsulları ($CO_2$, $H_2O$, $SO_2$, $SO_3$), natamam yanma məhsulları ($CO$, $CH_4$, $C_2H_4$, $C_{20}H_{12}$), azot oksidləri ($N_2O$, $NO$ , $N_2O_3$, $NO_2$, $N_2O_4$, $N_2O_5$), kül hissəcikləri, natrium duzları, vanadium birləşmələri, his və s.

Həm istilik elektrik stansiyalarının, həm də digər sənaye müəssisələrinin fəaliyyəti nəticəsində atmosferə əhəmiyyətli miqdarda $CO_2$ atılır. Karbondioksidin əsas ekoloji problemi atmosferdə "istixana effekti" yaratmasıdır. Son araşdırmalara görə, atmosferdəki karbon qazının miqdarı hər il 15 milyard ton artır. Bu artımın 22%-ə yaxını istilik elektrik stansiyalarının payına düşür. Ölkəmizdəki istilik elektrik stansiyalarından hər il 9 milyon tona yaxın $CO_2$ atılır.

Atmosferə buraxılan yanma məhsullarının təşkilatçılarından biri kükürd birləşmələridir. Kükürd birləşmələri $SO_2$ və $SO_3$-dir ki, onlar da tərkibində kükürd və kükürd birləşmələri olan yanacaqların yanması zamanı əmələ gəlir. Yanma məhsullarında kükürd birləşmələrinin 95-99% -i $SO_2$, 1-5% -i $SO_3$-dir. Qazanın konvektiv qaz yolunda $SO_2$-nin bir hissəsi $SO_3$-ə çevrilir. $SO_2$ qazan və ətraf mühit üçün o qədər də təhlükəli deyil. Bununla belə, $SO_3$ təhlükəli hesab olunur.

İstilik elektrik stansiyalarından atmosferə buraxılan digər maddə polisiklik aromatik karbohidrogenlərin ən aktivi hesab edilən benz-a-pirendir ($C_{20}H_{12}$). $C_{20}H_{12}$ hava yanma prosesinə çatmadıqda əmələ gəlir. Tamamlanmamış yanma zamanı $C_{20}H_{12}$-nin maksimum 700-800 ° C-ə çatdığı sübut edilmişdir. Son illərdə benzol-pirenin xassələri və onu azaltmağın yolları kanserogen natamam yanma məhsullarının təsirləri öyrənilərək öyrənilmişdir.

Atmosferə buraxılan yanma məhsullarının tərkibində azot oksidləri ($NO_x$) olur və onların miqdarını azaltmaq üçün əvvəlcə qazan ocağında temperatur aşağı salınmalıdır.

Kül yalnız bərk yanacaq yandırıldıqda əmələ gəlir. Maye yanacaqlarda kül miqdarı çox azdır və qazlı yanacaqlarda praktiki olaraq yoxdur. Yanacaqla işləyən müasir istilik elektrik stansiyalarında yanma məhsullarından kül hissəciklərini ayırmaq üçün yüksək səmərəli kül kollektorlarından istifadə olunur və atmosferə çox az miqdarda kül hissəcikləri buraxılır.

*İES-lərin su hövzələrinə təsiri.* İES atmosferi, eləcə də su hövzəsini çirkləndirir. Su hövzələrinin çirklənməsini təmin edir, böyük miqdarda tullantı sularının əmələ gəlməsi və bu su hövzələrinin axıdılması zamanı istilik elektrik stansiyalarında texnoloji proses zamanı əmələ gəlir. İstilik elektrik stansiyalarında çirkab suları ilk növbədə su, kondensat, yem və s. İstilik dəyişdiricilərinin su yuyulması zamanı əldə edilən və duzlar, qələvilər, turşular, metallar və digər maddələrlə çöküntülənmiş çirkab sular tullantı sularında tutulur. Bu çirkab sular su obyektlərinə axıdılır və suyun keyfiyyəti pisləşir. Ümumi qiymətlərin bərpası ilə əlaqədar olaraq ümumi qiymətlərin bərpası ilə əlaqədar davamlılıq təmin edilir.

Eyni su anbarında bir neçə ekosistem var və hər birinin özünəməxsus sistem prosesləri var. Bu proses proses zamanı çirkab su səviyyəsinə qədər dəyişdirilə bilər. Beləliklə, istilik elektrik stansiyalarından atılan çirkab suların atılması ekosistemin mövcud tarazlığını poza bilər və bütün flora və faunanın tamamilə məhv olmasına səbəb ola bilər. Lakin bu, ekosistemlərdə optimal tarazlığın qorunmasına əks təsir göstərir. Təhsil hövzəsində özünütəmizləmə prosesləri gedir. Ancaq bu özünü təmizləmə prosesi yalnız çirkab suların az miqdarda zərərli təsirlərə məruz qalması və çirkab suların təmizlənməsi ilə mümkündür. Əks halda su hövzələri ciddi bir ekoloji problemi həll edə bilər.

*İES-lərin torpağa təsiri.* İstilik elektrik stansiyaları atmosferə, su hövzəsinə, eləcə də torpağa aid edilə bilər. Stansiyadakı tullantı sularının miqdarı torpağa sorulur, turşu yağışları zamanı torpaq çirklənir və torpağın üst qatı kül hissəcikləri ilə çirklənir. Torpaqların şoranlaşması çirkab suların və turşu yağışlarının təhlili ilə də baş verə bilər. İstilik elektrik stansiyalarından torpağın çirklənməsi səbəbindən yol boyu torpağın məhsuldarlığını azaldır. Bu da öz növbəsində torpaqda yetişdirilən məhsulların keyfiyyətini aşağı salır. Bundan sonra bitkilərin məhsuldarlığı azalır.

*İES-lərin canlılar aləminə təsiri.* İstilik elektrik stansiyalarının canlı aləmə təsiri əsasən $SO_2$ və $NO_x$ qazlarının insanlara, heyvanlara və bitkilərə təsiridir.

$SO_2$ -nin insanlara təsiri: İnsanlar $SO_2$ -yə məruz qaldıqda xüsusi xəstəliklər meydana gəlir. Bu tip xəstəliklərə ilk növbədə ateroskleroz və əlaqədar ürək xəstəlikləri, xroniki bronxit, amfizem, bronxial astma və s. Aiddir. Bu xəstəliklərin artması iri sənaye şəhərlərində əhalinin çoxluğu və havanın çirklənmə səviyyəsi ilə bağlıdır. Atmosferdəki $SO_2$ və ya hissəciklərin orta illik miqdarı 0,08-0,10 mq / m3 olarsa, insanların görmə qabiliyyəti pisləşir və bəzi narahatlıqlarla birlikdə tənəffüslərində də pisləşmə

olur. Havada SO2 və ya hissəciklərin orta gündəlik miqdarı 0,08-0,10 mq / m3 olduqda, qaracıyər xəstəliyi olan insanların sağlamlığı pisləşir, tibbi xidmətdən istifadə imkanları artır və bəzən ölüm halları baş verir.

SO2-nin bitki aləminə təsiri: SO2-nin təsiri yarpaqların səthini zədələyir və yarpaqlar xlorofilin parçalanmasına məruz qalır. Xüsusilə iynəyarpaqlılar həmişəyaşıl olduğundan daha çox təsirlənirlər. Havada SO2-nin miqdarı 0,23-0,32 mq/m3 olduqda iynəyarpaqlı bitkilərin həm fotosintez, həm də tənəffüs prosesinin pozulması nəticəsində quruması prosesi baş verir və ağac 2-3 il ərzində tamamilə məhv olur. SO2-nin miqdarı 0,08-0,23 mq/m3 arasında olduqda fotosintezin sürəti azaldıqca qurutma prosesinin sürəti də azalır.

NOx -un insanlara təsiri: NOx -un insanlara təsirinin ilk əlamətləri dərinin qıcıqlanması və gözlərin yırtılmasıdır. Nitrik oksidlər mayelərdə çox zəif həll olunur, insan ağciyərlərinin dərisinə daxil olur və alveolların və bronxların epitelini məhv edir. Havada NOx konsentrasiyasının normadan yüksək olduğu yaşayış yerlərində insanların tənəffüsü pisləşir, tənəffüs xəstəlikləri artır və qanda methemoglobində dəyişikliklər müşahidə olunur.

NOx-in floraya təsiri: Havada NOx konsentrasiyası 4-6 mq / m3 olduqda bitkilər ciddi şəkildə zədələnir. Havada azot oksidlərinin konsentrasiyası uzun müddət 2 mq/m3 olduqda bitkilər NOx-in təsirindən xloroza məruz qalırlar. Havada azot oksidlərinin konsentrasiyası 2 mq / m3-dən azdırsa, o zaman aşkar mənfi təsir yoxdur və yalnız bitkilərin böyümə sürəti azalır.

*Yandırılan yanacaqın növündən asılı olaraq İES-lərin ətraf mühitə təsiri.* İstilik elektrik stansiyalarının ətraf mühitə təsiri nəticəsində yandırılan yanacaq növündən əldə edilir.

*Qatı yanacaq.* Qatı yanacaq yandırarkən atmosferdə yanmayan yanacaq hissəcikləri olan uçucu kül, sulfid və kükürd dioksid, azot oksidləri və bir müddət flor birləşməsi əvvəlcə tamamilə yanmaz olan qaz halına gəlir. Uçucu kül bəzi hallarda zəhərli ola bilməz, həm də təhlükəli ola bilər.

*Maye yanacaq.* Yanacaq (mazut) yandırarkən baca qazlarına sulfid və kükürd dioksid, azot oksidləri, vanadiy birləşmələri, natrium plazı və qazın təmizlənməsi zamanı buraxılan sənədlər daxildir. Bununla belə, maye yanacaqlar geniş istifadə sahələrini tutur və həmişə atmosferdəki kül təbəqələri (svayları) ilə problem yaratmır. Maye yanacaqların tərkibində uçucu kül yoxdur.

*Təbii qaz.* Həqiqi qazın yanması zamanı atmosferdə əsas çirkləndiricilər azot oksidləridir. Bununla belə, istilik elektrik stansiyalarında təbii qazın yanması nəticəsində yaranan azot oksidi emissiyaları kömürün yanmasından orta hesabla 20% azdır. Beləliklə, təbii qazdan istifadə edərək ətraf mühasibat uçotundan istifadə etmək mümkündür.

**Ədəbiyyat siyahısı:**


